# Milli Məclis

ANALİTİK İNFORMASİYA JURNALI

MART-MAY, 2026 | WWW.MECLIS.GOV.AZ




# HEYDƏR ƏLİYEV

## Bir xalqın taleyini dəyişən şəxsiyyət

# WORLD URBAN FORUM

THIRTEENTH SESSION

BAKU, AZERBAIJAN | 17-22 MAY 2026

**Milli Məclis**
*Analitik informasiya jurnalı*

**Təsisçi:**
Azərbaycan Respublikasının Milli Məclisi

**Redaksiya Şurasının sədri:**
Sahibə Qafarova

**Redaksiya Şurasının üzvləri:**
Əli Əhmədov, Ziyafət Əsgərov, Musa Qasımlı, Rafael Hüseynov, Fərid Hacıyev, Əli Hüseynli, Arzu Nağıyev, Zahid Oruc, Sadiq Qurbanov, Azər Əmiraslanov, Tahir Rzayev, Musa Quliyev, Əhliman Əmiraslanov, Hicran Hüseynova, Şahin İsmayılov, Fazil Mustafa, Siyavuş Novruzov, Anar İsgəndərov, Polad Bülbüloğlu, Səməd Seyidov, Eldar İbrahimov, Eldar Quliyev

**Baş redaktor:**
Ülviyyə Abdullayeva

**Redaktorlar:**
Aidə Əhmədova
Qərənfil Mansurova

**Dizayn:**
Vəfadar Əliyev

**Redaksiyanın ünvanı:**
Azərbaycan 1152, Bakı,
Parlament prospekti 1.
Tel: (+994 12) 510 90 01
(+994 12) 510 67 01
(+994 12) 510 88 72

Milli Məclisin rəsmi web səhifəsi:
**www.meclis.gov.az**

"Milli Məclis" jurnalının web səhifəsi:
**www.jurnal.meclis.gov.az**

Jurnal 2007-ci ilin may ayından nəşr olunur

# BU SAYDA

**BURAXILIŞ:** MART-MAY, 2026

*Müasir müstəqil Azərbaycanın qurucusu* ..... 2
*WUF13 Bakı: tarixi Ümumdünya Şəhərsalma Forumu* ..... 10
*Türküstan Zirvəsi: türk dünyasının gələcək yol xəritəsinin yeni mərhələsi* ..... 14
*Milli Məclisdə Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı dinlənildi* ..... 18
*Antalya platforması türk dünyasının qlobal rolunu gücləndirir* ..... 24
*Serbiyada Qadın Parlamentarilərin Qlobal Konfransı keçirildi* ..... 30
*MDB PA-nın 60-cı plenar iclasında Azərbaycan Bakı Forumunun təcrübəsi paylaşıldı* ..... 34
*İkinci Asiya Qadınlar Forumu: Regional dialoq və əməkdaşlıq platforması* ..... 38
*Milli Məclisə Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu verildi* ..... 42
*Azərbaycan-Çin münasibətləri yüksələn xətlə inkişaf edir* ..... 44
*Milli Məclis sədrinin görüşləri* ..... 48
*Milli Məclisin sədri Mərkəzi Asiya dövlətlərinin qadın liderləri dialoqunun onlayn konfransında iştirak etdi* ..... 56
*İqtisadi inteqrasiya müasir dövrün çağırışıdır* ..... 58
*İncəsənət məktəblərinin aktual məsələləri diqqət mərkəzindədir* ..... 60
*Azərbaycan idmanının müasir çağırışları müzakirə olundu* ..... 61
*Süni intellektin kənd təsərrüfatında tətbiqi bu günün reallığıdır* ..... 62
*Milli Məclisdə gender bərabərliyinə həsr olunmuş ictimai dinləmə keçirildi* ..... 64
*Regional məsələlər komitəsində Ulu Öndərin irsinə həsr olunan konfrans keçirildi* ..... 66
*Cənubi Qafqazın geosiyasi memarları: Bakı və Tbilisi arasında yeni strateji mərhələ* ..... 68
*Azərbaycan mədəniyyətinin yeni konsepsiyası müasir mədəniyyət modelinə keçiddir* ..... 70
*Parlament diplomatiyası güc qazanır: PAİ Assambleyasında Azərbaycanın rolu* ..... 78
*Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi beynəlxalq platformaya çevrilib* ..... 82
*TÜRKPA-nın müasir geosiyasi çəkisi* ..... 90
*Türk dünyasının strateji oxuna çevrilən söz - "Bizim bir ailəmiz var: Türk dünyası"* ..... 92
*Yubileylər* ..... 94
*Türk inteqrasiyasının işıqlı təməli - Birinci Türkoloji Qurultay* ..... 100
*Vətəninin vurğunu: Səməd Vurğun* ..... 104
*Bakı Forumu - qlobal dialoq və humanitar əməkdaşlığın etibarlı platforması* ..... 108
*Azərbaycanın ictimai-siyasi mühiti qadın liderliyinin uğurlu nümunələri ilə zəngindir* ..... 110
*Azərbaycan Avropa İttifaqı ilə bərabərhüquqlu tərəfdaşdır* ..... 114
*Mixail Zabelin: "Azərbaycanda doğulduğum üçün xoşbəxtəm..."* ..... 118
*Aprel döyüşləri - 44 günlük şanlı Zəfərimizin başlanğıcı* ..... 124
*"Parlament" komandası beynəlxalq futbol turnirində gümüş medal qazandı* ..... 126
*MDB Parlamentlərarası Assambleyasının şahmat turnirində Milli Məclis nümayəndələrinin uğurlu çıxışı* ..... 128
*Azərbaycan və Çin liderlərinin münasibətlərinə əsaslanan qarşılıqlı siyasi etimad* ..... 130
*WUF13 çərçivəsində "Dağ yaşayış məntəqələrinin dayanıqlı inkişafı" mövzusunda tərəfdaşlıq sessiyası keçirildi* ..... 134
*Xəlil Kələntər: "Xalqımla və dövlətimlə qürur duyuram"* ..... 138

# Müasir müstəqil Azərbaycanın qurucusu

## Prezident İlham Əliyev:
## "Bu gün inkişaf edən, güclənən Azərbaycan Heydər Əliyevin xatirəsinə olan hörmətimizin ən gözəl nümunəsidir"

**Sahibə Qafarova**
Azərbaycan Respublikası
Milli Məclisinin sədri

Mayın 10-da müasir və müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümüdür. Bütün mənalı ömrünü Azərbaycan dövlətinin və xalqının inkişafına həsr edən Ulu Öndərin misilsiz xidmətləri həmişə xalqımız tərəfindən minnətdarlıq hissi ilə yad olunur. Onun Azərbaycan dövlətçiliyinə qazandırdığı tarixi nailiyyətlər milli yaddaşımıza silinməz izlərlə həkk edilib.

Böyük tarixi şəxsiyyətlərin ideyaları zaman sərhədlərinə sığmır. Bu zəngin xəzinə həm öz dövrü üçün aktual olur, həm də gələcəyə işıq tutur. Ulu Öndər Heydər Əliyevin də xalqımıza miras qoyduğu ideoloji irs və ölməz ideyalar milli dövlətçilik tariximizdə öz şərəfli yerini almaqla yanaşı, bu gün möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə qüdrətli bir dövlətə çevrilən müstəqil Azərbaycan Respublikasının ideya və siyasi əsaslarını təşkil edir.

Ulu Öndər Heydər Əliyevin böyüklüyü həm də ondadır ki, hansı siyasi quruluşda və ictimai formasiyada yaşamasından və çalışmasından asılı olmayaraq, üzərinə götürdüyü vəzifələri hər zaman ləyaqətlə və böyük uğurla yerinə yetirmişdir. Onun bütün fəaliyyətinin nüvəsini xalqımızın parlaq gələcəyinin, Azərbaycanın milli müstəqilliyinin əbədiliyinin təmin olunması təşkil etmiş, bütün güc və bacarığını ölkəmizin inkişafına və milli dövlətçilik ideyalarının gerçəkləşdirilməsinə yönəltmişdir. Ulu Öndər özü bu barədə danışarkən deyirdi: **"İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız Sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam".**

Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 34 il Azərbaycan dövlətinin və xalqının tarixində böyük nailiyyətlərin, inkişaf və tərəqqinin əldə edilməsi, xalqımızın milli kimliyinin dirçəldilməsi, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması ilə müşayiət olunmuşdur. Hələ 1969-1982-ci illərdə Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrdə respublika həyatının bütün sahələrində genişmiqyaslı inkişaf baş vermiş və 1969-cu ilin iyul plenumuna qədər keçmiş sovet respublikaları arasında geridə qalmış, aqrar respublika hesab olunan Azərbaycan 1970-ci illərin sonunda artıq Heydər Əliyevin yüksək təşkilatçılıq qabiliyyəti və təşəbbüskarlığı, yorulmaz fəaliyyəti sayəsində güclü elmi-texniki potensiala malik, dinamik inkişaf edən sənaye dövlətinə çevrilmiş, onun sosial-iqtisadi və mədəni tərəqqisi təmin edilmişdir.

Çox qısa müddətdə respublikada sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyata mənfi təsir göstərən meyillər aradan qaldırılmış, ənənəvi təsərrüfat sahələrinin səmərəli fəaliyyətinin bərpası ilə yanaşı, yeni istehsal sahələri yaradılmışdır. Heydər Əliyevin qə-





tiyyəti ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, sənayenin ayrı-ayrı bölmələri üzrə görülən tədbirlər nəticəsində böyük inkişaf dinamikası əldə edilmişdir. Ölkədə neft-kimya, maşınqayırma, energetika, metallurgiya sahələri inkişaf etməyə başlamışdır.

Azərbaycan cəmiyyətinin milli özünüdərkə dönüşü, xalqımızın tarixi yaddaşının özünə qaytarılması, milli ruhun oyanması mərhələsinin əsası da ötən əsrin 70-ci illərində Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Azərbaycan xalqının gerçək tarixinin öyrənilməsi, milli ədəbiyyat nümunələrinin, adət-ənənələrinin təbliğ edilməsi, Azərbaycan dilinin qorunması və geniş yayılması, kadrların milliləşdirilməsi, şəhər və rayonlarda sağlam ictimai mühitin yaradılması kimi cəsarətli addımların atılması Ulu Öndərin qətiyyətinin göstəricisi olmuşdur.
Bu gün müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji əsasını təşkil edən azərbaycançılıq ideyasının bünövrəsinin qoyulması, onun mükəmməl bir konsepsiya şəklində irəli sürülməsi və icra olunması da bu dahi şəxsiyyətin adı ilə bağlıdır.

Beləliklə, Ulu Öndər Heydər Əliyev çox qısa bir zaman ərzində respublikada bütün sahələr üzrə inqilabi dəyişikliklər etmiş, eyni zamanda, əsrin sonlarında bərpa olunmuş dövlət müstəqilliyinin də ciddi və möhkəm əsaslarını yaratmışdır. Azərbaycan öz dövlət müstəqilliyini rəsmən 1991-ci ilin oktyabrında bərpa etsə də, əslində, bu müstəqilliyə gedən yolun təməli məhz Ümummilli Lider tərəfindən hələ 1970-ci illərdə qoyulmuşdu. O illərdə Azərbaycan dotasiya ilə yaşayan müttəfiq respublikadan özünü tam təmin edə bilən qabaqcıl respublikaya çevrilmiş, ölkənin iqtisadi suverenliyinə zəmin hazırlamışdı.

Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi qarşısında misilsiz xidmətləri haqqında danışarkən bu böyük liderin yalnız ölkəmizdə hakimiyyət sükanı arxasında əyləşərkən gördüyü nəhəng işləri qeyd etməklə kifayətlənmək qətiyyən olmaz. Çünki vurğuladığımız kimi, harada və hansı vəzifədə çalışmasından asılı olmayaraq, Heydər Əliyevin qəlbi həmişə doğma vətəni və xalqı ilə döyünmüşdür. O, 1982-ci ilin noyabrında SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildikdən sonra bu vəzifədə keçmiş ittifaq miqyasında 60-dan çox nazirlik, komitə və müxtəlif mərkəzi idarələrin fəaliyyətinə rəhbərlik edib, onları nəzarətdə saxlasa da, gərgin iş qrafikinə baxmayaraq, həmişə respublikamızın sosial-iqtisadi inkişafı məsələlərini diqqət mərkəzində tutmuş, bu istiqamətdə tədbirlərin həyata keçirilməsinə böyük dəstək göstərmişdi.

Ümummilli Lider Heydər Əli-



yev 1987-ci ilin oktyabrında Sov. İKP MK-nın Siyasi Bürosunun və şəxsən baş katib M.S.Qorbaçovun yeritdiyi yanlış xəttə, onun anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verib, heç bir rəsmi vəzifə daşımasa da, yenə də respublikamızda baş verən hadisələri daim diqqətlə izləmiş, bütün məhrumiyyətlərə və təzyiqlərə baxmayaraq, böyük lider kimi hər zaman canından çox sevdiyi xalqının yanında olmuşdur. 1990-cı ilin 20 Yanvar faciəsinə - xalqımıza qarşı törədilən cinayətə də ilk etiraz səsini ucaldan məhz görkəmli şəxsiyyət, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev idi. O, hadisənin ertəsi günü - yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək bu vəhşiliyi qətiyyətlə pisləmiş, onun törədilməsi səbəblərini, təşkilatçılarının, günahkarlarının adını açıq şəkildə bəyan etmiş, öz xalqı ilə həmrəyliyini göstərmişdi.

Heydər Əliyev bu qanlı cinayətə etiraz olaraq, daha bir cəsarətli addım ataraq özünə və ailə üzvlərinə qarşı təzyiqlərə baxmayaraq, kommunist partiyasının sıralarını tərk etdi. O dövrün mürəkkəb şərtlərini və konyunkturasını bilən hər kəs üçün bu addımın nə qədər böyük cəsarət, qorxmazlıq tələb etdiyini anlamaq elə də çətin deyil. Bu addım **"Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib"** - deyən Heydər Əliyevin xalqımıza sonsuz sevgisinin, yüksək vətənpərvərlik hisslərinin əyani təzahürü idi.

Ulu Öndər 1990-cı il iyulun 20-də Azərbaycana dönsə də, respublikanın o vaxtkı rəhbərliyi bu böyük liderin Bakıda yaşamasına imkan vermədi. İyulun 22-də Heydər  Əliyev doğulduğu Naxçıvan Muxtar Respublikasına getdi və dahi insanın fəaliyyətinin o dövrü də kifayət qədər parlaq uğurlarla yadda qaldı. Həmin vaxtda Heydər Əliyevin rəhbərliyi ilə Muxtar Respublikada dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü, siyasi böhran aradan qaldırıldı, iqtisadi islahatlar həyata keçirildi. Hərbi quruculuq məsələlərinə xüsusi diqqət yetirildi, keçmiş sovet ordusunun bu ərazidəki bütün silahları və texnikası alınıb milli ordu hissələrinə verildi. Məhz Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edildi, eyni qərarın Azərbaycan Ali Soveti tərəfindən də qəbul olunması üçün vəsatət qaldırıldı. O, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi təsis olunması haqqında qərar qəbul etdi.

Dövlətimizin başçısı o vaxt Naxçıvanda qəbul olunmuş tarixi qərarları dəyərləndirərkən bu ifadələri işlətmişdi: **"Azərbaycanın**



**müstəqilliyinin təməli məhz o vaxt qoyulmuşdur. Azərbaycanın milli üçrəngli bayrağı ilk dəfə olaraq rəsmi dövlət bayrağı kimi Naxçıvanda qaldırılmışdır. O vaxt hələ Sovet İttifaqı mövcud idi. Məhz o vaxt Sovet İttifaqının saxlanması üçün keçirilən referendumda Naxçıvan iştirak etmirdi. Biz bütün bu tarixi anları yaxşı xatırlayırıq və bir daha bu məsələyə diqqət verməklə Heydər Əliyevin nə qədər böyük şəxsiyyət olduğunu bir daha görürük".**

Həmin dövrlərdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Muxtar Respublikanın həyatında müsbət dəyişikliklər baş verdiyi halda paytaxt Bakıda və respublikamızın digər bölgələrində tamamilə fərqli hadisələr yaşanmaqda idi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası müstəqilliyini bərpa etsə də, bu müstəqilliyi qoruyub saxlamaq üçün heç bir əməli addımlar atılmamış, əksinə, ölkədəki vəziyyət gündən-günə daha da gərginləşmiş, iqtisadiyyat böhrana uğramış, vətəndaşların güzəranı kəskin pisləşmiş, siyasi sistem iflic olmuşdu. Hakimiyyətə yaxın qanunsuz silahlı dəstələr arasında mübarizə daha da kəskinləşmiş, Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalmışdı. Müstəqil Azərbaycan Respublikası öz müstəqilliyinin bərpasının ikinci ilində faktiki olaraq əsrin əvvəllərində Xalq Cümhuriyyətinin yaşadığı taleyi yaşamaq, xalqımızın ən böyük sərvəti olan müstəqilliyi itirmək təhlükəsi ilə qarşılaşmışdı.

Əlbəttə, belə bir çətin şəraitdə xalq öz nicatını güvəndiyi, etibar etdiyi liderə bağladı və ölkəmizi düşdüyü bu ağır vəziyyətdən yalnız böyük şəxsiyyət Heydər Əliyevin xilas edəcəyinə inamını bildirərək onu təkidlə Bakıya dəvət etdi. Xalqımızın məhz Heydər Əliyevə üz tutmasının çox ciddi əsasları var idi. Çünki Ulu Öndər ən mürəkkəb zamanlarda və taleyüklü məqamlarda misilsiz liderlik keyfiyyətləri nümayiş etdirərək öz dövlətini və xalqını zamanın sınaqlarından uğurla çıxarmış, Azərbaycanın tərəqqisini, müstəqilliyinin dönməzliyini təmin etmiş, xalqın sonsuz etimadını öz əməli fəaliyyəti ilə qazanmışdı.

Möhtərəm Prezident İlham Əliyev Ümummilli Lider haqqında danışarkən demişdir: **"Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur".**

Heydər Əliyevin yenidən siyasi olimpin zirvəsinə qayıtması Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin növbəti dönüş anı kimi dəyərləndirilə bilər. Bu qayıdış həm dövlətçiliyimizin, həm də xalqımızın taleyini dəyişmişdir. Ümummilli Lider 1993-cü il iyunun 15-də Azərbaycan Ali Soveti-



nin sədri, həmin il oktyabrın 3-də isə ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Bundan sonra isə Azərbaycan dövləti üçün sabitlik, inkişaf və tərəqqi dövrü kimi xarakterizə etdiyimiz mərhələ start götürmüşdür.

Ulu Öndərin idarəçilik istedadı və dövlətə rəhbərlik bacarığı bu mərhələdə özünün parlaq əksini tapmışdır. Onun qətiyyəti, yüksək liderlik keyfiyyətləri, milli məqsəd və amallar naminə insanları öz ətrafında birləşdirməyə nail olması, xalqın ona sarsılmaz dəstəyi sayəsində ölkəmizdə dağıdıcı proseslərə son qoyulmuş, sabitlik bərqərar olmuş, yeni mərhələdə modern dövlət quruculuğu prosesinə başlanmışdı. O, güclü iqtisadiyyata malik olan dövlətin hər şeyə qadir olduğunu bəyan edərək ölkəmizin sosial-iqtisadi, elmi-texniki potensialını hərəkətə gətirmiş, həyata keçirilən islahatlarla bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan müasir iqtisadi sistemə keçidin əsasını qoymuşdur. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması ilə yeni neft strategiyasına başlanmış, ölkəmizə xarici sərmayələrin cəlb olunmasına, iqtisadiyyatın müxtəlif sahələrinə böyük sərmayə qoyuluşuna imkan yaranmış, tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başlamışlar. Bir qədər sonra isə Xəzərin digər karbohidrogen yataqlarının işlənilməsi ilə əlaqədar 30-dan çox saziş imzalanmış, Bakı-Novorossiysk boru kəməri bərpa olunmuş, Bakı-Supsa boru kəməri inşa edilmiş, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyulmuşdur. Ölkənin iqtisadi imkanları artdıqca əhalinin sosial müdafiəsinin gücləndirilməsi və həyat şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər geniş vüsət almış, humanitar sahədə, o cümlədən təhsil, səhiyyə, idman və digər istiqamətlərdə infrastruktur layihələrinin icrasına başlanmışdır.

1995-ci ilin noyabrında Heydər Əliyevin rəhbərliyi ilə demokratik dəyərləri özündə əks etdirən müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi milli dövlət quruculuğu istiqa-

mətində növbəti tarixi nailiyyət idi. Ana qanunumuzun qəbulundan sonra ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsi, demokratik inkişafın sürətləndirilməsi istiqamətində köklü islahatlar aparılmış, söz və mətbuat azadlığı təmin olunmuş, senzura aradan götürülmüş, 1995-ci və 2000-ci illərdə çoxpartiyalılıq əsasında parlament seçkilərinin keçirilməsi, Konstitusiya Məhkəməsinin təşkili, ölüm cəzasının ləğvi, yerli özünüidarəetmə orqanlarının yaradılması kimi çox mühüm tədbirlər uğurla reallaşdırılmışdır.

> *"Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik".*
>
> **Heydər Əliyev**

Daxildə müşahidə olunan sabitlik və tərəqqi meyilləri praqmatik və uğurlu xarici siyasət strategiyasının həyata keçirilməsini şərtləndirmiş, Ümummilli Liderin gərgin və yorulmaz fəaliyyəti, düşünülmüş və cəsarətli qərarları, siyasi uzaqgörənliyi, qlobal düşüncə tərzi Azərbaycanın regionda lider dövlətə çevrilməsinə və qabaqcıl dünya dövlətləri arasında mövqeyinin möhkəmləndirilməsinə gətirib çıxarmış, ölkəmizin beynəlxalq təşkilatlarda uğurlu fəaliyyəti təmin olunmuşdur.

Beləliklə, cəmi 10 il ərzində Heydər Əliyevin liderliyi ilə ölkəmizin qarşısında duran bir çox məsələlər uğurlu həllini tapmış və gələcəyin güclü, qüdrətli Azərbaycanının sarsılmaz bünövrəsi qoyulmuşdur.

Xalqların dövlətçilik tarixinə nəzər yetirərkən bir danılmaz həqiqətlə də rastlaşırıq ki, bu da onların əldə etdiyi parlaq nailiyyətlərdə liderlik amilinin həlledici roludur. Böyük liderlər, sadəcə, öz xalqlarının və dövlətlərinin cari vəzifələrini yüksək səviyyədə həll etməklə kifayətlənməmiş, eyni zamanda, gələcəyinin də möhkəm əsaslarını yaratmışdır. Onların əsasını qoyduğu işlər illər, onilliklər sonra da öz xalqlarına xidmət etmişdir. Azərbaycan xalqını ağır böhrandan, müstəqilliyini yenidən itirmək təhlükəsindən xilas edib onun inkişaf yoluna qədəm qoymasını və müstəqilliyinin dönməzliyini təmin edən Ulu Öndər Heydər Əliyev olmuşdur. Ümummilli Liderin əsasını qoyduğu siyasi kursu dövrün reallıqlarına uyğun daha da inkişaf etdirərək, yeni mərhələdə xalqımıza və müstəqil dövlətimizə tarixinin ən böyük nailiyyətlərini qazandıran isə möhtərəm Prezident İlham Əliyevdir.

Əlbəttə, Prezident İlham Əliyev kimi böyük bir şəxsiyyəti, yeni minilliyin başlanğıcında dünyada və regionda baş verən gərgin və narahat hadisələr fonunda Azərbaycan dövlətini və xalqını zamanın təlatümlərindən uğurla çıxararaq inkişafını təmin edəcək fenomenal bir lideri yetişdirmək Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında növbəti nəhəng xidməti olmuşdur. Bu günümüzün parlaq gerçəklikləri, ölkəmizin əldə etdiyi misilsiz nailiyyətlər də bir daha siyasi varisliyin, Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsinin xalqımızın tarixində nə qədər böyük əhəmiyyətli, taleyüklü bir seçim olduğunu sübut edir.

1993-cü ildə **"Azərbaycan sizin sözünüzü gözləyir", "Bizi bu bəladan qurtar!"** çağırışları ilə Ulu Öndər Heydər Əliyevə üz tutan, dahi liderin xilaskarlıq missiyasına inanan milyonlarla vətəndaşımız 10 il sonra özünün gələcək taleyini yenə də Heydər Əliyev siyasətinin ən layiqli davamçısı İlham Əliyevə etibar etmişdir.

2003-cü ildə ali kürsüdə fəaliyyətə başlayarkən, **"Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir"**, - deyərək ölkəmizin gələcək inkişaf yolunu aydın ifadə edən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Heydər Əliyevin yaratdığı möhkəm təməllər üzərində, Ulu Öndərin müəyyənləşdirdiyi yolla uğurla inkişaf edir.

Bu gün Ümummilli Lider Heydər Əliyevin şah əsəri olan müstəqil və demokratik Azərbaycan nəhəng uğurlar qazanır, Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşayır. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz qarşısında duran bütün vəzifələri həll edir, Heydər Əliyevin arzuları çin olur. Torpaqlarını 30 illik işğaldan azad edərək özünün ərazi bütövlüyünü və suverenliyini təmin etmiş Azərbaycan regionda sülh və təhlükəsizliyin təminatçısıdır. Dövlətimiz Ulu Öndərin əsasını qoyduğu strateji yolla uğurla addımlayır, görmək istədiyi zirvələri fəth edir.

Ölkəmizin müasir reallıqları Prezident İlham Əliyevin böyük liderlik xüsusiyyətlərinin, yüksək idarəçilik qabiliyyətinin, iti zəkasının və zəngin səriştəsinin, eyni zamanda, Heydər Əliyev siyasətinə sadiqliyinin, bu siyasi kursu dövrün tələblərinə uyğunlaşdıraraq ustalıqla davam etdirməsinin məntiqi nəticəsidir. Möhtərəm Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün inkişaf edən, güclənən Azərbaycan Heydər Əliyevin xatirəsinə olan hörmətimizin ən gözəl nümunəsidir.


RESPUBLİKASI




# WUF13 Bakı:

## tarixi Ümumdünya Şəhərsalma Forumu

Mayın 17-22-də Bakı şəhəri BMT-nin İnsan Məskunlaşması Proqramı ilə birgə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF 13) ev sahibliyi etdi. Tədbirdə əsas mövzu "Dünyanı mənzillə təmin etmək: Təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar" idi. Bu forum Yeni Urban Gündəliyinin icrasının yarısında keçirilən ən böyük beynəlxalq tədbirlərdən biri kimi qeydə alındı və 180-dən çox ölkədən rekord sayda iştirakçının - təxminən 60 min nəfərə yaxın nümayəndənin qatılması ilə tarixə düşdü. WUF COP29-dan sonra Azərbaycanda keçirilən ən böyük ikinci beynəlxalq mərasimə çevrildi.

Forum qlobal mənzil böhranına diqqət çəkdi: dünyada təxminən 3 milyard insan mənzil problemləri ilə üzləşir, onlardan 1,1 milyarddan çoxu qeyri-formal yaşayış məntəqələrində (slumlar) qalır, 300 milyonu isə evsizdir. İqlim dəyişikliyi, sürətli urbanizasiya, iqtisadi bərabərsizlik, münaqişələr və torpaq spekulyasiyası bu problemləri daha da kəskinləşdirir.

WUF 13 bu məsələlərə praktiki həll yolları axtarmaq, siyasi dialoq aparmaq, investisiyaları stimullaşdırmaq və çoxtərəfli əməkdaşlığı gücləndirmək üçün platforma yaratdı. Toplantının davam etdiyi müddət ərzində 579 sessiya, 6 dialoq, nazirlərin görüşü, xüsusi sessiyalar və tərəfdaş tədbirləri keçirildi.

Forumun açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının ev sahibliyini Azərbaycanın beynəlxalq nüfuzunun artmasının və qlobal tərəfdaşlıqların nümayişi kimi qiymətləndirdi. O qeyd etdi ki, tədbir ölkəmizin beynəlxalq aləmdəki rolunu bir daha təsdiqləyir. Prezident Bakını "Şərq ilə Qərbin qovşağı" adlandıraraq şəhərin tarixi irsi ilə müasir inkişafının harmoniyasını vurğuladı: "Qədim şəhər divarlarını keçərək müasir Bulvara çıxanda tarixi irs ilə modernizasiyanın harmoniyasını görürsünüz".

Prezident İlham Əliyev Azərbaycanın şəhərsalma siyasətində tarixi abidələrin qorunmasını, yaşıl zonaların genişləndirilməsini və "smart city" texnologiyalarının tətbiqini prioritetlər kimi təqdim etdi.

Forumda xüsusi diqqət Qarabağ və Şərqi Zəngəzurun bərpasına yönəldildi. Prezident bu ərazilərdə "urbisid, kultursid və ekosid"dən sonra aparılan yenidənqurma işlərini Böyük Qayıdış proqramı çərçi-






vəsində postmünaqişə bərpasının qlobal modeli kimi təqdim etdi. Bildirildi ki, "ağıllı şəhər" konsepsiyası, yaşıl enerji layihələri (günəş və külək stansiyaları), dayanıqlı infrastruktur və inklüziv planlaşdırma burada uğurla tətbiq olunur. Bu təcrübə forumda postkonflikt şəhərsalma mövzusunda ən çox müzakirə edilən nümunələrdən biri idi.

Prezident həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu, regional sülh və əməkdaşlıq təşəbbüslərini vurğulayaraq forumun nəticələrinin COP29-un uğurunu davam etdirəcəyini bildirdi. O, 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunmasını da xatırladaraq ölkə daxilində urban inkişaf siyasətinin gücləndirildiyini qeyd etdi.

BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax forumu qlobal mənzil böhranına cavab axtarışında əsas platforma adlandırdı. O, evləri təkcə tikinti obyekti deyil, inteqrasiya olunmuş sistem kimi - torpaq, infrastruktur, nəqliyyat, xidmətlər və iqtisadi imkanlar ilə bağlı görməyi tövsiyə etdi. Rossbax vurğuladı ki, mənzil siyasəti iqlim dəyişikliyi, gender bərabərliyi və sosial ədalətlə sıx bağlı olmalıdır.

- *Forumda altı əsas Dialoq keçirildi:*





*"Forumdan irəli gələn və yekun sənədlərdə öz əksini tapan ideyalar - təmiz hava və dayanıqlı şəhər inkişafından tutmuş mədəni irsin qorunması və inkişaf etməkdə olan kiçik ada dövlətlərin ehtiyaclarınadək - qlobal şəhərsalma gündəliyini daha da zənginləşdirəcək və istiqamətləndirəcək. Qlobal qeyri-müəyyənliyin artdığı bir dövrdə WUF13 Azərbaycanın daha yaxşı gələcək naminə multikulturalizmə və kollektiv fəaliyyətə verdiyi daha bir mühüm töhfədir".*

**İlham Əliyev**

- *Qlobal mənzil böhranı və onun planı;*
- *Mənzilin insanın hüququ kimi tanınması;*
- *İqlim-mənzil əlaqəsi;*
- *İdarəçilik və maliyyə mexanizmləri;*
- *Postkonflikt və fəlakətlərdən sonra bərpa;*
- *İnklüziv və davamlı şəhərlər.*

Bu sessiyalarda UNDP, UNEP, Dünya Bankı və digər təşkilatların nümayəndələri iştirak etdi. BMT-nin İnkişaf Proqramının direktor müavini Fransin Pikup qeyd etdi ki, mənzil problemi, sadəcə, fiziki tikinti məsələsi deyil, həm də sosial, iqtisadi və ekoloji amilləri birləşdirən mürəkkəb urban sistemidir.

Digər ekspertlər qadınların torpaq hüquqlarını, yerli icmaların iştirakını, rəqəmsal transformasiyanı və yaşıl infrastrukturu müzakirə etdilər. Azərbaycanın Qarabağdakı yenidənqurma təcrübəsi xüsusi panel və sessiyalarda nümunə kimi təqdim olundu. Bu, münaqişədən sonrakı dövrdə dayanıqlı şəhərsalmanın real nümunəsi sayıla bilər.

Tədbirdə bələdiyyə rəhbərləri, akademiklər, gənclər və vətəndaş cəmiyyəti nümayəndələri də fəal iştirak etdilər. İlk dəfə keçirilən Liderlər Seqmenti siyasi səviyyədə müzakirələri gücləndirdi.

Forumun əsas nəticəsi "Bakı - fəaliyyətə çağırış" sənədinin qəbulu oldu. Sənəd 176 ölkənin səslərini əks etdirir və 15 əsas öhdəlikdən



ibarətdir. Sənəd bəyanatlardan konkret fəaliyyətə keçidi vurğulayır və Yeni Urban Gündəliyin icrasına töhfə verəcək.

Nazirlər görüşünün yekun xülasəsində də urban dayanıqlılıq, əlverişli mənzil siyasəti və inklüziv inkişaf prioritetləri qeyd olundu. Növbəti  forumun 2028-ci ildə Meksikada (WUF 14) keçirilməsi qərara alındı.

WUF 13 Bakı üçün böyük diplomatiya və imic uğuru idi. Azərbaycan qlobal problemlərə yerli həllər təklif edərək beynəlxalq arenada liderlik nümayiş etdirdi. Prezident İlham Əliyevin vurğuladığı kimi, tarixi irs ilə innovasiyanın harmoniyası və postkonflikt bərpa təcrübəsi ölkənin yumşaq gücünü artırır. Forum göstərdi ki, mənzil böhranı heç bir ölkədən yan keçmir və kollektiv fəaliyyət tələb edir.

Bakı Çağırışı xüsusilə inkişaf etməkdə olan ölkələr üçün praktiki addımlara təkan verəcək. Azərbaycan bu tədbirlə davamlı inkişafın qlobal arxitekturasında fəal iştirakçı olmasını təsdiqlədi. Gələcəkdə belə platformalar daha çox əməkdaşlıq, innovativ texnologiyalar və inklüziv siyasətlər yaradacaq. Bakının 2040-cı ilədək Baş Planı, "ağıllı şəhər", "ağıllı kənd" layihələri və yaşıl enerjiyə keçidi bu prosesə ölkəmizin töhfəsini daha da gücləndirəcək.

WUF 13 yalnız müzakirə məkanı deyil, həm də fəaliyyətə çağırış idi. Bakı bu çağırışı uğurla reallaşdıraraq qlobal urban gələcəyinin formalaşmasında mühüm rol oynadı.



















# Türküstan Zirvəsi:
# türk dünyasının gələcək yol xəritəsinin yeni mərhələsi

Türk dövlətləri arasında ortaq tarixi, etnik, mədəni və mənəvi bağlılıq əsasında formalaşan əməkdaşlıq artıq türk dünyasını vahid ailə kimi birləşdirən platformaya çevrilib. Mayın 15-də Qazaxıstanın Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü türk dünyasının siyasi, iqtisadi, mədəni və strateji birliyinin daha da güclənməsi baxımından mühüm tarixi hadisə kimi qiymətləndirilməlidir.

Azərbaycan Prezidenti İlham Əliyevin bu toplantıda iştirakını və TDT-nin strateji çərçivəsini müəyyən edən çıxışını həm siyasi dialoqun dərinləşməsi, həm bu dost ölkə ilə münasibətlərimizin daha da inkişafı üçün potensial imkanların möhkəmləndirilməsi baxımından mühüm  bir addım kimi dəyərləndirə bilərik. Dövlət başçımızın çıxışı dərin siyasi məzmunu, strateji baxışı və gələcəyə yönələn mühüm mesajları ilə seçilirdi. O, türk dünyasını "ailəmiz" adlandırmaqla ortaq kökə, tarixə, milli mədəniyyətə və vahid gələcək düşüncəsinə əsaslanan böyük bir siyasi fəlsəfəni ifadə etdi. Bu yanaşma TDT-nin gələcək inkişaf xəttini daha aydın göstərir. Azərbaycan bu prosesdə həm təşəbbüskar, həm birləşdirici, həm də etibarlı tərəfdaş kimi çıxış edir.

Müasir beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzlərinin formalaşdığı şəraitdə türk dövlətlərinin koordinasiyalı fəaliyyəti xüsusi aktuallıq qazanır. Türk dövlətləri arasında ortaq dil, etnik və mənəvi bağlılıq artıq siyasi və iqtisadi əməkdaşlıq üçün möhkəm institusional bazaya çevrilir. Bu əməkdaşlıq modeli tədricən türk dünyasını vahid ailə konsepsiyası ətrafında birləşdirən strateji platfor-




ma formalaşdırır. Yaxın tarixə qısa nəzər salaq, TDT-nin əsası 2009-cu il oktyabrın 3-də Naxçıvanda keçirilmiş zirvə görüşündə qoyulub. Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan liderlərinin imzaladığı "Naxçıvan Sazişi" türk dövlətlərinin inteqrasiya tarixində dönüş nöqtəsi hesab olunur.

Hazırda təşkilat funksional əməkdaşlıq mərhələsindən strateji koordinasiya mərhələsinə keçməkdədir. Qlobal geosiyasi dəyişikliklər fonunda Orta Dəhlizin əhəmiyyəti sürətlə artır. Avropa ilə Asiyanı birləşdirən bu marşrut həm ticarət, həm enerji, həm də rəqəmsal bağlantılar baxımından strateji əhəmiyyət daşıyır. Bu kontekstdə Zəngəzur dəhlizi Orta Dəhlizin əsas seqmentlərindən biri kimi xüsusi diqqət çəkir. Dəhlizin reallaşması türk dövlətləri arasında birbaşa nəqliyyat əlaqələrini genişləndirməklə yanaşı, regionun logistika xəritəsini də dəyişəcək. TDT çərçivəsində gömrük prosedurlarının sadələşdirilməsi istiqamətində həyata keçirilən "e-Permit" sistemi də yükdaşımaların sürətlənməsinə xidmət edir. Elektron icazə mexanizmi tranzit daşımaların daha çevik və şəffaf aparılmasına imkan yaradır ki, bu da Orta Dəhlizin rəqabət qabiliyyətini artırır.

Zirvə görüşünün "Süni intellekt və rəqəmsal inkişaf" mövzusuna həsr olunması türk dünyasının ortaq mədəniyyət, eləcə də birgə texnologiya, rəqəmsal təhlükəsizlik və innovasiya əsaslı gələcək üzərində birləşmək niyyətinin göstəricisidir. Prezident İlham Əliyevin zirvə görüşündə səsləndirdiyi fikirlər Azərbaycanın türk dünyasında artan nüfuzunu, təşkilat daxilində aparıcı rolunu və ümumtürk həmrəyliyinə verdiyi davamlı töhfələri bir daha nümayiş etdirdi. Dövlət başçımızın xatırlatdığı kimi, bu mötəbər görüşün qədim və zəngin tarixi-mədəni irsə malik Türküstan şəhərində keçirilməsinin xüsusi rəmzi mənası var idi. Belə ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa işğaldan azad edildikdən sonra qardaşlaşdığı ilk şəhər məhz Türküstan olmuşdu və bu qədim şəhər türk dövlətləri birliyinin simvolu kimi mühüm əhəmiyyətə malikdir.

Prezident çıxışında Bakıda keçiriləcək Türk dünyası həftəsi, Birinci Türkoloji Qurultayın 100 illiyi, şəhərsalma üzrə yüksək səviyyəli dialoq kimi məqamlara da toxundu. Bu fikirlər Azərbaycanın türk dünyasının inteqrasiyasına həm diplomatik, həm mədəni, həm də intellektual müstəvidə mühüm töhfələr verdiyini təsdiqləyir.

Məhz Azərbaycanın təşəbbüsü ilə TDT-nin qeyri-rəsmi Zirvə görüşünün ilk dəfə Şuşada keçirilməsi və Qarabağ Bəyannaməsinin qəbul olunması da bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Qarabağ Bəyannaməsi türk dövlətlərinin regional təhlükəsizlik, iqtisadi inteqrasiya və qarşılıqlı dəstək məsələlərində vahid yanaşma nümayiş etdirməsinin mühüm siyasi sənədi hesab olunur.



Şübhəsiz ki, qurum çərçivəsində əməkdaşlığın əsas sütunlarından biri məhz Azərbaycan-Qazaxıstan münasibətləridir. Son beş ildə Prezident İlham Əliyevin dost ölkəyə səkkiz, Prezident Kasım-Jomart Tokayevin isə Azərbaycana altı dəfə səfər etməsi ikitərəfli münasibətlərin yüksək dinamikasını və siyasi etimad səviyyəsini nümayiş etdirir. Dost və qardaş ölkələrimiz arasında dörd il əvvəl imzalanmış strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə və 2025-ci ildə 20 illiyi qeyd olunan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə ilə əməkdaşlığın hərtərəfli inkişafının etibarlı təməli qoyulub. Dövlət başçılarının müntəzəm xarakter alan görüşləri, səfərləri, eləcə də hökumət nümayəndə heyətlərinin qarşılıqlı təmasları da bu əlaqələrin inkişafında yeni imkanlar açıb.

Sevindiricidir ki, yeni iqtisadi və nəqliyyat marşrutlarının formalaşması, enerji təhlükəsizliyi məsələlərinin aktuallaşması fonunda regional təşkilat kimi mövqeyini möhkəmləndirən TDT-nin beynəlxalq münasibətlər sistemində rolu və çəkisi gündən-günə artır. Təşkilatın qeyri-rəsmi zirvə görüşləri formatının ilk dəfə Azərbaycanın təşəbbüsü ilə Şuşada keçirilməsi isə qurum daxilində yeni siyasi arxitekturanın və fəal dialoq mühitinin formalaşması baxımından mühüm mərhələ kimi qiymətləndirilə bilər. 2024-cü ildən artıq ənənə halını almış qeyri-rəsmi zirvə görüşləri ölkələrimiz arasında siyasi həmrəyliyi möhkəmləndirməklə bərabər strateji koordinasiyanın daha sıx və vahid çətir altında aparılmasına güclü təkan verir.

Azərbaycan Prezidenti İlham Əliyev  çıxışında bəyan etdi ki, bu gün TDT-nin beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir. Keçən ilin oktyabrında Qəbələ Zirvə Görüşündə sədrliyi qəbul edən Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsi istiqamətində sıx iş aparır, ortaq siyasi baxış çərçivəsi formalaşdıraraq iqtisadi-sosial və ticari-investisiya  əlaqələrini genişləndirir, nəqliyyat-kommunikasiya layihələrini şaxələndirir.

Cari ilin iyun ayında türk xalqlarının elmi-mədəni birliyinə böyük töhfə vermiş Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilən Türk dünyası həftəsinin Bakıda keçirilməsi xalqlarımızın mədəni həyatında əlamətdar hadisəyə çevriləcək. TDT dövlət başçılarının mayın 15-də Türk Sivilizasiyası Mərkəzinin onlayn təməlqoyma mərasimini gerçəkləşdirməsi də, qədim türk sivilizasiyasının dünya tarixində özünəməxsus yeri, dərin fəlsəfəsi və dövlətçilik ənənələrinin nümayişi üçün yeni institut kimi faydalı olacağı da danılmazdır.

Dövlət başçımız İlham Əliyevin illərlə həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycan Şərqlə Qərbi birləşdirən əsas tranzit və logistik mərkəzə çevrilib. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Zəngəzur dəhlizi təşəbbüsü türk dünyasının inteqrasiyasını təmin edən mühüm strateji layihələrdir. Sözügedən marşrutların rəqəmsal texnologiyalar və süni intellekt həlləri ilə daha səmərəli idarə olunması yeni mərhələnin başlanğıcı olacaq.

Zirvə görüşünün mövzusu tərəflərin birgə siyasi iradəsi sayəsində rəqəmsal transforma-

siya, "yaşıl enerji" və humanitar əməkdaşlığın yeni gündəliyinin formalaşması baxımından strateji hədəflərin anonsu sayıla bilər, çünki dövrümüzün çağırışlarını və prioritetlərini tamlığı ilə əks etdirirdi. Dünya rəqəmsal inkişaf və süni intellektin yaratdığı imkanlar sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyur. Türk dövlətləri bu prosesdə ön sıralarda yer almalı, qlobal rəqəmsal rəqabətdə öz güclü potensialına söykənərək ümummilli inkişaf yanaşmalarını ortaya qoymalıdırlar. Bu sahədə türk dövlətləri arasında uğurla davam edən əməkdaşlıq həm də nəhəng "rəqəmsal Orta Dəhliz"in - Avropa ilə Asiya arasında "Rəqəmsal İpək Yolu" layihəsinin başa çatmasında mühüm rol oynayacaq. Bu layihənin tərkib hissəsi olan Azərbaycan ilə Qazaxıstan arasında Transxəzər Fiber-Optik Kabel xəttinin yaxın aylarda istifadəyə verilməsi də bu rəqəmsal bağlantını təsis edəcək.

Əminik ki, Bakıda keçirilən WUF13 çərçivəsində TDT-nin şəhərsalma üzrə yüksək səviyyəli dialoqu şəhər inkişafı, dayanıqlı urbanizasiya və müasir idarəetmə modelləri sahəsində əməkdaşlığı gücləndirəcək, türk xalqlarının ortaq elmi, mədəni və ideoloji irsinin yenidən qiymətləndirilməsi baxımından mühüm hadisəyə çevriləcək.

Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığın müasir transkommunikasiya modeli olan Orta Dəhlizin əhəmiyyəti artmaqla cari qlobal geosiyasi şəraitdə bölgənin nəqliyyat xəritəsi də dəyişməkdədir. Bu xəritə reallaşmaqda olan Zəngəzur dəhlizi fonunda Avrasiyada yeni kommunikasiya arteriyasının işləkliyini təmin edəcək.

Beləliklə, Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü vahid ailə olan türk dünyasının XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməsi yolunda hədəflərə





çatmaqda növbəti addım olacaq.

Bu gün Azərbaycanın türk dünyasında söz sahibi olan, strateji təşəbbüslər irəli sürən, əməkdaşlıq körpülərini möhkəmləndirən dövlət kimi mühüm mövqe qazanması beynəlxalq aləmdə qəbul olunan reallıqdır. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu türk birliyi ideyası bu gün Prezident İlham Əliyevin uzaqgörən siyasəti ilə yeni məzmun, yeni dinamika və daha geniş beynəlxalq miqyas alıb. Türküstan Zirvəsində səslənən fikirlər bu tarixi xəttin davamlılığını, dövlətçilik irsinin siyasi müdrikliklə gələcəyə daşındığını göstərir. Zirvə görüşü türk dünyasının siyasi, iqtisadi və geostrateji baxımdan yeni mərhələyə keçidinin mühüm göstəricilərindən biri kimi qiymətləndirilir.

Bu gün Türk Dövlətləri Təşkilatı beynəlxalq münasibətlər sistemində öz mövqeyini gücləndirən nüfuzlu platformaya çevrilir. Azərbaycanın bu prosesdə fəal rolu xalqımız üçün böyük qürur mənbəyidir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan türk dünyası birliyində təhlükəsizliyinə, iqtisadi gücünə və mənəvi bütövlüyünə töhfə verən əsas dövlətlərdən biri kimi çıxış edir. Türküstan Zirvəsi bir daha göstərdi ki, türk dünyasının gələcəyi ortaq iradə, güclü liderlik və tarixi yaddaşa söykənən həmrəylik üzərində qurulur.



# Milli Məclisdə Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı dinlənildi

Martın 13-də spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirilən Milli Məclisin növbəti plenar iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı dinlənildi. Baş nazir Əli Əsədovun və digər hökumət üzvlərinin iştirak etdiyi iclasda parlament sədri Sahibə Qafarova diqqətə çatdırdı ki, tariximizə "Konstitusiya və Suverenlik İli" kimi daxil olan 2025-ci il Azərbaycan dövlətinin siyasi və hüquqi yetkinliyinin rəmzinə çevrilib, respublikamızın ardıcıl və dinamik inkişafında yeni mərhələ təşkil edib. Prezident İlham Əliyevin uzaqgörən siyasəti həm ölkə daxilində, həm də beynəlxalq arenada çoxsaylı böyük uğurların əldə olunmasına şərait yaradıb.

Spiker bildirdi ki, keçən il biz 44 günlük Vətən müharibəsində tarixi Zəfərin 5-ci ildönümünü qürurla qeyd etdik. Azərbaycan Prezidentinin  təşəbbüsü ilə başlanmış sülh prosesinin institusional əsaslarını möhkəmləndirən, Cənubi Qafqazda yaranmış yeni reallıqları təsbit edən Vaşinqton razılaşmaları dövlətimizin növbəti diplomatik uğuru oldu.  Həyata keçirilən müstəqil və düşünülmüş xarici siyasət Azərbaycanı beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevirdi. Bizim dövlətimiz regional və qlobal məsələlərin həllində fəal iştirak etdi, enerji təhlükəsizliyinin təmin olunmasına, nəqliyyat dəhlizlərinin inkişafına və beynəlxalq əməkdaşlığın genişlənməsinə dəyərli töhfələr verdi.

Sahibə Qafarova vurğuladı ki, Azərbaycanın 8 böyük müsəlman ölkəsini birləşdirən D-8 beynəlxalq təşkilatına qəbul edilməsi, Orta Asiya ölkələrinin Məşvərət Şurasının tamhüquqlu üzvü olması böyük tarixi nailiyyətlərdir. İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilən zirvə görü-

şü dövlətimizin siyasi və iqtisadi gücünü bir daha nümayiş etdirdi. Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilən zirvə görüşü isə türk dünyasının inteqrasiyası yolunda mühüm addım oldu.

Bildirildi ki, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ötən il Azərbaycanın sosial-iqtisadi inkişafı sahəsində də böyük uğurlar əldə edilib. Həyata keçirilən düşünülmüş tədbirlər nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik təmin olunub, irimiqyaslı infrastruktur layihələri həyata keçirilib. Sənaye və energetika sektorlarında modernləşdirmə davam etdirilib, iqtisadiyyatın qeyri-neft-qaz sahələri daha da genişləndirilib. Rəqəmsal transformasiya, turizm və innovasiyalar, nəqliyyat, kənd təsərrüfatı sahələrində önəmli tədbirlər görülüb.

Sahibə Qafarova qeyd etdi ki, son illərdə Azərbaycan regional inkişaf sahəsində ciddi uğurlar qazanıb. Azad edilmiş ərazilərin bərpası və inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Bu gün Qarabağda və Şərqi Zəngəzurda "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası reallaşdırılır, yeni iqtisadi və sosial mərkəzlər yaradılır. Böyük Qayıdış dövlət proqramı mərhələli şəkildə həyata keçirilir.

Vurğulandı ki, 2025-ci ildə sosial siyasətə xüsusi diqqət yetirilib. Əhalinin rifahının yüksəldilməsi ilə bağlı proqramlar icra olunub, sosial müdafiə tədbirləri genişləndirilib, səhiyyə və təhsil sahələrində təkmilləşdirmə işləri aparılıb.

Spiker çıxışında bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin müəyyən etdiyi iqtisadi kursun həyata keçirilməsində Nazirlər Kabineti mühüm rol oynayır və ötən il dövlət büdcəsinin icrasında da müsbət nəticələr əldə edilib. Hökumətin səmərəli fəaliyyəti ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı vəzifələrin uğurla yerinə yetirilməsini təmin edir. Nazirlər Kabinetinin illik hesabatlarının Milli Məclisdə dinlənilməsi parlamentlə təmasların artmasına şərait yaradır, iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində deputatların iştirakını təmin edir.

Sahibə Qafarova qeyd etdi ki, ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təklif və tövsiyələr hökumət tərəfindən diqqətlə araşdırılıb və onların icra vəziyyətinə dair ətraflı məlumat parlamentə təqdim edilib. Eyni zamanda, artıq 6 ildir ki, hesabata ayrıca olaraq sosial və infrastruktur obyektlərinin əsaslı təmiri və tikintisi, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması barədə Milli Məclis deputatlarının təkliflərinin icrasına dair məlumat da daxil edilir.

Milli Məclisin sədri çıxışının sonunda deputatların bu gün aparılacaq müzakirədə fəal iştirak edəcəyinə və səmərəli təkliflər irəli sürəcəyinə əminliyini bildirdi.

Sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatını təqdim etdi. O, çıxışında 2025-ci ili Azərbaycan üçün siyasi sabitliyin daha da gücləndiyi və iqtisadi inkişafın ardıcıl şəkildə həyata keçirildiyi mərhələ kimi xarakterizə etdi. Qeyd olundu ki, Azərbaycan



hesabat ilində beynəlxalq və regional platformalarda fəal iştirakını davam etdirib. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə keçirilmiş zirvə görüşü regionda sülh və əməkdaşlıq üçün yeni imkanlar yaradıb. Bu gün bölgədə cərəyan edən mürəkkəb geosiyasi proseslər, artan gərginlik və risklər fonunda cənab Prezidentin ardıcıl və praqmatik xarici siyasət kursu, uzaqgörən strateji baxışı və milli maraqlara əsaslanan prinsipial mövqeyi nəticəsində Azərbaycan Respublikasının suverenliyi və sərhədlərinin toxunulmazlığı etibarlı şəkildə təmin olunmaqdadır.

Baş nazir Əli Əsədov bildirdi ki, 2025-ci il ölkənin iqtisadi inkişafı baxımından uğurlu olub. Hesabat ilində ümumi daxili məhsulun real həcmi əvvəlki illə müqayisədə 1,4 faiz artaraq 129,1 milyard manata, qeyri-neft sektoru isə real ifadədə 2,7 faiz artaraq 92,3 milyard manata çatıb. İqtisadiyyatda yaradılan ümumi əlavə dəyərin 72 faizi məhz bu sektorun payına düşür.

Bildirildi ki, qeyri-neft-qaz sənayesində 5,5 faiz artım qeydə alındığı halda, neft-qaz sektorunda 1,6 faiz azalma müşahidə olunub. Neft hasilatının azalması fonunda ümumi iqtisadi artımın qorunması məhz qeyri-neft sektorunun genişlənməsi hesabına mümkün olub.

Baş nazir vurğuladı ki, xarici ticarətdə 6,4 milyard dollarlıq müsbət saldo qeydə alınıb, qeyri-neft ixracı isə 8 faizdən çox artaraq 3,6 milyard dolları ötüb. Bu göstəricilər ölkənin ixrac potensialının genişləndiyini və beynəlxalq rəqabət qabiliyyətinin yüksəldiyini göstərir.

Hesabat dövründə strateji valyuta ehtiyatlarının da artdığı diqqətə çatdırıldı. Bildirildi ki, bu ehtiyatlar təqribən 14,1 milyard dollar və ya 20 faiz artaraq 85 milyard dolları keçib. Cari ildə inflyasiya hədəf diapazonunda olub.

Əli Əsədov qeyd etdi ki, 2025-ci ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi və sosial rifah halının yaxşılaşdırılması istiqamətində sosial siyasət tədbirləri davam etdirilib. Əhalinin real gəlirlərinin artırılması məqsədilə sosial ödənişlərin yüksəldilməsi ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunub. 2025-ci ildə əhalinin nominal gəlirləri və orta aylıq əməkhaqqının artım tempi illik inflyasiya səviyyəsini üstələyib. O, ötən il əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsi xərclərinin 39,5 faizinin və ya 15,3 milyard manatının sosialyönümlü xərclərin maliyyələşdirilməsinə yönəldiyini bildirdi. Qeyd olundu ki, bu, 2024-cü illə müqayisədə 601,5 milyon manat çoxdur.

Vurğulandı ki, son yeddi il ərzində 4 milyon vətəndaşı əhatə edən 5 sosial paket həyata keçirilib və bu məqsədlər üçün 8 milyard manat məbləğində vəsait xərclənib. Təkcə keçən il 1,4 milyard manat büdcə vəsaiti bu məqsədlər üçün sərf olunub. Maaşlar, pensiyalar,



müavinətlər müntəzəm olaraq artırılır, pensiyalar indeksləşdirilir.

Baş nazir çıxışında təhsil, səhiyyə və sosial müdafiə sahələrinə ayrılan vəsaitlərdən də danışdı. O söylədi ki, 2025-ci ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə 8,1 milyard manat vəsait ayrılıb. Bu isə əvvəlki ilin məbləğindən 23 faiz çoxdur. Qeyd edildi ki, ötən il 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal etmişik. Bu gün Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir.

Əli Əsədov vurğuladı ki, mövcud geosiyasi şərait nəzərə alınaraq əldə olunmuş nəticələrin qorunması, ölkənin təhlükəsizliyinin möhkəmləndirilməsi, müdafiə qabiliyyətinin artırılması və dövlət sərhədlərinin toxunulmazlığının təmin olunması istiqamətində tədbirlərin bundan sonra da ardıcıl şəkildə davam etdirilməsi vacibdir.

Baş nazir diqqətə çatdırdı ki, işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri uğurla davam edir. Hesabat ilinin sonuna bu ərazilərdə yaşayan əhalinin sayı təqribən 75 min nəfərə çatıb. Dövlət büdcəsindən işğaldan azad edilmiş ərazilərin bərpa-quruculuq işlərinə 2025-ci il də daxil olmaqla indiyədək ümumilikdə 22 milyard manata yaxın, o cümlədən 2025-ci ildə 4,4 milyard manat vəsait ayrılıb.

Əli Əsədov bildirdi ki, hesabat ilində ölkədə sənaye parkları və sənaye məhəllələrinin fəaliyyəti genişləndirilib, yeni müəssisələr istehsal fəaliyyətinə başlayıb, sənaye zonalarında istehsal və ixrac imkanları artıb. 2025-ci ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 504 milyon manat vəsait ayrılıb. Eyni zamanda, torpaq və su ehtiyatlarının mühafizəsinin gücləndirildiyi, su problemlərinin həlli istiqamətində müvafiq tədbirlərin həyata keçirildiyi qeyd olundu.

Baş nazir hesabat ilində nəqliyyat, logistika və informasiya-rabitə sahələrində də müşahidə edilən dinamikanı diqqətə çatdırdı. O, iqtisadiyyatın yeni artım mənbələrinin formalaşması, informasiya və rabitə xidmətləri sektorunun genişlənməsinin bu sahədə texnoloji komponenti gücləndirməsi barədə fikirlərini bölüşdü.

Əli Əsədov bildirdi ki, ötən il Rəqəmsal İnkişaf Konsepsiyası və Süni İntellekt Strategiyası təsdiq olunub, həmçinin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üzrə dövlət proqramı qəbul edilib. Proqram çərçivəsində dayanıqlı nəqliyyat sistemi, xidmət keyfiyyətinin artırılması və rəqəmsal texnologiyaların tətbiqi prioritet kimi müəyyən olunub. Eyni zamanda, ölkədə avtomobil və dəmir yollarının tikintisi, yenidən qurulması və bərpası davam etdirilib. Hesabat ilində energetika sahəsində infrastrukturun modernizasiyası, enerji təhlükəsizliyinin təmin edilməsi, ölkənin enerji sisteminə yeni generasiya güclərinin daxil edilməsi, habelə yaşıl enerjinin tətbiqi



istiqamətində tədbirlər də həyata keçirilib.

Bildirildi ki, qaz təchizatı coğrafiyasının genişləndirilməsi və yeni ixrac marşrutlarının inkişafı istiqamətində ardıcıl və məqsədyönlü siyasət nəticəsində 2025-ci il ərzində ixrac boru kəmərləri vasitəsilə ümumilikdə 25,2 milyard kubmetr qaz ixrac edilib. Yeni istiqamətlər üzrə əməkdaşlıq inkişaf etdirilib və hazırda Azərbaycan qazını alan ölkələrin sayı 16-ya çatıb.

Çıxışının sonunda Baş nazir hökumət adından parlamenti əmin etdi ki, cənab Prezident tərəfindən hökumət qarşısında qoyulmuş bütün hədəflər və tapşırıqlar bundan sonra da tam məsuliyyətlə, vaxtında və yüksək keyfiyyətlə yerinə yetiriləcəkdir.

Sonra plenar iclasda Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı ətrafında müzakirələr keçirildi. Müzakirələrdə Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov, parlamentin komitə sədri Fazil Mustafa, deputatlar Vüqar Bayramov, Asif Əsgərov, Sahib Alıyev, Vasif Qafarov, Kamal Cəfərov, Azər Badamov, Jalə Əliyeva, Aydın Mirzəzadə, Bəhruz Məhərrəmov, Tural Gəncəliyev, İlham Məmmədov, Zaur Şükürov və Rövşən Muradov çıxış etdilər. Bildirildi ki, Nazirlər Kabinetinin 2025-ci il üzrə hesabatı dövlət başçısının müəyyənləşdirdiyi strategiyanı özündə ehtiva etməklə, hökumətin qarşısına qoyulan vəzifə və tapşırıqların uğurla yerinə yetirildiyini göstərir.

Vurğulandı ki, Prezidentin rəhbərliyi ilə həyatın bütün sahələrində aparılan uğurlu siyasət 2025-ci ildə də ölkəmizin hərtərəfli tərəqqisinə və güclənməsinə, sosial-iqtisadi sahədə davamlı inkişafın təmin olunmasına, makroiqtisadi sabitliyin qorunub saxlanılmasına, dövlətimizin regional mövqeyinin möhkəmlənməsinə və beynəlxalq aləmdə artan rolunun daha da yüksəlməsinə xidmət edib.

Qeyd olundu ki, hesabatda öz əksini tapan yüksək göstəricilər və şaxələndirilmiş inkişaf dinamikası ölkə rəhbərinin müəyyən etdiyi yol xəritəsinin hökumət tərəfindən yüksək səviyyədə icra olunmasının bariz nümunəsidir. 2025-ci il ölkəmizdə qeyri-neft sektorunun inkişafı, maliyyə sabitliyinin təmin edilməsi, əhalinin rifah halının yüksəldilməsi məqsədilə sosial layihələrin reallaşdırılması, işğaldan azad olunmuş ərazilərimizdə Böyük Qayıdış dövlət proqramı çərçivəsində bərpa və quruculuq işlərinin həyata keçirilməsi, strateji valyuta ehtiyatlarının və xarici ticarət dövriyyəsinin artırılması baxımından uğurlu olub.



Bildirildi ki, hökumətin hesabatında əhalinin sağlamlığının daha etibarlı və keyfiyyətli qorunması istiqamətində yeni meyarlar hazırlanıb, bir sıra proqramlar icra olunub, icbari tibbi sığorta sisteminin tətbiqi müvəffəqiyyətlə davam etdirilib. Ötən il ölkədə müdafiə sahəsində görülmüş işlər, o cümlədən hərbi qulluqçuların sosial təminatının yüksəldilməsi istiqamətində atılan addımlar təqdirəlayiq hesab edilib. Qeyd olundu ki, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, icra edilən infrastruktur layihələri dövlətimizin iqtisadi qüdrətinin əyani sübutudur.

Deputatlar 2025-ci ilin həm də Azərbaycanın beynəlxalq siyasətdə əldə etdiyi nailiyyətlərlə yadda qaldığını söylədilər. Onlar həyata keçirilən uğurlu xarici siyasət nəticəsində ötən il avqustun 8-də ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə keçirilmiş Vaşinqton sammitinin Cənubi Qafqaz regionu üçün önəmindən bəhs etdilər. Bildirildi ki, Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətninin paraflanması münaqişənin həlli istiqamətində mühüm addım hesab olunur, bununla yanaşı, ABŞ ilə strateji əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd olundu ki, ötən il ölkəmiz həm də beynəlxalq səviyyəli siyasi və iqtisadi platformalarda mövqeyini daha da gücləndirərək önəmli uğurlara imza atıb. Belə ki, Azərbaycanın səkkiz ölkənin təmsil olunduğu İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) tamhüquqlu üzv

qəbul olunması, habelə C5+ formatına qoşulması regional əməkdaşlığın inkişafına xidmət edir.

Sonra Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatının geniş müzakirəsi keçirildi. Müzakirələrdə parlamentin komitə sədrləri  və millət vəkilləri çıxış etdilər. Çıxışlarda 2025-ci ildə hökumətin gördüyü işlər barədə hesabatın əhatəli hazırlandığı, ötən ilin ölkənin siyasi, iqtisadi və sosial sahələrində əhəmiyyətli irəliləyişlərlə yadda qaldığı söylənildi. Qeyd olundu ki, Prezidentin milli maraqların qorunması baxımından





həyata keçirdiyi siyasət sayəsində və hökumətin səmərəli fəaliyyəti nəticəsində ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasına, firavanlığa, inkişafa nail olunub.

Millət vəkilləri ötən il seçicilərin üzləşdiyi problemlərin həlli istiqamətində görülmüş işlərdən də danışdılar, həmçinin vətəndaşları narahat edən bəzi məsələləri hökumət üzvlərinin nəzərinə çatdırdılar, bir sıra təkliflərini səsləndirdilər.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova müzakirələrin səmərəli keçdiyini bildirdi. O, qaldırılan bəzi məsələlərə münasibət bildirmək üçün Baş nazir Əli Əsədova söz verdi.

Baş nazir səmərəli müzakirələrə və deputatların çıxışlarında hökumətin ötən il gördüyü işləri yüksək qiymətləndirdiklərinə  görə təşəkkür etdi. O, ötən il ümumilikdə deputatlar tərəfindən hökumətə daxil olmuş müraciətlərdə qaldırılan məsələlərlə bağlı görülən işlər barədə danışdı. Söylədi ki, o məsələlərin çoxu artıq həll olunub, digər məsələlərin icrası istiqamətində isə işlər davam etdirilməkdədir.

Əli Əsədov Milli Məclis və hökumət arasında formalaşmış səmərəli əməkdaşlığı və qurulmuş işgüzar münasibətləri yüksək qiymətləndirdiklərini bildirdi. O, müzakirələrdə deputatların seçicilərinin müraciətləri əsasında hökumət qarşısında qaldırdıqları məsələlərin diqqətdə saxlanılacağını, onların həlli istiqamətində lazımi addımların atılacağını söylədi.

İclasda Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı səsə qoyularaq nəzərə alındı. Parlamentin sədri Sahibə Qafarova Baş nazirə və hökumət üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzuladı.



# Antalya platforması türk dünyasının qlobal rolunu gücləndirir

*Antalya Diplomatiya Forumu ilk dəfə 2021-ci ildə Türkiyənin təşəbbüsü ilə yaradılıb və hər il Antalya şəhərində keçirilir. Forum Türkiyə Xarici İşlər Nazirliyi tərəfindən təşkil edilir, diplomatiya, beynəlxalq əlaqələr və aktual çağırışlar üzrə fikir mübadiləsi aparmaq üçün yüksək səviyyəli platformadır. Bu toplantının əsas məqsədi qlobal diplomatik dialoqa töhfə vermək, çoxtərəfli əməkdaşlıq formatını təşviq etmək, müasir problemlərin həlli yollarını tapmaq və Türkiyənin bu sahədəki təşəbbüslərini tanıtmaq idi. Səmərəli müzakirələrin aparılmasında dünyanın aparıcı platformalarından biri olan Antalya Diplomatiya Forumuna bu il 150-dən çox dövlətdən olan 5 mindən artıq iştirakçı qatılmışdı. Bu da 5-ci ildir ki, fəaliyyət göstərən Antalya Diplomatiya Forumunun ilbəil daha böyük aktuallıq qazandığının, regional və beynəlxalq məsələlərin həllində geniş platformaya çevrildiyinin və onun artan siyasi nüfuzunun göstəricisidir.*



**Əhliman Əmiraslanov**
Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası işçi qrupunun rəhbəri, akademik

Antalya Diplomatiya Forumunda ölkəmiz ən ali səviyyədə və böyük heyətlə təmsil olundu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 5-ci Antalya Diplomatiya Forumunda iştirak edirdi. Dövlət başçımızın bu forumun açılış mərasimində iştirakı, tədbir çərçivəsində keçirdiyi görüşlər olduqca önəmli idi. Bütün bunlar ölkəmizin xarici siyasət strategiyasının ildən-ilə inkişaf etdiyini, Azərbaycanın regional diplomatiyada aktiv rolunu və Türkiyə ilə strateji müttəfiqliyini əks etdirir.

Forum Azərbaycanın xarici siyasət kursunun əsas istiqamətlərini - balanslı diplomatiya, enerji təhlükəsizliyi, regional əməkdaşlıq və nəqliyyat-logistika təşəbbüslərini beynəlxalq auditoriyaya təqdim etmək baxımından mühüm platforma rolunu oynadı. Azərbaycan bu tədbirdə təkcə iştirakçı deyildi. Eyni zamanda, gündəmi formalaşdıran və müzakirələrə real məzmun verən aktor kimi çıxış etdi.

Cənab Prezident İlham Əliyevin forum çərçivəsində keçirdiyi

görüşlər Azərbaycanın diplomatik coğrafiyasının genişliyinin nümayişi idi. Yaxın Şərqdən Avropaya, türk dünyasından Cənubi Asiyaya qədər müxtəlif regionları əhatə edən bu təmaslar Azərbaycanın çoxtərəfli əməkdaşlıq modelinə sadiqliyini təsdiqlədi. Xüsusilə enerji əməkdaşlığı, o cümlədən qaz ixracı istiqamətində müzakirələr ölkəmizin qlobal enerji təhlükəsizliyində rolunun artdığını yenidən ön plana çıxardı.

Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən, praqmatik və ardıcıl siyasət nəticəsində Azərbaycan son illərdə regionda və dünyada mühüm siyasi, iqtisadi və humanitar mərkəzlərdən birinə çevrilib. 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi qələbə ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etməklə yanaşı, Azərbaycanın beynəlxalq aləmdəki mövqeyini daha da gücləndirdi, onu etibarlı tərəfdaş və qlobal proseslərə təsir göstərən dövlət kimi tanıtdı.

Azərbaycan və Türkiyə arasında əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş "bir millət, iki dövlət" prinsipinə əsaslanan münasibətlər bu gün hər iki ölkənin rəhbərlərinin siyasi iradəsi və şəxsi dostluğu sayəsində ən yüksək zirvəyə çatıb. Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında formalaşmış qarşılıqlı etimada əsaslanan əməkdaşlıq bu birliyin davamlılığını və gücünü təmin edən əsas amillərdəndir.

Türkiyə-Azərbaycan münasibətlərinin unikal xarakteri və bu əlaqələrin sabitliyi regional inteqrasiya və ortaq inkişaf baxımından nümunəvi model kimi çıxış edir. Heç şübhəsiz, Prezident İlham Əliyevin Antalyaya işgüzar səfəri və Antalya Diplomatiya Forumunda iştirakı təkcə iki ölkə arasında strateji münasibətlərin daha da möhkəmləndirilməsi deyil, həm də Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsi və sülh təşəbbüslərinin irəliləməsi baxımından mühüm hadisə idi.

Forum çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan ilə görüşərək Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə olan uğurlu inkişafı və əlaqələrimizin perspektivləri barədə müzakirə aparmışdır. O cümlədən möhtərəm Prezidentimiz Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif, Moldova Prezidenti Maya Sandu, eyni zamanda, Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa və Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Tufan Erhürmanla, digər rəsmi dövlət və hökumət nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri ilə də görüşlər keçirərək ölkəmizin ikitərəfli və çoxtərəfli əlaqələrinin perspektiv imkanlarını müzakirə etmişdir.








Forum çərçivəsində Azərbaycan nümayəndə heyəti ölkəmizin beynəlxalq mövqeyinin daha da gücləndirilməsi istiqamətində fəallıq göstərdi. Enerji təhlükəsizliyi ilə bağlı müzakirələr forumun əsas istiqamətlərindən biri idi. Azərbaycanın energetika naziri Pərviz Şahbazov "Qlobal enerji xəritəsinin yenidən çəkilməsi: təhlükəsizlik və qeyri-müəyyənlik" panelində çıxış edərək ölkəmizin etibarlı tərəfdaş kimi rolunu və mövcud çağırışlar fonunda əməkdaşlıq perspektivlərini təqdim etmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev "Dəyişən dünyada regional sahibliyin rolu" mövzusunda çıxışı ilə müasir beynəlxalq münasibətlər sistemində regional məsuliyyətin və təşəbbüskarlığın əhəmiyyətini diqqətə çatdırmışdır.

Bu gün beynəlxalq münasibətlər sistemində yaranan qeyri-müəyyənliklər, geosiyasi gərginliklər və yeni güc mərkəzlərinin formalaşması fonunda dialoq platformalarına olan ehtiyac daha da artır. "Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək" mövzusu ilə keçirilən 5-ci Antalya Diplomatiya Forumu da bu baxımdan qlobal siyasi gündəliyin ən aktual məsələlərini özündə cəmləşdirirdi.

Forumda bir neçə əsas istiqamətdə Azərbaycanın mövqeyi aydın şəkildə hiss olundu. İlk növbədə, biz artıq regionda sabitləşdirici və təşəbbüskar dövlət kimi qəbul olunduğumuzu gördük. Müharibədən sonrakı dövrdə bölgədə formalaşan yeni reallıqların təqdimatı və bunların beynəlxalq platformalarda izahı baxımından Antalya Diplomatiya Forumu mühüm imkanlar yaratdı.

İkinci əsas məqam Azərbaycanın enerji diplomatiyası, Avropanın enerji təhlükəsizliyi məsələsinin aktuallığı fonunda ölkəmizin etibarlı tərəfdaş kimi çıxış etməsi, alternativ və davamlı enerji mənbələrinin təminatçısı rolunun gücləndirilməsi ilə bağlı idi.

Üçüncü istiqamət isə nəqliyyat və logistika layihələridir ki, Xəzər hövzəsini Avropa və Asiya ilə birləşdirən Orta Dəhliz layihəsi bu gün qlobal ticarət marşrutlarının yenidən formalaşdığı dövrdə xüsusi əhəmiyyət kəsb edir. Antalya platformasında bu məsələlərin gündəmdə olması Azərbaycanın tranzit ölkə kimi rolunun daha da möhkəmləndiyini göstərdi.

Eyni zamanda, forum Azərbaycanın türk dünyası ilə münasibətlərinin strateji xarakterini də nümayiş etdirdi. Türkiyə ilə müttəfiqlik və bunun regional siyasətə təsiri Antalya görüşlərində xüsusi yer tutdu. Bu isə Azərbaycanın yalnız regionun deyil, daha geniş geosiyasi məkanın əsas oyunçularından birinə çevrildiyini təsdiqləyir.

Bütün bunlarla yanaşı, Antalya Diplomatiya Forumu ölkəmizin beynəlxalq imicinin möhkəmləndirilməsi baxımından da mühüm rol oynadı. Azərbaycan burada etibarlı tərəfdaş, sözünün sahibi olan dövlət və təşəbbüskar aktor kimi təqdim olundu.

Antalya Diplomatiya Forumu çərçivəsində həyata keçirilən bütün bu təmaslar ölkəmizin beynəlxalq platformalarda fəal iştirakını və strateji maraqlarının ardıcıl şəkildə təşviq olunduğunu bir daha nümayiş etdirir. Forum gələcək dövr üçün sülhün və təhlükəsizliyin təmini, eləcə də problemlərin danışıqlar yolu ilə həllinin tapılması baxımından mühüm əhəmiyyət daşıyır.

Antalya Diplomatiya Forumunda qlobal liderlər, siyasətçilər, alimlər, biznes ekspertləri, eləcə də vətəndaş cəmiyyətinin nümayəndələri bir araya gələrək müxtəlif mövzular ətrafında müzakirələr apardı. Tədbirin əsas mövzuları bu dəfə daha geniş spektri əhatə edərək dünyadakı əsas geosiyasi məsələləri gündəmə gətirdi. Bu mövzular arasında regional







təhlükəsizlik, iqtisadi əməkdaşlıq, Afrikanın dünya siyasətində artan rolu, Türk Dövlətləri Təşkilatının unikal modeli, təhsil, iqlim diplomatiyası və yeni dövrdə enerji təhlükəsizliyi, eləcə də Cənubi Qafqaz üçün çağırışlar və əməkdaşlıq imkanları diqqət mərkəzində oldu.






**Səməd Seyidov**
Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri

Bu il aprelin 17-19-da keçirilən Antalya Diplomatiya Forumu beynəlxalq siyasətin aktual məsələlərinin müzakirə olunduğu mühüm platforma kimi yadda qalmışdır. Bu forum bir daha göstərdi ki, müasir dövrdə regional məsuliyyət və təşəbbüskarlıq beynəlxalq əməkdaşlığın əsas istiqamətlərindən birinə çevrilməkdədir.

Azərbaycan bu platformada fəal iştirak edərək öz prinsipial mövqeyini və yanaşmalarını ardıcıl şəkildə təqdim etdi. Cənab Prezident İlham Əliyev tərəfindən keçirilən görüşlərdə ölkəmizin regionda sabitliyə, təhlükəsizliyə və əməkdaşlığın təşviqinə verdiyi töhfələr bir daha diqqətə çatdırıldı. Ümumilikdə, Azərbaycandan olan rəsmilərin çıxış və təmaslarında əsas vurğu regional problemlərin bölgə ölkələrinin birgə səyləri ilə həll olunmasının vacibliyinə, qarşılıqlı etimada əsaslanan əməkdaşlıq mühitinin gücləndirilməsinə yönəlmişdir.

Antalya Diplomatiya Forumunda parlamentimizin spikeri hörmətli Sahibə xanım Qafarovanın tapşırığı ilə Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi həmkarım akademik Əhliman Əmiraslanov və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri olaraq mən iştirak edirdik. Hər ikimiz öz növbəmizdə forum çərçivəsində intensiv görüşlər keçirərək parlament diplomatiyasının inkişafı, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərimizi əsirgəmədik. Türkiyə Böyük Millət Məclisinin NATO-da nümayəndəsi Mövlud Çavuşoğlu, Xarici əlaqələr komitəsinin rəhbəri Fuat Oktay və Türkiyə Cümhuriyyətinin vitse-prezidenti Cevdet Yıl-



maz ilə keçirilən görüşlərdə Azərbaycan-Türkiyə münasibətlərinin daha da inkişafı, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi barədə ətraflı fikir mübadiləsi apardıq.

Düşünürəm ki, parlament diplomatiyasının genişləndirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı, xüsusən də parlamentlərarası dostluq qrupları çərçivəsində əməkdaşlıq tədbirləri istiqamətində müzakirələrimiz çox faydalı oldu. Çünki Fuat Oktay və Mövlud Çavuşoğlu ilə keçirilən görüşlərdə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının parlament ölçüsü, regionda sabitlik və təhlükəsizliyin təminində birgə fəaliyyətin əhəmiyyəti barədə ətraflı söz açıldı. Bu təmaslar parlamentlərarası əməkdaşlığın daha sistemli və institusional əsasda inkişaf etdiyinin bariz təcəssümüdür.

Əhliman Əmiraslanovla birlikdə "TRT Avaz" telekanalına verdiyimiz müsahibədə Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolu, regionda sabitlik və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində həyata keçirilən siyasət barədə fikirlərimizi bölüşdük.




Antalya Diplomatiya Forumu bir daha təsdiq etdi ki, parlament diplomatiyası müasir beynəlxalq münasibətlər sistemində getdikcə daha mühüm rol oynayır. Bu platforma vasitəsilə qarşılıqlı etimad möhkəmlənir, dialoq genişlənir və ortaq maraqlar əsasında əməkdaşlıq imkanları artır. Azərbaycanın bu istiqamətdə nümayiş etdirdiyi fəallıq isə ölkəmizin regionda sabitlik və inkişafın təşviqində aparıcı mövqeyini daha da gücləndirir.






# Serbiyada Qadın Parlamentarilərin Qlobal Konfransı keçirildi

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti iyunun 1-də Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransında iştirak etmək üçün Serbiya Respublikasına işgüzar səfər etdi.

Ertəsi gün Sahibə Qafarovanın paytaxt Belqrad şəhərində keçirilən Qlobal Konfransda "Paritetə doğru irəliləyiş: Gender stereotipləri və mənfi sosial normaların yaratdığı maneələrin aradan qaldırılması" mövzusunda çıxışı oldu. O, nitqində belə tədbirlərin beynəlxalq əməkdaşlığın vacibliyini - fikir mübadiləsinin və qabaqcıl təcrübələrin paylaşılmasının əhəmiyyətini aydın şəkildə nümayiş etdirdiyini vurğulayaraq bu gün müzakirə olunan problemlərin yalnız bir ölkə və ya regionla məhdudlaşmadığını qeyd etdi.

Sədr çıxışında söylədi ki, hər bir cəmiyyətin öz ənənələri, mədəni və sosial dəyərləri var. Təəssüf ki, qadının cəmiyyətdəki rolu ilə bağlı mənfi stereotiplər və sosial normalar bir çox yerlərdə dərin kök salıb. Spiker bildirdi ki, heç kim kişi və qadınların fərqli olduğunu inkar etmir. Lakin bu, onların bərabər olmadığı anlamına gəlmir. Reallıq ondan ibarətdir ki, qadınların səlahiyyətləndirilməsi artıq dayanıqlı inkişafın, daha güclü cəmiyyətlərin və institutların qurulmasının prioritet istiqamətlərindən biri kimi qəbul edilir. Cəmiyyətin yarısını təşkil edən insanların hüquq və potensialının nəzərə alınmaması, sadəcə, dayanıqlı yanaşma deyil.

Qeyd olundu ki, parlament üzvləri də hər bir qadının və qızın ayrı-seçkilikdən və maneələrdən uzaq şəkildə öz potensialını tam reallaşdıra biləcəyi cəmiyyətlərin qurulmasına görə ümumi məsuliyyət daşıyırlar. Çünki qanunvericilik zəruri normativ hüquqi çərçivələri müəyyən edir. Lakin təkcə qanunvericilik arzu olunan nəticələri təmin edə bilməz. Bunun üçün bütün cəmiyyəti əhatə edən yanaşmaya əsaslanan daha sistemli və hərtərəfli münasibətə ehtiyac var.

Azərbaycan parlamentinin spikeri diqqətə çatdırdı ki, bu stereotipləri və sosial normaları dəyişdirmək üçün ilk növbədə cəmiyyətin düşüncə tərzi dəyişməlidir. Gender bərabərliyini qəbul etməyən yanaşmalar aradan qaldırılmalı, cəmiyyətlər qadın və kişi bərabərliyini əsas dəyər kimi qəbul etməyə təşviq edilməlidirlər.

Sahibə Qafarova bildirdi ki, mədəni təşəbbüslər vasitəsilə gender bərabərliyi dəyərlərinin təşviqi və media vasitəsilə maarifləndirmənin artırılması təsirli üsullardır. Lakin o, akademik sahədə uzun illər təcrübəsi olan bir şəxs kimi təhsilin davranışların dəyişdirilməsindəki gücünə dərin inam bəslədiyini qeyd etdi. Buna görə də təhsilə, maarifləndirməyə və gənclərin bu prosesə cəlb olunma-

sına xüsusi diqqət göstərilməsinin vacibliyini vurğuladı.

Milli Məclisin sədri çıxışında Azərbaycanda gender bərabərliyi və qadınların həyatın bütün sahələrində təmsilçiliyinin artırılması istiqamətində görülən işlər barədə konfrans iştirakçılarına geniş məlumat verdi. Qeyd edildi ki, bu gün cəmiyyətimizdə gender bərabərliyi ilə bağlı mövcud təsəvvürlər əslində çox əvvəllər formalaşmış milli ənənələrimizi əks etdirir. Azərbaycan qadınları tarixən cəmiyyətin bərabərhüquqlu tərəfdaşları kimi qəbul olunublar və onun inkişafına həlledici təsir göstəriblər.

Spiker Sahibə Qafarova dedi ki, 1918-ci ildə Azərbaycan Demokratik Respublikası yaradıldıqdan sonra Azərbaycan dünyada qadınlara seçmək və seçilmək hüququ verən ilk ölkələrdən biri, müsəlman Şərqində isə ilk ölkə kimi tanınır. Bu tarixi qərar bir sıra Avropa ölkələrində qadınlara bərabər siyasi hüquqların tanınmasından daha əvvəl qəbul edilib. Bu isə həm də o deməkdir ki, lap əvvəldən etibarən bərabərlik, inklüzivlik və demokratik təmsilçilik prinsipləri Azərbaycanın siyasi mədəniyyətinin ayrılmaz tərkib hissəsinə çevrilib.

O, gender bərabərliyi ənənələrinin Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra da ardıcıl şəkildə davam etdirildiyini, bunun dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrildiyini söylədi. Diqqətə çatdırıldı ki, Azərbaycan Respublikasının Konstitusiyasında qadın və kişilərin bərabər hüquqları təsbit edilib, 2006-cı ildə qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun isə bu sahədə hüquqi bazanı formalaşdırıb. Həmçinin gender siyasətinin institusional əsaslarının formalaşdırılması istiqamətində atılan mühüm addımlardan biri də 1998-ci ildə Azərbaycanda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasıdır.

Milli Məclisin sədri xüsusilə vurğuladı ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə məişət zorakılığı ilə mübarizə aparılması, ayrı-seçkiliyin aradan qaldırılması, qadınların təhsil və məşğulluq imkanlarının genişləndirilməsi, eləcə də onların səlahiyyətləndirilməsinin təşviq edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Dövlət başçısının imzaladığı sərəncamlar, milli fəaliyyət planları və dövlət proqramları qadınların səlahiyyətləndirilməsi sahəsində irəliləyişlərə səbəb olan kompleks və hərtərəfli yanaşmanın formalaşdırılmasını təmin edib. Statistik göstəricilərə istinadən hazırda Azərbaycanda məşğul əhalinin təxminən 49 faizini qadınlar təşkil edir. Yerli özünüidarəetmə orqanlarında qadınların təmsilçiliyi də əhəmiyyətli dərəcədə artaraq 2004-cü ildəki 4 faizdən təxminən 39 faizə yüksəlib. Dövlət qulluqçularının isə təxminən 30 faizi qadınlardır. Diqqətə çatdırıldı ki, son illərdə ölkəmizdə qadınların sayı hakimlər, hüquq mühafizə orqanlarının əməkdaşları və vəkillər arasında da xeyli artıb. Qadınlar dövlət qurumlarında, diplomatik xidmətdə, təhsil və dövlət idarəçiliyi sahələrində rəhbər vəzifələrdə uğurla fəaliyyət göstərirlər.

Milli Məclisdə qadınların təmsil olunması barədə danışan spiker Sahibə Qafarova qeyd etdi ki, 2024-cü ilin sentyabr ayında keçirilmiş parlament seçkilərinin








nəticələrinə əsasən, 125 deputatdan 26-sı qadındır. Bu göstərici 2005-ci ildəki 11 faizdən təxminən 21 faizə yüksəlib. Qadın deputatlar parlamentin 15 komitəsindən 5-də sədr müavini vəzifəsində təmsil olunurlar. Ailə, qadın və uşaq məsələləri komitəsinə isə qadın deputat rəhbərlik edir. Qadın millət vəkillərinin demək olar ki, bütün parlament komitələrində təmsil olunması onların baxış və mövqelərinin qanunvericilik fəaliyyətində nəzərə alınmasına imkan yaradır.

Azərbaycan parlamentinin sədri əldə olunmuş nəticələrin əhəmiyyətini qeyd edərək bunun davamlı xarakter daşıdığını və dövlətimizin gender bərabərliyinin təmin olunmasına yönəlmiş ardıcıl siyasət əks etdirdiyini bildirdi.

Sahibə Qafarova Azərbaycanda ötən ilin sonunda gender bərabərliyi üzrə 2026-2028-ci illəri əhatə edən yeni Milli Fəaliyyət Planının qəbul edildiyini də diqqətə çatdırdı. Sənəddə gender bərabərliyi məsələləri ilə bağlı ictimai məlumatlılığın artırılması, qadınların dövlət və özəl sektorlarda qərar qəbuletmə proseslərində kişilərlə bərabər iştirakının təşviq edilməsi məqsədilə bir sıra mütərəqqi təşəbbüslərin nəzərdə tutulduğunu dedi.

Milli Məclisin sədri çıxışının sonunda bir daha qeyd etdi ki, dünyadakı mövcud vəziyyət dərin kök salmış stereotiplərin və mənfi sosial normaların aradan qaldırılması istiqamətində ardıcıl tədbirlərin davam etdirilməsinin vacibliyini göstərir. Qanunvericilik bazasının və institusional mexanizmlərin daha da gücləndirilməsi, eyni zamanda, cəmiyyətin maarifləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

* * *

Milli Məclisin sədri Sahibə Qafarova həmin gün Belqradda Serbiya Milli Assambleyasının sədri Ana Brnabiç ilə görüşdü. Azərbaycanın Serbiya üçün dost və müttəfiq ölkə olduğunu və iki ölkə arasında münasibətlərin gündən-günə inkişaf etdiyini deyən Assambleya sədri Qadın Parlamentarilərin Qlobal Konfransında iştirak etdiyinə görə Milli Məclisin sədrinə təşəkkürünü bildirdi. O, ölkələrimiz arasında iqtisadi sahədə mövcud olan münasibətlərin, o cümlədən enerji sektorunda əməkdaşlığın önəmindən danışdı, enerji təhlükəsizliyi sahəsində Azərbaycanın dəstəyinə görə minnətdarlıq etdi.

Söhbət zamanı Ana Brnabiç iki ölkənin parlamentlərarası münasibətlərinin perspektivləri barədə fikirlərini bölüşdü.

Öz növbəsində Milli Məclisin sədri Sahibə Qafarova da Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransının yüksək səviyyədə təşkilindən, bu cür tədbirlərin mövcud problemlərin müzakirə olunmasında mühüm platforma olduğundan söz açdı. Dost və strateji tərəfdaş olan ölkələrimiz arasında ali və yüksək səviyyəli qarşılıqlı səfərlərin mühüm rolundan danışan spiker bu kontekstdə prezidentlər İlham Əliyevin və Aleksandar Vuçiçin qarşılıqlı səfərlərinin, görüşlərinin və bu səfərlər zamanı imzalanmış sənədlərin önəmini diqqətə çatdırdı. Bildirildi ki, Prezident İlham Əliyevin 2026-cı ilin fevralında səfəri zamanı Serbiyada Qaz-Tur-

bin Elektrik Stansiyasının tikintisi haqqında sazişin imzalanması isə enerji sahəsində əməkdaşlığın daha da inkişafına xidmət edir.

Söhbət zamanı parlamentlərin qarşılıqlı münasibətlərin inkişafına müsbət təsirini qeyd edən Milli Məclisin sədri hər iki ölkənin ali qanunvericilik orqanında mövcud olan dostluq qruplarının rolunu vurğuladı. O, beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıqdan, xüsusilə ölkələrimizin ərazi bütövlüyü, suverenlik məsələlərində bir-birini dəstəkləməsindən məmnunluğunu bildirdi.

Görüşdə parlament komitələri arasında əməkdaşlığın yaradılması imkanları barədə fikir mübadiləsi aparıldı.

* * *

Milli Məclisin sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransı çərçivəsində bir sıra görüşlər keçirdi. Onun Parlamentlərarası İttifaqın  prezidenti Tulia Akson, ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons, Zimbabve Senatının sədri Mabel Memori Çinomona, Parlamentlərarası İttifaqın yeni seçilmiş Baş katibi Anda Filip, təşkilatın vitse-prezidenti Qabriela Moravska-Stanetska, İcraiyyə Komitəsinin üzvü Karen Bredli və Büro sədri Sintia Lopez Kastro, Mərakeş Nümayəndələr Palatasının vitse-spikerləri  Nadia Tuhami və Zaina İd Hali, Mavritaniya parlamentinin sədr müavini Siham Nacem ilə keçirilən görüşlərində Qlobal Konfransın qadın parlamentarilər arasında əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətindən söhbət açıldı.

Görüşlərdə çoxtərəfli platformaların önəmi vurğulandı, beynəlxalq parlament təşkilatları çərçivəsində, həmçinin qanunvericilik orqanları arasında ikitərəfli əməkdaşlıq məsələləri nəzərdən keçirildi.

* * *

Serbiya Respublikasında işgüzar səfər çərçivəsində Milli Məclisin sədri Sahibə Qafarova paytaxt Belqraddakı Taşmaydan parkında ucaldılmış  Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etdi və abidənin önünə gül dəstələri düzdü. Sonra Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Belqradda görkəmli serb yazıçısı Milorad Paviçin abidəsini də ziyarət etdi.











# MDB PA-nın 60-cı plenar iclasında Azərbaycan Bakı Forumunun təcrübəsi paylaşıldı

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin mayın 20-22-də Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının (MDB PA) Şura və 60-cı plenar iclasında iştirak etmək məqsədilə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri oldu.

Spiker mayın 21-də keçirilən MDB PA-nın Şura iclasında iştirak etdi. O, iclasda çıxışı zamanı müzakirə olunan mövzulara münasibətini bildirdi. Daha çox iclasın gündəliyinin 3-cü bəndi ilə bağlı danışan Sahibə Qafarova söylədi ki, Assambleyanın fəaliyyətinin əsas istiqamətlərindən biri MDB iştirakçısı olan dövlətlərdə keçirilən seçkilər və referendumlarla bağlı monitorinq fəaliyyətinin həyata keçirilməsidir. Seçkilər hər bir ölkənin həyatında onun gələcək inkişafını müəyyən edən ən vacib hadisələrdən biridir və obyektiv müşahidə missiyaları seçkilərin şəffaflıq və demokratiklik dərəcəsinin qiymətləndirilməsində çox mühüm rol oynayır. Sahibə Qafarova vurğuladı ki, qurumun müşahidə missiyalarının ölkələrimizdə keçirilən seçkilərdə daim iştirak etməsi həmrəyliyin və qarşılıqlı dəstəyin bariz təzahürüdür.

Azərbaycan parlamentinin sədri Assambleyanın beynəlxalq müşahidəçilərinin Qırğız Respublikasının Joqorku Keneşinə növbədənkənar seçkilərin, həmçinin Qazaxıstan Respublikasının yeni Konstitusiyasının qəbulu üzrə referendumun monitorinqinin nəticələri ilə bağlı da fikirlərini diqqətə çatdırdı. Bildirildi ki, Milli Məclisin deputatları hər iki müşahidə missiyasında fəal iştirak ediblər. Sahibə Qafarova qardaş Qazaxıstanda keçirilən referendumun monitorinqində MDB Parlamentlərarası Assambleyasının müşahidəçi qrupunun koordinatoru vəzifəsini Milli Məclisin sədr müavini Ziyafət Əsgərovun yerinə yetirdiyini məmnunluqla dilə gətirdi.

Sonra iclasda gündəlikdəki bir sıra təşkilati məsələlər müzakirə olundu və müvafiq qərarlar qəbul edildi.



* * *

Ertəsi gün Milli Məclisin sədri Sahibə Qafarova səfər çərçivəsində MDB PA-nın 60-cı plenar iclasına qatıldı. Burada çıxış edən spiker Assambleyanın qanunvericilik orqanlarımız arasında dialoq və əməkdaşlığın inkişafında mühüm rolunu, qarşılıqlı maraq doğuran geniş spektrli məsələlərin müzakirəsi üçün platforma kimi çıxış etdiyini dedi. Sahibə Qafarova bu baxımdan Assambleya tərəfindən həm müntəzəm qaydada tədbirlərin, iclasların və seminarların keçirilməsinin, həm də onun yeni uğurlu ideya və təşəbbüslərinin reallaşdırılmasının əhəmiyyətini vurğuladı.

Sədr çıxışında mayın 17-22-də Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası haqqında tədbir iştirakçılarına geniş məlumat verdi. O qeyd etdi ki, forumun 13-cü sessiyası şəhərlərin davamlı inkişafı və urbanizasiya məsələlərinə həsr olunmuş ən nüfuzlu və qlobal beynəlxalq tədbirlərdən biridir. BMT-nin Məskunlaşma Proqramı tərəfindən indiyədək təşkil edilmiş ən genişmiqyaslı sessiyaya 182 ölkədən rekord sayda - 45 mindən çox iştirakçı qatılıb.

Spiker Sahibə Qafarova diqqətə çatdırdı ki, bu sessiyanın Bakıda keçirilməsi Azərbaycanın icmaları və ölkələri ortaq məqsəd ətrafında birləşdirmək bacarığının qəbul olunmasını təsdiq edir. Azərbaycan Prezidenti İlham Əliyevin forumun açılışında vurğuladığı kimi, "Azərbaycan Avropa ilə Asiya arasında yerləşir və həmişə Şərqlə Qərbin qovuşduğu yer olub və belə də qalır".

Milli Məclisin sədri bildirdi ki, forumun 13-cü sessiyası çərçivəsində Parlamentlərarası Assambleyanın "Dağ yaşayış məntəqələrinin davamlı inkişafı" mövzusunda ayrıca tədbir keçirilib. Assambleyanın bu təşəbbüsünün bir çox MDB ölkələri üçün xüsusi əhəmiyyət kəsb edən dağ ərazilərinin inkişafına diqqəti yönəltməyə, habelə məzmunlu və konkret təcrübə mübadiləsi aparmağa imkan verdiyi qeyd olundu. Ölkələrimizin parlamentarilərinin bu müzakirələrdə fəal iştirak etməsinin məmnunluq doğurduğu diqqətə çatdırıldı.

Spiker bir neçə gün əvvəl Özbəkistan Respublikasının Buxara şəhərində təşkil edilmiş İkinci Asiya Qadınlar Forumunda MDB PA-dan olan digər həmkarları ilə birgə iştirakını da diqqətə çatdırdı.

Milli Məclisin sədri bildirdi ki, iyun ayında Azərbaycan Respublikasının Milli Məclisi ilə Rusiya Federasiyasının Federal Məclisi arasında əməkdaşlıq üzrə Parlamentlərarası Komissiyanın növbəti 24-cü iclası keçiriləcək. O, eyni zamanda, MDB PA-nın humanitar əməkdaşlığı gücləndirməyə yönəlmiş təşəbbüslərinin əhəmiyyətindən danışdı.

Çıxışında seçkilərlə bağlı monitorinq fəaliyyətinə toxunan Sahibə Qafarova MDB PA-nın Demokratiyanın, parlamentarizmin inkişafı və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi



üzrə Beynəlxalq İnstitutun rolunu qeyd etdi. O, 2025-ci il dekabrın 8-də Milli Məclisin və Beynəlxalq İnstitutun Bakı filialının birgə təşkilatçılığı ilə "Heydər Əliyev - suveren Azərbaycanın konstitusionalizminin və parlamentarizminin banisi" mövzusunda beynəlxalq konfrans keçirildiyini xatırlatdı. Qeyd olundu ki, Azərbaycan Konstitusiyasının 30 və Milli Məclisin 107 illiyi ərəfəsində baş tutan konfrans Birlik ölkələrinin parlamentarilərini, MDB PA Şurası Katibliyinin rəhbərliyini, diplomatik korpusun nümayəndələrini, ali təhsil müəssisələrini və ekspertləri bir araya gətirib.

Spiker mayın əvvəlində Bakı filialının inzibati binasında MDB PA-nın Demokratiyanın inkişafının monitorinqi üzrə Beynəlxalq İnstitutun 20 illiyinə həsr olunmuş "Parlamentarilərin beynəlxalq müşahidədə rolu" mövzusunda dəyirmi masa keçirildiyindən də söz açdı.

Çıxışının sonunda Milli Məclisin sədri bildirdi ki, MDB PA bu gün də parlamentlər arasında müntəzəm qarşılıqlı fəaliyyətin effektiv platformasını uğurla yerinə yetirir. O, Assambleya çərçivəsində əməkdaşlığın müxtəlif istiqamətlərdə daha da genişləndirilməsi və möhkəmləndirilməsi üçün gələcəkdə də birgə səylərin davam etdiriləcəyinə əminliyini ifadə etdi.

* * *

Milli Məclisin sədri işgüzar səfər çərçivəsində bir sıra mühüm görüşlər keçirdi. Spiker Sahibə Qafarova Qırğız Respublikası Joqorku Keneşinin sədri Marlen Mamataliyev ilə mayın 21-də keçirilən görüşündə onu bu vəzifəyə seçilməsi münasibətilə təbrik etdi və gələcək fəaliyyətində uğurlar arzuladı.

Görüşdə ölkələrimiz arasında çoxəsrlik tarixi köklərə malik dostluq və qardaşlıq əlaqələrinin müasir dövrdə də qarşılıqlı surətdə faydalı tərəfdaşlıq və dostluq ruhunda uğurlu inkişafından məmnunluq ifadə olundu. Tərəflər Azərbaycan və Qırğız dövlət başçılarının qarşılıqlı səfərlərinin, yüksək səviyyədə görüşlərin dinamikasının və səmərəliliyinin ikitərəfli münasibətlərin möhkəmlənməsində və dərinləşməsində mühüm rolunu qeyd etdilər.

Söhbət zamanı Azərbaycan və Qırğız Respublikası arasında yüksək səviyyəli əlaqələrin parlament müstəvisində də davam etdirildiyi vurğulandı, ölkələrimiz arasında münasibətlərin inkişafında qanunvericilik orqanlarının özünəməxsus rolu qeyd olundu. Parlamentarilərimizin həm ikitərəfli, həm də çoxtərəfli formatda sıx əməkdaşlıq etdiyi, həmçinin MDB-nin Parlamentlərarası Assambleyasında, Türk Dövlətlərinin Parlament Assambleyasında, İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqında, Asiya Parlament Assambleyasında və digər qurumlarda fəal əlaqələrindən söz açıldı. Görüşdə parlament sədrləri və deputatlar səviyyəsində qarşılıqlı səfərlərin və təmasların qanunvericilik orqanlarımız arasında əməkdaşlığın daha da dərinləşməsinə töhfə verdiyi bildirildi.

* * *

Milli Məclisin sədri Sahibə Qafarova səfər çərçivəsində Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova ilə də görüşdü. Görüş zamanı ölkələrimizin dostluq və qarşılıqlı etimad prinsiplərinə əsaslanan əlaqələrinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi vurğulandı. Azərbaycanla Belarusun əməkdaşlığının bugünkü yüksək səviyyəyə çatmasında dövlət başçılarının səmimi münasibətlərinin, yüksək səviyyəli qarşılıqlı səfərlərin və siyasi dialoqun mühüm rol oynadığı qeyd olundu.

Tərəflər ölkələrimiz və xalqlarımız arasında münasibətlərin dərinləşməsində qanunvericilik orqanlarının rolundan da bəhs etdilər, parlamentlərarası əməkdaşlığın uğurla davam etdiyini bildirdilər. Spiker Sahibə Qafarova Belarus Milli Assambleyası Nümayəndələr Palatasının sədri İqor Sergeyenkonun bir neçə gün öncə Azərbaycana səfərini və onunla keçirdiyi görüşü, eləcə də özünün Belarusa, Natalya Koçanovanın isə Bakıya səfərlərini xatırlatdı. O, parlament rəhbərlərinin və deputatların səfərlərinin qanunvericilik orqanları arasında əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət etdiyini söylədi. Qeyd olundu ki, Azərbaycan və Belarus parlamentləri ikitərəfli müstəvidə səmərəli fəaliyyət həyata keçirir, beynəlxalq parlament təşkilatlarında yüksək səviyyədə əməkdaşlıq edirlər. Ölkələrimizin iqtisadi, ticarət, mədəni və digər istiqamətlər üzrə münasibətlərinin dinamik şəkildə inkişaf etdiyi vurğulandı, parlamentlərarası əlaqələrin bu əməkdaşlığın daha da genişlənməsinə töhfə verdiyi bildirildi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparıldı.

* * *

Rusiya Federasiyasına işgüzar səfər çərçivəsində Azərbaycan parlament nümayəndə heyəti ölkəmizin Sankt-Peterburq şəhərindəki Baş Konsulluğunda oldu. Onlar müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Baş Konsulluğun inzibati binasında ucaldılmış büstünü ziyarət etdi, büstün önünə gül dəstələri düzdü. Baş Konsulluğun əməkdaşları ilə söhbət edən spiker Sahibə Qafarova onlara Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş kitablar hədiyyə etdi.

Sonra Baş Konsulluq tərəfindən 28 May - Müstəqillik Gününə həsr edilmiş rəsmi qəbul keçirildi. Tədbirdə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətlərdən bəhs edən videoçarxlar nümayiş olundu. Bayram tədbiri ölkəmizin tanınmış incəsənət xadimlərinin ifasında konsert proqramı ilə davam etdirildi.










# İkinci Asiya Qadınlar Forumu:
## Regional dialoq və əməkdaşlıq platforması

Mayın 14-də Milli Məclisin sədri Sahibə Qafarovanın rəhbərliyi ilə Azərbaycan parlament nümayəndə heyəti İkinci Asiya Qadınlar Forumunda iştirak etmək məqsədi ilə Özbəkistan Respublikasına səfər etdi. Dost ölkənin Buxara şəhərində keçirilən forumun açılış mərasimində çıxış edən spiker Sahibə Qafarova Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin bu təşkilatın regional dialoq və əməkdaşlıq üçün daimi platforma kimi təsis edilməsi təşəbbüsünü yüksək qiymətləndirdi və forumun mövzusunun çox mühüm bir prinsipi əks etdirdiyini söylədi. Onun sözlərinə görə, qadınlara investisiya qoyuluşu davamlı inkişafa, sosial həmrəyliyə və uzunmüddətli sabitliyə xidmət edir. Çünki bu, sadəcə, sosial məsələ deyil, davamlı inkişaf, iqtisadi dayanıqlılıq və sosial sabitlik üçün strateji prioritetdir.

Milli Məclisin sədri qadınların siyasi, iqtisadi və ictimai həyatda aktiv iştirakının daha güclü institutların, inklüziv inkişafın və möhkəm cəmiyyətlərin formalaşmasına gətirib çıxardığını bildirdi.

Asiya regionunun bugünkü qlobal sistemdə mühüm rol oynadığını deyən spiker Sahibə Qafarova qeyd etdi ki, Asiyanın əhalisi, iqtisadi potensialı və müxtəlifliyi onu qlobal inkişafın və beynəlxalq tərəqqinin əsas hərəkətverici qüvvələrindən birinə çevirir. O, qabaqcıl təcrübələrin paylaşılmasının və əlaqələndirilmiş siyasətlərin ümumi məqsədlərimizə çatmaq üçün vacib amil olduğunu dedi.

Tədbir iştirakçılarına Azərbaycan qadınlarının ölkə həyatında fəal roluna dair məlumat verən Milli Məclisin sədri ölkəmizin qadınlarının ictimai həyatın bütün sahələrində beynəlxalq əməkdaşlığı qətiyyətlə dəstəklədiklərini, gender bərabərliyinin təşviqinin dövlət siyasətinin mühüm prioritetlərindən olduğunu vurğuladı. Qeyd olundu ki, Azərbaycan qadınları siyasi, iqtisadi, elmi və

mədəni həyatda fəal iştirak edir, dövlət qurumlarında, diplomatiyada, təhsil və dövlət idarəçiliyində yüksək vəzifələr tuturlar. Spiker Sahibə Qafarova xüsusi olaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın geniş ictimai-siyasi fəaliyyətinin qadınlarımızın cəmiyyətə və ölkəmizin inkişafına verdiyi mühüm töhfəni əks etdirməsindən söz açdı. Bildirildi ki, onun fəaliyyəti Azərbaycanda qadınların ictimai həyatda artan rolunu aydın şəkildə nümayiş etdirir və dövlət idarəçiliyinin ən yüksək səviyyəsində qadın liderliyinin güclü nümunəsi kimi çıxış edir.

Ölkəmizdə gender sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlərə də toxunan Azərbaycan parlamentinin rəhbəri qeyd etdi ki, Milli Məclis də gender siyasətinin formalaşdırılmasına böyük əhəmiyyət verir. O, 2024-cü ildə keçirilmiş parlament seçkilərindən sonra qadınların Milli Məclisdə təmsilçiliyinin daha da artdığını, onların hazırda parlament komitələrində və digər rəhbər vəzifələrdə uğurla təmsil olunduqlarını söylədi. Azərbaycanda qadın hüquqlarının qanunvericilik səviyyəsində qorunması və bərabər imkanların təmin edilməsi üçün mühüm hüquqi baza yarandığını dilə gətirdi.

Sahibə Qafarova bu gün Azərbaycanda məşğul əhalinin, demək olar ki, yarısını qadınların təşkil etdiyini, onların biznes, təhsil, elm və rəqəmsal iqtisadiyyatda iştirakının davamlı olaraq artdığını qeyd etdi.

Spiker çıxışında ölkəmizdə qadınların işğaldan azad edilmiş ərazilərdə - Qarabağda münaqişədən sonrakı bərpa və yenidənqurma işlərinə də mühüm töhfə verdiklərini vurğuladı. Qeyd edildi ki, milli yenidənqurma prioritetlərinə və Böyük Qayıdış proqramına uyğun olaraq qadınlar bu ərazilərdə sosial, iqtisadi və institusional reinteqrasiya prosesində fəal iştirak edir, infrastrukturun bərpasında, ictimai həyatın yenidən qurulmasında və keçmiş məcburi köçkünlərin təhlükəsiz qayıdışının dəstəklənməsində mühüm rol oynayırlar.

Çıxışının sonunda Milli Məclisin sədri bir daha qeyd etdi ki, qadınlara investisiya qoyuluşu cəmiyyətlərimizdə davamlı inkişafın və uzunmüddətli sabitliyin əsasını təşkil edir. Onların daha inklüziv, dinc və davamlı gələcəyin formalaşdırılmasında bərabər iştirakçı və lider kimi öz potensiallarını tam şəkildə reallaşdırmalarını təmin etmək üçün güclü beynəlxalq əməkdaşlığın və davamlı siyasi iradənin mühüm əhəmiyyəti var.








* * *

Milli Məclisin sədri Sahibə Qafarova Özbəkistanın Buxara şəhərinə işgüzar səfəri çərçivəsində bir sıra mühüm görüşlər keçirdi. Səfərin ilk günü Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə olan görüşdə dost və qardaş ölkələrimiz arasında münasibətlərin mövcud inkişaf səviyyəsindən məmnunluq ifadə edildi, əlaqələrin dərinləşməsində iki ölkənin dövlət başçılarının rolu xüsusi vurğulandı. Tərəflər Azərbaycan və Özbəkistan prezidentlərinin yüksək siyasi iradəsi sayəsində münasibətlərin daha da genişləndiyini, strateji tərəfdaşlığın məzmun etibarilə yeni mərhələyə yüksəldiyini və hazırda ölkələrimizin bir çox sahələrdə uğurlu əməkdaşlıq əlaqələrinə malik olduqlarını bildirdilər.

Görüşdə İkinci Asiya Qadınlar Forumunun dost və qardaş ölkə Özbəkistanda yüksək səviyyədə təşkil olunduğu qeyd edildi. Tədbirin qadınların siyasi, iqtisadi, ictimai həyatda daha fəal iştirakının təşviqinə yönəlmiş təşəbbüslərin daha geniş platformada həyata keçirilməsinə töhfə verəcəyinə inam ifadə olundu.

* * *

Mayın 14-də Sahibə Qafarova dost ölkədə forumun işində iştirak edən Türkmənistan Məclisinin sədri Dünyagözəl Qulmanova ilə də görüşdü. Görüşdə Azərbaycan ilə Türkmənistan arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla qeyd edildi. Tərəflər dövlət başçıları arasında mövcud olan yüksək səviyyəli siyasi dialoqun ikitərəfli əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynadığını bildirdilər.

Söhbət zamanı İkinci Asiya Qadınlar Forumunun əhəmiyyətindən danışıldı, bu platformanın qadınların ictimai-siyasi həyatda iştirakının artırılması, müxtəlif ölkələrin qadın parlamentarilərinin əməkdaşlığının genişlənməsi baxımından mühüm rol oynadığı vurğulandı. Sahibə Qafarova forumun qadınların qərarqəbuletmə proseslərində rolunun gücləndirilməsinə, eləcə də iştirakçı ölkələrin parlamentləri arasında əməkdaşlığın inkişafına və regional həmrəyliyin möhkəmlənməsinə töhfə verdiyini bildirdi.

* * *

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova İkinci Asiya Qadınlar Forumunda iştirak etmək üçün Özbəkistanda səfərdə olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Federal Milli Şurasının sədr müavini Maryam Majid Bin Zeneya ilə görüşdü. Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin qardaşlıq, qarşılıqlı hörmət, etimad və dəstək mühitində inkişaf etdiyi qeyd olundu və münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində ölkələrimizin liderlərinin birgə səylərinin, yüksək səviyyəli qarşılıqlı səfərlərin xüsusi əhəmiyyəti vurğulandı. Ölkələrimizin BMT, İƏT və Qoşulmama Hərəkatı kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində uğurla əməkdaşlığı və qarşılıqlı dəstək nümayiş etdirmələri barədə fikirlər səsləndirildi.

Milli Məclisin sədri Birləşmiş Ərəb Əmirliklərinə səfərlərini xatırladı, orada keçirdiyi görüşlər və müzakirə olunan məsələlər barədə təəssüratlarını bölüşdü. O, BƏƏ-nin parlament təmsilçilərinin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin işində iştirakından məmnunluğunu bildirdi.

Görüşdə ölkələrimiz arasında münasibətlərin ruhuna uyğun olaraq qanunvericilik orqanlarımız arasında da uğurlu əlaqələrin qurulduğu qeyd edildi. Həm qarşılıqlı əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığın müsbət nəticələrin əldə olunmasını şərtləndirdiyi vurğulandı.

Fikir mübadiləsi zamanı Azərbaycan Respublikası Milli Məclisi ilə Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası arasında imzalanmış Anlaşma Memorandumunun tərəflər arasında əməkdaşlığın daha da genişləndirilməsindəki rolu qeyd edildi.










# Milli Məclisə Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu verildi

Milli Məclisin sədri Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasının Parlament Sədrlərinin 1-ci Sammitində iştirak etmək üçün mayın 7-də Monteneqroya işgüzar səfər etdi. Elə həmin gün keçirilən tədbirdə Azərbaycan parlamentinin spikeri Sahibə Qafarova sammitdə çıxış edərək bildirdi ki, son 20 il ərzində Aralıq Dənizi Parlament Assambleyası parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi, strateji əhəmiyyətə malik regionda dialoqun, qarşılıqlı anlaşmanın, sülh və sabitlik naminə ortaq məsuliyyətin təşviqi baxımından mühüm platforma kimi özünü təsdiq edib.

Azərbaycanın coğrafi baxımdan Aralıq dənizi regionunun bir hissəsi olmasa da, Aralıq dənizi hövzəsi və Körfəz ölkələri ilə uzunmüddətli əlaqələrə və konstruktiv münasibətlərə malik olduğunu bildirən Milli Məclisin sədri söylədi ki, ölkəmiz enerji marşrutlarının və təchizatının şaxələndirilməsi vasitəsilə regional və beynəlxalq enerji təhlükəsizliyinə töhfə verir. Qeyd olundu ki, Azərbaycan Şərqlə Qərb arasında nəqliyyat bağlantılarının inkişafında, xüsusilə Orta Dəhliz çərçivəsində fəal rol oynayır. Bu səylər əməkdaşlığın gücləndirilməsinə və ortaq iqtisadi dayanıqlılığın təşviqinə töhfə verir.

Spiker Sahibə Qafarova parlamentlərin beynəlxalq münasibətlərdə getdikcə daha mühüm rol oynadığını və parlament diplomatiyasının dialoqun təşviq edilməsi, şəffaflığın artırılması və dövlətlər arasında etimadın möhkəmləndirilməsi vasitəsilə ənənəvi diplomatiya üslubunu tamamladığını söylədi. O, bunun etibarlı, inklüziv olmasının və beynəlxalq hüquqa, demokratik prinsiplərə, eləcə də qarşılıqlı anlaşmaya əsaslanmasının vacibliyini vurğuladı. Milli Məclisin sədri qeyd etdi ki, parlament diplomatiyası fikir ayrılıqlarının olduğu hallarda belə konstruktiv əməkdaşlıq üçün platforma təqdim etməlidir. Azərbaycan Milli Məclisi bu yanaşmanı dəstəkləyir və çoxtərəfli parlament platformaları çərçivəsində əməkdaşlığa xüsusi önəm verir.

Bu kontekstdə Assambleyanın həm Azərbaycanın, həm də Ermənistanın parlamentlərinə müşahidəçi statusu verməsi qərarını müsbət qiymətləndirən spiker Sahibə Qafarova bildirdi ki, bu ölkələr Prezident İlham Əliyevin qeyd etdiyi kimi, onilliklərlə davam edən münaqişədən sonra sülh şəraitində yaşamağı öyrənirlər. Bu addım sülh və normallaşma istiqamətində davam edən səylərə uyğun olaraq iki ölkə arasında dialoqun və etimad quruculuğunun inkişafına töhfə verə bilər.

Parlamentlərimizin də iki xalq arasında etimadın qurulması istiqa-

mətində çalışdığını söyləyən Sahibə Qafarova dedi ki, Aralıq Dənizi Parlament Assambleyası konstruktiv əməkdaşlıq üçün daha bir mühüm platformaya çevrilə bilər. Milli Məclisin sədri Azərbaycan parlamentinin beynəlxalq əməkdaşlıq sahəsində fəal iştirak etdiyini vurğulayaraq söylədi ki, ölkəmiz parlamentlərarası əməkdaşlığı ortaq çağırışların həlli üçün mühüm vasitə hesab edir.

Spiker xatırlatdı ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi də ölkəmizin qlobal səviyyədə parlament əməkdaşlığının gücləndirilməsinə sadiqliyini əks etdirir. Bu baxımdan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında Anlaşma Memorandumunun imzalanmasının əhəmiyyəti qeyd olundu. Bildirildi ki, bu mühüm addım parlament diplomatiyasının beynəlxalq əməkdaşlığın vacib sütunu kimi münasibətlərimizin gücləndirilməsinə dair ortaq öhdəliyimizi əks etdirir.

Çıxışının sonunda spiker Sahibə Qafarova bir daha diqqətə çatdırdı ki, səmərəli parlament diplomatiyası davamlı öhdəlik və əlaqələndirilmiş fəaliyyət tələb edir. Parlamentlərimiz arasında əməkdaşlığın gücləndirilməsi  sülhə, sabitliyə və davamlı inkişafa yol açacaq.

Aralıq Dənizi Parlament Assambleyasının Parlament Sədrlərinin 1-ci Sammiti çərçivəsində Azərbaycan Respublikasının Milli Məclisinə Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu verildi. Bununla bağlı keçirilən mərasimdə çıxış edən spiker Sahibə Qafarova Azərbaycanın qanunvericilik orqanına təşkilatda müşahidəçi statusunun verilməsi ilə bağlı qərara görə təşəkkür edərək bu qərarı yüksək qiymətləndirdi. Qeyd etdi ki, Assambleyada iştirak üzv parlamentlərlə əlaqələrin daha da gücləndirilməsi və inkişaf etdirilməsi üçün yeni geniş imkanlar yaradır.






Səfər çərçivəsində Milli Məclisin sədri  Monteneqro parlamentinin sədri Andrija Mandiç ilə də görüşdü. Söhbət zamanı Azərbaycan parlamentinin sədri bildirdi ki,  Parlament Assambleyası parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi baxımından mühüm platformadır və 1-ci sammit dost ölkə olan Monteneqroda uğurla təşkil olunub. Tərəflər Azərbaycan-Monteneqro münasibətlərinin inkişafında qarşılıqlı səfərlərin, siyasi dialoqun və parlamentlərarası təmasların mühüm rolunu qeyd edərək əməkdaşlığın həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə etdilər. Milli Məclisin sədri Azərbaycan-Ermənistan sülh prosesi barədə də qarşı tərəfi məlumatlandırdı.

Öz növbəsində Monteneqro tərəfi də regionda sülhün bərqərar olunmasını hər iki ölkə üçün siyasi qələbə kimi qiymətləndirdiklərini və bu prosesi dəstəklədiklərini bildirdi.

Səfər çərçivəsində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında Anlaşma Memorandumu imzalandı. Memorandumu Milli Məclisin və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin sədri Sahibə Qafarova və Aralıq Dənizi Parlament Assambleyasının prezidenti Culio Çentemero imzaladılar. Qeyd olundu ki, bu sənəd tərəflər arasında daha geniş əməkdaşlıq əlaqələrinin qurulmasına xidmət edəcəkdir.



# Azərbaycan-Çin münasibətləri yüksələn xətlə inkişaf edir

Martın 24-də Milli Məclisin sədri Sahibə Qafarova Asiya naminə Boao Forumunda iştirak etmək üçün Çinin Boao şəhərinə işgüzar səfər etdi. Spiker Sahibə Qafarova Çinə səfəri çərçivəsində Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədri Cao Lıci ilə görüşdü. Azərbaycan parlamentinin spikerini səmimiyyətlə salamlayan Cao Lıci qeyd etdi ki, Milli Məclis sədrinin bu forumda iştirak məqsədilə Çinə səfəri ölkəmizin ikitərəfli əlaqələrə verdiyi əhəmiyyətin və foruma dəstəyin göstəricisidir.

Dərin tarixi köklərə əsaslanan, möhkəm təməllər üzərində qurulan, xalqlarımızın fundamental maraqlarına cavab verən dostluq əlaqələrinin inkişafından məmnunluğunu bildirən Daimi Komitənin sədri Cao Lıci Azərbaycan ilə Çin arasında diplomatik əlaqələrin qurulmasın-



dan keçən 34 il ərzində münasibətlərimizin qarşılıqlı hörmət və dəstəklə müşayiət olunduğunu diqqətə çatdırdı. O bildirdi ki, son illərdə iki ölkə başçısının müdrik rəhbərliyi sayəsində münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ötən il Azərbaycan və Çin liderləri arasında iki görüş keçirilib. Ümumçin Xalq Nümayəndələri Məclisi dövlət başçılarının bu fəaliyyətinin dəstəklənməsi və ölkələrimiz arasında əlaqələrə yeni ölçülərin qazandırılması məqsədilə Azərbaycan parlamenti ilə birgə işləmək niyyətindədir.

Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanın ünvanına söylədiyi xoş sözlərə görə Cao Lıciyə təşəkkürünü bildirərək müxtəlif ölkələrdə keçirilən beynəlxalq tədbirlər çərçivəsində görüşlərini məmnunluqla xatırladı. Azərbaycan Respublikası Milli Məclisinin sədri kimi Çinə ilk səfəri olduğunu deyən spiker bildirdi ki, bu səfər parlamentlərimiz arasında münasibətlərin daha da genişlənməsinə və qarşılıqlı səfərlərin artmasına töhfə verəcək.

Gələn il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 35 illiyinin qeyd olunacağını söyləyən parlament sədri vurğuladı ki, bu münasibətlər həmişə dostluq, qarşılıqlı hörmət və dəstək üzərində qurulub. Bu gün Azərbaycan-Çin əməkdaşlığı bir çox sahələr üzrə genişlənməkdə davam edir. Sahibə Qafarova son dövrlərdə bu münasibətlərin yeni mərhələyə yüksəldiyini və Prezident İlham Əliyevin ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsinə böyük əhəmiyyət verdiyini vurğuladı.

Görüşdə ölkələrimizin liderləri arasında mövcud olan səmimi münasibətlərin, qarşılıqlı hörmət və etimadın tərəfdaşlığın inkişafında mühüm rol oynadığı dilə gətirildi. Prezident İlham Əliyevin ötən ilin aprel ayında Çinə baş tutan dövlət səfəri zamanı hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalandığı xatırlandı. Söhbət zamanı ərazi bütövlüyü və suverenliyi məsələsinə də qarşılıqlı dəstək ifadə olundu.

Cao Lıci Azərbaycanın "Vahid Çin" siyasətinə, Çinin Tayvan, Honkonq və Sintszyan-Uyğur Muxtar regionlarına dair mövqeyinə dəstəyini və bu istiqamətdə verdiyi bəyanatları yüksək qiymətləndirdiklərini bildirdi. O, Çin vətəndaşlarının İrandan təxliyə olunmasındakı köməyə görə Azərbaycana təşəkkür etdi və Çinin daim ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə dəstək göstərdiyini vurğuladı.

Görüşdə Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olduğu və Çin tərəfinin bunu yüksək qiymətləndirdiyi qeyd edildi. Sahibə Qafarova vurğuladı ki, bu gün Orta Dəhliz Çin ilə Avropanı Xəzər dənizi vasitəsilə birləşdirən etibarlı, təhlükəsiz və səmərəli marşrutdur.

Söhbət zamanı ölkələrimizin ticarət, nəqliyyat, kommunikasiya məsələlərində birgə işləməsindən, həmçinin Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə yükdaşımaların artmasından məmnunluq ifadə edildi. Qeyd olundu ki, Çin rəqəmsal inkişaf, süni intellekt, yaşıl enerji kimi sahələr üzrə də əlaqələrin inkişafında maraqlıdır. Vizaların qarşılıqlı ləğvi, ilk ölkə arasında birbaşa uçuşların yaratdığı imkanlardan istifadə əlaqələrimizi daha da inkişaf etdirəcək.

Görüşdə Cao Lıci Azərbaycanın beynəlxalq rolunun getdikcə daha da güclədiyini, Çinin bu sahədə Azərbaycana dəstəyini və ölkəmizlə əlaqələndirməni daha da artırmaq niyyətində olduğunu dedi. O, Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına üzvlüyünü və ölkəmizin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyini yüksək qiymətləndirdi.

Söhbət zamanı humanitar və mədəni əməkdaşlıq məsələlərinə də diqqət yetirildi. Milli Məclisin sədri ölkələrimiz arasında mədəni sahədə uğurlu layihələr həyata keçirildiyini bildirdi, xüsusilə Heydər Əliyev Fondu ilə Çin Xalq Respublikasının Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasındakı yüksək səviyyəli əməkdaşlıqdan söhbət açdı. Spiker






Sahibə Qafarova Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı Ümumçin Xalq Nümayəndələri Məclisinin Daimi Komitəsinin sədri ilə keçirdiyi görüşləri parlamentlərarası əlaqələrə verilən əhəmiyyətin göstəricisi kimi dəyərləndirdi. Vurğulandı ki, hazırda hər iki ölkənin qanunvericilik orqanları arasında fəal və səmərəli əməkdaşlıq mövcuddur. Spikerlər və parlament nümayəndə heyətləri mütəmadi qarşılıqlı səfərlər həyata keçirir və millət vəkilləri parlamentlərimizin ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdə fəal iştirak edir, bir-birinə qarşılıqlı dəstək göstərir, fikir mübadiləsi aparırlar.

Söhbət zamanı gələcəkdə bu əlaqələrin daha da genişləndirilməsinin və təmasların artırılmasının əhəmiyyətinə dair ortaq fikirlər səsləndirildi, parlament komitələri arasında əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirildi.

Görüşün yekununda Cao Lıci Ümumçin Xalq Nümayəndələri Yığıncağının 14-cü sessiyasının yekunları, qəbul edilən qərarlar, Çinin əldə etdiyi sosial-iqtisadi nailiyyətlər haqqında geniş məlumat verdi və bu təcrübəni dost ölkələrlə, o cümlədən Azərbaycanla paylaşmağa hazır olduqlarını söylədi.

Milli Məclisin sədri Sahibə Qafarova Çin Xalq Respublikasına işgüzar səfəri çərçivəsində Asiya naminə Boao Forumunun İllik Konfransında çıxış etdi. O, çıxışında artan geosiyasi gərginliklər, dərinləşən bərabərsizliklər və qlobal çağırışlar dövründə kollektiv düşüncə və əlaqələndirilmiş fəaliyyət üçün forumun mühüm platforma kimi çıxış etdiyini dedi. Azərbaycan parlamentinin sədri 25 ildən artıq müddətdə forumun öz dəyərini sübut etdiyi, liderlərin və ekspertlərin bir araya gələrək praktik həll yolları irəli sürdüyü, davamlı inkişafı təşviq etdiyi və beynəlxalq əməkdaşlığı gücləndirdiyi bir məkan kimi tanınması barədə fikirlərini bölüşdü.

Sahibə Qafarova çıxışında müasir beynəlxalq arenada Çinin artan roluna diqqət çəkdi, dost ölkənin bugünkü beynəlxalq münasibətlər sistemində mühüm və konstruktiv rol oynamasından danışdı. Onun sözlərinə görə, Çinin iqtisadi, sosial və texnoloji inkişaf sahəsində əldə etdiyi möhtəşəm nailiyyətlər və bu uğurları bölüşmək səyləri bəşəriyyət üçün ortaq gələcəyə əsaslanan, irəliyə yönəlmiş baxışı əks etdirir.

Spiker qeyd etdi ki, Çin Xalq Respublikasının sədri Si Cinpin tərəfindən irəli sürülmüş və Azərbaycan tərəfindən də dəstəklənən Qlobal İnkişaf, Qlobal Təhlükəsizlik, Qlobal Sivilizasiya və Qlobal İdarəetmə təşəbbüsləri əməkdaşlıq, qarşılıqlı hörmət əsasında daha inklüziv, təhlükəsiz və dayanıqlı dünya qurmaq üçün əməkdaşlığa və ortaq məsuliyyətə söykənən hərtərəfli çərçivə təqdim edir.

Milli Məclisin sədri çıxışında Azərbaycan-Çin münasibətləri barədə tədbir iştirakçılarına məlumat verdi. Sahibə Qafarova söylədi ki, ortaq baxışlar ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır və münasibətlərimiz gündən-günə yüksəlir. Son dövrlərdə yüksək səviyyəli qarşılıqlı səfərlər, o cümlədən Prezident İlham Əliyevin Çinə bir neçə səfəri, strateji və hərtərəfli strateji tərəfdaşlığa dair birgə bəyannamələrin imzalanması ölkələrimiz arasında siyasi dialoqun dərinliyini, qarşılıqlı etimadı və genişlənən əməkdaşlığı açıq şəkildə nümayiş etdirir. O, Azərbaycanın Çinin təşəbbüslərini tam dəstəklədiyini və bu prinsipləri bölüşdüyünü qeyd etdi.

Milli Məclisin sədri forum iştirakçılarının diqqətinə çatdırdı ki, Azərbaycan təxminən üç onillik davam edən işğala məruz qaldıqdan və beynəlxalq hüquqa uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra suverenlik, ərazi bütövlüyü və daxili işlərə




qarışmama prinsiplərinə xüsusi əhəmiyyət verir. Spiker Sahibə Qafarova ölkə başçısı tərəfindən müəyyən edilən milli baxışın sülhə, inkişafa, çoxtərəfliliyə, qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslandığını vurğuladı. O, çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qlobal təşəbbüsləri barədə tədbir iştirakçılarına məlumat verdi. Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkəmizin fəal şəkildə Qlobal Cənubun maraqlarını təşviq etdiyini, qurumun institusional əsaslarının möhkəmləndirilməsinə töhfə verdiyini söylədi. Onun sözlərinə görə, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan və hazırda Azərbaycan Milli Məclisinin sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi parlamentlərarası əməkdaşlıq vasitəsilə ümumi məqsədlərə nail olmaq üçün mühüm platforma təqdim edir. Eyni zamanda, COP29-a ev sahibliyi edən Azərbaycan Qlobal Şimal və Qlobal Cənub arasında fikir ayrılıqlarını aradan qaldırmaq və qlobal iqlim gündəliyi üzrə əsas nəticələrin əldə olunmasına töhfə vermək üçün fəal surətdə çalışır.

Spiker Azərbaycanın həmçinin Qlobal Bakı Forumu kimi platformalar vasitəsilə sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi kimi məsələlər üzərində fəal işləməyə davam etdiyini də vurğuladı.

Milli Məclisin sədri yaxın zamanlarda Azərbaycanın Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyini, o cümlədən Bakıda cari ilin payızında Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Quruculuğu üzrə Müşavirənin zirvə toplantısının keçiriləcəyini diqqətə çatdıraraq bunları ölkəmizin beynəlxalq əməkdaşlığa sadiqliyinin nümunəsi kimi dəyərləndirdi.

Sahibə Qafarova çıxışında qeyd etdi ki, son qlobal proseslər bir daha enerji təhlükəsizliyinin, nəqliyyat və kommunikasiyanın strateji baxımdan nə qədər vacib olduğunu göstərdi. O vurğuladı ki, Azərbaycan geniş bir regionda enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır, eyni zamanda, yaşıl enerji sahəsinə davam edən investisiyalar bu töhfəni daha da gücləndirəcək.

Sədr çıxışında Azərbaycanın Avrasiya üzrə əsas nəqliyyat qovşaqlarından birinə çevrildiyini, "Bir kəmər, bir yol" təşəbbüsünün ilk dəstəkçilərindən biri kimi onun inkişafına fəal şəkildə töhfə verməyə davam etdiyini diqqətə çatdırdı. Qeyd olundu ki, Azərbaycan Çindən sonra bu təşəbbüsə ən böyük sərmayə qoyan ikinci ölkədir. Bildirildi ki, bu gün Orta Dəhlizin Avropanı Mərkəzi Asiya və Çin ilə Xəzər dənizi vasitəsilə birləşdirən ən optimal və təhlükəsiz marşrutlardan biri olması danılmazdır. Eyni zamanda, Azərbaycan və Ermənistan arasında sülh prosesi çərçivəsində ölkəmizin qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat və kommunikasiya əlaqələrinin bərpası Orta Dəhlizin səmərəliliyini daha da artıracaqdır. Xüsusilə Orta Dəhliz Avropa ilə Asiyanı birləşdirən etibarlı və səmərəli marşrut kimi özünü doğrultmaqdadır.

Spiker Sahibə Qafarova çıxışının sonunda Prezident İlham Əliyevin də vurğuladığı kimi, layihələrimizin yalnız iqtisadi faydalar gətirmək üçün deyil, eyni zamanda, sabitliyi, qarşılıqlı bağlılığı və xalqlar arasında etimadı təşviq etmək üçün nəzərdə tutulduğunu bildirdi. O qeyd etdi ki, Boao Forumu da bir daha tərəfdaşlıq, dialoq, qarşılıqlı hörmət vasitəsilə ümumi çağırışların öhdəsindən daha səmərəli şəkildə gələ biləcəyimizi və sabit, firavan gələcək quracağımızı göstərir.

# Milli Məclis sədrinin görüşləri



Milli Məclisin sədri Sahibə Qafarova mayın 19-da ölkəmizdə səfərdə olan Belarus Respublikası Milli Assambleyası Nümayəndələr Palatasının sədri İqor Sergeyenko ilə görüşdü. Qonaq Milli Məclisin plenar iclas zalı ilə tanışlıqdan sonra Ulu Öndər Heydər Əliyevin adını daşıyan xatirə zalında eksponatlarla tanış oldu, xatirə kitabına ürək sözlərini yazdı.

Təkbətək keçirilən görüşdən sonra tərəflər arasında geniş tərkibdə görüş keçirildi. Qonağın Azərbaycana ilk rəsmi səfəri olduğunu vurğulayan spiker qarşılıqlı münasibətlərin inkişafında iki ölkənin dövlət başçıları arasında yüksək səviyyəli əməkdaşlığın mühüm rolundan danışdı. O, ali və yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin və imzalanan sənədlərin əlaqələrin daha da dərinləşməsini təmin etdiyini diqqətə çatdırdı. Ölkələrimizin beynəlxalq təşkilatlarda da uğurla əməkdaşlıq etdiyi, beynəlxalq platformalarda bir sıra məsələlərdə bir-birinə qarşılıqlı dəstək verdiyi də nəzərə çatdırıldı. Parlamentlərimiz arasında münasibətlərin indiki səviyyəsindən razılıq bildirildi.

İqor Sergeyenko Prezident İlham Əliyevin WUF13-ün açılış mərasimindəki çıxışında şəhərsalma sahəsində mühüm məsələlərə toxunduğunu söylədi. Qonaq parlamentlərarası əməkdaşlıq və qanunvericilik sahəsində təcrübə mübadiləsi barədə də fikirlərini bölüşdü.

Görüşdən sonra Milli Məclisin sədri Sahibə Qafarova və Belarus Milli Assambleyası Nümayəndələr Palatasının sədri İqor Sergeyenko mətbuata bəyanatla çıxış etdilər.

Mayın 6-da Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Monqolustanın Baş prokuroru Jarqalsayxan Banzraqçın başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi. Spiker qonağa 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasından keçən illər ərzində münasibətlərimizin dostluq, qarşılıqlı dəstək və hörmət əsasında inkişaf etdiyini söylədi.

Milli Məclisin sədri Prezident İlham Əliyevin 2024-cü ilin noyabrında Bakıda keçirilmiş COP29-da iştirak etmək üçün ölkəmizə səfərə gələn Monqolustan Prezidenti Uxnaaqinya Xurelsux ilə görüşünün əhəmiyyətindən danışdı. Bildirildi ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edirlər.

Spiker qonağa Milli Məclisin Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə qarşılıqlı münasibətləri, ölkəmizin parlamentarizm tarixi, qanunvericilik orqanının müasir strukturu və qanun yaradıcılığı prosesi barədə ətraflı məlumat verdi. Qeyd olundu ki, hazırda fəaliyyət göstərən VII çağırış Milli Məclis 2024-cü ildə keçirilmiş şəffaf seçki nəticəsində formalaşıb. Həmin seçki Azərbaycanın bütün suveren ərazisində keçirilmiş ilk parlament seçkisi kimi xüsusi əhəmiyyət kəsb edir.

Öz növbəsində Monqolustanın Baş prokuroru Jarqalsayxan Banzraqç ölkəmizə səfəri barədə təəssüratlarını bölüşdü. İki ölkənin prokurorluq orqanları arasında əlaqələrin inkişafından söz açan qonaq Azərbaycan Baş prokurorluğu ilə əməkdaşlığın perspektivlərindən danışdı.



Mayın 13-də ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikası Milli Şurasının sədri Rixard Raşinin başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisdə oldu. Slovakiya Milli Şurasının sədri parlamentin plenar iclas zalı ilə tanış olduqdan sonra Ulu Öndər Heydər Əliyevin adını daşıyan xatirə zalını ziyarət etdi, xatirə kitabına ürək sözlərini yazdı.

Sonra tərəflər arasında geniş tərkibdə görüş keçirildi. Milli Məclisin sədri Slovakiyaya rəsmi səfəri zamanı keçirdiyi görüşlərdən məmnunluğunu ifadə etdi. O, dost ölkənin Milli Şurası sədrinin bu vəzifədə ilk səfərini Azərbaycana etməsini parlamentlərarası münasibətlərimizin davamlı şəkildə inkişafının göstəricisi olduğunu diqqətə çatdırdı.

Sahibə Qafarova ikitərəfli əlaqələrin inkişafı üçün dövlət başçılarının səfərlərinin önəmini vurğuladı və 2024-cü ilin mayında iki ölkə arasında imzalanmış "Strateji Tərəfdaşlığın Qurulması haqqında Birgə Bəyannamə"nin gələcək əməkdaşlıq sahələrini müəyyənləşdirdiyini diqqətə çatdırdı.

İki ölkənin parlamentlərarası münasibətlərindən söz açan spiker qeyd etdi ki, bu əməkdaşlıqda qarşılıqlı səfərlərin və parlamentlərararsı dostluq qruplarının xüsusi rolu var.

Görüşdə Slovakiya Respublikası Milli Şurasının sədri Rixard Raşi ölkəmizə səfəri və Prezident İlham Əliyevlə görüşü barədə təəssüratlarını bölüşdü. Qonaq parlamentlərarası münasibətlərin vacibliyi baxımından millət vəkilləri, parlament komitələri, parlamentlərarası əlaqələr üzrə işçi qrupları arasında mütəmadi səfərlərin və təcrübə mübadiləsinin zəruriliyindən danışdı. O, Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) əhəmiyyətini qeyd etdi.

Söhbət zamanı Avropa Parlamentinin parlament diplomatiyasına və konstruktiv dialoqa uyğun gəlməyən fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparıldı. Qonaq iki ölkə arasında iqtisadi, təhsil, mədəniyyət, müdafiə sənayesi, enerji təhlükəsizliyi və digər sahələrdə münasibətlərin inkişaf perspektivləri barədə fikirlərini bölüşdü.

Görüşdən sonra Azərbaycan Respublikasının Milli Məclisi ilə Slovakiya Respublikası Milli Şurası arasında Anlaşma Memorandumu imzalandı.

Mayın 4-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın (PAİ) Baş katibi Martin Çunqonqla görüşdü. Spiker Sahibə Qafarova qurumun Milli Məclislə uğurlu əməkdaşlıq etdiyini, xüsusilə 2021-ci ildən etibarən Azərbaycan parlamenti deputatlarının PAİ-də daha da fəallaşdıqlarını və bir sıra rəhbər vəzifələrdə təmsil olunduqlarını diqqətə çatdırdı. O, qonağın Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə əməkdaşlığa dəstək verməsindən razılığını bildirdi.

Spiker həm qarşılıqlı əlaqələrin inkişafı baxımından, həm də Azərbaycan və Ermənistan parlament sədrlərinin görüşlərinin təşkilində göstərdiyi səylərə görə Martin Çunqonqa minnətdarlığını ifadə etdi. PAİ-nin insanların bir-birini dinləyə biləcəyi və dialoq qurduğu çox mühüm bir platforma olduğunu deyən Milli Məclisin sədri Prezident İlham Əliyevin PAİ ilə münasibətlərin inkişafına verdiyi dəstəyin və göstərdiyi diqqətin mühüm əhəmiyyət daşıdığını vurğuladı.

Öz növbəsində Martin Çunqonq onun bu quruma rəhbərlik etdiyi dövrdə PAİ-Azərbaycan əlaqələrinin transformasiya olunduğunu söylədi. Qonaq Azərbaycan Prezidenti İlham Əliyevin PAİ ilə əməkdaşlığa verdiyi mühüm dəstəyə görə təşəkkürünü bildirdi və diqqətə çatdırdı ki, onun bu səfəri Azərbaycanın bu quruma etimadının və inamının bir göstəricisidir.

Martin Çunqonq Azərbaycan Milli Məclisi sədrinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə rəhbərliyinin həm Şəbəkənin, həm də PAİ ilə əlaqələrin inkişafında böyük rol oynadığını qeyd etdi. Söhbət zamanı Baş katib Azərbaycanda COP29 çərçivəsində keçirilmiş Parlament konfransında əldə edilmiş uğurları yüksək qiymətləndirdi.

Görüşün sonunda parlamentlər arasında konstruktiv dialoqun və səmərəli əməkdaşlığın inkişafında göstərdiyi xidmətlərə, Azərbaycan Respublikasının Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasında ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsinə və genişlənməsinə verdiyi töhfələrə görə PAİ-nin Baş katibi Martin Çunqonq Milli Məclisin Fəxri Medalı ilə təltif edildi.



Aprelin 30-da Milli Məclisin sədri Sahibə Qafarova Yunanıstan Respublikasının ölkəmizə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Maria K.Papakonstantinu ilə görüşdü. Görüşdə ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlıq etdiyi diqqətə çatdırıldı, siyasi dialoq və yüksək səviyyəli səfərlərin münasibətlərin inkişafında müstəsna rolu vurğulandı.

Söhbət zamanı parlamentlərarası əlaqələrin ölkələr arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın mühüm istiqamətlərindən biri olduğu qeyd edildi və beynəlxalq təşkilatlar çərçivəsində münasibətlərin önəmi vurğulandı. Parlamentlərarası İttifaqın, ATƏT Parlament Assambleyasının, NATO Parlament Assambleyasının və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının bu baxımdan yaxşı imkanlar yaratdığı bildirildi.

Maria K.Papakonstantinu Azərbaycana səfir təyin olunmasından şərəf hissi duyduğunu söylədi və fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərin daha da dərinləşdirilməsinə töhfə verməyə çalışacağını bildirdi.

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auld ilə də görüşdü. Söhbətdə dost və tərəfdaş ölkələrimiz arasında münasibətlərin qarşılıqlı etimad və dəstəyə əsaslanaraq siyasi, iqtisadi, humanitar sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Yüksək səviyyəli səfərlərin və görüşlərin ölkələrimiz arasında əməkdaşlıq gündəliyinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti önə çəkilərək Prezident İlham Əliyevin Birləşmiş Krallığa səfərlərindən, Birləşmiş Krallığın Baş naziri Kir Starmerin COP29-da iştirak üçün ölkəmizə səfərindən, həmçinin qarşı tərəfdən reallaşdırılan bir sıra digər yüksək səviyyəli səfərlərdən söhbət açıldı.

Milli Məclisin sədri Sahibə Qafarova özünün Birləşmiş Krallığa səfərlərini, həmçinin Birləşmiş Krallığın ölkəmizdə səfərdə olan yüksək səviyyəli təmsilçiləri ilə keçirdiyi çoxsaylı görüşləri məmnunluqla xatırladı. O, qanunvericilik orqanları arasında əlaqələrin daha da genişləndirilməsində qarşılıqlı səfərlərin və sıx dialoqun əhəmiyyətindən danışdı.

Görüşdə tərəflər humanitar sahədə əməkdaşlıq məsələlərinə də toxundular.

Milli Məclisin sədri Sahibə Qafarova aprelin 27-də Sudan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ənəs Eltayeb Elqaylani Mustafa ilə görüşdü. Görüşdə gələn il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 35-ci ildönümünün tamam olacağı qeyd edildi. Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhanın 2019-2024-cü illərdə ölkəmizə səfərlər etdiyi, ötən il Antalya Diplomatiya Forumu çərçivəsində ölkə başçıları arasında görüş keçirildiyi vurğulandı.

Söhbət zamanı spiker Sahibə Qafarova Azərbaycanla Sudanın BMT-də, İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında və digər beynəlxalq qurumlarda uğurla əməkdaşlıq etdiyini



və daim bir-birini dəstəklədiyini söylədi. O, Milli Məclisin də gələcəkdə Sudan tərəfi ilə beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq etməkdə maraqlı olduğunu bildirdi.

Səfir Ənəs Eltayeb Elqaylani Mustafa Milli Məclisin fəaliyyətini yaxından izlədiyini, ölkəsinin Azərbaycanın beynəlxalq parlamentlərarası dialoq və əməkdaşlığın inkişaf etdirilməsində öncül rolunu yüksək qiymətləndirdiyini vurğuladı.

Aprelin 23-də Milli Məclisin sədri Sahibə Qafarova Çin Xalq Respublikası Dövlət İnternet-informasiya Ofisinin naziri Cuan Junvenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdü. Görüşdə ölkələrimizin strateji tərəfdaşlıq mərhələsinə yüksəlmiş əlaqələrinin inkişafından məmnunluq ifadə olundu.

Milli Məclisin sədri Sahibə Qafarova Asiya naminə Boao Forumunun illik konfransında iştirakını məmnunluqla xatırladı. O, konfrans çərçivəsində Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Cao Lıci ilə keçirdiyi görüşü və aparılan söhbətləri parlamentlərarası əlaqələrin inkişafı baxımından yüksək qiymətləndirdi.

Milli Məclisin sədri qonağa Azərbaycanda həyata keçirilən rəqəmsal transformasiya siyasəti barədə məlumat verdi. Bildirildi ki, son illər Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə dövlətin yeni rəqəmsal arxitekturasının formalaşdırılması istiqamətində ardıcıl siyasət həyata keçirilir. Spiker bu kontekstdə cari ilin fevral ayında "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirənin əhəmiyyətindən danışdı. O, Milli Məclisin də öz növbəsində bu sahədə qanunvericilik bazasının formalaşdırılmasına mühüm töhfə verdiyini, müasir dövrdə kibertəhlükəsizliyin ölkələrin milli mühafizəsinin mühüm tərkib hissəsi olduğunu vurğuladı.

Çin Xalq Respublikası Dövlət İnternet-informasiya Ofisinin naziri Cuan Junven ölkəsinin Azərbaycanla bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığa böyük önəm verdiyini bildirdi. Son illər Çinin informasiya texnologiyaları sahəsində əldə etdiyi nailiyyətlər barədə geniş söhbət açan qonaq söylədi ki, ölkəsi Azərbaycanla internet, kibertəhlükəsizlik, rəqəmsal iqtisadiyyat, süni intellekt və digər mühüm istiqamətlər üzrə əməkdaşlığı genişləndirməyə hazırdır. O, Azərbaycanda bu sahədə görülən işləri, habelə ölkə əhalisinin 90 faizdən çoxunun internetə əlçatanlığını yüksək qiymətləndirərək bu istiqamətdə əldə olunan nəticələrin məmnunluq doğurduğunu dedi.

Söhbət zamanı tərəflər Azərbaycan ilə Çin arasında həqiqi dostluğa, qarşılıqlı hörmətə əsaslanan münasibətlərin bundan sonra da xalqların rifahı naminə bütün istiqamətlərdə uğurla inkişaf edəcəyinə əminliklərini bildirdilər.

Milli Məclisin sədri Sahibə Qafarova aprelin 22-də ölkəmizdə rəsmi səfərdə olan Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü. Əvvəlcə Latviya Prezidenti Milli Məclisin plenar iclas zalı ilə tanış oldu, Ulu Öndər Heydər Əliyevin adını daşıyan Xatirə zalını ziyarət edə-



rək Xatirə kitabına ürək sözlərini yazdı.

Sonra geniş tərkibdə keçirilən görüşdə Sahibə Qafarova ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafı üçün yüksək səviyyəli qarşılıqlı səfərlərin və müntəzəm siyasi dialoqun vacibliyini qeyd etdi. 2022-ci ildə Latviyaya rəsmi səfərini xatırlayan Milli Məclisin sədri həmin səfərin nəticələrindən və keçirdiyi görüşlərdən məmnunluqla söz açdı. Parlamentlərarası münasibətlərə toxunan spiker söylədi ki, bu sahədə sıx əməkdaşlıq qurulub. O, 2021-ci ildə Latviya parlamentinin dostluq qrupu üzvlərinin işğaldan azad edilmiş Ağdam və Füzuli şəhərlərinə, 2024-cü ildə isə Seymin sabiq sədri xanım Dayqa Mierinyanın Füzuli və Şuşa şəhərlərinə səfər etmələrini xatırladı.

Parlamentlərimiz arasında mövcud olan sıx əməkdaşlıqdan söhbət açan sədr qonağa Azərbaycan və Ermənistan arasında normallaşma prosesi, ölkəmizin müstəqillik və parlamentarizm tarixi, parlamentin strukturu və fəaliyyəti barədə də ətraflı məlumat verdi.

Öz növbəsində Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşündən aldığı təəssüratlarını bölüşdü. O, Azərbaycanı həm Latviya, həm də Avropa İttifaqı üçün dəyərli strateji tərəfdaş hesab etdiklərini diqqətə çatdırdı.

Edqars Rinkeviçs Azərbaycanla Ermənistan arasında sülh prosesində əldə olunmuş real irəliləyişdən məmnunluğunu bildirdi və Azərbaycan Prezidenti İlham Əliyevin sülh prosesindəki səylərini yüksək qiymətləndirdi.

Azərbaycana bu səfəri zamanı müzakirə olunmuş məsələlərin və imzalanmış sənədlərin əhəmiyyətindən danışan Latviyanın dövlət başçısı tezliklə əldə edilmiş razılaşmaların öz bəhrəsini verəcəyinə əminliyini bildirdi.

O, parlamentlərarası əlaqələrin önəmini vurğulayaraq bu baxımdan deputatlar arasında mütəmadi səfərlərin və təcrübə mübadiləsinin əhəmiyyətindən danışdı. İki ölkə arasında iqtisadi, təhsil, investisiya, informasiya texnologiyaları, kənd təsərrüfatı, turizm və digər sahələrdə münasibətlərin inkişaf perspektivləri barədə fikirlərini bölüşdü.

Aprelin 21-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan İrlandiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Toni MakKormakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü. Söhbət zamanı Sahibə Qafarova ötən ilin iyul ayında İrlandiyaya səfərini və İrlandiya parlamentinin spikeri Verona Mörfi ilə görüşünü xatırlatdı. O, bu cür təmaslar zamanı parlamentlərimiz arasında əlaqələrin inkişaf etdirilməsi ilə bağlı razılığa gəlindiyini söylədi və bunun parlamentlərarası əlaqələrin daha da inkişafına təkan verəcəyinə inamını ifadə etdi.

Səfərə dəvətə və göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən Toni MakKormak spiker Verona Mörfinin salamlarını Milli Məclisin sədrinə çatdırdı. Qeyd olundu ki, parlamentlərimiz arasında daha sıx əlaqələrin qurulması üçün imkanlar mövcuddur. O, bu cür səfər və təmasların da bu məqsədə xidmət etdiyini söylədi.

Spiker Sahibə Qafarova qonaqlara Azərbaycanın demokratik inkişafı və əldə olunan nailiyyət-



lər, o cümlədən qanunvericilik orqanının işi, parlamentin beynəlxalq fəaliyyəti haqqında məlumat verdi. Söhbət zamanı Azərbaycan və Ermənistan arasında normallaşma və sülh prosesi haqqında da fikir mübadiləsi aparıldı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər nəzərdən keçirildi.

Milli Məclisin sədri Sahibə Qafarova aprelin 9-da ölkəmizdə rəsmi səfərdə olan Litva Respublikasının Baş naziri İnqa Ruqiniene ilə görüşdü. Spiker Litva Baş nazirinin ölkəmizə rəsmi səfərini iki dövlət arasında mövcud olan dostluq münasibətlərinin daha da genişləndirilməsi niyyətinin göstəricisi kimi dəyərləndirdi.

Sahibə Qafarova ölkələrimiz arasında imzalanmış sənədlərin əməkdaşlıq üçün möhkəm hüquqi baza yaratdığını qeyd etdi və müqavilə-hüquq bazasının daha da genişləndirilməsinin vacibliyini diqqətə çatdırdı. Humanitar sahədə əməkdaşlıqdan danışan Milli Məclisin sədri təhsil və mədəniyyət sahələrində əlaqələrin xalqlar arasında münasibətlərin dərinləşməsində mühüm rol oynadığını bildirdi. Spiker Litva ali təhsil müəssisələrində çoxlu sayda azərbaycanlı tələbələrin təhsil aldığını və sıx-sıx qarşılıqlı mədəni tədbirlərin keçirildiyini məmnuniyyətlə dilə gətirdi.

Görüşdə iki ölkə arasında parlamentlərarası əməkdaşlığın əhəmiyyətinə toxunuldu.

Litva Respublikasının Baş naziri İnqa Ruqiniene ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına böyük önəm verdiyini, iqtisadiyyat, humanitar, müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığın zəruriliyini diqqətə çatdırdı. Litva parlamentində Azərbaycanla dostluq qrupunun üzvü olduğunu bildirən qonaq ikitərəfli münasibətlərin inkişafında parlamentlərin rolundan söz açdı, işçi qruplarının fəaliyyətinin genişləndirilməsinin və qarşılıqlı səfərlərin təşviq olunmasının əhəmiyyətinə toxundu.

Söhbət zamanı Azərbaycan ilə Litva arasında mövcud dostluq münasibətlərinin və qarşılıqlı əməkdaşlığın inkişaf perspektivləri, siyasi dialoqun əlaqələrin genişləndirilməsində mühüm rolu barədə fikir mübadiləsi aparıldı.

Görüşdən sonra qonaqlar Milli Məclisin plenar iclas zalı və parlamentin foyesində yaradılmış “Zəfər guşəsi” ilə tanış oldular, xatirə şəkli çəkdirdilər.

Aprelin 9-da Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin dostluq qruplarının 3-cü iclasının iştirakçıları ilə görüşdü. Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri, Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Ziya Öztürklərin və Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın rəhbərlik etdikləri nümayəndə heyətlərini salamlayan spiker Sahibə Qafarova Prezident İlham Əliyevin “Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır” deyimini xatırladaraq bildirdi ki, ölkələrimiz və xalqlarımız arasında olan münasibətlərin daha da genişləndirilməsinə yönəlmiş addımlar dövlət başçımızın bu fikrini əks etdirir.

Söhbət zamanı bu münasibətlərin xalqlarımızın təmsilçiləri olaraq parlamentlər səviyyəsində də uğurla davam etdirildiyi və qanunvericilik orqanlarımızın həm



ikitərəfli əsasda, həm də üçtərəfli formatda əməkdaşlıq etdikləri qeyd olundu. Bu mənada Azərbaycan-Türkiyə-Şimali Kipr Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üçtərəfli formatının əhəmiyyəti vurğulandı və bu əməkdaşlığın parlamentlər arasında əlaqələrin inkişafına, ortaq maraqların müdafiəsinə və həmrəyliyin gücləndirilməsinə xidmət etdiyi diqqətə çatdırıldı.

Ziya Öztürklər Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi həmrəyliyə, dostluğa, qardaşlığa və dəstəyə görə təşəkkürlərini bildirdi, Milli Məclisdə Şimali Kipr ilə dostluq qrupunun yaradılmasını vacib addım kimi dəyərləndirdi. Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım dost və qardaş ölkələrimiz arasında münasibətlərin parlament müstəvisində də davam etdirilməsinin əhəmiyyəti və üçtərəfli formatda əlaqələrin daha da genişləndirilməsi ilə bağlı fikirlərini bölüşdü.

Milli Məclisin sədri Sahibə Qafarova aprelin 7-də qurumlararası əməkdaşlıq məsələlərinin müzakirəsi məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdü. Görüş zamanı Azərbaycan-Türkiyə münasibətlərinin Ümummilli Lider Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamına uyğun dostluq və qardaşlıq əsasında inkişaf etdiyi qeyd olundu və strateji müttəfiqlik xarakteri daşıyan dövlətlərarası əməkdaşlıqdan bəhs edildi. Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında dövlət başçılarının qardaşlıq münasibətlərinin xüsusi rolu vurğulandı. İki qardaş ölkənin qanunvericilik orqanları arasındakı əlaqələrə diqqət yönəldilərək, o cümlədən parlamentlərarası işçi qruplarının səmərəli münasibətlərinin mövcudluğundan məmnunluq ifadə olundu.

İki qardaş ölkənin müvafiq qurumları arasında əməkdaşlıqdan söz açan spiker Sahibə Qafarova 2021-ci ildə Azərbaycan ilə Türkiyənin Baş prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumunun əhəmiyyətindən danışdı.

Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürk iki ölkə arasında əlaqələrin ölkə başçılarının müəyyən etdiyi ikitərəfli əməkdaşlıq gündəliyinə uyğun inkişaf etdiyini bildirdi. Dünyada və regionda cərəyan edən proseslərə toxunan qonaq Türkiyə və Azərbaycan liderlərinin rolundan bəhs edərək onların beynəlxalq sülhün, əmin-amanlığın və əməkdaşlığın təmin olunmasında etibarlı lider və vasitəçilik rolunu vurğuladı.

Milli Məclisin sədri Sahibə Qafarova martın 16-da Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lu Mey ilə görüşdü. Söhbət zamanı ölkələrimiz arasında yüksək səviyyədə olan strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olundu, Prezident İlham Əliyevin ötən il Çin Xalq Respublikasına dövlət səfərindən sonra əlaqələrimizin daha da inkişaf edərək özünün ən yüksək səviyyəsinə yüksəldiyi vurğulandı.

Görüşdə parlamentlərimiz arasında əməkdaşlığın Azərbaycan-Çin münasibətlərinin mühüm tərkib hissəsini təşkil etdiyi bildirildi.



Söhbət zamanı həmçinin Azərbaycan və Çinin beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq etdikləri, ölkələrimizin daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri ifadə olundu. Münasibətlərin daha da dərinləşdirilməsi istiqamətində gələcək imkanlar nəzərdən keçirildi.

Milli Məclisin sədri Sahibə Qafarova XIII Qlobal Bakı Forumunda iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson ilə görüşdü. Görüş zamanı Bakı Forumu çərçivəsində aparılan müzakirələrin əhəmiyyəti barədə söhbət açıldı. Spiker Sahibə Qafarova indiki gərgin regional və beynəlxalq vəziyyət fonunda Azərbaycanın sülh və dialoq naminə göstərdiyi səylərdən danışdı. O, bu çərçivədə Qlobal Bakı Forumunun beynəlxalq ictimaiyyəti narahat edən bir çox məsələlərin müzakirəsi baxımından mühüm platforma təşkil etdiyini vurğuladı.

Tulia Akson da öz növbəsində Qlobal Bakı Forumunun beynəlxalq platforma kimi mühüm əhəmiyyətə malik olduğunu söylədi. Qonaq Azərbaycan və Ermənistan arasında sülh prosesində Prezident İlham Əliyevin gərgin əməyini və təşəbbüslərini yüksək qiymətləndirərək bunun dövlətlər arasında problemlərin həlli üçün mühüm bir model olduğunu bildirdi.

Söhbət zamanı beynəlxalq əməkdaşlıq məsələləri nəzərdən keçirildi, Parlamentlərarası İttifaqla Azərbaycan parlamenti arasında münasibətlərin mövcud səviyyəsindən razılıq ifadə olundu.

Milli Məclisin sədri Sahibə Qafarova martın 6-da Moldova Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoi ilə görüşdü. Qonaq Moldova parlamentinin sədri İqor Qrosunun salamlarını Sahibə Qafarovaya çatdırdı. Azərbaycan parlamentinin sədri İqor Qrosunun ölkəmizə səfərini və onunla müxtəlif tədbirlər çərçivəsində keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq onun da salamlarını moldovalı həmkarına çatdırmağı xahiş etdi.

Spiker qanunvericilik orqanlarımız arasında mövcud əməkdaşlıq əlaqələri və münasibətlərimizin inkişaf perspektivləri barədə fikirlərini bölüşdü. Parlamentlərarası dostluq qruplarının fəaliyyətini xüsusi qeyd edən Sahibə Qafarova bildirdi ki, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımız uğurla davam edir və bu qurumlarda deputatlarımız bir-birinə qarşılıqlı dəstək göstərir.

Söhbət zamanı Milli Məclisin sədri İran tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikası istiqamətində həyata keçirilən dron hücumlarını pisləyərək ölkəmizə qarşı törədilən bu hərəkətin qəbuledilməz olduğunu və xalqımız tərəfindən hiddətlə qarşılandığını bildirdi.

Mixay Popşoi da öz növbəsində Moldovanın bu xain hücumları qətiyyətlə qınadığını, bu məsələdə Azərbaycanla həmrəy olduqlarını söylədi. O, Moldovada baş vermiş enerji böhranı zamanı ölkəmizin göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Milli Məclisin sədri Sahibə Qafarova qonağa Azərbaycan ilə Ermənistan arasında davam edən normallaşma və sülh prosesi barədə də ətraflı məlumat verdi. Mixay Popşoi ölkəsinin sülh prosesində Azərbaycanın təşəbbüs və liderliyini alqışladıqlarını söylədi.




# Milli Məclisin sədri Mərkəzi Asiya dövlətlərinin qadın liderləri dialoqunun onlayn konfransında iştirak etdi

Aprelin 21-də Milli Məclisin sədri Sahibə Qafarova Özbəkistan Respublikası Ali Məclisi Senatının təşkilatçılığı ilə "Mərkəzi Asiya Qadınları: Prioritet vəzifələr və birgə fəaliyyət" mövzusunda Mərkəzi Asiya dövlətlərinin qadın liderləri dialoqunun onlayn konfransında iştirak etdi. Azərbaycan parlamentinin spikeri onlayn toplantıda çıxış edərək bu konfransın Mərkəzi Asiyada qadınların rolunun gücləndirilməsinə və əməkdaşlığın inkişaf etdirilməsinə xidmət göstərdiyini bildirdi. Onun sözlərinə görə, qadın liderləri dialoqu platforması nisbətən qısa müddət ərzində regional qarşılıqlı fəaliyyətin tələb olunan və effektiv formatı kimi özünü təsdiq edib. Qeyd olundu ki, bu görüş parlamentlərarası münasibətlərin daha da dərinləşdirilməsi və qarşıda duran vəzifələrin həlli üçün birgə yanaşmaların hazırlanmasına sadiqliyi təsdiq edir.

Çıxışında bu gün Mərkəzi Asiyanın inkişaf və regional əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində davamlı dinamika nümayiş etdirdiyini və bu proseslərdə qadınların rolunun nəzərəçarpacaq dərəcədə gücləndiyini söyləyən spiker Sahibə Qafarova bu kontekstdə zərif cinsin nümayəndələrinin ictimai-siyasi həyatda rolunun və liderliyinin gücləndirilməsi məsələlərinin regional gündəliyin tərkib hissəsi olduğunu vurğuladı. O, Azərbaycanın da bu gündəlikdə fəal iştirak etdiyini diqqətə çatdırdı.

Konfransda Azərbaycanın qadın hüquqlarının təşviqində əldə etdiyi uğurlardan bəhs edən Milli Məclisin sədri bildirdi ki, ölkəmizdə qadınlar cəmiyyətin ayrılmaz hissəsidir. Qeyd olundu ki, onların siyasi, sosial, iqtisadi və mədəni həyata böyük töhfəsi ölkəmizdə qadın hüquqlarına yanaşmanın mahiyyətini əks etdirir.

Sahibə Qafarova bu gün qadın hüquqlarının təmin edilməsinin və gender bərabərliyinin ölkəmizin dövlət siyasətinin ən vacib istiqamətlərindən biri olduğunu bildirdi. Azərbaycan qadınlarının həyatın bütün sahələrində aktiv iştirak etdiyini, qanunverici və icra hakimiyyətində, məhkəmə sistemində, diplomatik xidmətdə, elm və təhsil sahələrində yüksək vəzifələr tutduğunu qeyd edən spiker xüsusilə Azərbaycan Respublikası-

nın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi genişmiqyaslı ictimai-siyasi fəaliyyətin qadınların cəmiyyətimizin və ölkəmizin inkişafına verdiyi dəyərli töhfənin təcəssümü olduğunu vurğuladı. O, bu sahədə dövlət və parlament səviyyəsində ardıcıl tədbirlər həyata keçirilməsindən, qanunvericilik bazasının təkmilləşdirilməsindən və müvafiq qanunların qəbulundan söhbət açdı. Qeyd olundu ki, son 5 ildə parlamentdə gender bərabərliyi, ailə, qadın və uşaq hüquqlarının müdafiəsi məsələlərinə həsr olunmuş 57 qanun layihəsinə baxılıb və 20 ictimai dinləmə keçirilib. Eyni zamanda, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklər qanunvericilik aktlarına daxil edilib.





Ölkəmizin bu sahədə beynəlxalq əməkdaşlığa da xüsusi diqqət yetirdiyini söyləyən Milli Məclisin sədri bildirdi ki, Azərbaycan gender bərabərliyi sahəsində fəaliyyət göstərən müxtəlif parlamentlərarası təşkilatların və onların orqanlarının işində fəal iştirak edir, qabaqcıl təcrübə mübadiləsinə və aktual vəzifələrin həlli üçün əlaqələndirilmiş yanaşmaların hazırlanmasına töhfə verir.

Sahibə Qafarova qadın parlamentarilərin təmsil olunduğu beynəlxalq təşkilatlar barədə də konfrans iştirakçılarını məlumatlandırdı, Azərbaycanın qadın hüquqları sahəsində regional əməkdaşlığa böyük əhəmiyyət verdiyini, Mərkəzi Asiya qadınlarının dialoqunun parlament diplomatiyasının və qadın liderliyinin necə etimad, təcrübə mübadiləsi və birgə təşəbbüslər məkanı formalaşdıra biləcəyinin nümunəsi olduğunu söylədi.

Milli Məclisin sədri onu da vurğuladı ki, Azərbaycan bu proseslərdə fəal iştirak etməyə, öz təcrübəsini bölüşməyə və qadınların siyasətdə, iqtisadiyyatda, cəmiyyətdə rolunun artırılmasına yönəlmiş proqramları dəstəkləməyə hazırdır. O, bu baxımdan gender siyasəti məsələləri üzrə ekspert və işçi qrupları formatında parlamentlərin müvafiq komitələrinin cəlb edilməsi ilə qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsinin mümkün olduğunu dedi. Bu təşəbbüslərin həyata keçirilməsinin əməkdaşlığımıza əlavə təkan verəcəyini və onun praktiki yönümlü olmasını təmin edəcəyini bildirdi. Spiker bu konfransı region qadınlarının həyatında əməkdaşlığın möhkəmləndirilməsi, təcrübə mübadiləsi və real dəyişikliklərin təşviqi yolunda mühüm addım kimi dəyərləndirdi.

Konfransda Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva, BMT Baş katibinin Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi və Mərkəzi Asiya üçün Preventiv Diplomatiya üzrə BMT Regional Mərkəzinin rəhbəri Kaha İmnadze, Türkmənistan Məclisinin sədri Dünyagözəl Qulmanova, Qırğızıstan Joqorku Keneşinin sədr müavini Jıldız Taalaybek qızı, Tacikistan Respublikası Ali Məclisi Nümayəndələr Palatasının sədr müavini Mövsuma Muini, Qazaxıstan Respublikası Parlamenti Senatının Qanunvericilik və məhkəmə-hüquq islahatı komitəsinin sədri Snejanna İmaşeva və digərləri çıxış edərək qadın liderlərin rolunun gücləndirilməsi istiqamətində milli təcrübələr və ölkələrində bu sahədə görülən işlər haqqında məlumat verdilər, müzakirə olunan mövzu haqqında fikir və təkliflərini səsləndirdilər.



# İqtisadi inteqrasiya müasir dövrün çağırışıdır

Aprelin 7-də Milli Məclisdə Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) İqtisadi əməkdaşlıq komissiyasının "TÜRKPA üzvü olan dövlətlərin birgə iqtisadi fəaliyyətinin həyata keçirilməsinin reallıq və perspektivləri" mövzusunda 13-cü iclası keçirildi. İclası açan Qazaxıstan Respublikası Parlamenti Məclisinin üzvü, qurumun İqtisadi əməkdaşlıq komissiyasının sədri Anas Bakkojayev türk dövlətlərinin dünya iqtisadiyyatındakı payı, eləcə də qarşılıqlı ticarət dövriyyəsinin həcmi barədə məlumat verdi. O vurğuladı ki, türk dövlətləri arasında qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın genişləndirilməsi, daxili ticarətin artırılması iqtisadi diversifikasiyanın təmin olunmasına, ümumi iqtisadi potensialın daha səmərəli reallaşdırılmasına xidmət edir.

Sonra tədbirdə çıxış edən Milli Məclisin komitə sədri Fazil Mustafa Prezident İlham Əliyevin "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" fikrinə istinad edərək bildirdi ki, TÜRKPA çərçivəsində birliyin davamlılığının mühüm şərtlərindən biri də güclü iqtisadi əsasların formalaşdırılmasıdır.

Komitə sədri türk dövlətləri arasında iqtisadi inteqrasiya prosesinin müasir dövrün çağırışı olduğunu, bu baxımdan TÜRKPA çərçivəsində parlamentlərarası əməkdaşlığın iqtisadi inteqrasiyanın normativ hüquqi və institusional bazanı gücləndirmək üçün mühüm rol oynadığını dedi.

Milli Məclisin deputatı Ağalar Vəliyev çıxışında TÜRKPA-ya üzv dövlətlər arasında mövcud birgə iqtisadi layihələrin, o cümlədən birgə müəssisələr və investisiya təşəbbüslərinin, eləcə də azad iqtisadi zonaların imkanlarının daha geniş araşdırılmasının və bu əsasda perspektivli əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinin vacibliyi barədə danışdı. Millət vəkili qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət TÜRKPA çərçivəsində çoxşaxəli iqtisadi əlaqələrin genişlənməsinə, ticarət münasibətlərinin stimullaşdırılmasına və qarşılıqlı investisiyaların təşviqinə əlverişli şərait yaradır.

Sonra TÜRKPA İqtisadi əməkdaşlıq komissiyasının sədr müavini, Qırğız Respublikası Joqorku Keneşinin üzvü Bekmurza Ergeşov, Türkiyə Böyük Millət Məclisinin üzvləri Mahmut Rıdvan Nazırlı, Cemal Enginyurt, Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma, Şimali Kipr Türk Respublikasının Bakıdakı nümayəndəsi Ufuk Turganer, TÜRKPA Baş katibinin müavini Muhammet Alper Hayali, Ərzaq Təhlükəsizliyi üzrə İslam Təşkilatı Katibliyinin departament direktoru İsrail Tilegen çıxış etdilər. Onlar TÜRKPA çərçivəsində ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlığın konseptual əsaslarının müəyyənləşdirilməsi, eləcə də səmərəli əməkdaşlıq istiqamətlərinin genişləndirilməsi ilə bağlı fikirlərini bölüşdülər.

Daha sonra TÜRKPA İqtisadi




əməkdaşlıq komissiyasının sədri Anas Bakkojayev iclasın əsas mövzu üzrə hazırlanmış tövsiyə qərarının layihəsini, komissiya sədrinin müavini Bekmurza Ergeşov hesabat məruzəsinin layihəsini, komissiyanın katibi Baurjan Datkayev "Birgə müəssisələr haqqında" model qanun layihəsini müzakirəyə təqdim etdilər. Komissiya üzvləri hesabat məruzəsini, tövsiyə qərarını və model qanun layihəsini təsdiqlədilər.

İclasda Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin Mülki hüquq qanunvericiliyi sektorunun müdiri Azər Səmədov Azərbaycan tərəfinin təşəbbüsü ilə hazırlanan və komissiyanın gələn iclasında baxılması nəzərdə tutulan "Ağıllı şəhər və kənd haqqında" model qanun layihəsi barədə məlumat verdi. Toplantının yekununda komissiyanın növbəti iclasının gündəliyi, mövzusu və tarixi müəyyənləşdirildi.

Həmin gün TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının 13-cü iclası çərçivəsində "Birgə iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün perspektivli sənayelər: aktorlar və amillərin birləşdirilməsi yolları" mövzusunda seminar keçirildi. Seminarda çıxış edənlər TÜRKPA-ya üzv ölkələr arasında birgə iqtisadi fəaliyyətin reallıqları və perspektivləri, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, qabaqcıl təcrübələrin öyrənilməsi ilə bağlı fikirlər səsləndirdilər. Onlar türk dövlətlərinin iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin yüksəldilməsini, iqtisadi təhlükəsizliyin təmin edilməsinin vacibliyini vurğuladılar. Bildirildi ki, birgə səmərəli əməkdaşlıq və inteqrasiya, iqtisadi, ticarət, təhlükəsizlik sahələrində qarşılıqlı faydalı əlaqələr iqtisadi artımın sürətləndirilməsinə geniş imkanlar yaradır, ölkələrin hərtərəfli tərəqqisinə xidmət edir.

Fikir mübadiləsi zamanı türk dünyasında iqtisadiyyatın müxtəlif sektorlarında birgə layihələrin icrası imkanlarından, aktorların və amillərin effektiv əlaqələndirilməsi yollarının müəyyənləşdirilməsindən, dayanıqlı inkişafın təşviqi, ticarət və investisiya əlaqələrinin intensivləşdirilməsindən söhbət açıldı. Bildirildi ki, bunlar tarixi, mədəni və coğrafi baxımdan bir-birinə yaxın olan üzv ölkələr arasında sıx əməkdaşlığın davamlı inkişafını təmin edəcək birgə təşəbbüslərin həyata keçirilməsinə töhfə verəcək.

Seminarda Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşı Zaur Məmmədov çıxışında türk dövlətləri arasında əlaqələrin yüksələn xətlə inkişaf etməsindən, ölkəmizin bu münasibətlərin möhkəmlənməsində mühüm rolundan danışdı. O, türk dövlətləri arasında sənayenin inkişafı, xüsusi iqtisadi zonaların yaradılması, enerji və nəqliyyat sektoru, o cümlədən tranzit imkanlarının genişləndirilməsi, rəqəmsal iqtisadiyyat və innovasiyalar, həmçinin rəqəmsal ticarət platformalarının qurulması, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahələrində əməkdaşlığın mövcudluğu barədə söhbət açdı.

Daha sonra Ərzaq Təhlükəsizliyi üzrə İslam Təşkilatının Katibliyinin Beynəlxalq Əməkdaşlıq Departamentinin direktoru İsrail Tilegen "İslam Əməkdaşlıq Təşkilatı və TÜRKPA ölkələri arasında ət ticarəti strategiyası" mövzusunda təqdimatla çıxış etdi. Qeyd olundu ki, bu ölkələrdə halal sertifikatlı istehsal gücünün artması onların İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində mövcud tələbatın ödənilməsində mühüm üstünlük əldə etməsinə imkan yaradır. Tədbirdə mövzu ətrafında müzakirələr aparıldı.



# İncəsənət məktəblərinin aktual məsələləri diqqət mərkəzindədir

Martın 18-də Milli Məclisin Elm və təhsil komitəsinin təşkilatçılığı ilə "İncəsənət məktəblərinin mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda ictimai dinləmə keçirildi. Tədbiri giriş sözü ilə açan Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov əvvəlcə dinləmənin keçirilməsi üçün göstərdiyi dəstəyə görə Milli Məclisin sədri Sahibə Qafarovaya təşəkkürünü bildirdi və parlamentdə ikinci oxunuşdan keçmiş "Təhsil haqqında" Qanuna təklif edilən dəyişikliklərin incəsənət təhsili sahəsində keyfiyyətin yüksəldilməsinə xidmət etməsindən söz açdı.

Komitə sədri diqqətə çatdırdı ki, dəyişikliyə əsasən Mədəniyyət Nazirliyinin sisteminə daxil olan uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və digər bu qəbildən olan dövlət təhsil müəssisələrində çalışan təhsilverənlərin nəzəri bilikləri və peşə yararlılığı attestasiya yolu ilə deyil, Elm və Təhsil Nazirliyində tətbiq edilən mexanizmə uyğun olaraq sertifikasiya imtahanı vasitəsi ilə qiymətləndiriləcək.

Anar İsgəndərov incəsənət məktəblərinin milli-mədəni irsin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıdığını, belə təhsil ocaqlarının uşaqlarda erkən yaşlardan musiqi, rəssamlıq və xoreoqrafiya kimi sahələrə maraq aşıladığını, onların yaradıcılıq potensialının formalaşmasına şərait yaratdığını söylədi. Bildirildi ki, ölkədə fəaliyyət göstərən bu tip məktəblər əsasən dövlət tərəfindən maliyyələşdirilir və Mədəniyyət Nazirliyinin sisteminə daxildir. Onların başlıca məqsədi istedadlı uşaqları üzə çıxarmaq, peşəkar incəsənət təhsili üçün baza formalaşdırmaq və milli incəsənət ənənələrini yaşatmaqdır.

Sonra çıxış edən mədəniyyət naziri Adil Kərimli mədəniyyət sahəsində təhsilə, xüsusən də onun əsas sahəsi olan incəsənət təhsilinə dövlət siyasətində xüsusi yer verildiyini vurğuladı. O, son illərdə bu sahədə sistemli islahatların həyata keçirildiyindən, cənab Prezidentin 2026-cı il 14 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Mədəniyyəti - 2040" Mədəniyyət Konsepsiyasından danışdı. Bildirildi ki, konsepsiyanın qarşıya qoyduğu çağırışlara uyğun olaraq mədəniyyət sahəsində insan kapitalının inkişafı və kadr hazırlığının artırılması ilə bağlı tədbirlər həyata keçirilir. Bunlardan biri incəsənət məktəblərinin fəaliyyətinin müasir çağırışlara uyğunlaşdırılmasıdır. Bu baxımdan məktəblərin fəaliyyət keyfiyyətinin artırılması prioritet istiqamətlərdəndir.

Nazir incəsənət məktəblərinin maddi-texniki bazasının daha da gücləndirilməsi, kadr potensialının artırılması və tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində nəzərdə tutulan tədbirləri də diqqətə çatdırdı.

Dinləmədə mədəniyyət nazirinin müşaviri Cəsarət Valehov "Mədəniyyət Nazirliyi sistemindəki incəsənət məktəbləri: mövcud vəziyyət və perspektiv imkanlar" mövzusunda slaydlarla müşayiət olunan təqdimatla çıxış etdi. Tədbirdə mövzu ətrafında aparılan müzakirələrdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu, deputatlardan Bəxtiyar Əliyev, Elçin Mirzəbəyli, Şahin Seyidzadə, Ceyhun Məmmədov, Mehriban Vəliyeva, Pərvin Kərimzadə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Ceyran Mahmudova, Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin direktoru Könül Hüseynova, Qarabağ Universitetinin İncəsənət fakültəsinin dekanı Türkər Qasımzadə, Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaşzadə, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək incəsənət sahəsində tənzimləmələr və imtahanların keçirilməsi ilə bağlı fikirlərini səsləndirdilər. Mədəniyyət naziri Adil Kərimli bu fikirlərə münasibətini bildirdi.



# Azərbaycan idmanının müasir çağırışları müzakirə olundu

Martın 4-də Milli Məclisdə Bədən Tərbiyəsi və İdman Günü ilə bağlı tədbir keçirildi. Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov göstərdiyi dəstəyə görə spiker Sahibə Qafarovaya təşəkkür edərək bildirdi ki, tədbirin məqsədi ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafı, bu sahədə həyata keçirilən dövlət siyasəti, mövcud nailiyyətlər və perspektiv istiqamətlər barədə müzakirələrin aparılmasıdır. Vurğulandı ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 5 Mart - Bədən Tərbiyəsi və İdman Günü kimi təsis edilib. Bu, Ulu Öndər Heydər Əliyevin 1995-ci ildə idmançılarla görüşdüyü tarixə təsadüf etməsi ilə bağlıdır.

Şahin İsmayılov idmanın gənclərin sağlam həyat tərzinə cəlb olunmasında, vətənpərvərlik ruhunun formalaşmasında, cəmiyyətin sosial inkişafında mühüm rol oynadığını söylədi və idman sahəsindəki bəzi aktual məsələlərlə bağlı fikirlərini səsləndirdi.

Sonra tədbirdə Gənclər və İdman Nazirliyinin əməkdaşı Elnur Məmmədov ölkədə 2025-ci ilin idman nəticələri ilə bağlı təqdimatla çıxış etdi. Qeyd olundu ki, keçən il Azərbaycan idmançıları beynəlxalq yarışlarda 2113 medal qazanıblar.

Elnur Məmmədov ölkədə idman hərəkatının genişləndirilməsi, müasir idman infrastrukturunun yaradılması, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına uğurla ev sahibliyi etməsi istiqamətində görülən işlərdən də danışdı. Vurğulandı ki, işğaldan azad olunmuş ərazilərdə bir sıra idman yarışlarının keçirilməsi xüsusilə əlamətdar hadisədir. O, ölkədə kütləvi idmanın inkişafı, regionlarda idman obyektlərinin fəaliyyəti, idmançı hazırlığı sisteminin təkmilləşdirilməsi kimi məsələlər barədə də fikirlərini bölüşdü.

Tədbirdə çıxış edən Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə dövlət başçısının diqqət və qayğısı nəticəsində idmanın prioritet sahələrdən birinə çevrildiyini, bunun da Azərbaycan idmançılarının beynəlxalq arenada qazandığı uğurlarda öz əksini tapdığını söylədi. O, bu uğurların davamlılığı baxımından idman iqtisadiyyatının stimullaşdırılmasını, xüsusən idman sahəsində sponsorluğun genişləndirilməsi üçün qanunvericilik bazasının təkmilləşdirilməsinin vacibliyini diqqətə çatdırdı. Azərbaycanın təhsil qanunvericiliyində idmanla bağlı məsələlərin kifayət qədər əhatəli şəkildə əksini tapmadığı qeyd edildi.

Müzakirələrdə çıxış edən millət vəkilləri, ölkəmizin idman ictimaiyyətinin tanınmış nümayəndələri Azərbaycanın idman sahəsində əldə etdiyi nailiyyətlər, bu istiqamətdə qarşıda duran vəzifələr barədə danışdılar. Çıxışlarda idmanın kütləviliyinin təmin olunmasının əhəmiyyəti, sağlam və vətənpərvər gənc nəslin formalaşdırılmasının vacibliyi, gələcək inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparıldı.

Müzakirələrə yekun vuran Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov tədbir iştirakçılarına təşəkkürünü bildirdi, səslənən fikirlərin, təkliflərin ölkədə bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi baxımından faydalı olacağına inamını ifadə etdi.



# Süni intellektin kənd təsərrüfatında tətbiqi bu günün reallığıdır

Martın 11-də parlamentdə Milli Məclisin Aqrar siyasət komitəsinin təşkilatçılığı ilə "Kənd təsərrüfatında süni intellektin tətbiqi: nəticələr və perspektivlər" mövzusunda ictimai dinləmə keçirildi. Əvvəlcə Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bu tədbirin keçirilməsinə verdiyi dəstəyə görə Milli Məclisin sədri Sahibə Qafarovaya təşəkkürünü bildirdi və son illərdə Azərbaycanda rəqəmsal transformasiya istiqamətində mühüm addımlar atılmasından və müxtəlif sahələri əhatə edən müasir rəqəmsal platformaların formalaşdırılmasından söhbət açdı. Komitə sədri diqqətə çatdırdı ki, cari il fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə ölkədə rəqəmsal inkişafın yeni mərhələyə qədəm qoyduğunu göstərir. O, həmin müşavirədə rəqəmsal idarəetmə sistemlərinin təkmilləşdirilməsinə, süni intellekt texnologiyalarının geniş tətbiqinə, dövlət xidmətlərinin daha effektiv təşkilinə dair mühüm vəzifələrin müəyyənləşdirildiyini və bu proseslərin aqrar sektorun inkişafına güclü təkan verdiyini, məhsuldarlığın artırılmasına, resurslardan səmərəli istifadəyə, kənd təsərrüfatı idarəetməsinin daha effektiv təşkilinə geniş imkanlar yaratdığını qeyd etdi.

Tahir Rzayev bildirdi ki, ictimai dinləmənin keçirilməsinin məqsədi də bu sahədə mövcud vəziyyəti, əldə olunan nəticələri və qarşıda duran vəzifələri müzakirə etmək, mütəxəssislərin, alimlərin və aidiyyəti qurumların təkliflərini dinləməkdir.

Dinləmədə aparılacaq müzakirələrin kənd təsərrüfatında süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı daha səmərəli yanaşmaların formalaşmasına və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Tədbirdə iştirak edən Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirdi ki, son illər ölkəmizdə aqrar sahədə rəqəmsal transformasiya istiqamətində mühüm layihələr həyata keçirilir, elektron kənd təsərrüfatı informasiya sistemi təkmilləşdirilir, fermerlərin müasir texnologiyalara çıxış imkanları genişləndirilir. O, süni intellekt əsaslı həllərin tətbiqinin torpaq və bitki monitorinqinin, məhsuldarlığın proqnozlaşdırılmasına, suvarma və digər aqrotexniki proseslərin daha səmərəli idarə olunmasına xidmət etdiyini vurğuladı.

Nazir qeyd etdi ki, Kənd Təsərrüfatı Nazirliyi aqrar sahədə genişmiqyaslı rəqəmsal transformasiyanın artıq ikinci mərhələsini həyata keçirir. Aqrar Süni İntellekt layihəsi çərçivəsində bu sahədə qərarverməni daha dəqiq və məlumatəsaslı etmək məqsədilə 30-dan artıq süni intellekt modulu müəyyən olunub. Bu modullar torpaq, iqlim, peyk məlumatları, sahə müşahidələri və digər mənbələri birləşdirərək həm dövlətin strateji idarəçiliyinə, həm də fermer təsərrüfatlarında qərarverməyə kömək göstərir. Beləliklə, aqrar idarəetmə modeli ənənəvi





təcrübə yanaşmasından məlumat əsaslı və proqnozlaşdırılan qərarvermə modelinə keçir.

Sonra dinləmədə Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Süni İntellekt layihəsinin rəhbəri Surxay Novruzov bu layihə ilə bağlı slaydlarla müşayiət olunan təqdimatla çıxış etdi. O, süni intellekt əsaslı həllərin tətbiqi vasitəsilə bitkilərin inkişafı, xəstəlik və zərərverici riskləri, torpaq xüsusiyyətləri, suvarma ehtiyacları və məhsuldarlıq proqnozları üzrə analitik məlumatlar formalaşdırılmasından və vahid rəqəmsal platformada emal olunaraq fermerlərə mobil tətbiqlər və digər kommunikasiya kanalları vasitəsilə çatdırılmasından danışdı.

Dinləmədə mövzu ətrafında aparılan müzakirələrdə İntizam Komissiyasının sədri Eldar İbrahimov, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, komitənin sədr müavini Fariz İsmayılzadə, Aqrar siyasət komitəsinin sədr müavini Razi Nurullayev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov, deputatlar Vüqar İskəndərov, Zaur Şükürov, Vüqar Bayramov, Elman Nəsirov, Aydın Hüseynov, Naqif Həmzəyev, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru Rasim Əliquliyev, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov, Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Zəkiyyə Mustafayeva çıxış etdilər. Çıxışlarda rəqəmsal texnologiyaların, avtomatlaşdırma və süni intellektin artıq aqrar sektorun inkişafında mühüm rol oynayan əsas amillərdən olduğu barədə söhbət açıldı. Həmçinin aqrar sektorda süni intellekt üzrə ixtisaslı kadrların hazırlanması, bu sahədə elmi tədqiqatların və ali təhsil müəssisələrinin fəaliyyətinin gücləndirilməsi, yeni texnologiyalardan istifadənin stimullaşdırılması, fermerlərin informasiya sistemlərinə və rəqəmsal xidmətlərə çıxışının genişləndirilməsi kimi məsələlərlə bağlı fikir və təkliflər səsləndirildi. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov söylənilən təklif və fikirlərə münasibətini bildirdi.

İctimai dinləməyə yekun vuran Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev dövlət tərəfindən bu sahəyə göstərilən dəstəyin və müasir texnologiyaların tətbiqinin ölkəmizin ərzaq təhlükəsizliyini daha da möhkəmləndirəcəyinə əminliyini ifadə etdi.



# Milli Məclisdə gender bərabərliyinə həsr olunmuş ictimai dinləmə keçirildi

Martın 4-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin təşkilatçılığı ilə "Qanunvericilikdə gender bərabərliyi: nailiyyətlər və perspektivlər" mövzusunda ictimai dinləmə keçirildi. Tədbiri giriş sözü ilə açan Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova ölkəmizdə 20 il əvvəl "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun qəbul edildiyini, bu sahədə ötən illər ərzində bir çox işlərin görüldüyünü, o cümlədən qanunvericiliyin təkmilləşdirildiyini söylədi. O, bu dinləmənin gerçəkləşməsi üçün göstərdiyi dəstəyə görə Milli Məclisin sədri Sahibə Qafarovaya təşəkkürünü bildirdi. Spikerin vaxtı ilə millət vəkili, hazırda isə parlamentin sədri kimi gender bərabərliyi ilə bağlı cəmiyyətin dəyişən tələblərinə uyğun olaraq qanunvericilik bazasının formalaşması və daim təkmilləşdirilməsi ilə bağlı Azərbaycanın təcrübəsini beynəlxalq səviyyədə səsləndirdiyini vurğuladı.

Komitə sədri ölkəmizin qadınların siyasi hüquqları və onlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə BMT konvensiyalarına qoşulduqdan sonra gender bərabərliyinin təmin olunması sahəsində milli qanunvericilikdə bir sıra irəliləyişlərin əldə edildiyini dilə gətirdi. Hicran Hüseynova Azərbaycanda dövlət qadın siyasətinin həyata keçirilməsinin məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu söylədi, dahi şəxsiyyətin imzaladığı bir çox fərman və sərəncamların qadın hüquqlarının müdafiəsi və təminatı istiqamətində mühüm əhəmiyyətini qeyd etdi. O, əsası Ulu Öndər tərəfindən qoyulan bu siyasətin hazırda Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində daha da gücləndirildiyini dedi. Komitə sədri 2006-cı ildə Prezident İlham Əliyev tərəfindən təsdiq edilən "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun qəbulunu ölkəmizdə gender bərabərliyinin təşviqi sahəsində atılmış mühüm addım kimi dəyərləndirdi.

Hicran Hüseynova ötən dövr ərzində qadınlarla kişilərin hüquq bərabərliyinin təmin olunması istiqamətində milli qanunvericilikdə edilən əlavə və dəyişikliklərdən danışdı. O, ölkədə əmək münasibətlərinin gender bərabərliyi prinsipləri əsasında qurulması üçün mövcud qanunvericilikdə qadınların əməyi qadağan olunan peşə, vəzifə və iş yerlərinin azaldılmasının əmək münasibətlərinin və məşğulluq imkanlarının gender bərabərliyi prinsipləri əsasında qurulmasına mühüm töhfə olduğunu vurğuladı. Həmçinin ölkə üzrə qadınların orta əməkhaqlarının

kişilərin orta əməkhaqlarına daha sürətlə yaxınlaşmasının təmin edildiyini, bununla yanaşı qadınlarla bərabər kişilərin də uşaqlara görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququna malik olduqlarını söylədi.

Toplantıda komitə sədri qadınların gender əsaslı məişət zorakılığına məruz qalmaması üçün müvafiq normativ hüquqi aktlar qəbul edildiyini və Milli Fəaliyyət Planının hazırlandığını diqqətə çatdırdı. Bildirildi ki, müasir dövrdə yeni tələblər və çağırışlar mövcud qanunlara yenidən nəzər salmağı, yaranmış boşluqların aradan qaldırılmasını zəruri edir. Hicran Hüseynova gender bərabərliyinin daha mükəmməl şəkildə təmin edilməsi istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı bir sıra təkliflərini səsləndirdi.

Sonra dinləmədə iştirak edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova çıxış edərək “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunun ictimai münasibətlərin inkişafı, bir çox islahatların həyata keçirilməsi üçün hüquqi əsas olduğunu dedi. O, gender bərabərliyinin təşviqinin vacibliyindən, bu sahədə dövlət siyasətinin əsas istiqamətlərindən və xüsusiyyətlərindən bəhs etdi. Sədaqət Qəhrəmanova Ulu Öndər Heydər Əliyev tərəfindən “Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Fərmanın imzalandığını söylədi, məişət zorakılığının qarşısının alınmasına dair qanunun qəbul edilməsindən, bu sahədə atılan digər mühüm əhəmiyyətli addımlardan söhbət açdı. O, ölkəmizdə gender bərabərliyi, qadınların hüquq və imkanlarının gücləndirilməsi, qadın sahibkarlığının inkişafı istiqamətində həyata keçirilən tədbirlər, layihələr, əldə edilən nailiyyətlər barədə fikirlərini bölüşdü.

Tədbirdə çıxış edən daxili işlər nazirinin müavini İsmət Əliyev müasir hüquqi dövlətin təməl prinsiplərindən olan gender bərabərliyinin insan hüquq və azadlıqlarının real təminatının dayanıqlı inkişafı və təhlükəsiz cəmiyyət modelinin vacib şərtlərindən olduğunu söylədi. Qeyd edildi ki, cinsi mənsubiyyətinə görə ayrı-seçkilik, qadınlara qarşı zorakılıq, ailə-məişət zəminində baş verən cinayətlər, erkən nikah kimi hallar yalnız fərdi hüquqların pozulması deyil, bütövlükdə ictimai sabitliyə və sosial təhlükəsizliyə təsir edən amillərdəndir. Nazir müavini bu baxımdan “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunun kişi və qadınların ictimai həyatın bütün sahələrində bərabər imkanların yaradılması üçün möhkəm hüquqi baza formalaşdırdığını bildirdi.

Dinləmədə elm və təhsil nazirinin müavini Firudin Qurbanov təmsil etdiyi sahədə gender bərabərliyinin təmin edilməsinin, cinsindən asılı olmayaraq bərabər hüquq və imkanların obyektiv qiymətləndirilməsinin nəzərdə tutulduğunu söylədi. Nazirliyin strateji planında bu istiqamətdə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün müxtəlif layihələrin reallaşdırıldığını, təhsilin bütün pillələrində gender bərabərliyinə xüsusi diqqət yetirildiyini, bu sahədə balanslaşdırılmış yanaşmanın tətbiq edildiyini, maarifləndirmə işlərinin aparıldığını vurğuladı.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev öz çıxışında bildirdi ki, gender bərabərliyi ölkəmizdə yalnız sosial məsələ kimi deyil, insan hüquqlarının təminatı, iqtisadi inkişafın sürətləndirilməsi və ədalətli cəmiyyətin qurulmasının əsas şərtlərindən biri kimi qəbul edilir. O, əmək, məşğulluq və sosial müdafiə sahələrində normativ hüquqi aktların gender bərabərliyinin praktiki təminatını formalaşdırdığını dedi və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində nazirlik tərəfindən atılan addımlar barədə məlumat verdi.

Tədbirdə çıxış edən ədliyyə nazirinin müavini Toğrul Hüseynov gender bərabərliyinin təmin olunması istiqamətində Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilmiş tədbirlərdən danışdı. Nazirliyin əsas istiqamətlərindən birinin qanunvericilik layihələrinin hazırlanması və onlara dair rəy verilməsi olduğunu dedi. Söylədi ki, 2025-ci ildə 3 mindən çox hüquqi sənədə rəy verilib. O, nazirlik tərəfindən müvafiq materialların hazırlandığını və penitensiar müəssisələrdə cəza çəkən qadınlar arasında mütəmadi olaraq maarifləndirici tədbirlərin həyata keçirildiyini qeyd etdi. Penitensiar müəssisələrdə gender bərabərliyinin təmini istiqamətində xüsusi yanaşmanın tətbiq edildiyini, qadınların hüquqlarının müdafiəsinin və onların cəmiyyətdə rolunun gücləndirilməsinin nazirlik tərəfindən əsas hədəflərdən olduğunu diqqətə çatdırdı.

Mövzu ətrafında aparılan müzakirələrdə çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, komitə üzvləri İlham Məmmədov, Mehriban Vəliyeva, Gülşən Paşayeva, Günay Ağamalı, habelə Gənclərin Gender Bərabərliyi Mərkəzi “Gender HUB” İctimai Birliyinin sədri Məryəm Məcidova, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri Rəna Mirzəzadə öz rəy və təkliflərini səsləndirdilər.

Sonra elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova çıxışlarda qaldırılan məsələlərə münasibət bildirdilər.



# Regional məsələlər komitəsində Ulu Öndərin irsinə həsr olunan konfrans keçirildi

Milli Məclisin aprelin 23-də Regional məsələlər komitəsinin təşkilatçılığı ilə keçirilən konfransını giriş sözü ilə açan komitə sədri Siyavuş Novruzov bildirdi ki, Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsi Azərbaycanın bütün sahələrində olduğu kimi, regionların inkişafı, idarəetmənin təkmilləşdirilməsi və yerli özünüidarəetmə institutlarının formalaşdırılmasında da mühüm rol oynayıb. O qeyd etdi ki, regionların sosial-iqtisadi inkişafı Heydər Əliyevin rəhbərliyi dövründə dövlət siyasətinin əsas istiqamətlərindən biri olub.

Komitə sədri çıxışında dahi şəxsiyyətin regionlara mütəmadi səfərlər etdiyini, yerlərdə mövcud vəziyyətlə birbaşa maraqlandığını və bölgələrin inkişafı üçün məqsədyönlü addımlar atdığını bildirdi. Vurğulandı ki, həmin dövrdə regionlarda genişmiqyaslı infrastruktur layihələri icra olunub, yollar salınıb, məktəblər, xəstəxanalar və digər sosial obyektlər tikilib, yeni istehsal sahələri yaradılıb. Bildirildi ki, Ulu Öndərin regionların sosial-iqtisadi inkişafı ilə bağlı siyasəti bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Daha sonra mövzu ilə bağlı çıxış edən Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov diqqətə çatdırdı ki, Azərbaycan Respublikasında demokratik və hüquqi dövlət quruculuğu, müstəqil dövlət institutlarının formalaşdırılması, eləcə də yerli özünüidarəetmə və vətəndaş cəmiyyəti təsisatlarının yaranması məhz Ulu Öndərin adı ilə bağlıdır. O, Azərbaycan üçün nisbətən gənc təsisat olan yerli demokratiya və özünüidarəetmənin hüquqi əsaslarının da Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyənləşdirildiyini söylədi. Vurğulandı ki, sonrakı dövrdə qəbul olunan qanunlar və digər normativ-hüquqi aktlar da bələdiyyələrin hüquqi əsaslarının formalaşdırılmasında mühüm rol oynayıb.

Vitse-spiker bu gün suveren Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə regional inkişaf proqramlarının ardıcıl icrası, yerli özünüidarəetmə sisteminin təkmilləşdirilməsi və demokratik institutların möhkəmləndirilməsi istiqamətində həyata keçirilən uğurlu islahatlardan bəhs etdi. Bildirildi ki, son illərdə Azərbaycan özünün dövlətçilik və suverenlik tarixinin ən qüdrətli mərhələsini yaşayır. Ümummilli Liderin siyasi vəsiyyətini parlaq Zəfərlə gerçəkləşdirən müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidən-

qurma prosesi həyata keçirilir. Regional inkişaf siyasətinin əsas prioritetlərindən biri işğaldan azad olunmuş ərazilərin bərpası və dayanıqlı inkişaf modelinin qurulmasıdır.

Sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Heydər Əliyev - Azərbaycanda regional inkişaf strategiyasının banisi" mövzusunda çıxış etdi. O, bildirdi ki, Ulu Öndərin regional





iqtisadi siyasət təcrübəsi bu gün də aktualdır. Komitə sədri qeyd etdi ki, həmin regional iqtisadi inkişaf strategiyası ölkənin bütün bölgələrinin tarazlı və dayanıqlı inkişafını təmin etməyə yönəlmiş uzaqgörən dövlət yanaşmasına əsaslanıb. Bu strateji yanaşma nəticəsində regionların inkişafı üçün etibarlı zəmin formalaşdırılıb, onların iqtisadi imkanlarından daha səmərəli istifadə olunub, istehsal və infrastruktur potensialı genişləndirilib, bölgələrdə sənayeləşmə inkişaf edib.

Tədbirdə iştirak edən Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Baş İdarəsinin rəisi Elmin Həsənov "2026 - Şəhərsalma və memarlıq ili: bələdiyyələr qarşısında duran vəzifələr" mövzusunda çıxış edərək bu ilin yerli özünüidarəetmə orqanları qarşısında yeni çağırışlar və mühüm vəzifələr müəyyənləşdirdiyini söylədi. Onun sözlərinə görə, bu mərhələdə bələdiyyələr öz fəaliyyətlərinə yeni baxış formalaşdırmalı, şəhərsalma məsələlərinə birbaşa məsuliyyət sahəsi kimi yanaşmalıdırlar. O, bu çərçivədə yerli özünüidarəetmə orqanlarının şəhərsalma sahəsində fəaliyyətinin daha səmərəli təşkili baxımından həyata keçirilən tədbirləri diqqətə çatdırdı.

Sonra Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyasının Bələdiyyələrin Onlayn Xidmət Mərkəzinin direktoru Adil Əhmədov "Rəqəmsal İnkişaf Konsepsiyası və bələdiyyələrin fəaliyyət istiqamətləri" mövzusunda çıxış etdi.

Müzakirələrdə Milli Məclisin deputatları Vüqar Bayramov, Aydın Hüseynov, Vasif Qafarov Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda yerli idarəetmə sisteminin əsasını qoymasından, regionlarda müasir infrastrukturun formalaşdırılmasından və bu infrastruktur potensialının iqtisadi dəyərə çevrilməsindən söhbət açdılar.

Konfransda işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən reinteqrasiya prosesi, bələdiyyələrin fəaliyyəti, habelə bölgələrdə icra olunan infrastruktur layihələrinin regional inkişaf baxımından əhəmiyyəti diqqətə çatdırıldı.



# Cənubi Qafqazın geosiyasi memarları:
## Bakı və Tbilisi arasında yeni strateji mərhələ



**Arzu Nağıyev**
Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, Azərbaycan-Gürcüstan parlamentlərarası işçi qrupunun rəhbəri

Azərbaycan-Gürcüstan münasibətləri, sadəcə, qonşuluq deyil, həm də regional sabitliyin və iqtisadi təhlükəsizliyin onurğa sütununu təşkil edən strateji müttəfiqlikdir. Cənubi Qafqaz regionunda geosiyasi dinamikanın sürətlə dəyişdiyi bir dövrdə dövlətlərarası münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti İlham Əliyevin cari il aprelin 7-də Gürcüstana işgüzar səfəri yalnız ikitərəfli münasibətlərin inkişafı deyil, bütövlükdə regionda yeni əməkdaşlıq və təhlükəsizlik modelinin formalaşması baxımından mühüm siyasi hadisə kimi qiymətləndirilməlidir.

Azərbaycan və Gürcüstan uzun illərdir ki, qarşılıqlı etimada əsaslanan sabit və praqmatik münasibətlər qurmuşdur. Bu münasibətlər regionda sülhün və sabitliyin qorunmasında əsas sütunlardan biri kimi çıxış edir. Prezident İlham Əliyevin Tbilisiyə səfəri bu strateji tərəfdaşlığın davamlı xarakter daşıdığını və yeni mərhələyə qədəm qoyduğunu bir daha təsdiqlədi.

Səfər çərçivəsində keçirilən yüksək səviyyəli görüşlərdə siyasi dialoqun daha da dərinləşdirilməsi, iqtisadi əməkdaşlığın genişləndirilməsi və regional layihələrin icrası ilə bağlı məsələlər geniş müzakirə olundu. Xüsusilə enerji təhlükəsizliyi sahəsində Azərbaycan və Gürcüstanın birgə fəaliyyəti Avropanın enerji xəritəsində mühüm rol oynamaqdadır. Respublikamızın enerji resurslarının Gür-

cüstan üzərindən dünya bazarlarına çıxarılması iki ölkə arasında əməkdaşlığın strateji mahiyyətini daha da gücləndirir.

Bununla yanaşı, nəqliyyat və logistika sahəsində tərəfdaşlıq yeni mərhələyə daxil olur. Orta Dəhlizin inkişafı, Şərq-Qərb nəqliyyat marşrutlarının genişləndirilməsi və regional tranzit imkanlarının artırılması Azərbaycan və Gürcüstanı beynəlxalq ticarət zəncirinin əsas halqalarından birinə çevməklə bərabər, Xəzər dənizindən Avropaya qədər uzanacaq elektrik enerjisi kabeli layihəsi bu əməkdaşlığı yeni texnoloji səviyyəyə yüksəldir. "Orta Dəhliz" adlandırdığımız və Çindən Avropaya qədər uzanan marşrutda Bakı və Tbilisinin koordinasiyalı fəaliyyəti hər iki ölkənin tranzit potensialını dəfələrlə artırır. Prezidentin səfəri bu istiqamətdə həyata keçirilən layihələrə əlavə siyasi impuls verdi.

Səfərin diqqətçəkən məqamlarından biri də təhlükəsizlik məsələlərinin gündəmdə xüsusi yer alması oldu. Müasir dövrdə regionda və dünyada artan çağırışlar - hibrid təhdidlər, informasiya təhlükəsizliyi və sərhəd təhlükəsizliyi kimi məsələlər Azərbaycan və Gürcüstan arasında koordinasiyanı daha da gücləndirir. Bu baxımdan, tərəflərin təhlükəsizlik sahəsində əməkdaşlığının genişləndirilməsi regional sabitliyin təmin olunmasına xidmət edir.

Səfərin ümumi nəticələri göstərir ki, Azərbaycan və Gürcüstan arasında əməkdaşlıq təkcə ikitərəfli çərçivə ilə məhdudlaşmır. Türkiyənin də iştirak etdiyi üçtərəfli format regionda yeni geosiyasi reallıqların formalaşmasına təsir göstərir. Bu münasibətlərin vacib məqamlarından biri də Cənubi Qafqazın təhlükəsizlik arxitekturasıdır. Belə ki, Azərbaycanda 44 günlük müharibədən sonrakı reallıqlar Gürcüstan üçün də yeni imkanlar yaradır. Regional inteqrasiya baxımından Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatı bölgədə təhlükəsizliyin qarantı kimi çıxış edir.



Azərbaycanın irəli sürdüyü sülhə dair təklifləri və Gürcüstanın bu prosesdə potensial moderator rolu bölgənin gələcək rifahı üçün həlledici amildir. Bu əməkdaşlıq modeli enerji, nəqliyyat və təhlükəsizlik sahələrində inteqrasiyanı dərinləşdirərək Cənubi Qafqazda davamlı inkişaf və sabitlik üçün möhkəm zəmin yaradır.

Parlament səviyyəsində Azərbaycan-Gürcüstan münasibətləri də Prezident İlham Əliyevin səfəri fonunda xüsusi aktuallıq qazandı. Hazırda parlamentin spikerləri arasında yaranan münasibət ən yüksək səviyyədədir. Deputatlar intensiv olaraq qarşılıqlı səfərlər həyata keçirirlər. Beynəlxalq və regional parlament platformalarında aktiv koordinasiya mövcuddur. Daha geniş fəaliyyət, qanunvericilik sahəsində təcrübə mübadiləsi, birgə layihələrin hazırlanması, parlament assambleyalarında ortaq çıxışlar, regional təhlükəsizlik məsələlərində vahid mövqedən çıxış etmək bu münasibətləri daha da inkişaf etdirəcək.

Səfərdən sonra, təbii ki, rəqəmsal qanunvericilik və kibertəhlükəsizlik, enerji təhlükəsizliyi ilə bağlı məsələlər də parlamentlərin birgə fəaliyyətində öz əksini tapacaq. Parlament səviyyəsində əməkdaşlıq icra hakimiyyəti arasında olan razılaşmanın davamlılığını təmin edir. Məhz buna görə də dövlət başçısının səfərindən sonra parlament diplomatiyasının aktiv məqsədyönlü mərhələsinə keçidi gözlənilir.

Prezident İlham Əliyevin səfəri həm də Gürcüstanda yaşayan azərbaycanlı icmanın rolunu ön plana çıxardı. Bu icma iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında mühüm körpü funksiyasını yerinə yetirir. Onların sosial, mədəni və iqtisadi həyatda fəal iştirakı Azərbaycan-Gürcüstan münasibətlərinin daha da möhkəmlənməsinə töhfə verir.

Nəticə etibarilə, Prezident İlham Əliyevin Gürcüstana səfəri strateji tərəfdaşlığın gücləndirilməsi, regional layihələrin sürətləndirilməsi və yeni təhlükəsizlik arxitekturasının qurulması baxımından mühüm mərhələ kimi tarixə düşür. Bu səfər bir daha göstərir ki, Azərbaycan və Gürcüstan ortaq maraqlara əsaslanan əməkdaşlıq modelini gələcəkdə də uğurla davam etdirəcək və regionun inkişafında aparıcı rol oynayacaq.

# Azərbaycan mədəniyyətinin yeni konsepsiyası müasir mədəniyyət modelinə keçiddir

Rubrikamızın budəfəki qonağı Azərbaycan Respublikasının mədəniyyət naziri **Adil Kərimlidir**. Həmsöhbətimizlə mədəniyyət və incəsənət sahəsində milli-mənəvi irs nümunələrinin qorunmasından, bu sahəyə investisiya təşviqindən, yaradıcı mühitdə rəqəmsal iqtisadiyyatın tətbiqindən tutmuş yeni mədəniyyət konsepsiyasındakı yanaşmalara qədər bir çox vacib məqamlara toxunduq.



**- Cənab nazir, cari ildə Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev "Azərbaycan Mədəniyyəti - 2040" Mədəniyyət Konsepsiyasının təsdiq edilməsi haqqında sərəncam imzaladı. Bu sənəd mövcud vəziyyətə cavabdır, yoxsa daha çox gələcəyə yönəlik konsepsiyadır?**

- "Azərbaycan Mədəniyyəti - 2040" Mədəniyyət Konsepsiyası həm bu günün çağırışlarını sistemləşdirən, həm də gələcəyə strateji baxışımızı və 2040-cı ilədək inkişaf yolumuzu müəyyən edən fundamental çərçivə sənədidir. Burada mədəniyyətə yalnız ənənəvi humanitar sahə kimi deyil, milli inkişafın strateji resursu kimi yanaşılır.

Konsepsiyanın hazırlanmasını şərtləndirən mühüm siyasi amillərdən biri Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpasıdır. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsi ilə ölkə tarixində yeni mərhələ başlanıb və bu, yalnız fiziki quruculuq deyil, eyni zamanda, mədəni yaddaşın, tarixi irsin və milli kimliyin bərpası kimi böyük ideoloji yük daşıyır. İşğaldan azad edilmiş ərazilərdə dağıdılmış mədəni irsin bərpası, mədəni həyatın yenidən qurulması və həmin məkanların ölkənin ümumi mədəni sisteminə inteqrasiyası dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilib.

Konsepsiyanın əsas məqsədi müasir mədəniyyət modelinə keçiddir. Burada mədəniyyət həm dərin məzmun, həm də funksional təsir aləti kimi qəbul olunur. "Mədəniyyət həyatdır" fəlsəfəsi konsepsiyanın ana xəttidir. İlk dəfə olaraq strateji sənəddə mədəniyyətin altı sahəsi - Azərbaycan dili, davranış mədəniyyəti, bilgi mədəniyyəti, ədəbiyyat, incəsənət və mədəni irs ayrıca istiqamət kimi müəyyən edilib. "Azərbaycanın mədəniyyət dəyərləri" də ayrıca təsbit olunub.

Konsepsiyanın həyata keçirilməsi üç mərhələdə nəzərdə tutulur: 2026-2030, 2031-2035 və 2036-2040-cı illər. Sənədin qəbulundan sonra onun praktiki icrasını təmin edəcək dövlət proqramlarının hazırlanması planlaşdırılır ki, bu da sənədin strateji müddəalarını konkret mexanizmlərə çevirəcək.

Müasir dövrdə mədəniyyət yalnız mədəni irsin qorunması və incəsənətin dəstəklənməsi deyil, həm də iqtisadi dəyər yaradan, beynəlxalq imic formalaşdıran, regionların inkişafına təsir göstərən və cəmiyyətin sosial-mədəni keyfiyyətini müəyyən edən sahədir.

Ümumilikdə, bu sənəd Azərbaycanın yeni tarixi mərhələsində - postmünaqişə dövrü, yeni geosiyasi reallıqlar və milli inkişaf hədəfləri fonunda formalaşmış mədəni ehtiyacların məntiqi nəti-



cəsidir. "Azərbaycan Mədəniyyəti - 2040" məhz cəmiyyətimizdə baş verəcək bu dərin transformasiyanı sistemləşdirir.

**- Adil müəllim, ölkə rəhbərliyinin Azərbaycanın mədəni irsinin beynəlxalq səviyyədə tanıdılması istiqamətində həyata keçirdiyi siyasət və təşəbbüslər barədə fikirlərinizi bilmək istərdik.**

- Doğrudur, mədəniyyət diplomatiyası Azərbaycanın beynəlxalq təsir gücünü artıran ən mühüm alətlərdən biridir. Məqsədimiz qlobal mədəni mübadilədə yalnız iştirakçı deyil, eyni zamanda, gündəmi formalaşdıran tərəfdaş kimi çıxış etmək, milli mədəniyyətimizi beynəlxalq auditoriyaya anlaşılan və müasir dillə təqdim etmək, milli-mədəni irs nümunələrimizin bəşəri dəyər kimi qəbul olunmasını təmin etməkdir. Mədəniyyət diplomatiyası, sadəcə, xaricdə konsert və ya sərgi keçirməkdən ibarət deyil. Bu, ölkənin beynəlxalq imicini, siyasi etimadını, mədəni turizm potensialını və yaradıcı iqtisadiyyat imkanlarını formalaşdıran kompleks siyasətdir.

Azərbaycanın üstünlüyü ondadır ki, mədəniyyətimiz Şərq və Qərbin, türk-islam və Qafqaz sivilizasiya qatlarının qovuşduğu unikal sistemdir. Muğam, xalçaçılıq, aşıq sənəti, Novruz bayramı, kəlağayı, tar ifaçılığı, miniatür sənəti kimi irs nümunələrimiz UNESCO platformalarında tanınır. Müasir mərhələdə əsas məqsəd bu irsi beynəlxalq auditoriyaya yeni təqdimat dili ilə çatdırmaqdır.

Bu məqsədlə yeni alətlərdən istifadə edirik - rəqəmsal platformalar və virtual sərgilər, beynəlxalq koproduksiya mexanizmləri, diasporla mədəni əməkdaşlıq, xarici prodüserlər üçün kino təşviqləri və mədəniyyət elçiləri şəbəkəsi.

2025-ci ildə Antalyada keçirilən və 40 ölkədən 250-yə yaxın mədəniyyət xadimini birləşdirən Azərbaycan Mədəniyyət Elçilərinin I Forumu "insandan-insana" diplomatiyamızın strateji nüvəsinə çevrildi. Hazırda 6 xarici ölkədə mədəniyyət mərkəzlərimiz fəaliyyət göstərir. 2025-ci ildə o mərkəzlərimizin 172 tədbiri vasitəsilə 150 minə yaxın insana birbaşa çıxış əldə etmişik. Dövlət başçısının göstərişinə uyğun olaraq həmin mərkəzlərin sayının və miqyasının artırılması nəzərdə tutulur.

Azərbaycan UNESCO-nun irslə bağlı əsas konvensiyalarının iştirakçısıdır və qurumda Mədəni mülkiyyətin mənşə ölkələrinə qaytarılmasının təşviqi və ya qanunsuz mənimsənilməsi halında restitusiyası üzrə Hökumətlərarası Komitənin və Ümumdünya İrs

Komitəsinin üzvüdür. Mədəni irs nümunələrimiz mütəmadi olaraq UNESCO siyahılarına daxil edilir. Bu da onların beynəlxalq səviyyədə "pasportlaşdırılması" rolunu oynayır. Hazırda reprezentativ siyahıya 23, təcili qorunmaya ehtiyacı olan siyahıya 2 qeyri-maddi irs nümunəsi, ümumdünya irs siyahısına isə 4 abidə daxil edilib. Ölkəmiz beynəlxalq siyahılarda olan mədəni irs nümunələrinin sayına görə dünyada ön sıralarda qərarlaşır. Bu, Azərbaycan mədəniyyətinin zənginliyinin və rəngarəngliyinin bariz göstəricisidir.

Digər mühüm istiqamət isə mədəniyyət məhsullarının ixracıdır. Kino sahəsində tətbiq etdiyimiz "ribeyt" - qismən geri ödəniş mexanizmi nəticəsində 2025-ci ildə ölkəmizdə 10 xarici audiovizual layihənin çəkilişi baş tutub.

Bir sözlə, mədəniyyət diplomatiyamız hədəfli və nəticəyönümlü təsir formatına keçib. Məqsədimiz Azərbaycanı dünyada yalnız zəngin tarixi ilə deyil, eyni zamanda, qlobal mədəniyyət bazarına rəqabətədavamlı məhsullar təqdim edən yaradıcı istehsal məkanı və müasir yaradıcı güc mərkəzi kimi tanıtmaqdır.

**- "Azərbaycan Mədəniyyəti-2040"-da müəyyən edilən istiqamətlər üzrə sistemli və davamlı fəaliyyəti təmin etmək üçün hansı müasir alətlərdən istifadə edilməsi nəzərdə tutulur?**

- Konsepsiyada müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə hədəflərə çatmaq və mədəniyyətin funksionallığını artırmaq üçün üç əsas strateji alət seçilmişdir. Bu alətlər mədəniyyətin həm iqtisadi, həm texnoloji, həm də beynəlxalq müstəvidə dayanıqlı inkişafını təmin etməlidir.

Birinci əsas alət mədəni və yaradıcı sənayedir (MYS). Bu, mədəniyyətin iqtisadiyyatla vəhdətini təmin edən ən əsas mexanizmdir. Burada məqsəd mədəniyyəti yalnız dövlət dəstəyi ilə yaşayan sahə kimi deyil, əlavə dəyər yaradan iqtisadi sektor kimi inkişaf etdirməkdir. MYS-nin ÜDM-də payının artırılması, investisiya təşviqlərinin tətbiqi, milli brendlərin yaradılması hədəflənir.

İkinci alət rəqəmsallaşmadır. Son illərdə mədəniyyətdə idarəetmə sisteminin rəqəmsallaşdırılması istiqamətində kifayət qədər yeniliklər edilib, yeni xidmətlər istifadəyə verilib. Bu istiqamət, sadəcə, xidmətlərin elektronlaşdırılması deyil, ümumilikdə "e-Culture" ekosisteminin qurulmasıdır. Bu sistem mədəniyyətin əlçatanlığını artırmaqla yanaşı, idarəetmədə məlumat əsaslı qərar qəbul etməyə imkan verəcək. Müasir dövrdə mədəniyyət idarəçiliyində sürət, şəffaflıq və ölçüləbilən nəticələr məhz rəqəmsal platformalar vasitəsilə təmin olunur.




Üçüncü alət mədəniyyət diplomatiyasıdır ki, bu da Azərbaycanın beynəlxalq müstəvidə "yumşaq güc"ünün əsas vasitəsidir. Bu alət ölkənin beynəlxalq nüfuzunu gücləndirərək xalqlar arasında etimad, əməkdaşlıq və qarşılıqlı anlaşma yaradır.

Bu üç alətin birləşdiyi əsas ortaq mexanizm isə kommunikasiyadır. Düzgün və davamlı kommuni-

kasiya mədəniyyətin təsir gücünü artırır və konsepsiyanın bütün mərhələlərinin uğurlu icrasını təmin edir.

**- Cənab nazir, bir qədər regionlar üzrə mədəni inkişaf fərqlərinin aradan qaldırılması üçün nəzərdə tutulan xüsusi proqramlardan söhbət açmağınızı istərdik.**

- Mədəniyyətə çıxış imkanları yaşayış məkanından asılı olmayaraq, ölkənin bütün vətəndaşları üçün bərabər olmalıdır. Bu prinsip yeni mədəniyyət konsepsiyasının ana xəttidir. Biz istəyirik ki, paytaxtda olan imkanlar eyni keyfiyyətdə bölgələrimizdə də əlçatan olsun. Bu istiqamətdə iki əsas xətt üzrə işləyirik: birincisi, regionlarda yaradıcı mühitin gücləndirilməsi, ikincisi isə Qarabağ və Şərqi Zəngəzurda mədəni həyatın yenidən qurulması.

Artıq bölgələrdə yaradıcı potensialın artdığını görürük. Məsələn, "Yaradıcı müzakirələr" layihəsi çərçivəsində 10 regionda 100 tədbir keçirildi, minlərlə gənc iştirak etdi. Kino, teatr, dizayn, animasiya, yaradıcı startaplar kimi sahələr üzrə müzakirələr və təcrübə mübadiləsi aparıldı. Bu, onu göstərir ki, bölgələr yalnız tamaşaçı məkanı deyil, həm də yaradıcı istehsal mərkəzinə çevrilə bilər.

Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri möhtərəm Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırıqları və nəzarəti ilə həyata keçirilir. Dövlət proqramına əsasən, bir neçə rayonda İşğal və Zəfər muzeyləri komplekslərinin təməlləri qoyulub, layihələndirmə işləri tam şəkildə başa çatıb. Şuşada Bülbülün Ev Muzeyi, Üzeyir Hacıbəylinin Ev Muzeyi və Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı yeni ekspozisiyalarla fəaliyyət göstərir. "Şirin su" hamamı Heydər Əliyev Fondu tərəfindən bərpa edilib.

2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Ağdam "İmarət" Tarix-Memarlıq Muzey Kompleksinin bərpadan sonra açılışı baş tutdu. Prezidentin iştirakı ilə Ağdam Muğam Mərkəzinin açılışı oldu. Artıq Ağdamda Beynəlxalq Muğam Festivalı, müsabiqələr təşkil olunur.

İşğaldan azad edilmiş ərazilərdə yaşayan uşaqlarımız üçün musiqi məktəbləri, təsviri sənət üzrə rəssamlıq şöbələri yaradılıb. Hazırda Şuşanın, Ağdamın, Füzulinin və Cəbrayılın incəsənət məktəblərində tədris aparılır. Füzuli şəhərində Qazaxıstan dövlətinin maliyyə vəsaiti hesabına "Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi" tikilib istifadəyə verilib.

Qarabağ və Şərqi Zəngəzurda ənənəvi Vaqif Poeziya Günləri və "Xarıbülbül" festivalları keçirilir. Həmçinin bölgənin potensialını əks etdirən yerli, regional və beynəlxalq mədəniyyət tədbirləri təşkil olunur. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, Laçın, Füzuli, Cəbrayıl, Xankəndi, Şuşa, Ağdam, Kəlbəcər şəhərlərində şəhər günləri keçirilir.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq hazırda Xankəndi Dövlət Dram Teatrının və Əsgəran qala-kompleksinin təmir-bərpa və yenidənqurma işləri aparılır.

Bizim əsas məqsədimiz odur ki, hər bir bölgə öz yaradıcı potensialını inkişaf etdirsin, insanlar böyük mədəni proseslərin yalnız paytaxtda deyil, öz yaşadıqları bölgədə də baş verdiyini hiss etsinlər.

**- Dünya təcrübəsində özəl sektorun və sponsorların mədəniyyətə yatırımı geniş tətbiq olunur. Azərbaycanda bu sahədə hansı təşviq alətləri mövcuddur?**

- Mədəniyyət sahəsində dövlətlə özəl sektorun tərəfdaşlığı artıq bir seçim deyil, müasir dövrün strateji tələbidir. Biz mədəniyyəti həm iqtisadi sektor, həm də geniş donorluq və sosial məsuliyyət platforması kimi qiymətləndiririk.

Təşviq alətlərini isə üç əsas istiqamətdə ümumiləşdirə bilərik.

Birinci istiqamət investisiyaların birbaşa təşviqidir. Xarici istehsalçılar tərəfindən Azərbaycanda film istehsalını stimullaşdırmağa yönələn "ribeyt", yəni qismən geri ödəniş mexanizmi bu baxımdan mühüm alətdir. Qaydalara əsasən, ölkəmizdə film üçün istehsalçı tərəfindən çəkilmiş xərclərin 25 faizi geri qaytarılır. Bundan başqa, mədəniyyətimizin təbliği üçün müəyyən edilmiş meyarların azı üçünə cavab verdikdə əlavə olaraq çəkilmiş xərclərin 15 faizi məbləğində vəsait də istehsalçıya geri qaytarılır. Bu mexanizm həm də xarici təcrübənin ölkəmizə gətirilməsini və yerli kadrların bilavasitə istehsalatda yetişdirilməsini hədəfləyir. Son 3 il ərzində xarici istehsalçılar Azərbaycan ərazisində film istehsalına 12 milyon ABŞ dolları vəsait xərcləyiblər.

İkinci istiqamət məhsuldar tərəfdaşlıqdır. Kino sənayesini dövlət istehsalı modelindən çıxararaq çoxsubyektli yaradıcı ekosistem formatına keçiririk. Ümumilikdə son 3 il ərzində istehsalına başlanılmış 71-ə yaxın filmin bir çoxunun çəkilişi artıq başa çatıb. Tammetrajlı bədii filmlərin sayı isə 20-dən artıqdır. Bütün bunlar dövr ərzində təxminən 2000-ə yaxın daimi və müvəqqəti iş yerinin açılması deməkdir.

Üçüncü istiqamət donorluq və filantropiya mədəniyyətinin formalaşdırılmasıdır. Muzeylərin, teatrların fəaliyyəti, mədəni



irsin qorunması, gənc istedadların dəstəklənməsi mədəniyyət sahəsinin vacib hissəsidir. Konsepsiya çərçivəsində mədəniyyətə dəstək nüfuza və milli gələcəyə yatırım kimi təqdim olunur. Strateji hədəfimiz sponsorların və investorların mədəniyyət layihələrində iştirakını daha maraqlı edən hüquqi mexanizmləri təkmilləşdirməkdir. Məqsəd odur ki, mədəniyyətə qoyulan vəsait, sadəcə, yardım deyil, qarşılıqlı fayda və dividendlər gətirən investisiya kimi qəbul edilsin. Quracağımız mühit isə şəffaf və açıq olmalıdır ki, istər iri investor, istərsə də kiçik donor mədəniyyəti həm mənəvi borc, həm də iqtisadi üstünlük qazana biləcəyi sahə kimi görə bilsin.

**- Ölkədə aparılan islahatlar Mədəniyyət Nazirliyindən də yan ötmədi. Qurum daxilindəki struktur dəyişiklikləri hansı problemlərin həllinə yönəlmişdir?**

- Mədəniyyət Nazirliyində aparılan struktur dəyişikliklərinin əsas məqsədi idarəetmənin daha çevik, şəffaf, nəticəyönümlü və müasir tələblərə uyğun qurulmasıdır.

İdarəetmə sahəsi olaraq mədəniyyət çox geniş və mürəkkəb sistemdir. Burada fərqli təsisatlar (teatrlar, muzeylər, kitabxanalar, incəsənət məktəbləri, qoruqlar), sahələr, istiqamətlər, alətlər (beynəlxalq əməkdaşlıq, MYS və onun alt sahələri - kino, musiqi sənayesi, rəqəmsal platformalar və s.) bir-biri ilə bağlı fəaliyyət göstərir.

Bu mürəkkəb sahəni sistem şəklində səmərəli, özü də konsepsiyada vurğulanan hədəf və məqsədlərə nail olmaqla idarə etmək üçün klassik inzibati model artıq kifayət etmir. Məhz bu səbəbdən islahatlar aparıldı. İslahatların ana xətti iki əsas keçid üzərində qurulub.

Birincisi, prosesdən nəticəyə keçiddir ki, uzun müddət mədəniyyət sahəsi tədbirlərin sayı ilə ölçülürdü. Halbuki müasir idarəetmədə əsas sual budur: tədbirin real təsiri nə oldu, neçə nəfər yeni auditoriyaya cəlb edildi, hansı sosial və iqtisadi dəyər yaradıldı? Bu yanaşma nazirlik daxilində strateji planlaşdırma, layihə idarəçiliyi və nəticələrin qiymətləndirilməsi mexanizmlərinin gücləndirilməsini tələb edir.

İkincisi, strateji hesabatlılığın artırılmasıdır. Nazirliyin üzərinə düşən normativ və strateji yükün artması bunu zəruri edib. Ölkə rəhbərliyi tərəfindən təsdiq edilmiş dövlət proqramları, strategiyalar, fərman və sərəncamlar üzrə nazirliyə verilmiş tapşırıqların icrası üçün yeni sistemli iş mexanizmi qurulmuşdur.

İslahatların başqa bir mühüm istiqaməti insan kapitalıdır. Kadrların peşəkarlığı, motivasiyası və xüsusilə rəqəmsal bacarıqların artırılması əsas hədəflərdəndir. Təlimlər, attestasiya və sertifikasiya üsulları vasitəsilə mədəniyyət idarəçiliyində yeni davranış modeli formalaşdırırıq.

Yekun məqsədimiz yalnız strukturun dəyişdirilməsi deyil, bütövlükdə yeni idarəçilik mədəniyyətinin yaradılmasıdır: daha çox təhlil, ölçülə bilən nəticə, tam şəffaflıq və ictimai məsuliyyət.

**- Süni intellekt və yeni texnologiyaların mədəniyyət sahəsində tətbiqi ilə bağlı planlar nədən ibarətdir?**

- Süni intellekt və ümumilikdə rəqəmsallaşma artıq mədəniyyətin bütün sahələri üçün zəruri inkişaf alətinə çevrilib. Bu gün dünyada

muzeylər, kitabxanalar, teatrlar, kino və musiqi sənayesi, arxivlər və təhsil müəssisələri texnologiyalar vasitəsilə tamamilə yeni məzmun və idarəetmə modellərinə keçir. Azərbaycan da bu prosesdən kənarda qala bilməz. Mədəniyyət sahəsində nəticəyə əsaslanan idarəetmə yalnız o halda effektiv ola bilər ki, bütün proseslər ölçülə bilən, izlənilə bilən və şəffaf olsun. Bunun üçün rəqəmsallaşma əsas şərtdir.

Bu məqsədlə 2024-2026-cı illəri əhatə edən Mədəniyyət Nazirliyinin "e-Culture Rəqəmsal İnkişaf Strategiyası" həyata keçirilir və bu strategiya idarəetmə sisteminin demək olar, bütün sahələrinin rəqəmsallaşdırılmasını nəzərdə tutur. Strategiya çərçivəsində 12 moduldan ibarət Vahid Mədəniyyət Reyestri yaradılıb.

Mədəniyyət Nazirliyinin təhsil sistemi tam rəqəmsallaşdırılmışdır. Təhsil sistemində 10 mindən çox müəllim və 50 mindən artıq şagird vahid rəqəmsal idarəetmə platformasına inteqrasiya edilib, "e-jurnal" və "e-gündəlik" modullarının pilot tətbiqinə başlanılıb. Bu sistem həm idarəetmədə şəffaflıq yaradır, həm də subyektiv və qeyri-şəffaf halların qarşısını almağa imkan verir.

Kitabxana sahəsində KOHA avtomatlaşdırılmış idarəetmə sistemi tətbiq edilib və artıq 850 mindən çox kitabın elektron kataloqu yaradılıb. Muzey və qalereya fondlarının rəqəmsallaşdırılması da sürətlə gedir. Milli İncəsənət Muzeyində 18 mindən artıq eksponat üzrə 50 mindən çox şəkil rəqəmsallaşdırılıb, Dövlət Rəsm Qalereyasının fondu tam şəkildə reyestrə daxil edilib. Uşaq İncəsənət Festivalında isə bütün prosedurlar rəqəmsal formatda aparılıb.

"MyCulture" platforması üzrə 6 dövlət qurumu ilə 50-dən çox məlumat həddi inteqrasiya olunub və 2025-ci ildə vahid şəxsi kabinet üzərindən 7 xidmət tam rəqəmsal formatda istifadəyə verilib.

Süni intellektin tətbiqi isə daha çox mədəni irsin rəqəmsal arxivləşdirilməsi və tanınması, muzeylərdə ziyarətçi davranışının analizi və fərdi marşrutların qurulması, kino və animasiya istehsalında yaradıcı alətlərin tətbiqi, kitabxana və arxivlərdə "ağıllı axtarış" sistemlərinin qurulması kimi istiqamətləri əhatə edəcək.

**- Bu islahatlar kontekstində incəsənət təhsilinin müasirləşdirilməsini necə qiymətləndirirsiniz?**

- Hazırda Azərbaycanda 240-a yaxın musiqi və incəsənət məktəbi fəaliyyət göstərir və bu müəssisələrdə minlərlə şagird təhsil alır. Bu sistem uzun illər ərzində güclü ifaçılıq və sənət ənənəsi formalaşdırıb. Müasir mərhələdə əsas məsələ həmin modelin yeni çağırışlara uyğunlaşdırılmasıdır. Ənənəvi yanaşma əsasən klassik repertuar və texniki bacarıqların ötürülməsinə əsaslanırdı. Bu baza vacib olaraq qalır, lakin artıq yaradıcı düşüncə, layihə əsaslı fəaliyyət və rəqəmsal bacarıqlarla tamamlanmalıdır.

İslahatların birinci istiqaməti pedaqoji heyətin bilik səviyyəsinin artırılmasıdır. Müəllimlərin attestasiyası məhz bu məqsədə xidmət edir. İndiyədək 10 mindən çox müəllim, yəni ümumi pedaqoji heyətin təxminən 80 faizi attestasiya prosesində iştirak edib. Bu ilin sonunadək Naxçıvan da daxil olmaqla proses yekunlaşacaq.

İkinci istiqamət təhsilin məzmununun yenilənməsidir. 6 ixtisas



(fortepiano, tar, violin, kamança, qanun, qarmon) üzrə tədris proqramı yenilənib. İlk dəfə fortepiano fənni üzrə dərslik hazırlanıb. Əmək bazarının tələblərinə uyğun olaraq rəqəmsal incəsənət, dulusçuluq, qrafik dizayn, moda dizaynı, animasiya kimi yeni ixtisasların tətbiqi nəzərdə tutulur.

Üçüncü istiqamət institusional modelin dəyişməsidir. İncəsənət məktəbləri tədricən qapalı təhsil məkanından açıq yaradıcı platformalara çevrilir. Normativ hüquqi yeniliklər çərçivəsində "İncəsənət məktəb və mərkəzlərinin Nümunəvi Əsasnaməsi" təsdiqlənib, "Tədrisin Təşkilinə dair Təlimat" yenilənib, direktor, müəllim və şagird qəbulu üzrə yeni qaydalar qəbul olunub.

Rəqəmsallaşma istiqamətində direktor, müəllim və şagird qəbulu elektronlaşdırılıb, növbəti ildən "e-şəhadətnamə" verilməsi nəzərdə tutulur.

Bakı Dövlət Universitetində 2024-2025-ci tədris ilindən magistratura səviyyəsində kadr hazırlığına başlanılıb. ADA Universiteti ilə ikili proqram çərçivəsində İtaliya universitetləri ilə əməkdaşlıq həyata keçirilir. "Mədəni və yaradıcı sənayelər üzrə Xüsusi Təqaüd Proqramı" vasitəsilə indiyə kimi 45 nəfərin xaricdə təhsilinə maliyyə dəstəyi göstərilib və növbəti mərhələdə daha 17 nəfərin təhsili təmin ediləcək. Eyni zamanda, məktəblərin musiqi alətləri ilə təmin olunması davam edir.

**Cənab nazir, mədəni və yaradıcı sənayelər haqqında anlayışlar cənab Prezidentin müvafiq sərəncamı ilə "Mədəniyyət haqqında" Qanuna da əlavə edildi. Bununla bağlı nələri söyləmək istərdiniz?**

- Qeyd edildiyim kimi, "Azərbaycan Mədəniyyəti - 2040" Mədəniyyət Konsepsiyasında prioritet istiqamətlərdən biri məhz mədəni və yaradıcı sənayenin inkişafıdır. Çünki bu sahə mədəniyyətin yalnız mənəvi deyil, eyni zamanda, iqtisadi gücə çevrilməsi üçün əsas platformadır.

Konsepsiyada MYS-nin inkişafı ilə bağlı 2 dövlət proqramının hazırlanması nəzərdə tutulur və hazırda biz həmin dövlət proqramlarının hazırlanması məqsədilə biznes subyektləri ilə görüşlər keçiririk. Artıq 25 minə yaxın belə subyektimiz var. Sektorun iqtisadi çəkisi də artmaqdadır. 2025-ci ildə MYS-nin ÜDM-də payı 1 faizə çatıb. Bu, artıq mədəni və yaradıcı iqtisadiyyatın ölkə iqtisadiyyatında real mövqeyə malik olduğunun göstəricisidir.

Xidmət ixracı da əhəmiyyətli dərəcədə artıb. 2025-ci ildə MYS sahəsində ixrac edilən xidmətlər 2024-cü illə müqayisədə 23,3 faiz çoxdur. Bu göstəricilər həm də yeni iş yerləri və məşğulluğun artması deməkdir. Ötən il "Qlobal media və əyləncəyə baxış" hesabatında Azərbaycan 133 ölkə arasında 47-ci sırada qərarlaşıb.

MYS sahəsində stimullaşdırıcı tədbirlər də həyata keçirilir. "Mədəniyyət sahələri üzrə ümumi qrant müsabiqəsi", "Mədəni və yaradıcı sənayelər üzrə xüsusi qrant müsabiqəsi" çərçivəsində ümumilikdə 220 layihə təqdim olunub, 54 layihə qalib seçilib. Qalib layihələrdən 15-i birbaşa MYS sahələrini əhatə edir.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində





2024-cü ildə Mədəni və Yaradıcı Sənayelərin İnkişafı Mərkəzi təsis edilib. Mərkəzin fəaliyyəti çərçivəsində 9 inkubasiya proqramı həyata keçirilib və 52 startap yaradılıb. Bu startaplardan 5-i KOBİA-dan "Startap şəhadətnaməsi", 2-si isə qrant əldə edib. Müxtəlif proqramlar çərçivəsində 100-dən artıq rezident tədris proqramlarından yararlanıb. Sertifikat təlimlərində isə 700-dən çox gənc iştirak edib.

Bu proses artıq real nəticələr verir: "BYQR" və "Kinobox" startapları böyük həcmdə investisiyalar, "KəndəGet" startapı isə qrant əldə edib. "BYQR", "Kinobox", "KəndəGet", "Casting.az" və "Biyer" startapları artıq gəlir əldə edən biznes subyektlərinə çevriliblər.

MYS sahəsində davam edən islahatlar nəticəsində investisiya qoyuluşları artacaq, dəyər zənciri təkmilləşdiriləcək və ixrac potensialı gücləndiriləcək.

**- Sonda şəxsi bir sual - sizin üçün vəzifənizin ən çətin, eyni zamanda, ən motivəedici tərəfləri hansılardır?**

- Mədəniyyət naziri kimi bu vəzifənin ən çətin tərəfi ondan ibarətdir ki, burada qəbul edilən hər bir qərar çoxölçülüdür: onun inzibati, ictimai və mənəvi tərəfləri var. Bu qərarlar birbaşa cəmiyyətin zövqünə, yaddaşına, milli kimliyinə və gələcək nəsillərin dünyagörüşünə təsir göstərə bilir.

Sahənin başqa bir çətinliyi ondan ibarətdir ki, mədəniyyət sahəsində nəticələr dərhal görünmür. İnfrastruktur layihələrində nəticə tez əldə olunur, lakin mədəniyyətə yatırılan resursların real təsiri çox vaxt illər sonra - yeni auditoriyanın formalaşmasında, istedadların yetişməsində və ölkənin beynəlxalq imicinin möhkəmlənməsində özünü göstərir. Bu, böyük səbir, ardıcıllıq və strateji baxış tələb edir.

Lakin məni ən çox motivasiya edən məqam da məhz budur. Mədəniyyət sahəsində görülən işlər yalnız bu gün üçün deyil, gələcək üçün qurulan dəyərdir. Bir muzeyin bərpası yalnız bir binanın yenilənməsi deyil, milli yaddaşın bərpasıdır. Bir gəncin incəsənətə cəlb olunması yalnız fərdi uğur deyil, gələcək mədəni mühitin formalaşmasıdır. Hər bir beynəlxalq layihə Azərbaycanın dünyada tanınması üçün açılan yeni pəncərədir.

Azərbaycan mədəniyyəti böyük daxili enerjiyə malikdir. Bu enerji Qarabağın dirçəlişindən tutmuş gənclərin rəqəmsal yaradıcılığına qədər hər sahədə hiss olunur. Bizim missiyamız bu enerjini qorumaq, onu yeni məzmun yaradılmasına yönəltmək və dünyaya müasir dillə təqdim etməkdir.

Mədəniyyət siyasəti əslində gələcəyin dizaynıdır. Bu gün atdığımız addımlar sabah Azərbaycanın dünyada necə tanınacağını və cəmiyyətimizin mədəni keyfiyyətinin necə müəyyən ediləcəyini göstərəcək. Bu, vəzifəmin həm məsuliyyətli, həm də qürurlu tərəfləridir.




# Parlament diplomatiyası güc qazanır:
## PAİ Assambleyasında Azərbaycanın rolu



**Sevil Mikayılova**
Milli Məclisin deputatı,
Parlamentlərarası İttifaqın
vitse-prezidenti

Cari il aprelin 15-17-də İstanbulda Parlamentlərarası İttifaqın 152-ci Assambleyası keçirildi və bu toplantı təkcə növbəti rəsmi tədbir deyil, qlobal parlament diplomatiyasının istiqamətini yeniləyən hadisə kimi yadda qaldı. Türkiyə Böyük Millət Məclisinin ev sahibliyi ilə baş tutan Assambleya iştirak miqyasına görə qurumun tarixinin ən böyük toplantılarından biri idi: 157 ölkədən təxminən 2420 nümayəndə, o cümlədən 77 parlament sədri eyni platformada bir araya gəldi. Bu miqyasın özü belə bir mesaj verirdi: qlobal qeyri-müəyyənlik, müharibələr, siyasi qütbləşmə və etimad böhranı fonunda parlamentlər dialoq üçün hələ də ən legitim və işlək platformadır.

Assambleyaya Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş sədrlik etdi. Təhlükəsizlik, logistika və protokol baxımından tədbirin yüksək səviyyədə təşkili Türkiyənin belə toplantılara ev sahibliyi təcrübəsini aydın göstərirdi. PAİ prezidenti Tulia Akson gərgin qlobal şəraitə baxmayaraq, görüşün təxirə salınmamasını "cəsarətli qərar" adlandırdı. Toplantının əsas mövzusu - "Gələcək nəsillər üçün ümidin artırılması, sülhün və ədalətin təmin edilməsi" müasir dünyanın qlobal çağırışlarına birbaşa cavab idi. Qurumun Baş katibi Martin Çunqonq da çıxışında parlamentarilərin fəaliyyətinin mərkəzində gələcək nəsillərin dayanmalı olduğunu dəfələrlə vurğuladı. Yekunda qəbul üçün təqdim edilən İstanbul Bəyannaməsi göstərdi ki, müzakirələr formal xarakter daşımır, praktik siyasi istiqamətlərə çevrilir.

Sessiyalarda silahlı münaqişələrin artması, demokratik institutlara inamın zəifləməsi, dezinformasiya, iqlim böhranı, süni intellektin nəzarətsiz inkişafı, qadınların və gənclərin qərarvermədən kənarda qalması kimi məsələlər əsas müzakirə mövzusu idi. Təşkilat açıq şəkildə bəyan etdi ki, parlament artıq




yalnız qanunvericilik orqanı deyil, həm də sülhün, dialoqun və çoxtərəfli əməkdaşlığın aparıcı aktoruna çevrilməlidir.

Parlamentlərarası İttifaq milli parlamentləri birləşdirən beynəlxalq təşkilatdır. 1889-cu ildə əsası qoyulan bu qurum dünyanın ən qədim beynəlxalq təsisatı olmaqla parlamentlərarası dialoqun əsas mərkəzi hesab olunur. Düz 137 ildir ki, təşkilat demokratiyanı, sülhü, insan hüquqlarını, gender bərabərliyini və davamlı inkişafı parlament səviyyəsində dəstəkləmək və gücləndirmək istiqamətində yorulmadan çalışır. Təşkilat parlamentlər arasında təcrübə mübadiləsini təşkil edir, qanunvericilik orqanlarının fəaliyyətini yaxşılaşdırmaq üçün tövsiyələr verir və qlobal problemlərin həllində parlamentlərin rolunu artırmağa çalışır. Hazırda dünyanın 180-ə yaxın ölkəsinin qanunvericilik orqanı PAİ-nin üzvüdür. Təşkilatın qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşir. Birləşmiş Millətlər Təşkilatı ilə sıx əməkdaşlıq edən qurum parlamentlərin səsini beynəlxalq arenaya çatdırır.




Parlamentlərarası İttifaq üçün bu il simvolik məna daşıyır. Təşkilat Parlamentarilərin İnsan Hüquqları üzrə Komitəsinin 50 illiyini qeyd edir və 2026-cı ili rəsmi olaraq “İnsan hüquqları ili” elan etmişdir. Bu komitə yarım əsrdir təqib olunan, həbs edilən, təzyiqlərə məruz qalan deputatların müdafiəsi ilə məşğuldur. Təkcə ötən il dünyada 1000-dən çox parlament üzvünün fundamental hüquqları pozulub. Rəqəmlər vəziyyətin kifayət qədər ciddi olduğunu göstərir. İttifaq bu faktı qlobal demokratik geriləmənin açıq göstəricisi kimi qiymətləndirir.

Assambleyada PAİ-nin 2027-2031-ci illər üçün yeni strategiyası da qəbul edildi. 111 ölkədən 1000-dən çox deputat və parlament




əməkdaşının iştirakı ilə hazırlanan sənəd Parlamentlərarası İttifaq tarixində ən geniş məsləhətləşmə prosesi nəticəsində formalaşıb. Strategiyanın əsas istiqamətləri "Güclü və inklüziv parlamentlər", "Parlament diplomatiyasının genişləndirilməsi", "Təşkilati çeviklik və hesabatlılıq", "Süni intellekt və rəqəmsal texnologiyalara parlament nəzarəti" kimi mövzular üzrə qruplaşdırılıb. Bu yanaşma göstərir ki, gələcəyin siyasi riskləri artıq yalnız hərbi və ya iqtisadi deyil, həm də texnoloji xarakter daşıyır.

Assambleyanın ən yaddaqalan hadisələrindən biri Anda Filipin PAİ-nin Baş katibi seçilməsi oldu. O, təşkilatın 137 illik tarixində bu vəzifəyə seçilən ilk qadındır. 72 faiz səs toplayan Filipin seçilməsi İttifaqda gender bərabərliyi siyasətinin real nəticəsi kimi qiymətləndirildi. Beləliklə, PAİ 137 illik fəaliyyətində ilk dəfə olaraq həm prezidenti, həm də Baş katibi qadın olan beynəlxalq təşkilat kimi tarixə düşdü.

İstanbul Assambleyası isə bir daha sübut etdi ki, qurum formal bir tribuna deyil. İsrail-Fələstin münaqişəsində iki dövlətli həllə dair xüsusi sessiyanın keçirilməsi ən həssas geosiyasi məsələlərin belə parlament platformasında müzakirə oluna bildiyini göstərdi.

PAİ-nin 152-ci Assambleyasında Azərbaycan nümayəndə heyəti Milli Məclisin sədri Sahibə xanım Qafarovanın rəhbərliyi ilə geniş tərkibdə təmsil olunurdu. Azərbaycan parlamentinin sədri Assambleyanın ümumi müzakirələrində mövzu ilə bağlı geniş çıxış etdi. Onun çıxışı Assambleyanın əsas ideyaları ilə səsləşən, lakin konkret siyasi təcrübəyə söykənən məzmunu ilə seçildi. Sahibə Qafarova dünyada artan qeyri-müəyyənliklərin, davam edən münaqişələrin, dərinləşən böhranların, genişlənən bərabərsizliklərin sülh və ədalətin təməllərini sarsıtmaq riski yaratdığını vurğuladı. O, iqlim dəyişikliyinin artıq abstrakt təhlükə deyil, təcili tədbirlər tələb edən reallıq olduğunu bildirdi və məhz bu səbəbdən mövzunun əsil vaxtında seçildiyini qeyd etdi.

Spiker çoxtərəfliliyin vacib rolunu xüsusi vurğulayaraq beynəlxalq hüquqa hörmətin gücləndirilməsinin zəruriliyini bildirdi. Onun sözlərinə görə, parlamentarilər sülhü təşviq etməli, ədaləti qorumalı və qərarlarda gələcək nəsillərin maraqlarını təmin etməlidirlər. Bu kontekstdə PAİ-nin qlobal idarəetmədə parlamentlərin səsini gücləndirən platforma kimi rolu xüsusi qeyd olundu.

Çıxışın mərkəzi xəttini isə gənclərə yönəlmiş diqqət təşkil edirdi. Sahibə Qafarova Assambleyanın bu sahədə yanaşmasını yüksək qiymətləndirərək vurğuladı ki, gənclər təkcə siyasətin benefisiarları deyil, dəyişikliklərin fəal iştirakçılarıdır. O, Birləşmiş Millətlər Təşkilatının "Gələcək nəsillər haqqında Bəyannamə"sinin əhəmiyyətini xatırladaraq inklüziv və irəliyə yönəlmiş siyasətlərin vacibliyini qeyd etdi.

Konfransda Azərbaycan təcrübəsi nümunə kimi təqdim edil-




di. “Gənclər siyasəti haqqında” Qanun, xaricdə təhsilin təşviqi, məşğulluq proqramları, gənclərin dövlət idarəçiliyində iştirakının artırılması kimi təşəbbüslər konkret nəticələr verən institusional çərçivə kimi göstərildi. Xüsusilə “Yüksəliş Proqramı” gənclərin motivasiyası və səlahiyyətləndirilməsi baxımından vurğulandı. Həmçinin Gənclər Forumu, Könüllülər Forumu, Qoşulmama Hərəkatının Gənclər Təşkilatı və “Nizami Gəncəvi” Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunan platformalar vasitəsilə Azərbaycanın qlobal gənclər gündəliyinə töhfəsi qeyd edildi.

Sahibə xanım Qafarova çıxışında Cənubi Qafqazın transformasiya mərhələsinə qədəm qoyduğunu, Azərbaycan və Ermənistan arasında dialoqda əldə olunan irəliləyişin siyasi iradə və beynəlxalq hüquqa hörmət əsasında uzunmüddətli münaqişələrin belə həllinin mümkünlüyünü göstərdiyini bildirdi. Bu prosesdə parlament diplomatiyasının etimad quruculuğunda mühüm rol oynadığı vurğulandı.

Assambleya çərçivəsində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci Konfransı keçirildi. Milli Məclisin sədri Sahibə xanım Qafarovanın sədrliyi ilə baş tutan toplantı inkişaf etməkdə olan ölkələrin parlament diplomatiyasında koordinasiyasını gücləndirməyə yönələn növbəti hadisə kimi yadda qaldı. Azərbaycan parlamentinin rəhbərinin uğurlu sədrliyi ilə qlobal təsisatlanma dövrünü sürətlə irəliyə aparan Parlament Şəbəkəsi tarixi qərar qəbul etdi: Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Baş Ofisi Bakıda yaradılacaq.

Sessiyalarda ümumi müzakirələrə sədrlik edən Sahibə xanım Qafarova Azərbaycanın parlament diplomatiyasındakı artan nüfuzunu bir daha nümayiş etdirdi.

Sonda Azərbaycan nümayəndə heyətinin tərkibində iştirak etdiyim PAİ-nin 152-ci Assambleyasının kifayət qədər məhsuldar keçdiyini qeyd etmək istəyirəm. Parlamentlərarası İttifaqın vitse-prezidenti olaraq Qadın Parlamentarilər Bürosu və forumun iclasında çıxışım zamanı komitənin fəaliyyəti və vəzifələri, PAİ-nin bu Assambleyasında qadınların iştirak dinamikası, eləcə də dünya ölkələrinin milli parlamentlərində gender balansı ilə bağlı vəziyyət barədə məlumatları həmkarlarımla bölüşdüm.

İstanbul Assambleyası bir daha göstərdi ki, parlamentlər artıq yalnız milli qanunvericilik institutları deyil. Onlar qlobal risklərin müzakirə olunduğu, münaqişələrin dialoq müstəvisinə daşındığı, texnoloji çağırışların siyasi nəzarətə alındığı və gələcək nəsillərin maraqlarının qorunduğu siyasi mərkəzlərə çevrilir. İstanbuldan verilən əsas mesaj aydındır: dialoq, inklüzivlik və hesabatlılıq olmadan nə sülh, nə də ədalət mümkündür.

PAİ bu Assambleya ilə göstərdi ki, parlament diplomatiyasının XXI əsrdə beynəlxalq münasibətlərin ən effektiv və legitim alətlərindən biri olaraq rolu getdikcə artır.




# Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi beynəlxalq platformaya çevrilib



**Əminə Ağazadə**
Milli Məclisin deputatı

Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi müasir beynəlxalq münasibətlər sistemində mühüm əhəmiyyət kəsb edən platformalardan biridir. Əsasını Qoşulmama Hərəkatı təşkil edən bu Şəbəkə üzv dövlətlərin qanunvericilik orqanları arasında əməkdaşlığın gücləndirilməsi, çoxtərəfli dialoqun təşviqi və qlobal problemlərə birgə yanaşmaların formalaşdırılması məqsədilə yaradılmışdır. Parlament diplomatiyasının genişləndirilməsi baxımından bu təşəbbüs xüsusi aktuallıq daşıyır.

Hazırda Şəbəkə Qoşulmama Hərəkatına üzv olan 120 dövlətin parlamentlərinin yarıdan çoxunu özündə birləşdirir və beynəlxalq parlament təşkilatları ilə əməkdaşlığı durmadan genişləndirir. Şəbəkə Asiya Parlament Assambleyasında, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqında və Ərəb Parlamentində müşahidəçi statusuna malikdir.

Bu Hərəkatın və onun Parlament Şəbəkəsinin inkişafında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rolu xüsusi qeyd olunmalıdır. O, təşkilatın institusional inkişafına mühüm töhfələr vermişdir. Məhz ölkə başçımızın təşəbbüsü ilə Parlament Şəbəkəsinin yaradılması ideyası irəli sürülmüş və qısa müddətdə bu təşəbbüs reallaşdırılmışdır. Bu, ölkənin beynəlxalq nüfuzunun artmasının və çoxtərəfli diplomatiyada fəal iştirakının bariz nümunəsidir.

Azərbaycan parlamentinin sədri Sahibə Qafarovanın Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyətində mühüm rolu da danılmazdır. Milli Məclisin sədrinin beynəlxalq platformada çıxışları, Hərəkatın prinsiplərinin təşviqi və parlament diplomatiyasının inkişafı istiqamətində ardıcıl fəaliyyəti beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Onun rəhbərliyi ilə Parlament Şəbəkəsinin fəaliyyəti genişlənmiş, üzv ölkələrin parlamentləri arasında əməkdaşlıq daha da güclənmişdir.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi çərçivəsində ilk konfrans 2021-ci ildə Bakıda keçirilmişdir. Bu təsis konfransında Şəbəkənin yaradılması rəsmiləşdirilmiş, üzv ölkələrin parlament nümayəndələri bir araya gələrək əməkdaşlığın əsas istiqamətlərini müəyyən etmiş və Bakı Bəyannaməsi qəbul olunmuşdur.

Cari il aprelin 15-də Türkiyənin İstanbul şəhərində keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci konfransı "Qoşulmama Hərəkatı regionunda iqlimə davamlı urbanizasiyanın təmin edilməsində parlamentlərin rolu" mövzusuna həsr edilmişdi. Azərbaycan Respublikası Milli Məclisinin və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin sədri Sahibə Qafarova tədbirdə məzmunlu çıxış etdi. O, çıxışında ciddi çağırışlar - geosiyasi gərginliklər, silahlı münaqişələr, iqtisadi bərabərsizliklər, iqlim dəyişikliyi və digər mürəkkəb qlobal problemlər fonunda bu çətinliklərlə mübarizə aparmaq üçün birlikdə hərəkət etməyin zəruriliyinə diqqət çəkdi. Parlament sədri beynəlxalq siyasi müzakirələrin əsasən bu məsələlərin həllinə yönəldiyi bir vaxtda Qoşulmama Hərəkatının rolunu xüsusi vurğuladı.

Konfransda Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş, Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson, İttifaqın Baş katibi Martin Çunqonq və başqaları çıxış edərək konfrans çərçivəsində qəbul olunan sənədlər və bəyanatlar vasitəsilə beynəlxalq hüququn prinsiplərinin, dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün müdafiəsinin ön plana çəkildiyini, bu prinsiplərin inkişaf etməkdə olan ölkələrin səsinin daha aydın eşidilməsinə imkan yaradan əsas amillərdən olduğunu bildirdilər.

İstanbul konfransı Qoşulmama Hərəkatına üzv ölkələrin parlamentləri arasında siyasi koordinasiyanın gücləndirilməsini xüsusi vurğulayaraq qlobal səviyyədə artan geosiyasi gərginlik fonunda üzv dövlətlərin ortaq mövqedən çıxış etməsinin vacibliyini bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.

Konfransda digər bir mühüm məqam isə parlament diplomatiyasının rolunun artmasına diqqətin yönəldilməsi idi. İstanbul konfransı qanunvericilik orqanlarının yalnız milli səviyyədə deyil, beynəlxalq münasibətlər sistemində də aktiv iştirakının təşviq edilməsinin əhəmiyyətini bu mühüm tribunadan səsləndirdi.

Ümumilikdə, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci konfransında bir sıra mühüm qərarlar qəbul edildi, vacib sənədlər imzalandı. Konfransın yekununda İstanbul Bəyannaməsi qəbul olundu.




Qeyd etmək lazımdır ki, bu gün Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi müasir dövrdə çoxtərəfli əməkdaşlığın inkişafında mühüm rol oynayan təsisatdır. Onun fəaliyyəti üzv dövlətlər arasında siyasi dialoqun dərinləşməsinə, qarşılıqlı etimadın artmasına və qlobal problemlərin həllində birgə səylərin gücləndirilməsinə xidmət edir. Azərbaycanın bu prosesdə fəal iştirakı və təşəbbüskarlığı isə ölkənin beynəlxalq münasibətlər sistemində artan rolunun göstəricisidir.

**Parlamentlərarası İttifaqın 152-ci Assambleyasında və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci Konfransında iştirak etmək üçün aprelin 14-18-də Türkiyənin İstanbul şəhərində işgüzar səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova tədbirə qatılan parlament nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşlər keçirdi.**



Səfər çərçivəsində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Parlamentlərarası İttifaqın (PAİ) 152-ci Assambleyasının iclasında iştirak edən parlament sədrləri ilə görüş keçirdi. Azərbaycan parlamentinin başçısı Sahibə Qafarovanın da iştirak etdiyi görüşdə qardaş ölkənin Prezidenti parlament sədrlərini salamladı və Parlamentlərarası İttifaqın daşıdığı missiyanı yüksək qiymətləndirdi. O, müzakirə olunan mövzuların aktuallığından söz açdı və 152-ci Assambleyanın parlament diplomatiyası çərçivəsində daha ədalətli və təhlükəsiz bir dünyanın, sülh və sabitliklə müşayiət olunan gələcəyin əsaslarının qoyulmasına töhfə verəcəyinə inamını ifadə etdi.





**Aprelin 16-da** Azərbaycan parlamentinin sədri Sahibə Qafarova işgüzar səfər çərçivəsində Mərakeş Krallığı Parlamentinin Müşavirlər Palatasının sədri Mohamed Ould Erraşid ilə görüşdü. Görüş zamanı Azərbaycan və Mərakeş arasında mövcud əlaqələrin səviyyəsi yüksək qiymətləndirildi, parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərin  və siyasi dialoqun inkişafında mühüm alət olduğu qeyd edildi.

Tərəflər həmçinin parlamentlərarası əməkdaşlıq baxımından Parlamentlərarası İttifaq və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi kimi platformaların rolunu vurğulayaraq bu çərçivədə qarşılıqlı fəaliyyətin və koordinasiyanın gücləndirilməsinin əhəmiyyətindən söz açdılar. Milli Məclisin sədri Sahibə Qafarova Mohamed Ould Erraşidin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci Konfransında iştirakını və çıxışını yüksək qiymətləndirdi.

Görüşdən sonra Azərbaycan Respublikası Milli Məclisi ilə Mərakeş Krallığı Parlamentinin Müşavirlər Palatası arasında Anlaşma Memorandumu imzalandı.



**Aprelin 16-da** Milli Məclisin sədri Sahibə Qafarova Assambleyada iştirak etmək üçün qardaş ölkədə olan Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə görüşdü. Söhbət zamanı beynəlxalq tədbirlərin həm dünya ictimaiyyətini narahat edən məsələlərin, aktual problemlərin müzakirəsi, həm də qanunvericilik orqanları arasında əməkdaşlığın yenidən nəzərdən keçirilməsi baxımından mühüm imkanlar yaratdığı diqqətə çatdırıldı. Qonşu və dost dövlətlərimizin münasibətlərinin yüksək səviyyədə inkişafında dövlət başçıları arasında mövcud olan əlaqələrin, eləcə də ali və yüksək səviyyəli qarşılıqlı səfərlərin mühüm rol oynadığı qeyd edildi. Bu çərçivədə Prezident İlham Əliyevin cari ilin aprel ayında Gürcüstana dövlət səfərinin əhəmiyyəti xüsusi vurğulandı.



Spiker Sahibə Qafarova özünün mart ayında Gürcüstana səfərini xatırladaraq parlament sədrlərinin və deputatların qarşılıqlı səfərlərinin önəmindən, dostluq qrupları və parlament komitələri arasında səmərəli əməkdaşlıq təcrübəsindən söhbət açdı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.



**Aprelin 16-da** Milli Məclisin sədri Sahibə Qafarova işgüzar səfər çərçivəsində Əlcəzair Xalq Demokratik Respublikası Milli Xalq Assambleyasının sədri İbrahim Bouğali ilə də görüşdü. Görüş zamanı dost ölkələrimizin münasibətləri daha da inkişaf etdirmək üçün əlverişli imkanların olmasından, Azərbaycan ilə Əlcəzair arasında siyasi dialoqun mövcud səviyyəsindən məmnunluq ifadə edildi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirdikləri qeyd olundu. Parlamentlərarası əlaqələrin ölkələrimiz arasında münasibətlərin mühüm istiqamətini təşkil etdiyini vurğulayan Sahibə Qafarova Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan və Milli Məclisin sədrliyi ilə institusional inkişaf və beynəlxalq nüfuzun möhkəmləndirilməsi istiqamətində mühüm uğurlar əldə edən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi çərçivəsində əlaqələrin daha da inkişaf etdirilməsi barədə fikirlər səsləndirdi. Spiker vurğuladı ki, Şəbəkə həm bir sıra mühüm beynəlxalq məsələlərin müzakirəsi, həm də parlamentlər arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün mühüm bir platformaya çevrilib.

**Aprelin 16-da** Azərbaycan parlamentinin başçısı Sahibə Qafarova PAİ-nin 152-ci Assambleyası çərçivəsində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşdü. Milli Məclisin sədri iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğunu diqqətə çatdırdı, parlamentlərarası əlaqələrin rolundan danışdı.



Görüşdə Azərbaycan parlamentinin sədri bir çox mühüm məsələlərlə bağlı birgə əməkdaşlığın həyata keçirildiyi MDB PA çərçivəsində fəaliyyətin əhəmiyyətindən söhbət açdı. O, Azərbaycan Respublikasının Milli Məclisi ilə Rusiya Federasiyasının Federal Məclisinin Parlamentlərarası Əməkdaşlıq Komissiyasının parlamentlərarası əlaqələrimizdə mühüm rol oynadığını diqqətə çatdırdı.

Rusiya və Azərbaycan xarici işlər nazirliklərinin Azərbaycan təyyarəsinin 2024-cü il dekabrın 25-də Aktau yaxınlığında qəzaya uğraması barədə cari il aprelin 15-də verilmiş birgə bəyanatına toxunan Valentina Matviyenko baş vermiş bədbəxt hadisənin nəticələrinin tənzimlənməsinin əhəmiyyətini qeyd etdi və bir daha xalqımıza başsağlığını çatdırdı.

O, İrandakı müharibə fonunda Rusiya vətəndaşlarının oradan təhlükəsiz şəkildə çıxarılması üçün Azərbaycanın göstərdiyi yardıma görə təşəkkürünü bildirdi.

Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko Prezident İlham Əliyev ilə və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə keçirdiyi görüşlərlə bağlı təəssüratlarını da bölüşdü.

Söhbət zamanı Milli Məclisin sədri iki ölkənin xarici işlər nazirliklərinin sonuncu bəyanatının əhəmiyyətini vurğuladı. Görüşdə ölkələrimiz arasında qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyindən danışıldı.

**Aprelin 17-də** Milli Məclisin sədri Sahibə Qafarova PAİ-nin 152-ci Assambleyası çərçivəsində Venesuela parlamentinin vitse-spikeri Qresia Colmenares ilə görüşdü. Görüşdə Azərbaycanın bir sıra beynəlxalq təşkilatlarda, o cümlədən BMT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığından məmnunluq ifadə edildi. Qoşulmama Hərəkatında ölkəmizin sədrliyi dövründə Azərbaycan hökuməti tərəfindən irəli sürülən bütün təşəbbüslərin Venesuela tərəfindən dəstəkləndiyi vurğulandı. Spiker Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış qurumun Parlament Şəbəkəsinin institusional inkişafı, təşkilatın məqsədlərinin həyata keçirilməsi istiqamətində görülmüş işlər barədə danışdı. Venesuela parlamentinin sədr müavini Parlament Şəbəkəsinin fəaliyyətini yüksək qiymətləndirdi, ölkəsinin Şəbəkənin işində fəal iştirak etdiyini söylədi.



**Aprelin 17-də** Milli Məclisin sədri Sahibə Qafarova Belçika Krallığı Federal Assambleyası Senatının sədri Vinsent Blondel ilə də görüşdü. Görüş zamanı iki ölkə arasında parlamentlərarası əlaqələrin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıldı. Bildirildi ki, parlamentlər dialoq və qarşılıqlı anlaşmaya töhfə verən strukturlardır. Bu mənada, qarşılıqlı təmaslar maraq doğuran məsələlərin müzakirəsində mühüm əhəmiyyətə malikdir. Bu çərçivədə PAİ-nin xüsusi rolu və qurumun həmişə dialoqa, ümumi səylərə xidmət etdiyi vurğulandı.

Görüşdə spiker Sahibə Qafarova bu gün Azərbaycanla Belçika arasında müxtəlif istiqamətlərdə, o cümlədən parlament sahəsində əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu söylədi. O, regionumuzda baş verən proseslər və Ermənistan-Azərbaycan normallaşma prosesi haqqında qarşı tərəfə məlumat verdi, məsələlərə birtərəfli və qərəzli yanaşmaların normallaşma prosesinə mane olduğunu qeyd etdi. Milli Məclisin sədri Ermənistan parlamentinin spikeri ilə görüşünün də əslində qarşılıqlı etimadın gücləndirilməsinə yönəldiyini diqqətə çatdıraraq parlament diplomatiyasının məhz belə məqsədlərə xidmət etməli olduğunu vurğuladı. Söhbət zamanı digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.





**Aprelin 17-də** İstanbulda Parlamentlərarası İttifaqın 152-ci Assambleyası çərçivəsində Azərbaycan və Ermənistan parlamentlərinin sədrləri arasında ikitərəfli görüş keçirildi. Görüş zamanı iki ölkə arasında münasibətlərin normallaşması üçün sülh və sabitliyin gücləndirilməsi, eləcə də ticarət əlaqələrinin qurulması və genişləndirilməsi ilə bağlı son proseslər məmnunluqla qeyd edildi.

Söhbətdə PAİ Assambleyasının parlamentlərarası əməkdaşlıq üçün mühüm platforma kimi rolu vurğulandı və bu baxımdan qurumun Baş katibi Martin Çunqonqun Azərbaycan və Ermənistan parlamentlərinin sədrləri arasında dialoqun qurulmasında göstərdiyi səylər yüksək qiymətləndirildi.

Spikerlər 2025-ci ilin oktyabrında Cenevrədə baş tutmuş görüşdən sonra parlament nümayəndə heyətləri arasında beynəlxalq təşkilatlar çərçivəsində təmasları müsbət dəyərləndirdilər və bu təmasların davam etdirilməsi barədə razılığa gəldilər.

Görüşdə hər iki ölkənin cəmiyyətləri arasında etimadın daha da möhkəmləndirilməsi üçün konstruktiv parlament dialoqunun davam etdirilməsinin əhəmiyyəti vurğulandı.



Milli Məclisin sədri Sahibə Qafarova **aprelin 17-də** Dominikan Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Alfredo Paçeko ilə də görüşdü. Spiker Azərbaycanın beynəlxalq əməkdaşlığın genişləndirilməsinə, parlament diplomatiyasının təşviqinə xüsusi önəm verdiyini bildirdi. O vurğuladı ki, ölkəmiz Qoşulmama Hərəkatına sədrliyi dövründə üzv dövlətlər arasında həmrəyliyin gücləndirilməsi və qlobal çağırışlara birgə cavab verilməsi istiqamətində mühüm təşəbbüslərlə çıxış edib. COP29-a sədrliyi çərçivəsində də Azərbaycan kiçik ada dövlətlərinin narahatlıqlarını daim diqqətdə saxlayıb, onların üzləşdiyi problemlərin həlli istiqamətində beynəlxalq səylərin birləşdirilməsinə xüsusi önəm verib.

Sahibə Qafarova, eyni zamanda, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin yaradılmasının və institusional inkişafının çoxtərəfli parlament əməkdaşlığı baxımından önəmli platformaya çevrildiyini vurğuladı.

Alfredo Paçeko ölkəsinin Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirdi, parlamentlər arasında təmasların artırılmasının münasibətlərin inkişafında mühüm rolunu qeyd etdi.

Görüş zamanı parlamentlərarası əlaqələrin inkişaf perspektivləri nəzərdən keçirildi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının əhəmiyyəti, bunun ümumi mənafelərə xidmət etdiyi vurğulandı.






# TÜRKPA-nın müasir geosiyasi çəkisi



**Anar Məmmədov**
Milli Məclisin deputatı

Müasir beynəlxalq münasibətlər sistemi köklü və ciddi bir transformasiya dövrünü yaşayır. Qlobal geosiyasi gərginliklərin artması, yeni növ təhdidlərin yaranması və dünya nizamındakı qeyri-müəyyənliklər dövlətlərin milli maraqlarını qorumaq üçün daha effektiv platformalar axtarışını zəruri edir. Belə bir şəraitdə regional birliklər və beynəlxalq təşkilatlar təhlükəsizlik və inkişaf üçün əvəzsiz alətlərə çevrilir. Bu kontekstdə Türk Dövlətləri Təşkilatının mühüm qanadı və parlament ölçüsü olan TÜRKPA son illərdə özünü ən dinamik, çevik və perspektivli təsisat kimi sübut etmişdir.

Bu gün klassik diplomatiya metodları ilə yanaşı, parlament diplomatiyası da dövlətlərarası münasibətlərin tənzimlənməsində həlledici amillərdən birinə çevrilmişdir. Türk dövlətləri arasında bu diplomatiya növünü daha yüksək səviyyəyə qaldırmaq yalnız ikitərəfli əlaqələrin güclənməsi deyil, həm də türk dünyasının qlobal miqyasda vahid və qüdrətli bir blok kimi tanınması deməkdir. Bu istiqamətdə TÜRKPA-nın rolu əvəzsizdir.

TÜRKPA yarandığı gündən etibarən üzv dövlətlərin qanunvericilik orqanları arasında körpü rolunu oynayır. Lakin bugünkü mənzərə göstərir ki, bu təşkilat, sadəcə, deputatların görüş yeri deyil, ortaq siyasi iradənin qanunvericilik müstəvisinə köçürülməsini təmin edən çevik bir mexanizmdir. Bu təşkilat türk dövlətlərinin gələcək konfederativ və ya daha sıx ittifaq modelinin parlamentar əsaslarını hazırlayır.

TÜRKPA-nın fəaliyyəti çoxşaxəli olmaqla türk dövlətləri arasında inteqrasiyanın dərinləşməsində strateji rol oynayır. Assambleya çərçivəsində hazırlanan model qanunlar üzv ölkələr arasında ticarət, iqtisadiyyat, təhsil və mədəniyyət sahələrində qanunvericilik bazasının unifikasiyasına xidmət edir. Bu isə dövlətlərimiz arasında maneəsiz əməkdaşlıq mühiti yaradır.

Təşkilatın inkişaf tarixində mühüm mərhələlərdən biri 2026-cı il aprelin 16-da Türkiyənin İstanbul şəhərində

Parlamentlərarası İttifaqın 152-ci Assambleyası çərçivəsində baş tutan və Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşun ev sahibliyi etdiyi TÜRKPA-ya üzv ölkələrin parlament sədrlərinin birinci qeyri-rəsmi görüşünün keçirilməsi oldu. Bu tədbir türk dünyasının parlament diplomatiyası tarixində yeni bir formatın - qeyri-rəsmi məsləhətləşmələr ənənəsinin əsasını qoydu. Milli Məclisin sədri Sahibə Qafarovanın rəhbərliyi ilə həyata keçirilən bu təşəbbüs göstərdi ki, türk dövlətləri artıq beynəlxalq gündəmi izləyən deyil, o gündəmi formalaşdıran tərəfə çevrilirlər. Onun qeyd etdiyi kimi, bu format ortaq maraqlarımızın qlobal səviyyədə daha səmərəli müdafiəsi üçün çevik məsləhətləşmə platformasıdır.

Beləliklə, TÜRKPA-ya üzv ölkələrin parlament sədrlərinin Parlamentlərarası İttifaqın 152-ci Assambleyası çərçivəsində keçirilən ilk qeyri-rəsmi görüşü bizim birliyimizin yalnız rəsmi sənədlər və protokollarla məhdudlaşmadığını təsdiqləmiş oldu. Sahibə Qafarovanın görüşdə vurğuladığı kimi, bizi birləşdirən ortaq tarix, dil, mədəniyyət və mənəvi dəyərlər bu əməkdaşlığın sarsılmaz təməlidir. Bu mənəvi bağlar siyasi iradə ilə birləşərək türk dünyasını qlobal arenada vahid güc mərkəzinə çevirir. Azərbaycan parlamentinin mövqeyi birmənalı və qətidir: Milli Məclis həmişə olduğu kimi, bundan sonra da TÜRKPA-nın davamlı inkişafını, onun institusional potensialının artırılmasını ardıcıl surətdə dəstəkləyəcəkdir. Bu, sadəcə, növbəti siyasi bəyanat deyil, Azərbaycanın xarici siyasətinin ən fundamental prioritetlərindən biridir.

Türk dünyasının bugünkü intibahı Azərbaycan Prezidenti cənab İlham Əliyevin strateji uzaqgörənliyi və liderliyi sayəsində yeni bir mərhələyə qədəm qoyub. 2024-cü ildə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən və 2025-ci ildə Budapeştdə davam etdirilən zirvə görüşləri bu birliyin həm coğrafi, həm də siyasi hüdudlarını genişləndirdi.




Dövlət başçımızın qətiyyətli bir fikri var: "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır". Bu ailə daxilində qanunvericilik bazasının unifikasiyası, model qanunların qəbulu və iqtisadi-mədəni inteqrasiya TÜRKPA-nın əsas prioritetidir.

Milli Məclisin sədri Sahibə Qafarovanın dilə gətirdiyi digər mühüm bir məqam isə TÜRKPA-nın beynəlxalq nüfuzunun artırılması ilə bağlı oldu: "Türk dünyasının qlobal arenada vahid güc mərkəzi kimi çıxış etməsi üçün parlamentarilər olaraq biz bütün beynəlxalq platformalarda bir-birimizin haqlı mövqeyini qətiyyətlə dəstəkləməliyik". Bu xətt Azərbaycan parlamentinin birmənalı mövqeyidir. Milli Məclis bundan sonra da TÜRKPA-nın institusional potensialının artırılmasını ardıcıl surətdə dəstəkləyəcəkdir. Bu, sadəcə, siyasi bəyanat deyil, Azərbaycanın xarici siyasətinin ən fundamental prioritetlərindən biridir.

Dövlət başçılarımızın müəyyən etdiyi "Türk Əsri" vizyonu biz parlamentarilərin üzərinə böyük məsuliyyət qoyur. Əsas vəzifəmiz bu strateji hədəfləri qanunvericilik səviyyəsində dəstəkləmək, qardaş xalqlarımız arasındakı hüquqi bazanı daha da möhkəmləndirməkdir. Azərbaycan parlament rəhbərinin vurğuladığı kimi, bu gün tətbiq olunan qeyri-rəsmi görüşlər formatı parlamentarilər arasındakı bağları daha da sıxlaşdırır və beynəlxalq arenada çevik diplomatik manevr imkanlarımızı artırır. Bu görüşlər strateji maraqlarımızın səmimi və açıq mühitdə müzakirəsinə imkan verən unikal bir platformadır.

Bu gün dünya miqyasında baş verən münaqişələr fonunda TÜRKPA-nın beynəlxalq platformalarda - BMT, ATƏT, İƏT və digər qurumlarda vahid səslə çıxış etməsi strateji əhəmiyyət daşıyır. Türk dövlətlərinin parlamentariləri olaraq biz bir-birimizin suverenliyinə və ərazi bütövlüyünə qarşı yönələn təhdidlərdə hər zaman qəti və ortaq mövqe nümayiş etdiririk.

TÜRKPA artıq inkişafının yeni mərhələsinə qədəm qoyub. İnanıram ki, yaxın illərdə təşkilatın qəbul etdiyi qərarlar regionumuzda sülhün, rifahın və türk birliyinin ən möhkəm qarantı olacaqdır. Bizim məqsədimiz birdir: ortaq tariximizdən güc alaraq ortaq gələcəyimizi qanunların gücü ilə inşa etmək. Azərbaycan Milli Məclisi bundan sonra da öz fəaliyyəti ilə TÜRKPA-nın nüfuzunun artmasına, türk dövlətləri arasındakı bağların qopmaz xarakter almasına xidmət edəcək. Bizim birliyimiz gücümüzdür, gücümüz isə gələcək nəsillər üçün daha təhlükəsiz, ədalətli və rifah dolu bir dünya qurmağın ən böyük təminatıdır.




# Türk dünyasının strateji oxuna çevrilən söz - "Bizim bir ailəmiz var: Türk dünyası"



**Tənzilə Rüstəmxanlı**
Milli Məclisin deputatı

Aprelin 9-da Milli Məclisdə keçirilən Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin dostluq qruplarının 3-cü iclası türk dünyasında gedən proseslərin artıq yeni mərhələyə daxil olduğunu bir daha təsdiqlədi. Bu görüş sıradan diplomatik tədbir deyildi. Bu, ortaq siyasi iradənin, strateji düşüncənin və uzun illər ərzində formalaşan əməkdaşlıq modelinin yeni mərhələyə keçidini simvolizə edən mühüm bir hadisə idi.

Bu gün türk dövlətləri arasında münasibətlərə diqqətlə nəzər saldıqda aydın görünür ki, artıq söhbət yalnız mədəni və tarixi bağlılıqdan getmir. Bu münasibətlər siyasi koordinasiya, iqtisadi əməkdaşlıq, təhlükəsizlik məsələlərində qarşılıqlı dəstək və beynəlxalq platformalarda vahid mövqe ilə müşayiət olunan sistemli inteqrasiya prosesinə çevrilməkdədir.

Türk dünyası ideyası romantik çağırışdan çıxaraq real siyasi gücə, regional və qlobal miqyasda təsir imkanlarına malik strateji mərkəzə çevrilir. Bu prosesin öz-özünə baş vermədiyi hər kəs üçün aydındır. Türk dövlətləri arasında bugünkü yaxınlaşma ani addımların deyil, məqsədyönlü siyasətin nəticəsidir. Bunun arxasında uzun illər davam edən səbir, prinsipial mövqe, milli maraqlara əsaslanan diplomatik fəaliyyət və uzaqgörən strateji planlaşdırma dayanır. Bu siyasət türk dünyasının siyasi xəritədə daha önəmli gücə çevrilməsinə xidmət edir.

Prezident İlham Əliyevin səsləndirdiyi "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" fikri artıq, sadəcə, siyasi ifadə deyil, bütöv bir geosiyasi konsepsiyanın ideoloji əsasıdır. Bu fikir türk dövlətləri arasında münasibətlərin fəlsəfəsini və istiqamətini müəyyənləşdirir. Burada söhbət yalnız qardaşlıq münasibətlərindən deyil, ortaq təhlükəsizlik sisteminin qurulmasından, iqtisadi inteqrasiyanın genişlənməsindən və türk dünyasının beynəlxalq münasibətlər sistemində vahid güc kimi çıxış etməsindən gedir.

Son illərdə baş verən hadisələr bu strateji xəttin ardıcıl şəkildə həyata keçirildiyini açıq şəkildə göstərir. Azərbaycan ilə Türkiyə arasında münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəlməsi, Şuşa Bəyannaməsinin regional təhlükəsizlik arxitekturasında mühüm sənədə çevrilməsi, türk dövlətləri arasında nəqliyyat və enerji layihələrinin genişlənməsi, Orta Dəhlizin beynəlxalq ticarət üçün alternativ və




etibarlı marşrut kimi önə çıxarılması bu siyasətin konkret nəticələridir.

Bu gün türk dövlətləri arasında əməkdaşlıq yalnız siyasi və diplomatik sahələrlə məhdudlaşmır. Enerji təhlükəsizliyi, nəqliyyat-logistika şəbəkələrinin inkişafı, müdafiə sənayesində əməkdaşlıq, humanitar və təhsil layihələri kimi sahələrdə də inteqrasiya sürətlə dərinləşir. Bu isə türk dünyasının gələcəkdə iqtisadi və texnoloji baxımdan daha güclü birlik kimi formalaşacağına ciddi əsas yaradır.

Müasir dövrdə dövlətlərarası münasibətlərin inkişafında parlament diplomatiyası xüsusi əhəmiyyət kəsb edir. Çünki siyasi qərarların davamlılığı və hüquqi təminatı məhz parlamentlər vasitəsilə formalaşdırılır. Bu ali orqan ortaq qanunvericilik mühitinin yaradılmasında, dövlətlər arasında hüquqi uyğunlaşmanın təmin edilməsində və beynəlxalq sazişlərin ratifikasiyasında həlledici rol oynayır. Azərbaycan, Türkiyə və Şimali Kipr parlamentlərinin əməkdaşlığı bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu əməkdaşlıq təkcə siyasi əlaqələrin gücləndirilməsinə deyil, həm də ortaq hüquqi məkanın formalaşmasına xidmət edir. Qəbul olunan qərarlar və imzalanan sənədlər gələcəkdə türk dövlətləri arasında daha sıx iqtisadi və siyasi inteqrasiyanın hüquqi əsasını yaradır.

Parlament diplomatiyası, eyni zamanda, xalqlar arasında qarşılıqlı etimadın möhkəmlənməsinə də mühüm töhfə verir. Çünki qanunvericilik səviyyəsində qurulan əməkdaşlıq münasibətləri uzunmüddətli və davamlı olur. Bu baxımdan Milli Məclisdə keçirilən son iclas türk dünyasının siyasi inteqrasiyasının institusional mərhələyə daxil olduğunu göstərən mühüm göstəricilərdən biridir.

Müasir beynəlxalq münasibətlər sistemində regionlar arasında rəqabət və əməkdaşlıq paralel şəkildə inkişaf edir. Bu şəraitdə türk dövlətlərinin vahid strateji xətt üzrə hərəkət etməsi onların qlobal proseslərdə rolunu artırır. Türk dünyası coğrafi baxımdan Avropa ilə Asiyanı birləşdirən geniş bir məkanı əhatə edir, enerji, nəqliyyat, logistika və təhlükəsizlik baxımından böyük önəm daşıyır. Bu gün Orta Dəhliz layihəsinin aktuallaşması, enerji marşrutlarının şaxələndirilməsi və yeni iqtisadi əməkdaşlıq platformalarının yaranması türk dövlətlərinin strateji əhəmiyyətini daha da artırır.

Bu gün türk dünyası yalnız regional birlik deyil, qlobal iqtisadi və siyasi proseslərə təsir edə bilən güc mərkəzlərindən birinə çevrilmək potensialına malikdir. Bu reallıq yeni məsuliyyətlər də yaradır. Türk dövlətləri qarşısında duran əsas vəzifə mövcud əməkdaşlıq modelini daha da dərinləşdirmək, iqtisadi inteqrasiyanı sürətləndirmək və ortaq təhlükəsizlik mexanizmlərini gücləndirməkdir. Bunun üçün isə siyasi iradə ilə yanaşı, institusional yanaşma və strateji planlaşdırma mühüm rol oynayır.

Artıq bir həqiqət dəyişməz reallıq kimi qəbul olunur: türk dünyasının birliyi ideya mərhələsini geridə qoyaraq konkret strategiyaya çevrilib. Bu strategiya yalnız bugünün deyil, gələcək onilliklərin siyasi və iqtisadi inkişaf istiqamətini müəyyənləşdirən əsas amillərdən biridir. Türk dünyasının qarşısında duran yol uzun və məsuliyyətlidir. Lakin bu yolun istiqaməti də, məqsədi də aydındır. Əsas məsələ bu strateji xəttə sadiqliyi qorumaq, ortaq dəyərləri siyasi qərarlara çevirmək və birliyi real gücə transformasiya etməkdir.

Bu gün türk dünyası tarixinin yeni mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas xüsusiyyəti birlik ideyasının təkcə siyasi şüar deyil, dövlət siyasətinin ayrılmaz hissəsinə çevrilməsidir. Yolumuz uzun və şərəflidir. Əsas odur ki, istiqamətimiz də bəllidir, bu birliyin siyasi iradəsi də mövcuddur, bu strateji xəttin liderliyi də qətiyyətlə davam etdirilir.



# MİXAİL ZABELİN - 80

***Hörmətli Mixail Yuryeviç!***

*Sizi - Milli Məclisin deputatını, tanınmış ictimai-siyasi xadimi 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.*

*Siz hələ gənc yaşlarınızdan əmək fəaliyyətinə başlamış, təhsilə olan marağınız nəticəsində Azərbaycan Politexnik İnstitutunun Hidromeliorasiya fakültəsini, sonra isə Bakı Ali Partiya Məktəbini və Ümumittifaq Qiyabi Hüquq İnstitutunun Sovet quruculuğu fakültəsini bitirmisiniz. Qısa müddətdə komsomol və partiya orqanlarında məsul vəzifələrə irəli çəkilmiş, bacarıqlı təşkilatçı və nümunəvi işçi kimi tanınmısınız.*

*Siz 1979-1982-ci illərdə o zaman Azərbaycan Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində çalışan Ulu Öndər Heydər Əliyevin referenti işləmiş, sonra isə Nizami Rayon İcraiyyə Komitəsinin sədri, Azərbaycan Ali Soveti Katibliyinin baş mütəxəssisi, Daimi komissiyalar şöbəsinin katibi vəzifələrində çalışmısınız. Qazandığınız etimad sayəsində XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin, sonra isə I çağırışdan VII çağırışadək Milli Məclisin deputatı seçilmisiniz.*

*Siz həm də fəal siyasi xadim, 1993-cü ildə Ümummilli Liderimiz Heydər Əliyevi ölkə rəhbərliyinə yenidən dəvət edən məşhur 91-lərdən biri kimi tanınırsınız. Yeni Azərbaycan Partiyasının yarandığı ilk günlərdən təşkilat komitəsinin, sonra isə İdarə Heyətinin üzvü seçilmisiniz. 1995-ci ildə Siz Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın üzvlərindən biri olmusunuz.*

*Bu gün VII çağırış Milli Məclisin Mədəniyyət, həmçinin İctimai birliklər və dini qurumlar komitələrinin üzvü kimi ölkəmizin qanunvericilik bazasının təkmilləşdirilməsində fəal iştirak edirsiniz.*

*Sizin 1992-ci ildə yaratdığınız Azərbaycan-Rusiya cəmiyyəti, 1993-cü ildə yaratdığınız "Azərbaycanın Rus icması" qeyri-hökumət təşkilatı Azərbaycan-Rusiya münasibətlərinin inkişafı üçün mühüm işlər görüb. Bu gün Siz Milli Məclisin MDB Parlamentlərarası Assambleyasındakı nümayəndə heyətinin üzvü kimi və Milli Məclislə Rusiya Federal Məclisi arasında, həmçinin Milli Məclislə Federal Məclisin Dövlət Duması arasında yaradılmış parlamentlərarası komissiyaların tərkibində təqdirəlayiq fəaliyyət göstərirsiniz.*

*Siz həm də Azərbaycan-Uruqvay parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Rusiya, İrlandiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Peru, Monqolustan və Mavritaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü kimi bu əlaqələrin inkişafında yaxından iştirak edirsiniz.*

*Sizin xidmətləriniz diqqətdən kənarda qalmamış, Prezident İlham Əliyevin sərəncamları ilə "Şöhrət", 3-cü dərəcəli "Vətənə xidmətə görə", 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmisiniz.*

*Hörmətli Mixail Yuryeviç!*

*Sizi 80 illik yubileyiniz münasibətilə bir daha səmimi qəlbdən təbrik edir, yaşınızın bu müdriklik zirvəsində Sizə uzun ömür, möhkəm can sağlığı və yeni-yeni nailiyyətlər arzulayıram.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***
Bakı şəhəri, 19 mart 2026-cı il



# FƏZAİL İBRAHİMLİ - 75

***Hörmətli Fəzail müəllim!***

*Sizi - Milli Məclisin deputatını, tanınmış siyasətçini, tarix elmləri doktorunu və professoru anadan olmağınızın 75 illiyi münasibətilə ürəkdən təbrik edirəm.*

*Siz hələ gənclik illərindən elm və təhsilə böyük maraq göstərmiş, Azərbaycan Dövlət Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə bitirərək tarixçi ixtisasına yiyələnmisiniz. Müstəqil Azərbaycan dövlətinin yaranması və inkişafı tarixinə həsr olunmuş elmi tədqiqatlarınız Azərbaycan tarixi elminə mühüm töhfələr verib. Elmi tədqiqatlarınızın nəticəsi olaraq 1986-cı ildə namizədlik və 1998-ci ildə doktorluq dissertasiyalarını uğurla müdafiə etmiş, tarix elmləri namizədi və doktoru elmi dərəcələri almısınız.*

*Siz hər zaman Azərbaycanın məruz qaldığı ədalətsizliklərin tarixi faktlarla dünya ictimaiyyətinə çatdırılmasına çalışmış, XX əsrin 90-cı illərindən başlanan ictimai-siyasi proseslərdə yaxından iştirak etmisiniz.*

*Siz həm də uzun illər elmi-pedaqoji fəaliyyət göstərərək çox sayda gənc tarixçilərin yetişməsində mühüm rol oynamısınız. Sizin 100-dən artıq elmi əsəriniz, sanballı monoqrafiya və dərslikləriniz ölkəmizin elmi ictimaiyyətinə yaxşı tanışdır.*

*Siz Vətəndaş Həmrəyliyi Partiyası sədrinin birinci müavini kimi ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir, baş verən hadisələrə yüksək vətəndaşlıq mövqeyindən yanaşırsınız.*

*Bu kimi keyfiyyətləriniz sayəsində Siz xalqın etimadını qazanaraq II, III, IV, V, VI və VII çağırış Milli Məclisə seçkilərdə deputat mandatı qazanmış, VI çağırış Milli Məclisin vitse-spikeri, İctimai birliklər və dini qurumlar komitəsinin sədri olmuş, qanun yaradıcılığı prosesinə öz töhfənizi vermisiniz.*

*Bu gün VII çağırış Milli Məclisin deputatı, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü kimi ölkəmizdə qanunvericilik bazasının və parlamentin beynəlxalq əlaqələrinin möhkəmlənməsində yaxından iştirak edir, Milli Məclisin Liviya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olaraq səmərəli fəaliyyət göstərirsiniz.*

*Sizin xidmətləriniz diqqətdən kənarda qalmamış, dövlət başçımız tərəfindən ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakınıza görə "Şöhrət" ordeni ilə təltif edilmisiniz.*

*İnanıram ki, bundan sonra da çoxşaxəli fəaliyyətinizi davam etdirəcək, müstəqil Azərbaycan dövlətinin daha da möhkəmləndirilməsi üçün səylərinizi əsirgəməyəcəksiniz.*

*Hörmətli Fəzail müəllim!*

*Sizi 75 illik yubileyiniz münasibətilə bir daha səmimi qəlbdən təbrik edir, yaşınızın bu müdriklik zirvəsində Sizə möhkəm can sağlığı, uzun ömür, elmi və ictimai-siyasi fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirəm.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***
Bakı şəhəri, 12 aprel 2026-cı il



# HİKMƏT MƏMMƏDOV - 60

***Hörmətli Hikmət müəllim!***

*Sizi - Milli Məclisin deputatını, tanınmış ictimai xadimi, alimi və əməkdar jurnalisti anadan olmağınızın 60 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz qədim yurdumuz olan Qərbi Azərbaycanın Amasiya rayonunun Göllü kəndində dünyaya göz açmış, orta təhsilinizi 1982-ci ildə başa vurduqdan sonra Bakıya gələrək burada Gəmi Təmiri Zavodunda əmək fəaliyyətinə başlamış, hərbi xidmətdən qayıdandan sonra isə Bakı Soyuducular Zavodunda işləmisiniz. 1993-1995-ci illərdə "Çinar" qəzetinin müxbiri, baş müxbiri, 1995-1999-cu illərdə Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında təlimatçı, baş təlimatçı vəzifələrində çalışmısınız.*

*Elmə olan həvəsiniz sayəsində Siz 1997-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu, 2002-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını uğurla bitirmisiniz.*

*1997-2008-ci illərdə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində müxtəlif məsul vəzifələrdə uğurla çalışmısınız.*

*Siz uzun illər Yeni Azərbaycan Partiyasının mətbu orqanı olan "Yeni Azərbaycan" qəzetinin baş redaktoru kimi fəaliyyət göstərmisiniz. Bu gün partiyanın İdarə Heyətinin üzvü kimi partiya həyatında fəal iştirak edirsiniz.*

*Siz həm də məhsuldar elmi fəaliyyətinizlə seçilən alimlərdənsiniz. Siyasi elmlər doktoru, professor kimi elmi-pedaqoji fəaliyyətinizlə gənc kadrların hazırlanmasına, onların alim kimi yetişməsinə dəyərli töhfələr vermisiniz. 75-dən çox elmi əsərin, dərsliklərin, tədris proqramlarının, monoqrafiyaların, kitabların, yüzlərcə elmi-kütləvi və siyasi-analitik məqalənin müəllifisiniz.*

*Xidmətləriniz dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, 3-cü dərəcəli "Vətənə xidmətə görə", "Şöhrət" ordenləri ilə təltif olunmuş, "Əməkdar jurnalist" fəxri adına layiq görülmüsünüz.*

*Bu çoxşaxəli və səmərəli fəaliyyətiniz sayəsində Siz seçicilərin dəstəyini qazanaraq V və VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmusunuz. Hazırda VII çağırış Milli Məclisin İnsan hüquqları, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin üzvü kimi müvafiq sahələr üzrə qanunvericiliyin formalaşdırılması və təkmilləşdirilməsi istiqamətində səmərəli fəaliyyət göstərirsiniz. Siz həm də parlamentin Toponimiya Komissiyasının üzvüsünüz.*

*Milli Məclisin Paraqvay ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, bir sıra ölkələrlə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının, eləcə də Türk Dövlətləri Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü kimi parlamentin beynəlxalq münasibətlərinin inkişafına öz töhfənizi verirsiniz.*

*Hörmətli Hikmət müəllim!*

*Sizi yubileyiniz münasibətilə bir daha ürəkdən təbrik edir, Sizə yaşınızın bu müdriklik çağında uzun ömür, can sağlığı və yeni-yeni uğurlar diləyirəm.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**

***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

Bakı şəhəri, 17 aprel 2026-cı il




# Türk inteqrasiyasının işıqlı təməli-Birinci Türkoloji Qurultay



**Günay Əfəndiyeva**
Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini

Azərbaycanın paytaxtı Bakı şəhəri türk dünyasının mühüm fikir və iradə mərkəzi kimi hələ 100 il əvvəl Birinci Türkoloji Qurultaya ev sahibliyi etmişdi. Tarixi sıçrayış sayılan bu qurultay türk xalqlarının ictimai-siyasi, elmi, mədəni həyatında möhtəşəm bir hadisəyə çevrildi. Həmin toplantı genetik yaddaşımızın dirçəlişi və eyni zamanda, ümumtürk birliyinə aparan yolun taleyüklü başlanğıcı idi.

Qurultay çərçivəsində türkologiya elminə dilçilik, ədəbiyyatşünaslıq, folklorşünaslıq, tarix, etnoqrafiya kimi müxtəlif istiqamətlər üzrə geniş və sistemli yanaşma xüsusi önəm daşıyırdı. Bu fakt türkologiyanın türk xalqlarının milli kimlik və mədəni inteqrasiya proseslərinin elmi əsasını təşkil etdiyini bir daha təsdiqləyir.

Şübhəsiz ki, tədbirin ölkəmizdə keçirilməsi, Bakının türkologiyanın öncül məkanı kimi seçilməsi təsadüfi deyildir. Ona görə də 1926-cı ildən danışarkən biz mütləq o dövrdə müxtəlif xalqları təmsil edən 131

ziyalını eyni masa arxasında bir araya gətirən Bakının intellektual mühitini xatırlamalıyıq.

Həmin dönəmdə ölkəmizdə elmi-mədəni sahədə əldə olunan nailiyyətlərlə yanaşı, milli özünüdərk ruhunun getdikcə daha da dərinləşməsi müşahidə edilirdi və Azərbaycanşünaslıq özü artıq türkologiyanın aparıcı qollarından biri kimi çıxış edirdi.

Hələ XIX əsrdə görkəmli maarifçi, publisist, pedaqoq Həsən bəy Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzetində milli şüurumuz və türkçülük ideyaları inkişaf etdirilir, geniş ictimai əks-səda doğururdu. Həmin ənənənin davamı olaraq Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov kimi mütəfəkkirlər türkçülük ideologiyasının formalaşması və inkişafı üçün müstəsna xidmətlər göstərmişlər. Şübhəsiz ki, "Həyat", "Füyuzat" və dövrün digər qabaqcıl mətbu orqanlarında dərc olunan yazılar bu ideyanın yayılmasında, ümumtürk dəyərlərinin möhkəmləndirilməsi yönündə böyük təsirə malik idi.

Qurultayın əsas məsələlərindən olan latın əlifbasına keçid artıq XIX əsrdən Azərbaycan ziyalılarının diqqət mərkəzində idi. Azərbaycan türk dilinin yazılışında latın əlifbasının qəbul edilməsi təşəbbüsü ilk dəfə milli dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadə tərəfindən irəli sürülmüşdür. Böyük maarifçi yeni əlifba tərtib etmiş və ərəb qrafikasının dəyişdirilməsi üçün ciddi səy göstərmişdir. Sonrakı dövrlərdə isə Nəriman Nərimanovun, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Məhəmməd ağa Şahtaxtinskinin, Firidun bəy Köçərlinin, Vəli Xuluflunun, Hüseyn Cavidin maarifçilik fəaliyyətlərində əlifba, ana dili və onun tədrisi mövzusu ön sırada olub. 1922-ci ildə Nəriman Nərimanovun rəhbərliyi ilə Bakıda latın qrafikasına keçidi təmin etmək məqsədilə xüsusi komitə qurulub və Cəlil Məmmədquluzadənin redaktorluğu ilə "Yeni yol" qəzeti latın əlifbası ilə nəşr edilib.

Elə o dövrdən bu istiqamətdə atılan addımlar bütövlükdə ümumtürk mədəni və ideoloji təfəkkürünün dərinləşməsi ilə müşayiət olunur, Azərbaycan ziyalılarının yaradıcılığında öz əksini tapırdı. Nümunə kimi göstərə bilərik ki, 1925-ci ildə Azərbaycanın görkəmli dramaturqu Hüseyn Cavidin qələmə aldığı "Əmir Teymur" pyesi bu prosesin ən parlaq bədii ifadələrindən idi. Pyesin əsasında hazırlanan tamaşada Sidqi Ruhulla, Mərziyyə Davudova, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb və dövrün digər tanınmış sənətkarları iştirak edirdilər. Səhnə əsəri haqqında o dövrün mətbu orqanlarında tənqidi xarakterli yazıların dərc olunmasına baxmayaraq, tamaşanın nümayişi uğurla gedirdi.

1926-cı il 26 fevral-6 mart tarixlərində Bakıdakı "İsmailiyyə" binasında (hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin binası) təşkil olunan Birinci Türkoloji Qurultayda 17 iclas keçirilmiş, türk dünyasının dili, tarixi, ədəbiyyatı və mədəniyyəti ilə bağlı ümumilikdə 38 məruzə dinlənilmişdi. Həmin günlərdə iştirakçılar Bakıda Böyük Dövlət Teatrında dahi Üzeyir Hacıbəyovun "Leyli



**Birinci Türkoloji Qurultay iştirakçılarının kollektiv şəkli**
(26 fevral 1926-cı il)



**Birinci Türkoloji Qurultayın təşkilat komissiyası (26 fevral-6 mart 1926-cı il)**



**Mehmed Fuad Köprülüzadə, Əli bəy Hüseynzadə və Salman Mümtaz Bakıda Birinci Türkoloji Qurultayın iştirakçıları arasında**

və Məcnun" operasını, "Qızıl Şərq" kinoteatrında Abbas Mirzə Şərifzadənin quruluş verdiyi "Bismillah" filmini və "I Türkoloji Qurultay" sənədli filmini izləmiş, Şirvanşahlar sarayını, Bakının əsrarəngiz neft buruqlarını, qədim Gəncəni ziyarət etmişdilər. Tədbirdə sovet məkanında yaşayan türk xalqları ilə yanaşı, digər xarici ölkələrdən olan dilçilər, tarixçi alimlər, şairlər, yazıçılar və həkimlərdən ibarət 131 ziyalı iştirak edib. Onlar bilmirdilər ki, illər sonra əksəriyyəti eyni tale ilə üzləşəcək, bolşevik rejiminin amansız repressiya və sürgün siyasətinə məruz qalacaqlar. Bəli, onların əksəriyyəti eyni taleyi yaşadılar, amma hər biri başqa formada...

Fikrimcə, Birinci Türkoloji Qurultayın 100 illiyi çərçivəsində biz o dəyərli ziyalıların hər birinin irsini daha yaxından tədqiq etməli və öyrənməliyik. Bu, həm keçmişimizə olan ehtiramımızı ifadə edəcək, həm də onların ideyalarının müasir perspektivdə dəyərini ortaya qoyacaq.

Dil siyasəti milli-mənəvi dəyərlərin qorunması kontekstində müstəsna rola malikdir. Çünki biz dilimizi yaşadarkən milli ruhumuzu, köklərimizi və mənəvi irsimizi də yaşadırıq. Qurultayın gündəliyində türk xalqlarının ortaq mənşəyini nümayiş etdirən birləşdirici amil kimi dilçilik mövzusu mühüm yer tuturdu. İclasların çoxu bu məsələyə həsr olunmuş, bu istiqamət üzrə müxtəlif aspektlərdə ətraflı müzakirələr aparılmışdı. Müzakirələrdə ədəbi dilimizin inkişafı və şifahi xalq ədəbiyyatına istinad etməklə onun yad təsirlərdən mühafizəsinə diqqət çəkilirdi.

2025-ci il noyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxışı zamanı vurğuladığı kimi, "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır".

Bu gün bir əsrə bərabər tarixi hadisəni yad etmək ona görə qürurvericidir ki, qurultayda toplaşan insanların birlik və həmrəylik arzuları müasir dövrdə həyata keçirilməkdədir. Türkçülük məfkurəsi qarşısıalınmaz bir axın kimi yüzilliyin içindən keçərək sərhədləri aşdı və zamana qalib gəldi.

Birinci Türkoloji Qurultayda irəli sürülən fikirlər nəzəri müstəvidə qalmadı, sovet rejimi və kommunist ideologiyasının qadağalarına baxmayaraq, sonrakı dövrlərdə inkişaf etdirildi, yeni ideyalarla zənginləşdirildi.

1969-cu ildə Azərbaycanın və bütövlükdə türk dünyasının dahi oğlu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə postsovet məkanında ilk dəfə olaraq Bakı Dövlət Universitetində Türkologiya kafedrası açıldı. 1970-ci ildə məhz Bakıda "Sovetskaya Türkologiya" jurnalı nəşrə başladı.

Ana dilimizin, ortaq türk ədəbiyyatının, eyni türkoloji təfəkkürlü əsərlərin, türkçülük ideyalarını öz əsərlərində əks etdirən ədəbi şəxsiyyətlərin irsinin öyrənilməsi və etsə də, hamısı türk dünyasını birləşdirmək, onun böyük potensialını nümayiş etdirmək məqsədi daşıyır.

Bu gün türk dövlət başçılarının siyasi iradəsi, qardaşlığı və qarşılıqlı etimadı əsasında nəhəng türk coğrafiyasında neçə-neçə genişmiqyaslı layihələr gerçəkləşdirilir. Eyni zamanda, Birinci Türkoloji Qurultayın elmi-mənəvi irsinin davamı kimi türk dövlətlərinin dil və əlifba birliyi sahəsində ciddi addımlar atılır.

2022-ci ildə Bursada keçirilən "Türk dünyası ortaq əlifba seminarı"nda Türk Dünyası Ortaq Əlifba Komissiyasının qurulması haqqında qərar qəbul edildi. 2024-cü ildə TDT çərçivəsində türk ölkələrinin dillə bağlı rəsmi qurumlarının təqdimatı ilə hər üzv dövlətdən 2 nəfərin daxil olunduğu komissiya yaradıldı. düyü "dildə, fikirdə, işdə birlik" prinsipi iqtisadi layihələrlə, nəqliyyat dəhlizləri, mədəni-humanitar əməkdaşlıq və ortaq platformalar ilə möhkəmləndirilir.

100 il əvvəl Bakıda müşahidə olunan həmrəylik ruhu bu gün azad Qarabağ torpaqlarında canlanır. Türk ölkələrinin dövlət başçılarının Qarabağa səfərləri, Türkiyə ilə ölkəmiz arasında Şuşa Bəyannaməsinin imzalanması, Füzulidə Özbəkistanın Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbinin, Qazaxıstanın Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin fəaliyyət göstərməsi, Türkmənistanın təşəbbüsü ilə dini məscidin təməlinin qoyulması, Qırğızıstanın Ağdamın Xıdırlı kəndində, eyni zamanda, Macarıstanın Cəbra-




**UNESCO-nun Baş Konfransının 43-cü sessiyası (Səmərqənd, Özbəkistan)**

təbliği Ümummilli Liderin nəhəng fəaliyyətinin ayrılmaz tərkib hissəsini təşkil edirdi. Ulu Öndərin təşəbbüsü ilə türk dünyasında mədəni-siyasi həmrəylik institusional əsaslar üzərində təşəkkül tapdı - TÜRKSOY təşkilatı yaradıldı. Daha sonra TÜRKPA, Türk Dövlətləri Təşkilatı (TDT), Türk Akademiyası, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Türk Mədəniyyəti və İrsi Fondu quruldu, Türk İnvestisiya Fondu, Türk Ticarət və Sənaye Palataları Birliyi kimi iqtisadi-ticari əməkdaşlıq platformaları təsis edildi. Bu strukturların fəaliyyəti fərqli sahələri əhatə Komissiyanın ilk iclası Qazaxıstanın Astana şəhərində, ikinci və üçüncü toplantısı isə Bakıda keçirildi.

Həmçinin türk dövlətlərinin başçılarının ortaq səyləri nəticəsində türk dilinin ən qədim yazılı sənədlərindən olan Orxon-Yenisey yazılarının deşifrə edildiyi 15 dekabr tarixi artıq beynəlxalq miqyasda Türk Dili Ailəsi Günü kimi qeyd olunur. Bu qərar 2025-ci il noyabrın 3-də Özbəkistanın Səmərqənd şəhərində keçirilən UNESCO-nun Baş Konfransının 43-cü sessiyasında qəbul edildi.

Böyük maarifçi İsmayıl bəy Qaspıralının XIX əsrdə irəli sür-yıl rayonunda orta məktəblərin tikilməsində iştirakı ümumtürk birliyinin bariz təcəssümüdür. Bu mənzərə həm də onu göstərir ki, ötən əsrin əvvəllərində olduğu kimi, türk inteqrasiya prosesinin mühüm mərkəzlərindən biri yenə Azərbaycandır.

Birinci Türkoloji Qurultayın yubileyi bizim üçün həm də çox ciddi bir məsuliyyət çağırışıdır. Biz ötən 100 ilə nəzər salarkən, Birinci Türkoloji Qurultayın tarixi sənədlərini, görkəmli nümayəndələrinin irsini araşdırarkən elə addımlar atmalıyıq ki, növbəti 100 ilə güclü təkan verək.



*Azərbaycan ədəbiyyatının zirvəsinə ucalan, milli ruhun poeziyada təcəssümünə çevrilən böyük söz ustadı Səməd Vurğun bu gün də müasirimizdir. Onun 120 illik yubileyi təkcə bir şairin doğum tarixinin qeyd olunması deyil, xalqın bütöv bir tarixinin, qürurunun və mübarizəsinin ehtiramla anılmasıdır.*

# Vətəninin vurğunu: SƏMƏD VURĞUN




**Jalə Əliyeva**
Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, filologiya elmləri doktoru, professor


Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən milli mədəniyyətimiz və tariximizlə bağlı imzalanan sərəncamlar silinməz yaddaşın formalaşmasında və yaşamasında mühüm rol oynamışdır. XX əsrin sonlarında, xüsusilə müstəqillik dövründə ədəbi-mədəni irsin qorunması və təbliği dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu kontekstdə Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanan sərəncamlar xüsusi əhəmiyyət daşıyır. Onun təşəbbüsü ilə ölkəmizdə Səməd Vurğunun yubileyləri geniş şəkildə qeyd olunmuş, şairin yaradıcılığına dövlət səviyyəsində yüksək qiymət verilmişdir. Bu sərəncamlar çərçivəsində elmi konfranslar keçirilmiş, əsərləri yenidən nəşr olunmuş, xatirəsi əbədiləşdirilmişdir. Sonrakı mərhələdə bu ənənə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, Səməd Vurğunun 100 illik və 110 illik yubileylərinin keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla yubiley tədbirləri ölkədə geniş miqyasda və müasir yanaşmalarla qeyd olunmuşdur.

2026-cı il fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Səməd Vurğunun 120 illik yubileyinin qeyd olunması ilə bağlı sərəncam imzaladı. Bu, şairin Azərbaycan ədəbiyyatındakı misilsiz xidmətlərinə verilən yüksək qiymətin, milli-mənəvi irsimizin gələcək nəsillərə ötürülməsi istiqamətində aparılan

dövlət siyasətinin, klassik ədəbi irsin layiqincə yaşadılmasının növbəti bariz nümunəsi idi. Bu qərar həm də onu göstərir ki, Səməd Vurğun yaradıcılığı, sadəcə, ədəbi hadisə deyil, o, milli ideologiyanın, vətənpərvərlik düşüncəsinin, mənəvi bütövlüyün dayaqlarından biridir.

Məqsəd yalnız bir şairin yubileyini qeyd etmək deyil, eyni zamanda, Azərbaycan ədəbiyyatının zənginliyini dünya ictimaiyyətinə çatdırmaq, gənc nəslin milli ədəbiyyata marağını artırmaq və klassik irsin davamlılığını təmin etməkdir. Bu, həm də Azərbaycan dövlətinin ədəbiyyata, mədəniyyətə və milli-mənəvi dəyərlərə verdiyi yüksək dəyərin göstəricisidir. Bu baxımdan həm Ulu Öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncamlar, eyni zamanda, strateji əhəmiyyət daşıyır. Bu siyasət nəticəsində klassik ədəbi irs qorunur, təbliğ edilir və gələcək nəsillərə ötürülür.

Sözün qüdrəti və ruhun şairi Səməd Vurğun poeziyası Azərbaycan xalqının ruhunu ifadə edən ən parlaq aynalardan biridir. Onun misralarında, sadəcə, söz yox, tarix danışır, torpaq danışır, millətin yaddaşı danışır. O, poeziyanı bir silaha, bir çağırışa, bir bayrağa çevirməyi bacaran nadir sənətkarlardandır.

Şairin yaradıcılığında vətən anlayışı mücərrəd bir məfhum deyil. Vətən onun üçün nəfəsdir, ürək döyüntüsüdür, insanın varlıq səbəbidir. Onun hər misrasında Azərbaycan torpağının qoxusu, Xəzərin dalğası, Qarabağın nisgili duyulur.

### Vətən mövzusu - torpağa bağlı ürək

Səməd Vurğunun vətən haqqında yazdığı şeirlər Azərbaycan poeziyasında xüsusi bir mərhələ təşkil edir. Onun "Azərbaycan" şeirində vətən təkcə coğrafi mə-








Səməd Vurğun və Nazim Hikmət. Moskva, 1949-cu il



Səməd Vurğun və həyat yoldaşı Xavər xanım

kan deyil, bir sevgi dastanı kimi təqdim olunur. Şair vətəni ana kimi ucaldır, onu müqəddəs bir varlıq səviyyəsinə yüksəldir. Onun poetik dünyasında vətən sevgisi pafoslu sözlərdən ibarət deyil, bu sevgi konkret obrazlar, canlı təsvirlər vasitəsilə oxucuya ötürülür. Dağlar, çaylar, çöllər - hamısı şairin qəlbində danışan varlıqlara çevrilir. Bu baxımdan Səməd Vurğun poeziyası təkcə emosional deyil, həm də təsviridir, canlıdır.

Şairin vətənə münasibəti həm də məsuliyyət hissi ilə yoğrulub. O, vətəni sevməyi təkcə duyğu kimi deyil, vətəndaşlıq borcu kimi təqdim edir. Bu yanaşma isə onu sırf lirik şairdən daha çox milli ideoloq səviyyəsinə yüksəldir.

## Qarabağ - həsrətin, ümidin və Zəfərin səsi

Səməd Vurğun yaradıcılığında Qarabağ sevgisi da xüsusi bir yer tutur. Bu möhtəşəm təbiət möcüzəsi onun şeirlərində həm xoşbəxtlik, həm də ağrı kimi təsvir olunur, haqqında Azərbaycanın incisi, mədəniyyətin beşiyi kimi söhbət açılır. Qarabağ Səməd Vurğun üçün, sadəcə, bir yurd yeri deyil, o, milli kimliyin ayrılmaz hissəsidir.

Müzəffər Ali Baş Komandan, xilaskar Prezident İlham Əliyevin müəllifi olduğu böyük Zəfərdən - Qarabağın azad olunmasından sonra Səməd Vurğunun həmin misraları günümüzdə daha fərqli bir məna daşımaqdadır. Onun illər öncə yazdığı şeirlər sanki bu günün zəfər ruhunu əvvəlcədən hiss etmiş kimi səslənir. Bu baxımdan şairin yaradıcılığı zamanın fövqündə duran bir gücə malikdir.

## Milli irs və gələcək nəsillər

Səməd Vurğun poeziyasının əsas xüsusiyyətlərindən biri onun yüksək emosional tonu və pafosudur. Bu pafos süni deyil, daxili yanğının, səmimi sevginin nəticəsidir.



*Səməd Vurğunun Kəlbəcərdə Aşıq Şəmşirlə görüşü*



Onun şeirlərindəki coşqu oxucunu silkələyir, düşündürür, hərəkətə gətirir. Şair sözün gücünə inanırdı və bu gücü sonadək istifadə edirdi. Onun misraları tribunadan səslənən bir çağırış kimi, bir millətin ayağa qalxışının poetik ifadəsi kimi qəbul olunur. Bu səbəbdən də Səməd Vurğun təkcə şair deyil, həm də milli ruh daşıyıcısıdır.

Səməd Vurğunun irsi bu gün də aktualdır. Onun poeziyası müasir Azərbaycan gəncliyi üçün bir məktəbdir - vətəni sevməyi, torpağa bağlı olmağı, milli dəyərləri qorumağı öyrədən bir məktəb. Prezident İlham Əliyev tərəfindən imzalanmış yubiley sərəncamı da məhz bu missiyaya xidmət edir. Bu, təkcə bir yubiley tədbiri deyil, milli yaddaşın qorunmasını, ədəbi irsin yaşadılmasını və gələcək nəsillərə ötürülməsini hədəfləyən strateji bir addımdır.

### Əbədiləşən ad, yaşayan söz

Səməd Vurğun adı Azərbaycan ədəbiyyatının qızıl səhifələrində əbədi həkk olunmuşdur. Onun poeziyası zaman keçdikcə köhnəlmir, əksinə, hər yeni dövrdə yeni bir məna qazanır.

Bu gün onun 120 illik yubileyini qeyd edərkən biz təkcə bir şairi deyil, həm də şairin misralarından boylanan tariximizi, yaşananları, milli kimliyimizi yad edirik. Onun misraları əsrlər boyu Azərbaycan insanının ürəyində yer tutacaq, yeni nəsillərə yol göstərəcək, milli ruhumuzu canlı saxlayacaq.











# Bakı Forumu - qlobal dialoq və humanitar əməkdaşlığın etibarlı platforması



**Rəşad Mahmudov**
Milli Məclisin
Səhiyyə komitəsinin
sədr müavini

Qarşılıqlı dialoq, multikultural dəyərlər və dini dözümlülük ənənələri ilə seçilən Azərbaycan bu gün sivil dünyada təşəbbüskar ölkə kimi qəbul olunur. İqtisadi müstəqilliyini təmin edərək Cənubi Qafqazda yeni inkişaf reallığı formalaşdıran ölkəmiz artıq beynəlxalq münasibətlər sistemində mühüm aktora çevrilmişdir. Prezident İlham Əliyevin məqsədyönlü və ardıcıl siyasəti nəticəsində Azərbaycan bölgədən dünyaya sülh, əməkdaşlıq və qarşılıqlı anlaşma mesajları ünvanlayan ölkə kimi çıxış edir.

Bu gün beynəlxalq dialoq və əməkdaşlıq məkanlarından biri kimi tanınan Azərbaycanın COP29 kimi mühüm əhəmiyyətli tədbirlərə, eləcə də BMT ilə əməkdaşlıq çərçivəsində keçirilən digər ali platformaların toplantılarına ev sahibliyi etməsi ölkəmizin artan nüfuzunun və qlobal problemlərin həllində fəal mövqeyinin göstəricisidir. Paytaxtımızda ardıcıl şəkildə beynəlxalq tədbirlərin təşkil edilməsi Azərbaycanın dünya gündəmində xüsusi yer tutduğunu bir daha təsdiqləyir.

Bu baxımdan Qlobal Bakı forumları artıq dialoq və əməkdaşlıq üçün etibarlı və nüfuzlu platforma kimi formalaşıb. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən XIII Qlobal Bakı Forumu da bu ənənənin davamı olaraq xüsusi əhəmiyyət kəsb etmişdir. “Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması” mövzusuna həsr olunan forum müasir dövrün əsas çağırışlarını əhatə edərək qlobal gündəliyin ən aktual məsələlərini müzakirə müstəvisinə çıxardı. Müasir dünyada fikir ayrılıqları təkcə müxtəlif baxışların toqquşması




deyil, eyni zamanda, ciddi təhlükəsizlik risklərinin, münaqişələrin və humanitar böhranların əsas mənbəyidir. Siyasi qərarlarda yaranan ziddiyyətlər çox vaxt qarşıdurmaların dərinləşməsinə gətirib çıxarır. Bu səbəbdən bu cür vəziyyətlərdə əsas çıxış yolu dialoq, qarşılıqlı anlaşma və əməkdaşlıq mexanizmlərinin gücləndirilməsidir. Məhz bu yanaşma daha sabit və təhlükəsiz gələcəyin formalaşmasına xidmət edir.

Forum çərçivəsində Prezident İlham Əliyev çıxışında qeyd etdi ki, artan qlobal gərginliklər fonunda təhlükəsizlik və müdafiə məsələləri hər bir dövlət üçün prioritet xarakter daşıyır. Ölkə başçısı Azərbaycanın keçdiyi inkişaf yolunu nümunə göstərərək vurğuladı ki, uzun illər işğal və münaqişə şəraitində yaşamış Azərbaycan həm siyasi, həm də hərbi vasitələrlə öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmişdir. Bu təcrübə sülhə aparan yolun yalnız güclü siyasi iradəyə və beynəlxalq hüquqa əsaslanan mövqedən keçdiyini bir daha nümayiş etdirir.

Eyni zamanda, Prezident İlham Əliyev Ermənistanla sülh prosesini forumun əsas müzakirə mövzuları ilə uzlaşdıraraq söylədi ki, davamlı sülh yalnız qarşılıqlı hörmət, beynəlxalq hüquqa riayət və birbaşa dialoq əsasında mümkündür. Dövlətimizin başçısı forumun mahiyyətində məhz bu prinsiplərin dayandığını vurğulayaraq beynəlxalq hüquqa hörmətin, ikitərəfli əməkdaşlığın və vasitəçisiz dialoqun vacibliyini xüsusi qeyd etdi.

> "Dünyada hazırda baş verənlər – yeni gərginlik nöqtələrinin yaranması və uzunmüddətli mövcud münaqişələr beynəlxalq davranış strukturuna təhdid təşkil edir. Bu, həmçinin beynəlxalq hüquqa təhdiddir. Beynəlxalq hüquqa və normalara hörmət edilməyəndə və beynəlxalq təşkilatların qətnamələri nəzərə alınmayanda ölkələrin ərazi bütövlüyü pozulur".
>
> **İlham Əliyev**

Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri və regional bağlantılar kimi məsələlərin də qlobal sabitlik üçün mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdıran Prezident Bakı Forumunun dövlətlər arasında etimadın möhkəmlənməsinə, təcrübə mübadiləsinə və birgə həll yollarının formalaşmasına xidmət edən platforma olduğunu bildirdi.

Bu gün Azərbaycan sabitlik, etibarlılıq və inkişaf modeli kimi çıxış edərək qlobal problemlərin həllinə töhfə verən fəal tərəfdaşdır. Ölkəmizdə keçirilən beynəlxalq forumlar isə bu yanaşmanın praktik təzahürü kimi çıxış edir.

XIII Qlobal Bakı Forumu bir daha göstərdi ki, müasir dünyada problemlərin həlli yalnız dialoq və əməkdaşlıqdan keçir. Bakı növbəti dəfə bəşəriyyət üçün mühüm mesaj verdi: qarşıdurmaların alternativi qarşılıqlı anlaşma, gərginliyin alternativi isə dialoqdur. Azərbaycan isə bu dialoqun mərkəzində dayanaraq daha ədalətli, təhlükəsiz və sabit dünya nizamının formalaşmasına töhfə verməyə davam edir.



# Azərbaycanın ictimai-siyasi mühiti qadın liderliyinin uğurlu nümunələri ilə zəngindir



**Nigar Məmmədova**
Milli Məclisin deputatı

Qadınların ictimai-siyasi həyatda yüksəlişi ən mühüm sosial transformasiyalardan biri hesab olunur. Bu, təkmil idarəetmənin gücləndirilməsində gender bərabərliyinin strateji əhəmiyyətini göstərir. Azərbaycanda qadın siyasətinin uğurları uzunmüddətli ictimai fəallığın nəticəsidir.

Müasir dövrdə isə qadınların liderliyi ən yüksək siyasi səviyyədə özünü göstərir, onların dərin zəkasını və idarəetmə qabiliyyətini nümayiş etdirir. Parlamentdə, dövlət təşkilatlarında, təhsil və səhiyyə sahələrində, yerli idarəetmə orqanlarında, vətəndaş cəmiyyətində qadınların fəallığı durmadan artmaqdadır. Bu irəliləyiş müxtəlif siyasi təşəbbüslər və gender balansının təşviqi ilə də dəstəklənir.

Eyni zamanda, gender bərabərliyinin strateji əhəmiyyəti yalnız ədalət prinsipi ilə məhdudlaşmır. Təcrübə göstərir ki, inklüziv siyasi sistemlər daha dayanıqlı və effektiv olur. Qadınların iştirakının artması səhiyyə, təhsil və sosial müdafiə sahələrində daha geniş və balanslı siyasətlərin formalaşmasına töhfə verir, müxtəlif baxışların mövcudluğu mürəkkəb problemlərin daha düzgün həllinə şərait yaradır.

Bundan əlavə, gender bərabərliyi demokratik legitimliyi də güc-

ləndirir və qadınların ictimai-siyasi həyatda fəal iştirakı vətəndaşlarla dövlət arasında əlaqələri möhkəmləndirir. Bu baxımdan qadın siyasətinin uğurlarının ölkəmizdə davamlı inkişaf üçün əsas amillərdən biri olduğu aydın şəkildə özünü göstərir.

Müasir dünyada dövlətlərin davamlı inkişafı iqtisadi göstəricilərlə yanaşı, sosial balansın, inklüziv idarəetmənin və insan kapitalının effektiv istifadəsinin ölçüsü ilə də müəyyən edilir. Bu kontekstdə qadın siyasəti strateji prioritetə çevrilib. Gender bərabərliyinin təmin olunması yalnız dövlət siyasəti ilə məhdudlaşmır. Bu prosesdə cəmiyyətin rolu da böyükdür. Maarifləndirmə tədbirləri, təhsil imkanlarının genişləndirilməsi və stereotiplərin aradan qaldırılması qadınların daha fəal iştirakını təşviq edən əsas amillərdir. Qeyri-hökumət təşkilatlarının fəaliyyəti, vətəndaş cəmiyyətinin təşəbbüsləri də bu istiqamətdə mühüm rol oynayır.

Eyni zamanda, qadınların iqtisadi müstəqilliyinin gücləndirilməsi də gender bərabərliyinin əsas elementlərindən biridir. Sahibkarlıq fəaliyyətinə dəstək, məşğulluq imkanlarının artırılması və peşə təhsili proqramlarının çoxaldılması qadınların əmək bazarında daha aktiv iştirakına şərait yaradır. Gender bərabərliyinin təmin olunduğu ölkələrdə iqtisadi artımın daha yüksək olması və idarəetmənin keyfiyyətinin yüksəlməsi beynəlxalq hesabatlarda da öz təsdiqini tapır. Qadınların qərar qəbuletmə proseslərində iştirakı dövlət siyasətinin daha balanslı və geniş ictimai maraqları əhatə edən formada qurulmasına şərait yaradır.

Azərbaycanın ictimai-siyasi mühiti qadın liderliyinin uğurlu nümunələri ilə zəngindir. Bu fəaliyyət yalnız fərdi uğur deyil, həm də gender bərabərliyi istiqamətində keyfiyyət dəyişikliklərinin göstəricisidir. Qadınların ictimai-siyasi fəallığının strateji əhəmiyyəti idarəetmədə baxış bucağının genişlənməsi ilə bağlıdır. Araşdırmalar göstərir ki, müxtəliflik qərarların daha dayanıqlı və kreativ olmasına gətirib çıxarır. Ölkəmizin nümunəsində bu, cəmiyyətin ehtiyaclarını daha yaxşı əks etdirən siyasi formalaşmaya və qlobal çağırışlara daha effektiv cavab verilməsinə şərait yaradır.

Bundan əlavə, qadınların fəallığı siyasi yeniliklərə də təkan verir. Əməkdaşlıq və konsensus kimi prinsiplərə əsaslanan yeni idarəetmə yanaşmaları ənənəvi siyasət üsullarını yenidən formalaşdırır. Bu isə xüsusilə qütbləşmənin artdığı və sürətli dəyişikliklərin baş verdiyi müasir dövrdə böyük əhəmiyyət daşıyır. Bu baxımdan ölkəmizdə qadın siyasəti həm cəmiyyətin tərəqqisinin göstəricisi, həm də ölkənin gələcək inkişaf trayektoriyasını müəyyən edən əsas amillərdən biri kimi çıxış edir.

Parlamentdə qadın təmsilçiliyi isə konkret nəticələrə də təsir göstərir. Məişət zorakılığı, əmək bazarında bərabərlik, sosial müdafiə və təhsil sahələrində qadın baxışının qanunvericilik müzakirələrinə daxil olması qərarların daha ədalətli və real həyat təcrübələrinə uyğun qəbul edilməsinə şərait yaradır. Bu xüsusda da Azərbaycan öz uğurlu təcrübəsini bölüşür.

Qadınların dəstəklənməsi, eyni zamanda, ailə institutunun möhkəmləndirilməsinə xidmət edir. Araşdırmalar göstərir ki, dəstəklənən və təhsilli analar uşaqların həm təhsilinə, həm də psixoloji inkişafına daha çox diqqət ayırır. Bu isə gələcəkdə sağlam və məsuliyyətli fərdlərin yetişməsinə gətirib çıxarır. Bu kontekstdə deyə bilərik ki, qadınların dəstəklənməsi ailə daxilində müsbət təsir yaratmaqla yanaşı, bütövlükdə sosial sabitliyə də töhfə verir.

Ölkəmizdə gender bərabərliyinin kökləri dərin tarixə dayanır.






1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti qadınlara seçki hüququ verən ilk müsəlman ölkələrindən biri kimi tarixə düşərək bu sahədə qabaqcıl mövqe nümayiş etdirib. Bu addım qadınların ictimai və siyasi həyatda iştirakının əsasını qoyub və sonrakı inkişaf üçün möhkəm baza yaradıb.

Müstəqillik dövründə isə gender bərabərliyi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Xüsusilə Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən strateji xətt qadın hüquqlarının qorunmasına və onların cəmiyyətin bütün sahələrində fəal iştirakının təmin olunmasına yönəldi. Bu siyasət çərçivəsində qanunvericilik bazası formalaşdırıldı, qadınların sosial müdafiəsi və məşğulluğu sahəsində mühüm addımlar atıldı.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə gender bərabərliyinin təmin olunması istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirilir. Ölkə başçısının da söylədiyi kimi, "elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə qazandığı nailiyyətlər Azərbaycan qadınının çox böyük potensiala malik olduğunu bir daha təsdiq edir".

Qadınların hüquqlarının qorunması, onların iqtisadi və sosial imkanlarının genişləndirilməsi üçün dövlət proqramları icra olunur, institusional mexanizmlər gücləndirilir. Azərbaycan Respublikasında gender siyasətinin yeni mərhələsini müəyyən edən mühüm sənədlərdən biri də Prezident İlham Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı"dır. Bu sənəd ölkədə gender bərabərliyinin daha sistemli və məqsədyönlü şəkildə təmin olunmasına xidmət edir. Azərbaycan qadınları artıq siyasət, elm, təhsil, biznes və mədəniyyət sahələrində mühüm uğurlar qazanırlar. Onların parlamentdə və dövlət idarəçiliyində təmsilçiliyinin artması isə uğurlu dövlət siyasətinin real nəticəsidir. Bu kontekstdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusi vurğulanmalıdır. Mehriban xanımın təşəbbüsləri ilə həyata keçirilən layihələr həm ölkə daxilində, həm də beynəlxalq miqyasda Azərbaycan qadınının nüfuzunu daha da artırır.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın fəaliyyəti qadın hüquqları, sülhün təşviqi və humanitar məsələlərlə bağlı bir sıra mühüm məqamları əhatə edir. O, ictimai-siyasi həyatın bütün sahələrində qadınların fəal iştirakının təmin edilməsini dövlət üçün prioritet vəzifə kimi qarşıya qoyur və ölkəmizdə qadınlar üçün qadağan olunmuş fəaliyyət sahəsinin olmadığını vurğulayır. Mehriban xanım qadını ailədə sülhün, səmimiyyətin və məhəbbətin təminatçısı hesab edir.

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu isə sivilizasiyalararası dialoqun inkişafı, mədəniyyətlərarası körpülərin qurulması və sülh mesajlarının çatdırılması istiqamətində layihələr həyata keçirir. Bu fəaliyyət Azərbaycanın dünya miqyasında təqdimatına mühüm töhfə verir.

Mütəmadi olaraq müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevlə birgə qəhrəman hərbçilərimizlə görüşən Mehriban xanım hər zaman şəhid analarının yanındadır. Azərbaycan cəmiyyətində şəhid ailələrinə göstərilən diqqət və qayğı xüsusi həssaslıq tələb



Azərbaycan Qadınlarının VI Qurultayı

edən mühüm məsələdir. Bu istiqamətdə həyata keçirilən fəaliyyətlər arasında birinci xanımın rolu xüsusilə seçilir. Onun şəhid analarına göstərdiyi mənəvi və sosial dəstək cəmiyyətimiz üçün nümunədir. Bu diqqət isə həmin qadınların sosial rifahını yaxşılaşdırır, həm də cəmiyyətdə həmrəylik və vətənpərvərlik hisslərini gücləndirir.

Qadınların sülh quruculuğu və dialoq proseslərindəki rolu da danılmazdır. Beynəlxalq təcrübə göstərir ki, onların iştirak etdiyi sülh prosesləri daha dayanıqlı və uzunmüddətli olur. Bu yanaşma Birləşmiş Millətlər Təşkilatı tərəfindən də dəstəklənir. Xüsusi qətnamələrdə qadınların münaqişələrin qarşısının alınması və sülhün qurulmasında iştirakının artırılması tövsiyə olunur. Qadınların daha inklüziv və sosial yönümlü yanaşması dialoq mühitinin formalaşmasına müsbət təsir edir. Azərbaycan nümunəsinə əsaslanaraq söyləyə bilərik ki, sülh yalnız siyasi razılaşmalarla deyil, eyni zamanda, humanitar təşəbbüslər, mədəni əməkdaşlıq və insanlar arasında qurulan etimad vasitəsilə də möhkəmlənir.







# Azərbaycan Avropa İttifaqı ilə bərabərhüquqlu tərəfdaşdır



**Pərvin Kərimzadə**
Milli Məclisin deputatı

Ölkəmizin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu son illərdə Avropa İttifaqı ilə münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəldib. Bu siyasətin əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, rəsmi Bakı dəyişən beynəlxalq sistemdə yalnız reaksiya verən deyil, artıq prosesləri formalaşdıran aktor kimi çıxış edir. Məhz bu yanaşma Azərbaycanı regionda sabitlik yaradan və əməkdaşlıq təşəbbüsləri irəli sürən əsas mərkəzlərdən birinə çevirib.

Ölkəmiz bütün beynəlxalq təşkilatlarla əlaqələrin inkişafında maraqlıdır. Hazırkı həssas məqamda Azərbaycan mühüm bir coğrafiyada yerləşməklə yanaşı, həm də təhlükəsizlik arxitekturasını yenidən qurur. Son dövrlərdə Avropa məkanından ölkəmizə edilən yüksək səviyyəli səfərlər də bu reallığı təsdiqləyir.

Azərbaycanın Avropa İttifaqı ilə bərabərhüquqlu tərəfdaşlığa əsaslanan münasibətləri davamlı olaraq inkişaf etməkdədir. Son illərdə qurumla əməkdaşlıq nəticəsində ikitərəfli və çoxtərəfli formatda çoxsaylı layihələr və təşəbbüslər reallaşdırılıb, münasibətlərin daha da inkişaf etdirilməsi üçün möhkəm hüquqi çərçivə yaradan mühüm sazişlər və anlaşma sənədləri imzalanıb. Rəsmi Bakı siyasi dialoqların daha da irəliyə aparılmasını, sülh və danışıqlar prosesini, terrorizmə qarşı aktiv mübarizəni, eləcə də beynəlxalq hüququn təsbitini daim dəstəkləyir.

İttifaq və onun müxtəlif strukturları da rəsmi Bakının regiondakı lider statusunu qəbul edirlər.

Azərbaycan dövləti onun maraqlarına hörmət edən Avropa ölkələri ilə əməkdaşlığı davam etdirir. Aprel ayının son günlərində paytaxtımıza səfər edənləri sadalayaq: Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs, Çexiya Respublikasının Baş naziri Andrey Babiş, Ukrayna Prezidenti Volodimir Zelenski və mayın ilk günlərində İtaliyanın Baş naziri xanım Meloninin ardınca Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas böyük nümayəndə heyəti ilə birgə Azərbaycana gəldi, yüksək səviyyədə görüş keçirdi.  Bu səfərlər ölkəmizi hədəfə alan qüvvələrə qarşı tutarlı cavab oldu. Faktiki olaraq Avropa İttifaqının icraedici strukturları, xüsusilə Avropa Komissiyası ilə Azərbaycan arasında sıx və davamlı əməkdaşlıq mövcuddur. Ermənistanda keçirilən Avropa Siyasi Birliyi Zirvəsindən sonra Kaya Kallasın Azərbaycana səfər etməsi münasibətlərin yüksək səviyyədə davam etdiyini bir daha təsdiqləyir.

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın isə bu il martın 11-də Azərbaycana rəsmi səfəri də uğurla inkişaf edən bu ikitərəfli əlaqələrin inkişafının bariz göstəricisidir və müsbət reallıqların açıq ifadəsi kimi səciyyələnir. Azərbaycan Prezidenti İlham Əliyevlə Antonio Koşta arasında keçirilən görüş, aparılan müzakirələr və verilən bəyanatlar qarşılıqlı münasibətlərdə yeni mərhələnin başlanmasını təsdiqləyir. Bu müsbət tendensiyanın təməli Azərbaycan və Avropa İttifaqı liderləri arasında 2025-ci ilin may ayında Tiranada və oktyabr ayında Kopenhagendə keçirilmiş konstruktiv görüşlər zamanı qoyulub.

Ötən il ərzində Azərbaycan və Avropa İttifaqı rəsmilərinin qarşılıqlı səfərləri, təhlükəsizliklə bağlı müzakirələri təşkilat ilə ölkəmiz arasında münasibətlərin inkişafına öz töhfəsini verib. Bu müsbət dinamika əməkdaşlığın yeni səviyyəyə yüksəlməsi üçün əlverişli şərait yaradıb.

Azərbaycan beynəlxalq müstəvidə yeni nizamın formalaşdırılması prosesində əsas dövlətlərdən biri kimi qəbul olunur. Bunun da səbəblərindən biri qalib Azərbaycanın xarici siyasətinin dünyanın qlobal əhəmiyyətə malik prinsipləri üzərində fokuslanmasındadır. Başqa sözlə, ölkəmiz bütün dünyaya bərabərhüquqlu münasibətlər, beynəlxalq hüquqa hörmət və onun təmin edilməsi, ədalət və qarşılıqlı etimad prinsiplərini təşviq edir. Məhz bu dəyərlərə əsaslanan siyasət nəticəsində Azərbaycan həm regional, həm də beynəlxalq səviyyədə tanınan, hörmət edilən və nüfuz qazanan dövlət statusu qazanıb.

2020-ci ildə Cənubi Qafqazda yeni reallıqlar formalaşdıran Azərbaycan bölgənin siyasi xarakterini dəyişib. Belə ki, artıq regionumuz əməkdaşlıq platforması kimi təqdim edilir. Qalib ölkə olmasına baxmayaraq, irəli sürdüyü sülh təşəbbüslərinin Cənubi Qafqazın həm siyasi, həm də iqtisadi gələcəyi üçün yeni strateji xətt müəyyənləşdirməsi vacib amildir. Ötən ilin avqustunda əldə olunan Vaşinqton razılaşmaları da bu reallıqların uğurlu nəticəsi kimi qəbul edilir. Birgə bəyanatda da bu məsələyə xüsusi yanaşma sərgilənir. Belə ki, sənəddə Vaşinqton sammiti, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi



alqışlanır, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma və bərpa işləri vurğulanır.

Prezident İlham Əliyevin mətbuata bəyanatında dediyi kimi, əgər hər iki tərəf siyasi iradəni və sülhə sadiqliyini nümayiş etdirərsə, bu, dövlətlərin və xalqların barışığına dəlalət edən ən yaxşı göstəricidir. “Sülhdən yaxşı heç nə ola bilməz”- deyə dövlətimizin başçısı vurğulayıb. Aİ Şurasının Prezidenti Antonio Koşta da deyib ki, həqiqi sülh təkcə siyasi razılaşmalar üzərində yox, insanların gündəlik həyatları, iqtisadi-ticari əlaqələr və ortaq rifah üzərində qurulur. O, Azərbaycanın regional rolunun heç vaxt görünmədiyi qədər önəmli olduğunu bəyan edib.

Azərbaycanla Aİ arasında münasibətlərdə enerji əməkdaşlığı xüsusi yer tutur. Ölkəmiz Avropa enerji ailəsinin ən sadiq üzvü kimi uzunmüddətli təminat blokunda yer almaqla yanacaq həcmlərinin artırılması və şaxələndirilməsi coğrafiyasını da genişləndirib. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi bu davamlı kursun uğurla reallaşdırılmasının nəticəsidir ki, hazırda respublikamızın Avropa İttifaqı məkanında da çoxlu sayda strateji tərəfdaşlıq münasibətləri qurduğu ölkələr var. Azərbaycanın qaz nəql etdiyi 16 dövlətin 10-u Avropa İttifaqına daxil olan ölkələrdir. Bu yüksək etimadın nəticəsidir ki, Avropa Komissiyası ölkəmizi etibarlı tərəfdaş kimi tanıyır.

Hazırda respublikamızdan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində böyük dəyişiklik yaradır. Mövcud proqnozlara görə, 2026-2028-ci illərdə Azərbaycanın Avropa regionuna təbii qaz ixracı 15-16 milyard kubmetrə çatacaq. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, növbəti iki və ya üç il ərzində minimum 10 milyard kubmetr əlavə qazımız olacaq. Yanacağın böyük bir qismi də məhz Avropa qitəsinə yönləndiriləcək.

Antonio Koştanın da etiraf etdiyi kimi, Azərbaycanın Avropa ölkələrinin enerji təchizatının şaxələndirilməsində rolu nəzərə alınaraq bu istiqamətdə mövcud imkan resurslarının daha da diversifikasiyası nəzərdə tutulur. Mövcud möhkəm hüquqi çərçivə sənədinə əsasən, Cənub Qaz Dəhlizinin nəql infrastrukturlarının artırılması da bu ssenariyə daxildir. Eyni zamanda, prezidentlər uzunmüddətli vacib enerji tərəfdaşlığını xatırladaraq Avropanın enerji təchizatının şaxələndirilməsində Azərbaycanın rolunu etiraf ediblər və 2022-ci ildə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun davamlı icrasına sadiqliklərini bildiriblər. Onlar Cənub Qaz Dəhlizi Məşvərət Şurasının və Yaşıl Enerji Məşvərət Şurasının əhəmiyyətini, külək və günəş enerjisi də daxil olmaqla bərpaolunan enerji mənbələri sahəsində enerji əməkdaşlığının genişləndirilməsi potensialını, həmçinin Qara dəniz sualtı kabeli layihəsi













kimi qarşılıqlı elektrik enerjisi bağlantısı təşəbbüslərini qeyd ediblər.

Cənubi Qafqazda artan diplomatik fəallıq fonunda Azərbaycanın proseslərdə rolu getdikcə daha qabarıq şəkildə görünür. Son aylarda Litvanın Baş naziri İnqa Ruqinienenin, Latviya Prezidenti Edqars Rinkeviçsin və Ukrayna Prezidenti Volodimir Zelenskinin ölkəmizə səfərləri bu dinamikanın təsadüfi olmadığını göstərir. Bu, beynəlxalq arenada ölkəmizin artıq yalnız enerji tərəfdaşı deyil, həm də siyasi dialoq və çoxtərəfli əməkdaşlıq üçün etibarlı platforma kimi qəbul edildiyinin təsdiqidir. Xüsusilə Avropa ölkələrinin Azərbaycana artan marağı onların regionda sabitlik, enerji təhlükəsizliyi və yeni nəqliyyat dəhlizləri ilə bağlı strateji hədəflərindən irəli gəlir.

Belə ölkələrdən biri də Baltikyanı regionun önəmli dövlətlərindən olan Latviyadır. Bu yaxınlarda Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin Azərbaycana rəsmi səfərə gəlməsi və səfər çərçivəsində önəmli müzakirələrin aparılması, müxtəlif sənədlərin imzalanması ikitərəfli münasibətlərin keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini göstərir.

Eyni zamanda, aprelin 27-də Avropa İttifaqının üzvü olan Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə səfəri yalnız ikitərəfli münasibətlərin inkişafı baxımından deyil, eyni zamanda, Azərbaycanın beynəlxalq məsələlərin həllində rolunun gücləndiyini göstərən mühüm mesajdır. Bu, həm də Azərbaycanın geosiyasi və geoiqtisadi əhəmiyyətinin artdığını aydın şəkildə nümayiş etdirir. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Çex Respublikasının Baş naziri Andrey Babişin  Azərbaycana səfəri Avropa məkanında ölkəmizə artan marağın aydın təzahürüdür.

Beləliklə, Azərbaycan-Avropa İttifaqı əlaqələri böyük perspektivlər vəd edir. Dünyada qlobal güc statusunda olan təşkilat  ölkəmizin nəinki Cənubi Qafqaz, eləcə də Avropa məkanı üçün önəmini anlayır. Qurumun yüksək səviyyəli rəsmilərinin Prezident İlham Əliyevə müraciətlə: “Sizin rəhbərliyiniz zəruridir və bizim tərəfdaşlığımız güclüdür. Biz onu xalqlarımızın rifahı naminə birlikdə daha da genişləndirə bilərik” - deməsi dövlətimizin və onun rəhbərinin dünya miqyasında yüksək nüfuzunun etirafıdır.

Nəticə etibarilə, Azərbaycan-Avropa İttifaqı münasibətləri qarşılıqlı maraqlara əsaslanan və dinamik inkişaf edən tərəfdaşlıq modeli kimi xarakterizə oluna bilər. Azərbaycanın balanslaşdırılmış və praqmatik xarici siyasəti bu münasibətlərin davamlılığını təmin edən əsas determinant kimi çıxış edir. Mövcud tendensiyalar göstərir ki, bu əməkdaşlıq gələcəkdə həm regional sabitliyin möhkəmlənməsi, həm də Avrasiya məkanında enerji və nəqliyyat əlaqələrinin inkişafı baxımından daha əhəmiyyətli rol oynayacaq.

# Mixail Zabelin:
# "Azərbaycanda doğulduğum üçün xoşbəxtəm..."

Bu rubrikada həmsöhbətimiz Milli Məclisdə rus icmasını təmsil edən qocaman deputatımız **Mixail Zabelindir**. Bu günlərdə 80 yaşı tamam olan təcrübəli millət vəkilimizlə onun həyat yolu, siyasi fəaliyyəti, ölkəmizdəki multikulturalizm ənənələri barədə söhbət etdik.



**- Mixail Yuryeviç, jurnalımız adından bu gözəl yubileyiniz münasibətilə sizi ürəkdən təbrik edirik. Oxucularımıza bir qədər özünüz, böyüdüyünüz ailə, həyatda qazandığınız uğurlar barədə məlumat verməyinizi istərdik.**

- Təbrikə görə təşəkkür edirəm. Sadə bir bakılı ailəsində doğulmuşam. Valideynlərim, demək olar ki, bütün ömürlərini Bakıda yaşayıblar. Atam mühəndis, anam isə evdar qadın idi. O vaxtlar belə bir ailədə böyüyən insanın hazırda mənim çatdığım zirvələrə yüksələ biləcəyini təsəvvür etmək çətin idi. Uşaqlıqdan ətrafım mehriban və fədakar insanlarla əhatə olunub. Şübhəsiz ki, onların hər birinin 80 il ərzində keçdiyim həyat yolunda müsbət təsirləri görünür.

**- Bu yaş həyatın ciddi bir mərhələsidir. Onu hansı daxili hisslərlə qarşılayırsınız?**

- Mənim üçün əsas olan ömrün illərlə ölçülən həddi deyil, ölkəmə, vətənimə, insanlara real fayda verə bilmək duyğusudur. Bu günlərdə cənab Prezident, Ali Baş Komandan məni 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif etdi. İndiyə qədər layiq görüldüyüm mükafatlar arasında bu orden mənim üçün xüsusi dəyərə malikdir, özəl mənası var. Çünki vətənə xidmət, sadəcə, sözlə, yalnız üzərində yaşadığımız torpaqla ölçülmür. Vətən xalqımızdır, ailələrimiz, dostlarımız, əqidədaşlarımızdır; ölkəmizin gələcəyi üçün gördüyümüz iş və daşıdığımız ümumi məsuliyyətdir. Bizi birləşdirən, həyatımıza məna qatan məhz budur. Buna görə də, 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməyim mənim üçün həqiqətən əlamətdar, təsirli bir hadisə oldu. Əməyimə verdiyi bu yüksək qiymətə və mənə göstərdiyi etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə səmimi minnətdarlığımı bildirirəm. Bu etimad məni vətənə daha yüksək əzmlə xidmət etməyə sövq edir.

**- İllər ötdükcə insanın bəzi şeylərə baxışı da dəyişir. Amma sizin siyasi anlayışlarınız heç dəyişmədi...**

- Yəqin bu onunla bağlıdır ki, siyasət özü mənim həyatımın isti-




qamətini müəyyənləşdirib. Gənclik illərimdə respublika komsomolunda çalışarkən bir dəfə yaxın dostlarımla birlikdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin çıxışını dinlədik. Dərin, məzmunlu və ruhumuza işləyən bu nitq hər birimizi çox təsirləndirdi. Bizi təkcə bu səsin intonasiyası, onun sahibindəki daxili güc və qətiyyət deyil, həm də hər bir tezisdə əks olunan strateji təfəkkürün miqyası heyran qoymuşdu. Çıxışda aydın bir xətt - inkişaf, əmək məhsuldarlığının artırılması, iqtisadiyyatın möhkəmləndirilməsi, vətəndaşların rifahının yaxşılaşdırılması və Azərbaycan xalqının mənafeyinə xidmət kursu görünürdü. Mənim üçün bu, sadəcə, bir ilham mənbəyi deyil, bir növ həyat meyarı və daxili seçim oldu.

Bundan sonra cəmiyyətdəki rolumuza, ölkə və insanlar qarşısındakı məsuliyyətimizə fərqli bir nəzərlə baxmağa başladım. O gündən etibarən biz artıq alternativ yollar axtarmırdıq. Bir yolumuz var idi - fəaliyyətimiz quruculuğa və xidmətə yönəlməlidir. Əminliklə deyə bilərəm ki, həmin çıxışı dinləməyim bu günə qədər sadiq qaldığım həyat yolumun - vətənə xidmət, onun inkişafı və qüdrətlənməsi yolunda təmənnasız fəaliyyət göstərmək istiqamətini müəyyənləşdirdi.

**- Təbii ki, həyatınız təkcə uğurlarla müşayiət olunmayıb. Yəqin ki, ciddi sınaq anlarınız da olub?**

- Dövlətimizin tarixinin ən mürəkkəb dövrlərindən biri 1991-1992-ci illərə təsadüf edir. O vaxtlar mən mütəmadi olaraq Qarabağa gedir, yerli sakinlərlə söhbət edir, hadisələrin o ssenari üzrə inkişafının hansı təhlükəli nəticələrə yol aça biləcəyini onlara çatdırmağa çalışırdım. Fəaliyyətim, sadəcə, birbaşa dialoq və təşviqat xarakteri daşısa da, son dərəcə çətin idi. Bir çox insanlar güclü erməni millətçiliyi təbliğatının təsiri altında idi və kifayət qədər sərt mövqe nümayiş etdirirdilər.

Elə məqamlar olurdu ki, biz düşmən münasibətini, həyatımız üçün yaranan real təhdidləri birbaşa hiss edirdik. Vəziyyət çox gərgin idi. Vaxtaşırı Şuşaya gedib-gəlirdik. Bizdən bir gün əvvəl həmin yolla tanınmış jurnalist Salatın Əsgərova yola düşdü. Təəssüf ki, o, mənzil başına çata bilmədi - avtomobili yolda atəşə tutuldu. Hər gün gözlərimiz qarşısında belə faciəvi hadisələr baş verirdi.

Həmin vaxt Ulu Öndər Heydər Əliyev Naxçıvanda idi. Biz onunla mütəmadi əlaqə saxlayırdıq. Hər kəs aydın dərk edirdi ki, bu dahi insan hakimiyyət sükanının arxasına keçməsə, ölkədə sabitlik və normal həyat şəraiti yaratmaq mümkün olmayacaq.

O dövrün bütün məsuliyyətini dərk edərək biz - 91 nəfər ölkə ziyalısı Heydər Əliyevə Azərbay-




cana rəhbərlik etməsi üçün dəvət məktubu yazdıq. Mən həmin insanların arasında olduğum üçün qürur duyuram. Biz anlayırdıq ki, siyasi islahatlar üçün institusional baza lazımdır. Yeni partiyanın yaradılması məhz belə oldu. Mən partiyanın nizamnaməsini hazırlayan üç nəfərdən biri idim. İlkin olaraq "Tərəqqi" adı təklif edilsə də, son prinsipial qərarı Heydər Əliyev verdi - Yeni Azərbaycan Partiyası. Bu partiyanın yaranmasında iştirak etmək mənim üçün böyük şərəfdir və mənə 6 nömrəli partiya biletinin təqdim edildiyi anı heç unutmuram.

Ümumiyyətlə, həyatım ciddi sınaqlarla dolu olub və onlardan hansının daha asan, hansının daha çətin olduğunu seçmək çətindir. Ancaq əminəm ki, bu yolu ləyaqətlə keçə bilmişəm. Bayaq dediyim kimi, "Vətənə xidmətə görə" ordeni mənim üçün təkcə bir təltif deyil, bundan sonra da qüvvəmi, bilik və təcrübəmi Azərbaycan xalqının rifahı naminə sərf etmək üçün əlavə motivasiyadır.

**- Ulu Öndər Heydər Əliyev həyatınızda silinməz iz qoyan insandır. Onunla bir yerdə çalışmısınız. Bu barədə xatirələrinizi bizimlə bölüşərdiniz.**

- Heydər Əliyevlə görüşmək, həqiqətən də, həyatımda unudulmaz bir məqamdır. Mən onun köməkçilərindən biri idim və 34 yaşım var idi. Kənd təsərrüfatı sahəsinə nəzarət edən Arif Mustafayev, ideologiya məsələlərinə məsul olan Ramiz Tariverdiyev və ümumi xarakterli məsələlərlə məşğul olan mən. Biz Heydər Əliyevin ən yaxın ətrafı idik. Şübhəsiz ki, bu mövqe sonrakı həyat yolumun bütün hədəf və istiqamətlərini müəyyən etdi.

Heydər Əliyev, sadəcə, görkəmli siyasətçi deyildi, Azərbaycan dövlətçiliyinin qurucusu idi. Onun bütün addımları xalqın maraqları və gözləntiləri ilə üzvi şəkildə üst-üstə düşürdü. Siyasətin ən incə məqamlarını hiss etmək kimi unikal qabiliyyətə, fenomenal yaddaşa sahib idi. Yaxşı xatırlayıram, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd olduğu vaxtlarda tez-tez xarici nümayəndə heyətləri ilə görüş keçirirdi. Qəbula gələn qonağa o ölkənin tarixi, həmin xalqın milli-mənəvi xüsusiyyətləri barədə elə faktlar söyləyirdi ki, onlar özləri heyrətlənirdilər.

Dahi şəxsiyyət həm də cəsarəti ilə fərqlənirdi. Leonid İliç Brejnevin Bakıya son səfəri zamanı buna bariz nümunə olan epizod baş verdi: çıxış zamanı səhvə yol verilmişdi... Heydər Əliyev tərəddüd etmədən tribunaya qalxdı, bir an içində mətni dəyişdi. Bununla da ciddi bir siyasi narahatlığın qarşısını aldı. Onun fəaliyyətində belə qətiyyətli və məsuliyyətli addımlar çox olub. Heydər Əliyev formal



qanunlarla deyil, həmişə məqamın zərurətinə aid olan baxışları ilə hərəkət edirdi.

Ulu Öndərin müstəsna iş qabiliyyəti də yaddaşıma həkk olunub. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işə başlayacaqdı. Moskvaya köçməzdən əvvəl mənə nəzarət edəcəyi sahələr üzrə ədəbiyyat toplamağı tapşırdı. Mən onun kabinetinə 30 qutudan çox kitab təhvil verdim. İki aydan sonra həmin kitablar onun ətraflı qeydləri ilə birlikdə geri qaytarıldı və aydın idi ki, o, gələcək işində bütün istiqamətlər üzrə prosesi ən incə məqamlarına qədər kökündən araşdırıb.

Təsadüfi deyil ki, Heydər Əliyevin ilk qərarlarından biri bütöv bir region üçün strateji əhəmiyyət kəsb edən Baykal-Amur Magistralının tikintisinin bərpası oldu.

Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra o, prinsipial və uzaqgörən siyasət yürütməyə davam etdi. Onun tapşırığı ilə mən Rusiya Dövlət Dumasının deputatlarının səfərlərinin təşkilinə köməklik göstərdim. Çünki hər zaman vurğuladığı bir fikir var idi - münasibətlər xalqlar səviyyəsində qurulmalıdır.

Ermənistana silah tədarükü məsələsi ilə bağlı Boris Yeltsinlə apardığı danışıqların şahidi olmuşam. Dahi lider sərt mövqe tutaraq komissiya yaradılmasını tələb etdi və bildirdi ki, əks halda danışıqlar dayandırılacaq. Bu, əsl dövlət xadimi cəsarətinin və milli maraqların müdafiəsinin nümunəsi idi.

Heydər Əliyevin insani keyfiyyətləri barədə bəzi məqamları xüsusi qeyd etmək istəyirəm. Onun prinsipiallığı ilə sadəliyi, xeyirxahlığı ilə daxili gücü üzvi şəkildə birləşirdi. Yüksək mədəniyyət və mənəviyyat sahibi olan həyat yoldaşı Zərifə Əliyeva onun etibarlı dayağı idi. Zərifə xanım hər gün həyat yoldaşının vəziyyəti ilə maraqlanır, onun ətrafındakı insanlara səmimi qayğı və diqqət göstərirdi. Mənim bu ailə ilə bağlı çox xoş xatirələrim var. Onlardan özümə qarşı gördüyüm hörmət və diqqət bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəxsində də davam edir. Bu ailə bütövlükdə vətənə xidmətin, dürüstlüyün, prinsipiallığın və fədakarlığın bariz örnəyidir.

**- Siz böyük bir dövrdə ölkədə baş verən tarixi dəyişikliklərin şahidi olmusunuz.**

- Doğrudur. Mən bir çox partiya yoldaşlarım və Milli Məclisdəki həmkarlarım kimi dövlətimizin taleyində dönüş nöqtəsi sayılan tarixi hadisələrə şahidlik etmişəm. Bunlardan ən önəmlisi tariximizə Azərbaycanın milli ləyaqətinin və haqq-ədalətin bərpası rəmzi kimi daxil olan torpaqlarımızın işğaldan azad edilməsi - şanlı Zəfərimiz idi. 44 günlük Vətən müharibəsi günlərində böyük diqqət, həyəcan və qürur hissi ilə

Azərbaycan Ordusunun sürətli irəliləyişini, göstərdiyi şücaəti, müqəddəs torpaqlarımızın bir-bir düşmən tapdağından azad edilməsini qürurla izlədik. Cəbhədən gələn hər bir xəbər tarixi həqiqətə doğru atılan bir addım, hüquqi baxımdan Azərbaycana məxsus olanların geri qaytarılması kimi qəbul edildi.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin gündəlik əhaliyə müraciətlərini xüsusi səbirsizliklə gözləyirdim və söylədiyi xəbərlə, fikirlərlə xalqımıza böyük sevinc bəxş edirdi. Ali Baş Komandan kimi onun qətiyyətli mövqeyi, strateji baxışı və siyasi iradəsi hadisələrin gedişində həlledici amil idi. Nümayiş etdirdiyi "dəmir yumruq" dövlət, ordu və xalq birliyinin simvoluna çevrildi. Biz cəbhədən ancaq müjdəli xəbərlər gözləyirdik və onların hər biri ölkəmizin qüdrətinə olan etimadımızı daha da möhkəmləndirirdi.

Həm Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda Qarabağın bu qədər qısa müddətdə işğaldan azad edilə biləcəyinə şübhə ilə yanaşanlar da var idi. Xarici siyasətçilərlə, xüsusən də rusiyalı həmkarlarla söhbətlərdə münaqişənin uzun sürəcəyi barədə tez-tez skeptik fikirlər və proqnozlar eşidirdik. Lakin Azərbaycan Prezidentinin dəqiq hesablanmış və prinsipial addımları, igid Azərbaycan övladlarının sarsılmaz gücü, peşəkar döyüş qabiliyyətləri, vətən sevgisi hadisələrin gedişatını tamamilə dəyişdi və bu qarşıdurmaya qəti nöqtə qoydu. Bu, təkcə hərbi qələbə deyildi, həm də milli ruhun, həmrəyliyin və tarixi ədalətin təntənəsi idi.


ПРОПУСК № 247 *
[illegible]
Разрешается движение в городе ШУШЕ с 20.00 часов до 6.00
Пропуск действителен по предъявлению удостоверения личности (паспорта).
ВОЕННЫЙ КОМЕНДАНТ


Şuşa şəhəri. Azərbaycan

**- Uzun illərdir millət vəkilisiniz. Sizin üçün bu dövrdə - Milli Məclisdəki fəaliyyətinizdə hansı məqamlar unudulmaz xarakter daşıyır?**

- Azərbaycanın müstəqilliyinin bərpası dövrü cəmiyyət üçün çətin bir sınaq zamanı idi. Onda siyasi dəyişikliklər fonunda ölkənin rusdilli əhalisinin bir hissəsində gələcəklə bağlı sual yaranmışdı - getmək, yoxsa qalmaq? Prinsipial olaraq bildirmək istəyirəm ki, Azərbaycanda heç vaxt digər millətlərin təqib olunması halı baş verməyib və mən bunu heç hiss etməmişəm. Əksinə, daim Azərbaycana məxsus tolerantlıq, millət və din daşıyıcılarına xüsusi hörmət görmüşəm. Məhz həmin milli xarakterik xüsusiyyətlər qarşılıqlı anlaşma mühiti yaratdı və millətlərarası həmrəyliyi qoruyub saxlamağa imkan verdi. Belə multikulturalizm mədəniyyəti sayəsində Azərbaycanı öz vətəni hesab edən bir çox ruslar burada qalmaq qərarına gəldilər və bu gün də burada yaşamağa davam edirlər.

Həmin vaxt rusların özlərini güvəndə və qoruma altında hiss etmələrinə kömək edəcək bir strukturun yaranması zərurəti meydana gəldi. 1992-ci ildə mən Naxçıvanda olan Heydər Əliyevlə əlaqə saxlayaraq vətəndaşların maraqlarının müdafiəsi və dialoq platforması kimi Rus İcması qurmaq niyyətim barədə danışdım. Heydər Əliyev o zaman dövlətçiliyimizin əsas prinsipini vurğulayaraq dedi: "Məgər biz vahid Azərbaycan xalqı deyilikmi?" Bununla belə, Ulu Öndər mənim əsas gətirdiyim arqumentləri səbirlə dinlədi və bu təşəbbüsümü dəstəklədi. Onun sayəsində bu məsələ öz dəqiq və sistemli həllini tapdı.

Prezident olduqdan sonra da Heydər Əliyev bu mövqeyini praktikada təsdiqləyərək bəyan etdi ki, milliyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları bərabər hüquq və azadlıqlara malikdirlər və dövlət onların müdafiəsinin qarantıdır. Xüsusilə 1994-cü ilin yanvarında milad bayramı tədbirində çıxış edərkən o, millətlərarası həmrəyliyin və cəmiyyətin birliyinin vacibliyini xüsusi vurğuladı.

Heydər Əliyev tərəfindən təməli qoyulan bu siyasət müasir Azərbaycan multikulturalizm modelinin fundamentinə çevrildi. Bu gün həmin ənənə Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin rəhbərliyi ilə ardıcıl şəkildə davam etdirilir, ölkədə yaşayan bütün xalqların sabitliyini, qarşı-

lıqlı hörmətini və birgə harmonik yaşayışını təmin edir.

**- Cəmiyyətin rifahı üçün çalışan siyasətçidə hansı keyfiyyətləri əsas hesab edirsiniz?**

- Siyasi fəaliyyətimdə rastlaşdığım gərgin məqamlarda həmişə özümə sual verirəm: bu vəziyyətdə Heydər Əliyev necə davranardı? Bu daxili meyar, ölçü prinsipi mənə düzgün qərar qəbul etməkdə yardımçı olur. Əminəm ki, hər bir siyasətçi üçün təməl keyfiyyətlər prinsipiallıq, dürüstlük və ləyaqətdir. Əgər biz, həqiqətən, dövlətə və xalqa xidmətdən danışırıqsa, hər bir məsələnin, hətta ən mürəkkəb problemlərin həlli məhz bu dəyərlər üzərində qurulmalıdır.

**- Mixail Yuryeviç, yaşınızın bu müdriklik pilləsindən geriyə boylananda həyatınızın hansısa məqamını dəyişmək arzusu hiss etmisiniz?**

- 80 il insanın istər-istəməz geriyə boylandığı, gəldiyi yola diqqətlə nəzər saldığı bir zirvədir. Düşünürəm ki, şüurlu, dürüst və əxlaqlı bir ömür yaşamışam və heç vaxt da dəyişmək istədiyim bir məqam olmayıb. Azərbaycanda doğulduğum üçün səmimi qəlbdən qürur duyuram. Çoxmillətli, xeyirxah, hörmətcil və zəngin irsini, milli adət-ənənələrini hər zaman qoruyub saxlayan xalqımızla fəxr edirəm. Azərbaycanla bağlı həyatım boyu zehnimdə sabitləşdirdiyim dəyərlər, şübhəsiz ki, mənim də bu xalqın ayrılmaz bir parçası olaraq yetişməyimə təsir göstərib. Məhz buna görə də həyatımda nəyisə dəyişmək ehtiyacı duymamışam, yolumu bütöv və mənalı hesab edirəm. Taleyimin yenidən yazılması mümkün olsaydı, yenə bu ölkədə doğulmağı, bu millətin içində böyüməyi, bu xalqa xidmət etməyi seçərdim...








"Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərmişdir. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər bizə imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək".

**İlham Əliyev**

31 mart 2017-ci il

# Aprel döyüşləri - 44 günlük şanlı Zəfərimizin başlanğıcı




**Müşfiq Cəfərov**
Milli Məclisin deputatı


2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xəttində ardıcıl təxribatlarına cavab olaraq keçirilmiş əks-hücum əməliyyatları zamanı qazanılmış qələbə ordumuzun gücünü, xalqımızın yenilməz ruhunu bütün dünyaya göstərdi. Aprel hadisələrində cəbhənin ən gərgin istiqaməti Ağdərə-Tərtər-Ağdam və Füzuli idi. Azərbaycan ordusunun bölmələri aprelin əvvəlində qısa müddətdə düşmənin öndə və dərinlikdə cəmləşən qüvvələrini müəyyənləşdirib qəti zərbələrlə sıradan çıxardılar. Uğurlu əməliyyatlar nəticəsində Talış kəndi istiqamətindəki yüksəkliklər işğalçılardan təmizləndi. Həmçinin Horadiz şəhərinin düşmən təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən olduqca strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi azad edildi. Bu döyüşlərdə düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası sıradan çıxarıldı, 320 hərbçisi məhv edildi, 500-dən artıq döyüşçüsü yaralandı, Ağdərə-Suqovuşan istiqamətində yolların nəzarətdə saxlanılması təmin olundu.

Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. O, işğalla barışmadı. Aprel döyüşləri nümayiş etdirdi ki, xalq-iqtidar birliyi bu gün ölkəmizdə yüksək səviyyədədir. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində müzəffər ordumuzun qazandığı böyük Zəfərin başlanğıcı olan bu döyüşlər xalqımızın müqəddəs vətən torpağının hər qarışı uğrunda canından keçməyə hazır olan minlərlə vətənpərvər, igid oğullar yetişdirdiyini



sübut etdi. Aprel döyüşləri qəhrəman ordumuzun düşmən üzərində təkcə qələbəsi ilə deyil, eyni zamanda, "sarsılmaz erməni ordusu" mifinin darmadağın olunması ilə yekunlaşdı.

2016-cı ilin aprel ayında keçirilən əks-hücum əməliyyatları zamanı qazanılan bu tarixi qələbə bir daha göstərdi ki, Azərbaycan ərazi bütövlüyünün bərpasında qətiyyətlidir və bu işğalla heç vaxt barışmayacaq. 4 gün davam edən şiddətli

> "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir".
>
> **İlham Əliyev**

döyüşlər nəticəsində Tərtər rayonunun Talış kəndi, Lələtəpə strateji yüksəkliyi, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yaxınlığındakı yüksəkliklər və digər ərazilərimiz işğaldan azad edildi.

Xalqımızın qəhrəmanlığının bütün dünyaya nümayişi olan Aprel döyüşləri tarixi Zəfərə aparan yola çevrildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin prinsipial, qətiyyətli siyasəti sayəsində ölkəmizin ardıcıl şəkildə qazandığı diplomatik uğurlar Ermənistan rəhbərliyini çətin vəziyyətdə qoyur, həmçinin işğalçı ölkə beynəlxalq iqtisadi layihələrdən kənarda qalır. Dövlət başçısı həmişə bəyan edir ki, Ermənistanın müstəqil ölkə kimi fəaliyyəti qonşularla münasibətlərini tənzimləməsindən asılıdır.

Aprel döyüşləri həmin dövrdə regionun tarixində dərin iz buraxdı və Qarabağ ətrafındakı siyasi vəziyyətə ciddi təsir göstərdi. Həmçinin Aprel döyüşləri Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərin ilk xəbərçisi oldu. 8 il öncə baş vermiş bu döyüşlər həm də Azərbaycan Silahlı Qüvvələrinin döyüş hazırlığının sınağına çevrildi. Ordumuzun arsenalında olan bəzi hərbi texnikalar da bu döyüşdə sınaqdan keçirildi. Bundan başqa, Talış kəndi istiqamətindəki yüksəkliklərin işğaldan azad edilməsi Naftalan şəhəri üçün təhlükəni aradan qaldırmağa imkan verdi.

Aprel döyüşlərinin ən mühüm hərbi-siyasi əhəmiyyəti ondan ibarət oldu ki, əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı keçirən ordumuz strateji əhəmiyyətli əraziləri azad edərək cəbhə xəttində konfiqurasiyanı dəyişdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin bildirdiyi kimi, Aprel döyüşləri dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir.





# “Parlament“ komandası beynəlxalq futbol turnirində gümüş medal qazandı

Aprelin 1-dən 5-dək Türkiyə Böyük Millət Məclisinin təşkilatçılığı ilə Türk Dünyası Parlamentlərarası Futbol Turniri keçirildi. Sevindirici haldır ki, Azərbaycan Milli Məclisinin komandası da qardaş ölkədə keçirilən bu turnirdə uğurla təmsil olundu.

Qırğızıstan və Şimali Kipr Türk Cümhuriyyətinin komandaları ilə B qrupunda yer alan komandamız bütün rəqiblərini qabaqlayaraq qrupu birinci pillədə tamamladı və finala vəsiqə qazandı.

Turnirin həlledici mərhələsində iki qardaş ölkənin - Azərbaycan və Türkiyənin parlament komandaları üz-üzə gəldi. Yüksək səviyyəli qarşılaşmada TBMM komandası 3:1 hesabı ilə qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxdı.

Azərbaycan parlamentinin komitə sədrləri Fazil Mustafa, Şahin



İsmayılov, Azər Əmiraslanov, deputatlar Zaur Şükürov, Ramid Namazov, Məzahir Əfəndiyev, Nurlan Həsənov, Erkin Qədirli, Kamran Bayramov, Eyvaz Qurbanov, eyni zamanda, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, şöbə müdirləri İlkin Məmmədov, Elmar Hüseynov, Milli Məclis sədrinin köməkçisi Aqşin Hümmətov, şöbə müdirinin müavini Emin İmanov, aparatın digər əməkdaşları Rüfət Ələkpərov, Təbriz Tağıyev, Fərid Məmmədquluzadə və baş məşqçi Şahin Diniyevin təmsil olunduğu Azərbaycan Milli Məclisinin komandası isə turniri ikinci yerdə başa vuraraq vətənə gümüş medalla döndü.

**Turnirlə bağlı Milli Məclisin Gənclər və idman komitəsinin sədri, komandamızın üzvü Şahin İsmayılovun da fikirlərini öyrəndik:** “Cənab Prezident İlham Əliyevin bütün sahələri əhatə edən inkişaf strategiyasının nəticəsində Azərbaycan idman ölkəsinə çevrilib. Respublikamızı təmsil edən idmançılar müxtəlif idman növləri üzrə uğurlar əldə edir, Azərbaycan bayrağı dünyanın bir çox ölkələrində qaldırılır.

Son bir neçə ildə Azərbaycan “Bakı-2015” I Avropa Oyunları,

IV İslam Həmrəyliyi Oyunları, III MDB Oyunları, Formula 1 Azərbaycan Qran-Prisi kimi çox sayda beynəlxalq yarışlara ev sahibliyi etmişdir ki, bunlar da ölkəmizdə idmana göstərilən diqqətin, bu sahədəki tərəqqinin bariz təcəssümüdür.

Azərbaycan parlamenti daim ali səviyyədə həyata keçirilən idman siyasətini dəstəkləyir və bu missiya təkcə qanunvericilik sahəsini əhatə etmir. Milli Məclisin deputatlarından və əməkdaşlarından ibarət komandası dəfələrlə müxtəlif alpinizm yürüşlərinə qoşulmuş, bir çox idman yarışlarında iştirak etmişdir.

Türkiyə Böyük Millət Məclisinin təşkilatçılığı ilə Antalyada keçirilən Türk Dünyası Parlamentlərarası Futbol Turniri də Milli Məclisin qoşulduğu əlamətdar layihələrdən biri idi. Turnir türk dövlətləri arasında birlik və qardaşlığın güclənməsinə və idmanın təbliğinə bir töhfədir. Səfər zamanı yüksək diqqətin, türk dünyası ölkələrinin bir-birinə dərin sevgisinin, o cümlədən Azərbaycan-Türkiyə qardaşlığının təcəssümü olan münasibətin şahidi olduq.

Turnirdə 20 nəfərlik heyətlə təmsil olunan Azərbaycan Milli Məclisinin komandası üçün yarış hazırlıqları zamanı AFFA-nın dəstəyi ilə məşqlər təşkil edildi. Peşəkar məşqçi Şahin Diniyevin rəhbərliyi ilə keçirilən bu proses kifayət qədər məhsuldar oldu.

Komandamız B qrupunda yarışdığı Qırğızıstan və Şimali Kipr Türk Cümhuriyyəti komandaları ilə görüşlərdə böyük əzmkarlıq nümayiş etdirərək finala yüksəldi. Finalda qarşılaşdığımız Türkiyə parlamentinin komandası ilə oyunumuz da olduqca maraqlı keçdi. Türkiyə Böyük Millət Məclisinin komandası 3:1 hesablı uğurlu qələbə ilə 1-ci, Azərbaycan parlamentinin komandası isə 2-ci yerdə qərarlaşdı. Bu dostluq turniri hələ uzun müddət yaddaşlarda qalacaq".



## "Hökumət" və "Parlament" komandaları arasında yoldaşlıq görüşü keçirildi

Mayın 7-də Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş dövlət qurumlarının əməkdaşları arasında keçirilən IV minifutbol turniri çərçivəsində "Hökumət" və "Parlament" komandaları arasında yoldaşlıq görüşü keçirildi.

Bakı Tennis Akademiyasında baş tutan qarşılaşmadan əvvəl Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman övladlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi və Ulu Öndər Heydər Əliyevə həsr olunmuş videoçarx nümayiş etdirildi.

Millət vəkilləri Şahin İsmayılov, Azər Əmiraslanov, Zaur Şükürov, Ramid Namazov, Vüqar Bayramov, Müşfiq Cəfərov, Məzahir Əfəndiyev, Nurlan Həsənov, Samir Vəliyevin və Milli Məclis Aparatının əməkdaşı Emin İmanovun yer aldığı "Parlament" komandasının "Hökumət" komandası ilə maraqlı və gərgin mübarizə şəraitində keçən yoldaşlıq oyunu 6:6 hesablı heç-heçə ilə yekunlaşdı. Qarşılaşmada "Hökumət" komandası Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev, elm və təhsil naziri Emin Əmrullayev, gənclər və idman naziri Fərid Qayıbov, Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Dövlət Statistika Komitəsinin sədri Azər Mursaqulov, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədovdan ibarət bir heyətlə çıxış edirdi.

# MDB Parlamentlərarası Assambleyasının şahmat turnirində Milli Məclis nümayəndələrinin uğurlu çıxışı




Aprelin 23-də Qazaxıstan Respublikasının Almatı şəhərində Qazaxıstan Respublikası Parlamentinin 30 illiyinə həsr olunmuş MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının şahmat üzrə Açıq Kuboku keçirildi. 9 turdan ibarət olan turnirə Azərbaycanla yanaşı Qazaxıstanın, Rusiyanın, Qırğızıstanın, Tacikistanın, Belarusun və Özbəkistanın parlament nümayəndələri də qatılmışdılar. Azərbaycan parlamentini yarışda Milli Məclisin deputatları Tahir Rzayev, Fazil Mustafa, Qüdrət Həsənquliyev, Azər Badamov, Aparatın əməkdaşları Azər Səmədov və Emin Rəsulzadə təmsil edirdilər.



Turnirin yekun nəticələrinə əsasən, Emin Rəsulzadə fərdi hesabda 2-ci yerə çıxdı və "Seçki orqanlarının əməkdaşları" nominasiyası üzrə 1-ci yerə layiq görüldü. Yarış cədvəlinə əsasən, onun turnirdə yeganə məğlubiyyəti dünya şöhrətli rusiyalı qrossmeyster Sergey Karjakin qarşısında oldu. Karjakin dünya şahmatının tanınmış simalarından biri hesab olunur və 2016-cı ildə dünya çempionatının final görüşündə iştirak etmiş, rapid və

blits üzrə dünya çempionu titulunu qazanmış məşhur şahmatçıdır. Həmin qarşılaşmanın sonluq mərhələsində tərəflər demək olar ki, bərabər vəziyyətdə idilər. Azərbaycan təmsilçisi Emin Rəsulzadə vaxt çatışmazlığı səbəbindən məğlubiyyəti seçdi. Bu hal onun ən güclü rəqiblərdən birinə qarşı necə gərgin mübarizə apardığını nümayiş etdirir.

Turnirdə digər  təmsilçilərimiz Fazil Mustafanın, Qüdrət Həsənquliyevin, Azər Badamovun və Tahir Rzayevin, eləcə də Azər Səmədovun uğurlu çıxışları da diqqət çəkdi. Azərbaycan komandasının əzmkar oyun nümayiş etdirməsi nəticəsində yarışmanın yekun cədvəlinə əsasən hazırlanan ümumi göstəricidə liderdən cəmi 2,5 xal geridə qalıb. Yarış zamanı təmsilçilərimizin nümayiş etdirdikləri yüksək hazırlıq, strateji düşüncə və rəqabət ruhu iştirakçılar tərəfindən maraqla qarşılandı, onların intellektual idmanın inkişafına verdiyi töhfə yüksək qiymətləndirildi.

**Turnirin sonunda qaliblər diplomlarla təltif edildilər.**















| Qadınlar arasında ən yaxşı nəticələr | Parlamentlərin aparat əməkdaşları arasında | Yaşı 50+ olanlar arasında | Hazırkı deputatlar arasında ən yaxşı nəticə | Kateqoriyadan asılı olmayaraq ən yaxşıları |
|---|---|---|---|---|
| 1. Masxabova Şukrona (Tj) | 1. Rəsulzadə Emin (Az) | 1. Minnullin Albert (Ru) | 1. Sergey Karyakin (Ru) | 1. Sergey Karyakin (Ru) |
| 2. Masxabova Amina (Tj) | 2. Minnullin Albert (Ru) | 2. Kurbonov Səidəxror (Tj) | 2. Nurzhan Tlepov (Kz) | 2. Emin Rəsulzadə (Az) |
| 3. Odinaeva Saodat (Tj) | 3. Mahmudzoda Mirzo (Tj) | 3. Tlepov Nurzhan (Kz) | 3. Nurgali Nalibayev (Kz) | 3. Albert Minnullin (Ru) |

# Azərbaycan və Çin liderlərinin münasibətlərinə əsaslanan qarşılıqlı siyasi etimad

Ötən ilin aprelində təcrübəli diplomat xanım **Lu Meyin** Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri təyin olunması hər iki ölkənin xarici siyasət gündəliyində diqqətəlayiq hadisə kimi qiymətləndirilir. Jurnalımıza verdiyi müsahibədə səfir öz missiyasının prioritetləri, qarşılıqlı fəaliyyətin perspektivləri, humanitar layihələr və ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi barədə səmimi fikirlərini açıqladı.



**- Xanım səfir, Çin və Azərbaycan arasında əlaqələrin hazırkı səviyyəsini necə qiymətləndirirsiniz? Ötən il hərtərəfli münasibətlərin qurulmasından sonra ölkələrimizin əməkdaşlığı sahəsində hansı nailiyyətlər qeydə alınıb?**

- Azərbaycanın müstəqilliyinin 1991-ci il dekabrın 27-də Çin Xalq Respublikası tərəfindən tanınması və 1992-ci il aprelin 2-də ikitərəfli diplomatik münasibətlərin qurulması ilə ölkələrimizin əməkdaşlığı yeni mərhələyə qədəm qoymuşdur. 1992-ci ildən Çinin Azərbaycanda, 1993-cü ildən isə Azərbaycanın Çində səfirlikləri açılmışdır. Bu gün hər iki ölkə bütün sahələr üzrə əlaqələrin genişləndirilməsində maraqlıdır.

Azərbaycan və Çin dövlət başçıları səviyyəsində təşəkkül tapmış, qarşılıqlı etimada və dostluğa əsaslanan münasibətlər siyasi, iqtisadi, hərbi, humanitar, mədəni və digər sahələrdə müşahidə olunan hazırkı yüksək inkişaf dinamikasının əsasını təşkil edir. İki ölkə arasında mövcud fəal siyasi dialoq nəticəsində energetika, iqtisadi-ticari, rabitə-kommunikasiya, nəqliyyat-logistika, turizm və humanitar sahələrdə ciddi nailiyyətlər əldə edilməkdədir.

2013-cü ildə Çin Xalq Respublikası tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsü ikitərəfli münasibətlərimizin dərinləşməsində yeni imkanlar yaradıb. Çünki Azərbaycan bu təşəbbüsü ilk dəstəkləyən ölkələrdən biri olaraq reallaşdırdığı irimiqyaslı nəqliyyat-infrastruktur layihələri ilə onun həyata keçirilməsinə öz əhəmiyyətli töhfəsini verməkdədir.

Ötən ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyev Çinə dövlət səfəri zamanı Prezident Si Cinpin ilə birlikdə ölkələrimiz arasında hərtərəfli strateji tərəfdaşlığın qurulduğunu elan etdi və bu, münasibətlərimizdə yeni tarixi bir səhifə açdı. Son bir ildə hər iki ölkə müxtəlif sahələrdə sıx mübadilələr aparıb. İki liderin konsensusuna əsasən, hər iki tərəfdə siyasi qarşılıqlı etimad, əməkdaşlıq potensialı möhkəmləndirilib, insanlar arasında anlaşma təşviq edilib. Bu isə yüksək keyfiyyətli və hərtərəfli



inkişafın yeni mərhələsinə gətirib çıxarıb.

Artıq ikitərəfli mübadilələr daha tez-tez baş verir. Prezident İlham Əliyev ötən ilin aprelində Çinə dövlət səfərindən sonra avqustun 30-da Tianjində keçirilən ŞƏT sammitində, Çin Xalqının Yapon Təcavüzünə Qarşı Müqavimət Müharibəsində və Dünya Antifaşist Müharibəsində qələbənin 80 illiyinin qeyd edilməsində iştirak etmək üçün yenidən Çinə səfər etdi.

Ötən il Azərbaycanın bir sıra yüksək səviyyəli dövlət rəsmiləri - Baş nazirin müavini Şahin Mustafayev, Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov, Prezidentin köməkçisi Anar Ələkbərov, energetika naziri Pərviz Şahbazov, səhiyyə naziri Teymur Musayev, elm və təhsil naziri Emin Əmrullayev Çinə səfər etdilər ki, bu da iki ölkə arasında qarşılıqlı səfərlərin sayını rekord həddə çatdırıb. 2026-cı ilin əvvəlindən iki ölkə arasında mövcud olan yüksək səviyyəli əlaqələr uğurla davam etdirilir.

Milli Məclisin sədri Sahibə Qafarovanın, xarici işlər naziri Ceyhun Bayramovun cari ilin əvvəlində ölkəmizə səfərləri də bu qəbildəndir. Hər iki səfər çərçivəsində tərəflər ikitərəfli münasibətlərin, qanunvericilik orqanları arasında əməkdaşlığın perspektivləri barədə ətraflı fikir mübadiləsi aparıblar.

Prezident İlham Əliyevin Çin hökumətinin milli birləşməyə yönəlmiş bütün səylərini açıq şəkildə dəstəkləməsi də onu göstərir ki, qarşılıqlı siyasi etimad davamlı olaraq güclənir. Azərbaycan dövlətinin başçısı dəfələrlə Si Cinpinin bəşəriyyət üçün ortaq gələcəyi olan bir icma qurmaq istəyini, dörd qlobal təşəbbüsün sülhə, sabitliyə və rifaha töhfə verdiyini, ölkəsinin bu təşəbbüsləri yüksək qiymətləndirdiyini və fəal şəkildə dəstəklədiyini bildirmişdir.

Azərbaycan dövləti dəfələrlə Çin hökumətinin milli birləşməyə yönəlmiş bütün səylərini açıq şəkildə dəstəklədiyini, "Vahid Çin" prinsipinə sadiq olduğunu bəyan edib və Tayvanın müstəqilliyini müdafiə edən separatçı qüvvələri qınayıb. Çin də öz növbəsində Azərbaycanın milli şəraitinə uyğun inkişaf yolu ilə getmək, eləcə də əsas maraqlarını qorumaq, suverenliyini, təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etmək səylərini qətiyyətlə dəstəkləməyə davam edəcəyini bildirib.

Çin və Azərbaycan Qlobal Cənub ölkələri olaraq BMT, ŞƏT və AQEM kimi nüfuzlu təşkilatlarla səmərəli şəkildə əlaqələr qurur, həqiqi çoxtərəfliliyi birgə tətbiq edir, bərabərliyi və ədaləti dəstəkləyirlər. Ölkələrimiz iqtisadi strukturlarından və ortaq əməkdaşlıq konsepsiyalarından istifadə edərək keçən il ikitərəfli ticarət dövriyyəsini 4,87 milyard dollara çatdırdı və yüksək artım tempini qorudu. Bu ilin əvvəlində Çin ilk dəfə Azərbaycanın üçüncü ən böyük ticarət tərəfdaşı oldu. Qarşılıqlı vizasız rejim sayəsində iki ölkə arasında turizm sahəsində əməkdaşlıq yüksəlməkdə davam edir, regional, elm və texnologiya, təhsil və beyin mərkəzləri sahələrində mədəni mübadilələr daha da aktivləşib.



**- Çin Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsündə və Orta Dəhlizin inkişafında rolunu necə görür? Birgə hansı yeni layihələr planlaşdırılır?**

- 2013-cü ilin sentyabrında Çin Prezidenti Si Cinpin İpək Yolunun açıq əməkdaşlıq üçün platforma yaratmağı və müxtəlif ölkələrin inkişafına yeni təkan verməyi hədəfləyən "Bir kəmər, bir yol" təşəbbüsünü təklif etdi. 2023-cü ilin oktyabr ayında 3-cü "Bir kəmər, bir yol" beynəlxalq əməkdaşlıq forumunun açılış mərasimində Prezident Si Cinpin bu təşəbbüsün yüksək keyfiyyətlə həyata keçirilməsini dəstəkləmək üçün səkkiz addım elan etdi. Bunlardan birincisi "Çin-Avropa Konteyner Qatarlarının Yüksək Keyfiyyətli İnkişafının Sürətləndirilməsi və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu"nun tikintisində iştirak etməkdir. Hazırda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu iki ölkə arasında praqmatik əməkdaşlıq üçün yeni vacib məqamlara çevrilir. 2024-cü ildən Çinin Sian, Nankin, Çunçin, Urumçi, Lianyungang və İvu şəhərləri Transxəzər Çin-Avropa yük qatarlarını yola salıb və orta hesabla gündə bir neçə qatar hərəkət edir. 2025-ci ildə marşrut boyunca yük daşımalarının həcmi 4,7 milyon tona çatıb. Bu ilin birinci rübündə Sian Transxəzər Çin-Avropa yük qatarı marşrutu üzrə cəmi 85 qatar yola düşüb ki, bu da illik müqayisədə 150 faiz artım deməkdir. Çin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu boyunca ən böyük xammal mənbəyinə çevrilib və marşrutun inkişaf potensialını əhəmiyyətli dərəcədə artırıb.

**- Çin və Azərbaycan arasında ticarət və iqtisadi əməkdaşlıq sürətlə inkişaf edir. Siz bu baxımdan hansı sektorları daha perspektivli hesab edirsiniz?**

- Doğrudur, iki ölkə arasında ticarət və iqtisadi əməkdaşlıq əhəmiyyətli dərəcədə inkişaf edib. Keçən il Çin və Azərbaycanın ticarət dövriyyəsi 4,87 milyard dollara çatıb ki, bu da illik müqayisədə 30,2 faiz artımdır və son 3 ilin yeni rekordudur. Bu ilin yanvar-fevral aylarında iki ölkə arasında ikitərəfli ticarət dövriyyəsi 780 milyon dollara yüksəlib ki, bu da Çinin Azərbaycanın üçüncü ən böyük ticarət tərəfdaşı olduğunun göstəricisidir.

İki ölkə arasında ticarətin miqyası sürətlə artmaqla yanaşı, praktik əməkdaşlığın keyfiyyəti və səviyyəsi də əhəmiyyətli dərəcədə yaxşılaşıb. Azərbaycanda Çinin investisiya qoyduğu müəssisələr yeni enerji mənbələrindən istifadə edərək elektrik enerjisi, avtomobil, informasiya və kommunikasiya texnologiyaları və tikinti materialları istehsalı sektorlarında layihələri aktiv şəkildə həyata keçirirlər. Çin-Avropa beynəlxalq yük marşrutlarının bir hissəsi olan Transxəzər qatarları isə Orta Dəhliz üçün əsas təchizat mənbələrini təmin edir, qlobal istehsal və təchizat zəncirinin sabitliyinin qorunmasında mühüm rol oynayır.

Çin Cənubi Qafqazda Azərbaycanda ən böyük fotovoltaik və külək enerjisi, keramika plitələr və elektrik avtobusları istehsalı layihələrindən bəzilərini həyata keçirib. Prezident İlham Əliyevin bu ilin əvvəlində mediaya verdiyi müsahibədə qeyd etdiyi kimi, Çinlə praqmatik əməkdaşlıq Azərbaycan üçün strateji bir qərar idi və layihələrin həyata keçirilməsinin peşəkarlığı, keyfiyyəti və sürəti bu seçimin düzgünlüyünü təsdiqləyib. Bu yaxınlarda Azərbaycan Çinin 6 şəhərində ticarət evləri açıb və getdikcə daha yüksək keyfiyyətli "Made in Azerbaijan" məhsulları istehlakçılar arasında böyük populyarlıq qazanaraq Çin bazarına daxil olur.

Gələcəyə baxdıqda, Çin və Azərbaycan arasında praqmatik əməkdaşlıq potensialı çox böyükdür və inkişaf üçün daha geniş imkanlar var. Çin yüksək texnologiyalı istehsal, süni intellekt, informasiya texnologiyaları, infrastruktur və digər sahələrdə aparıcı qlobal üstünlüklərini Azərbaycanla bölüşməyə

hazırdır və ölkənizdən daha çox yüksək keyfiyyətli məhsulların Çin bazarına çıxmasını gözləyir.

**- Xanım səfir, Milli Məclisin sədri Sahibə Qafarova bu yaxınlarda Asiya Boao Forumunda iştirak etmək üçün Boaoya işgüzar səfər etdi. Sizcə, bu səfər Çin və Azərbaycan parlamentləri arasında münasibətlərin genişləndirilməsinə nə kimi töhfələr verə bilər?**




- Azərbaycan parlamentinin rəhbəri, professor Sahibə xanım Qafarovanın Asiya Boao Forumunda iştirak etmək üçün bu il martın 24-də Çinə səfər etməsi ikitərəfli münasibətlərin və qanunvericilik orqanları arasında əməkdaşlığın dərinləşməsində olduqca əhəmiyyətlidir. Parlamentin spikeri Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin rəhbərləri ilə görüşdü. Söhbətdə qeyd olundu ki, hər iki dövlət tərəfindən dəstəklənən məqsədyönlü razılaşmalara əsasən dostluq ənənələrini davam etdirmək zəruridir. Çünki bu, uzunmüddətli inkişaf üçün yeni perspektivlər açacaq.

Milli Məclisin sədri Sahibə Qafarova Çində keçirdiyi bütün görüşlərdə və forumdakı çıxışında vurğuladı ki, Azərbaycan "Vahid Çin" prinsipinə qətiyyətlə sadiq qalır. Spiker Azərbaycanın Çin ilə bütün sahələrdə əməkdaşlığı gücləndirməyə hazır olduğunu söylədi.

Milli Məclisin sədri Sahibə Qafarova ilə Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədri Cao Lıci arasında keçirilən görüşdə də qanunvericilik orqanları arasında əməkdaşlığa yeni təkan verən qarşılıqlı mübadilənin gücləndirilməsi, parlamentarilərin səfərlərinin intensivləşdirilməsi sahəsində razılaşmalar əldə edildi.

Şübhəsiz ki, hər iki ölkənin qanunvericilik orqanları arasında əlaqələrin genişləndirilməsi hərtərəfli strateji birləşmənin vacib hissəsidir.

Ötən il Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov da böyük bir nümayəndə heyəti ilə ŞƏT xalq diplomatiyası və qardaşlaşmış şəhərlər forumunda iştirak etmək üçün Çinə səfər etmişdi. Səfər çərçivəsində ikitərəfli münasibətlərə ictimai dəstək verilməsinə dair geniş fikir mübadiləsi aparılmışdı.

Hər iki ölkənin qanunvericilik orqanlarında mövcud olan parlamentlərarası dostluq qruplarının fəaliyyətini də xüsusi vurğulamaq istərdim. Bu sadaladıqlarımız, təbii ki, Azərbaycan-Çin dostluğuna və iki ölkə arasında əlaqələrin effektiv inkişafına mühüm töhfələrdir.






# WUF13 çərçivəsində “Dağ yaşayış məntəqələrinin dayanıqlı inkişafı” mövzusunda tərəfdaşlıq sessiyası keçirildi



**Ramin Rzayev**
MDB PA DİMBİ Bakı filialının direktoru

Mayın 17-dən 22-dək Bakı şəhərində keçirilən Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası (WUF13) dünyanın 180 ölkəsindən 60 minə yaxın nümayəndənin, eləcə də beynəlxalq təşkilatların, dövlət qurumlarının, ekspert icmasının, özəl sektor və vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə dayanıqlı şəhər inkişafı və urbanistika məsələləri üzrə qlobal dialoqun ən iri platformalarından birinə çevrildi.

Forum çərçivəsində şəhər idarəçiliyinin rəqəmsallaşdırılması, nəqliyyat infrastrukturunun inkişafı, əlçatan mənzil təminatı, ekoloji təhlükəsizlik və ərazilərin bərpası məsələləri müzakirə olundu. Burada ərazilərin dayanıqlı inkişafı, innovativ infrastruktur həllərinin tətbiqi, ekoloji yönümlü şəhərsalma, eləcə də “ağıllı şəhər” konsepsiyaları və şəhər mühitinin rəqəmsal transformasiyası məsələlərinə xüsusi diqqət yetirildi.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun əhəmiyyətini vurğuladı və tədbirdəki yüksək beynəlxalq iştirak səviyyəsini qeyd etdi. Dövlət başçısı bildirdi ki, Azərbaycan tarixən Şərqlə Qərbin qarşılıqlı əlaqə məkanı kimi çıxış edir və bu xüsusiyyət paytaxtın memarlıq simasında öz əksini tapır. Belə ki, burada qədim tarixi-mədəni irs ilə müasir şəhərsalma prinsipləri




arasında təbii vəhdət mövcuddur, urbanizasiya və infrastruktur inkişafı prosesləri isə tarixi-memarlıq abidələrinin qorunması ilə paralel şəkildə həyata keçirilir.

Prezident İlham Əliyev 2026-cı ilin Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan olunduğunu xatırladaraq söylədi ki, 2022-ci ildən etibarən BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlıq çərçivəsində uzun illər işğal altında olmuş Ağdam, Zəngilan və Xankəndi şəhərlərində milli şəhərsalma forumları keçirilib. Dövlət başçısı vurğuladı ki, bu, Azərbaycanın şəhərsalmanın inkişafına, əhalinin yaşayış şəraitinin yaxşılaşdırılmasına və müasir yaşayış mühitinin formalaşdırılmasına verdiyi önəmin göstəricisidir.

İlham Əliyev çıxışında Azərbaycanın zəngin tarixi-memarlıq irsinə toxundu, Şamaxı, Naxçıvan, Gəncə, Qəbələ, Şəki, Kiş və Lahıc kimi qədim şəhər və yaşayış məntəqələrini nümunə göstərdi. Mədəniyyət paytaxtı Şuşada həyata keçirilən yenidənqurma və bərpa işlərini isə bu irsin qorunması istiqamətində reallaşdırılan fəaliyyətin mühüm tərkib hissəsi kimi dəyərləndirdi.

Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa işlərindən danışan Prezident İlham Əliyev Ağdam şəhərini “Qafqazın Hiroşiması” adlandıraraq dağıntıların miqyasını vurğuladı. Dövlət başçısı diqqətə çatdırdı ki, 2022-ci il 16 noyabr tarixli “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində həmin yerlərdə şəhər və kəndlərin baş planlarının hazırlanması, tunellərin, körpülərin, elektrik stansiyalarının, hava limanlarının, məktəblərin, xəstəxanaların və digər infrastruktur obyektlərinin tikintisi həyata keçirilir, keçmiş məcburi köçkünlərin doğma torpaqlara qaytarılması və onların məşğulluğunun təmin edilməsi isə dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi xarakterizə olunur.

Forumun mühüm tədbirlərindən biri Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyası, Şimali Qafqaz Elmi Əməkdaşlıq Mərkəzi, “Avrasiya Birləşmiş Şəhərlər və Yerli Hakimiyyət Orqanları” Beynəlxalq Assosiasiyası və BMT-nin Məskunlaşma Proqramının Rusiya Federasiyasındakı nümayəndəliyi tərəfindən təşkil olunmuş “Dağ yaşayış məntəqələrinin dayanıqlı inkişafı” adlı tərəfdaşlıq sessiyası oldu. Tədbirdə Milli Məclisin deputatları, beynəlxalq təşkilatların nümayəndələri, ekspert və elmi ictimaiyyətin təmsilçiləri, aidiyyəti dövlət qurumlarının nümayəndələri, eləcə də MDB PA DİMBİ-nin Bakı filialının əməkdaşları iştirak edirdilər. MDB PA-nın Aqrar siyasət, təbii ehtiyatlar və ekologiya üzrə Daimi komissiyasının katibi, MDB PA yanında Ekologiya və təbii istifadə üzrə Ekspert Şurasının məsul katibi Nataliya Amburtseva dağ ərazilərinin əsas problemlərinə toxundu. O, 2024-cü ildə Parlamentlərarası

Assambleyada “Dağlıq ərazilərin dayanıqlı inkişafı üzrə Model Konsepsiyası”nın qəbul olunduğunu, sözügedən sənədin bu sahədə hüquqi, təşkilati, maliyyə və elmi təminat üzrə konkret dəstək mexanizmlərini təklif etdiyini söylədi.

Sessiyada BMT Məskunlaşma Proqramının Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə Regional Bölməsinin rəhbəri Əli İrfanın salamlanma nitqi səsləndirildi, onun dağlıq ərazilərdə yerləşən şəhərlər üçün nəzərdə tutulmuş “Mənim rayonum” təşəbbüsü təqdim edildi.

Sessiyada Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, MDB PA-nın dövlət quruculuğu və yerli özünüidarə təcrübəsinin öyrənilməsi üzrə Daimi komissiyası sədrinin müavini Mübariz Qurbanlı “Dağ yaşayış məntəqələrinin dayanıqlı inkişafı: Azərbaycanın təcrübəsi və nailiyyətləri” mövzusunda məruzə etdi. Çıxışda vurğulandı ki, dağlıq ərazilərin inkişafı “Azərbaycan-2030” milli inkişaf strategiyasında dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilib. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində artıq on minlərlə insan bu ərazilərdə yaşayır, müasir infrastruktur fəal şəkildə inkişaf etdirilir, yaşıl enerji və rəqəmsal əlçatanlıq layihələri həyata keçirilir.

Toplantıda Azərbaycan Respublikası Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Fatma Yıldırım ölkəmizin ekoloji dayanıqlığa, rəqəmsal əlçatanlığa, ekoturizm vasitəsilə iş yerlərinin yaradılmasına və mədəni irsin qorunmasına üstünlük verdiyini söylədi.

Tədbirdə həmçinin Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Aqrar siyasət komitəsinin üzvü, MDB PA-nın aqrar siyasət, təbii ehtiyatlar və ekologiya üzrə Daimi komissiyası sədrinin müavini Aleksey Lavrinenkonun “Rusiya Federasiyasında dağ yaşayış məntəqələrinin inkişafı”, Özbəkistan Respublikası Ali Məclisi Qanunvericilik Palatasının Sahibkarlıq, rəqabətin inkişafı və sənaye məsələləri komitəsinin üzvü Boriy Batiroviç Alixanovun “Mərkəzi Asiyada dağ yaşayış məntəqələrinin dayanıqlı inkişafı”, “Avrasiya Birləşmiş Şəhərlər və Yerli Hakimiyyətlər” Beynəlxalq Assosiasiyasının Baş katibi Rasix Kadimoviç Saqitovun “Dayanıqlılıq prioritet kimi: Avrasiyanın dağ şəhərlərinin təcrübələri”, Rusiya Federasiyası Hökuməti yanında Qanunvericilik və Müqayisəli Hüquqşünaslıq İnstitutunun aparıcı elmi işçisi Yelena Anatolyevna Qalinovskayanın “Dağ yaşayış məntəqələrinin inkişafında strateji planlaşdırma və hüquq”, Ərazilərin İnkişafı Beynəlxalq Assosiasiyasının sədri Vasili Maratoviç Mazitovun “MDB-nin dağ yaşayış məntəqələri: məhdudiyyətli əraziləri inkişaf nöqtəsinə necə çevirməli”, BMT-Habitatın Rusiya Federasiyasındakı proqram rəhbəri Anastasiya Sergeyevna Mixaylovanın “BMT-nin Məskunlaşma Proqramının müxtəlif səviyyələrdə ölkələrə texniki dəstək göstərilməsi üzrə missiyası və fəaliyyət istiqamətləri” mövzularında məruzələri dinlənildi.

Ekspertlər belə bir nəticəyə gəldilər ki, dağ yaşayış məntəqələrinin inkişaf problemləri transmilli xarakter daşıyır və dövlətlərarası səviyyədə uzlaşdırılmış yanaşmaların işlənib hazırlanmasını tələb edir. Müzakirələr zamanı fraqmentar tədbirlərdən kompleks strategiyaya keçidin zəruriliyi vurğulandı, bu strategiyanın MDB dövlətlə-



rinin normativ hüquqi bazasının təkmilləşdirilməsini, birgə ekoloji layihələrin həyata keçirilməsini, ərazilərin rəqəmsal potensialının inkişaf etdirilməsini, dayanıqlı infrastrukturun tətbiqini, eləcə də sahibkarlıq fəaliyyəti üçün əlverişli iqtisadi şəraitin formalaşdırılmasını nəzərdə tutduğu bildirildi. Qeyd olunan əməkdaşlıq istiqamətlərinin gələcək müzakirəsinin 2027-ci ildə keçirilməsi planlaşdırılan "Dağlıq ərazilərin dayanıqlı inkişafı" III Beynəlxalq Forumu çərçivəsində davam etdirilməsi nəzərdə tutuldu. Azərbaycanın Ümumdünya Şəhərsalma Forumunun növbəti sessiyalarında da fəal iştirak etmək niyyəti dilə gətirildi.




Hesab edirəm ki, bu tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin dayanıqlı şəhər inkişafı, infrastrukturun modernləşdirilməsi və ekoloji dayanıqlılıq məsələləri ilə bağlı beynəlxalq gündəlikdə artan rolunu layiqincə nümayiş etdirdi.



# Xəlil Kələntər:
# "Xalqımla və dövlətimlə qürur duyuram"

"Milli Məclis" jurnalının "Diaspor" rubrikası oxucularımız arasında geniş rəğbət qazanıb. Hər dəfə bu rubrikamızı xaricdə yaşayan bir həmvətənimizin Azərbaycanla bağlı könül çırpıntılarına, fəaliyyətinə həsr edirik. Budəfəki qonağımız isə Şərqin gündoğar ölkəsi Yaponiyada yaşayan, dəyərli alimimiz **Xəlil Kələntərdir**. Qəlbi Azərbaycanla döyünən soydaşımızla vətən nisgili, oradakı qayğıları, müasir və çox inkişaf etmiş Yaponiyadakı texnoloji sahəyə verdiyi töhfələr, təhsil yenilikləri, Azərbaycan icmasının oradakı fəaliyyəti barədə söhbət açdıq.



**- Xəlil müəllim, xoş gördük sizi. Bu rubrikada qonağımız olan bütün müsahiblərimizə ənənəvi sualımız olur ki, yaşadığınız ölkəyə hansı səbəblərlə getmisiniz?**

- Mən elektronika mühəndisliyi üzrə ali təhsilimi tamamladıqdan sonra ixtisas sahəsində təhsilimi daha da inkişaf etdirmək istəyirdim. Məhz bu səbəbdən texnoloji inkişafın ön sıralarında yer alan Yaponiyanı seçdim. Bu ölkəyə gəlib 6 ay müddətində yapon dilinin incəliklərini öyrəndim və 2 il optik fiber üzrə magistr təhsili aldım. Sonra da bu sahə üzrə tədqiqatlarımı davam etdirərək doktorluq (Ph.D.) dərəcəsi qazandım. Artıq 45 ildir buradayam.

**- Siz dəyərli elmi tədqiqatların müəllifi, kompüter mühəndisliyi sahəsində önəmli uğurlara imza atmış alim kimi tanınmısınız. Təbii ki, müasir texnologiyaların inkişafı sahəsində Yaponiya dünya dövlətləri arasında öncül yerlərdən birini tutur. Burada sizin də xidmətləriniz az olmayıb.**

- Təvazökarlıqdan uzaq olsa da deməliyəm ki, özümü bu sahədə dünya elminə xidməti olan biri saymaq üçün əsaslarım var. Mən doktorluq dərəcəsini əldə etdikdən sonra avtomatlaşdırılma üzrə ixtisaslaşmış məşhur elektron-sensor şirkətində fəaliyyətə başladım. Orada uzunluğu 1 metrə qədər olan iri sənədləri skan edə bilən cihaz hazırladım. Sonra bu cihazların yenilənmiş dizaynı və inkişafı istiqamətində fəaliyyətimi davam etdirərək lazer printerlərini, lazer əsaslı kontaktsız ölçmə sistemlərini, logistika və nəqliyyat üçün optik kartları (ötürücülər və qəbuledicilər), eləcə də fırlanma bucağının ölçülməsi cihazını yaratdım. Bu məhsulların bəziləri dünya üzrə texnoloji yeniliklər sırasında yer alır.

Optik sensor məhsullarının kütləvi istehsalı sahəsində 8 il çalışandan sonra mobil telefonlar və fərdi kompüterlər üçün maye kristal cihazların istehsalı ilə məşğul olan başqa bir şirkətdə işlədim.

Mənə yüksək effektivliyə malik cihazların yeni metodunun işlənib yaradılması tapşırılmışdı. Bir ay ərzində tələb olunan texniki göstəricilərə cavab verən metodu hazırladım və onun da tətbiqi uğurla nəticələndi.

Daha sonra ideyası mənə məxsus olan yeni texnologiyalar düşündüm. 8 ay müddətində bu məhsullar mobil telefonlara, fərdi kompüterlərə, monitorlara və videokameralara tətbiq edilərək geniş alıcı kütləsi qazandı. Hazırda avtomobillərin naviqasiya sistemlərində və təyyarələrdə istifadə edilən maye kristal displeylərdə geniş istifadə olunan həmin məhsullar dünya bazarının təxminən 70 faizini əhatə edir.

Fotoaparatlar üçün hazırladığım 3D görüntülü ekranlar da kütləvi istehsal hüququ qazandı. Məhsullar dünya üzrə aparıcı istehsalçılar olan - Fujitsu, NEC, Mitsubishi Electric, Sharp Corporation, Toshiba, Seiko Epson, Samsung Electronics, Sony, Nokia və digər bu kimi şirkətlər tərəfindən maraqla qarşılandı.











**- Xəlil müəllim, yalnız Yaponiyada deyil, Amerika, Asiya və Avropada elektronika, yeni nəsil displey ekranlar sahəsində böyük mütəxəssis kimi tanınırsınız. LCD texnologiyası üzrə yapon dilində 6 kitabın, 130-dan artıq elmi məqalənin, 100-ə yaxın patentin müəllifisiniz. Bizim üçün qürurvericidir ki, bir soydaşımızın elmi fəaliyyəti və ixtiraları belə geniş universal tətbiqə malikdir.**

- Doğrudur. Bu dediklərinizdən başqa öz ixtisas sahəmə həsr olunmuş daha 3 kitabım nəşr edilib. 15 kitabın həmmüəllifiyəm. Bir çox universitetlərdə pedaqoji fəaliyyətlə məşğul oluram. Buna baxmayaraq, daim öyrənirəm. Hətta sənayedəki fəaliyyətimi dayandırmadan yeni elmi tədqiqatlar aparıram.

Yaponiyanın aparıcı ali təhsil ocaqlarından birində özüm də ikinci doktorantura təhsili aldım və 2003-cü ildə həmin proqramı uğurla başa vurdum. Bu, mənə həm burada, həm də digər ölkələrdə keçirilən beynəlxalq konfranslarda seminarlar aparmaq və məruzələrlə çıxış etmək imkanı yaratdı. Hələ 1999-cu ildə - elmi işimin təqdimatından dərhal sonra ABŞ-də keçirilən Society for




Information Display (SID) konfransında məni həmin təşkilata üzv qəbul etmişdilər. 25 ildən çoxdur ki, onlarla fəal əməkdaşlıq edirəm, elmi məqalələrin təqdimatı üsulları üzrə tədris işi aparıram. 10 ildən artıqdır ki, orada "Display Systems Subcommittee"nin (Ekran Sistemləri Alt Komitəsi) sədri vəzifəsində çalışıram.

2011-ci ildə Samsung Electronics tərəfindən Cənubi Koreyaya üçillik ezamiyyətə göndərildim və orada işlədim. Həmin ölkənin aparıcı universitetləri ilə də əlaqələr qurdum və bu gün də münasibətlərimiz davam edir. Yəni ki, mən özümü nəzəriyyəni həm pedaqoji fəaliyyətlə, həm də praktik təcrübə ilə birləşdirən alim sayıram.

**- Xaricdəki soydaşlarımız yaşadıqları ölkənin siyasi həyatına yaxından qoşulur, ictimai rəyə təsir göstərə, iki ölkə arasında bir növ körpü rolunu oynaya bilirlər. Bütün dünyada Azərbaycan icmaları fəaliyyət göstərir və onlar ölkəmizin kimliyini təbliğ**



**edirlər. Yaponiyada bu sahədə gördüyünüz işlər, diaspor fəaliyyəti ilə bağlı həyata keçirilən layihələr barədə oxucularımıza məlumat verməyinizi istərdik.**

- Yaponiyaya ilk gəldiyim dövrdə Azərbaycan haqqında məlumat çox az idi. İnsanların əksəriyyəti ölkəmizi xəritədə belə tanımır, hətta adını tələffüz etməkdə çətinlik çəkirdilər. Bu, mənə olduqca pis təsir etmişdi. Vətənimizi burada daha çox təbliğ etmək, ölkə həqiqətlərini yapon ictimaiyyətinə tanıtmaq məqsədilə kitablardan məlumatlar, fotoşəkillər topladım, slayd və təqdimat materialları hazırladım. Bunları mümkün olduqca ölkənin əksər şəhərlərində və təhsil ocaqlarında - məktəblərdə, universitetlərdə nümayiş etdirdim.

Azərbaycanın tarixi, mədəniyyəti, iqtisadi və sənaye potensialı, o cümlədən Ermənistanın xalqımıza qarşı təcavüzü, Qarabağ münaqişəsinin səbəbləri barədə mühazirələr oxudum. Həmin dövrdə xalqımıza qarşı müxtəlif xarici mənbələrin, o cümlədən ABŞ-dəki və digər Avropa ölkələrindəki güclü erməni lobbisinin təsiri ilə formalaşmış yanlış düşüncə, laqeyd münasibət və ciddi qərəz mövcud idi. Sənədli faktlar və təqdimatlar vasitəsilə yapon ictimaiyyətində olan bu təsəvvürləri aradan qaldırmağa çalışdım. Məhz bu səbəbdən mən Yaponiyada Azərbaycan diasporunun ən fəal və fədakar üzvü kimi tanınıram.

1989-cu ildə Azərbaycanın məşhur müğənnilərindən, musiqiçi və rəqqaslarından ibarət bir qrup incəsənət xadimi bir aylıq mədəni tur çərçivəsində Yaponiyaya gəlmişdi. Onlarla görüşdüm və burada olduqları müddətdə demək olar ki, hər axşam ziyarətlərinə getdim. İslam Rzayev, Ramiz Quliyev, Habil Əliyev, Zümrüd Məmmədova və Təranə Muradova kimi sənətkarlarla birlikdə keçirdiyim günlər həyatımda ən unudulmaz anlara çevrildi. Ondan sonra olduğum hər məkanda və çevrədə Azərbaycan musiqisi və mədəniyyəti barədə kiçik də olsa məlumat verməyə, səs yazıları dinlətməyə çalışmışam.






2016-cı ildə burada "Azerbaijan-Japan Friendship Association" adlı təşkilat qurdum. Azərbaycan diasporunun daha da təşkilatlanması istiqamətində ciddi tədbirlər keçirməyə, həmvətənlərimizə lazımi dəstək göstərməyə başladıq. İki il əvvəl Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov nümayəndə heyəti ilə Yaponiyada olarkən bizim təşkilatın üzvləri ilə də görüşdü, gördüyümüz işləri yüksək dəyərləndirdi.

Elə həmin il Azərbaycanda keçirilən Alimlər Forumuna dəvət olundum. Forum iştirakçıları ilə birlikdə





Şuşa, Xankəndi, Xocalı şəhərlərini ziyarət etdik. Həmin Qarabağ səfərim də olduqca təsirli idi.

Ötən il Yaponiyanın Osaka şəhərində EXPO-2025 sərgisinin təşkilində də təşkilatımız əzmlə çalışdı. "Azərbaycan" pavilyonu quruldu. Bu, demək olar ki, ən zəngin pavilyonlardan biri idi. Min nəfərə yaxın qonağın qarşısında Azərbaycanın tarixi keçmişi, milli-mənəvi irsi, mədəniyyəti barədə çıxışlar etdim. Ölkəmizin milli geyimləri nümayiş olundu, milli musiqimiz təqdim edildi. Orada ən çox bizim pavilyona maraq göstərildiyinin şahidi olduq.

Təsadüfi deyildir ki, cari ilin yanvar ayında Azərbaycan Prezidenti məni diaspor sahəsindəki səmərəli fəaliyyətimə görə "Tərəqqi" medalı ilə təltif etdi. Fürsətdən istifadə edərək hörmətli Prezidentimiz İlham Əliyevə bu fəxri təltifə görə dərin minnətdarlığımı bildirirəm.

Doğma Vətənimin təbliği istiqamətində fəaliyyətim bir an belə səngimir. Daim yeni ideyalar düşünüb tətbiq etməyə çalışıram. Mən 44 günlük Vətən müharibəsi dövründə də aktiv şəkildə məqalələr yazdım, intensiv döyüş xəbərlərini tərcümə etdim. Bu materialları bukletlər şəklində hazırlayaraq yapon cəmiyyətində yaydım və davamlı maarifləndirmə işləri apardım. Bu gün Yaponiyada Azərbaycan daha çox tanınır. Hətta ölkəmiz haqqında dərin bilgilərə malik olan insanlar da var.

**- Yaponiyada nə qədər soydaşımız yaşayır və orada Azərbaycanın milli mətbəxinə, mədəniyyətinə və musiqisinə maraq hansı səviyyədədir?**

- Hazırda Yaponiyada təxminən 200 nəfər soydaşımız var. Onların əksəriyyəti tələbələrdir, bəziləri müxtəlif sahələrdə çalışır, digərləri isə yapon vətəndaşları ilə ailə quran insanlardır.

Azərbaycan musiqisinə və milli mətbəximizə sonsuz maraq var. Yapon dilində nəşr olunmuş "Azərbaycan mətbəxi" kitabı yapon ictimaiyyəti arasında xüsusi marağa səbəb olub. Yaponiyada ən çox Azərbaycan istehsalı olan çay növləri və şərablar məşhurdur.

**- Xəlil müəllim, bu gündoğar ölkədə nə qədər geniş çevrəniz, çoxlu dostlarınız, sevimli işiniz olsa da, sözsüz ki, vətən üçün darıxırsınız...**

- Mənim nə işlə məşğul olmağıma baxmayaraq, daim yanımda radio var və orada Azərbaycana məxsus yayımları dinləyirəm. Hətta çalışanda belə radionu açıq saxlayıram. Vətənimdəki günlük hava durumundan tutmuş baş verən ən aktual hadisələrə, gündəmdə olan məsələlərə qədər hər şeyi dinləyirəm.



Vətənə tez-tez gəlməyə çalışıram. Həyat yoldaşım azərbaycanlı deyil, yapon qızıdır. 2001-ci ildə ailəmlə birlikdə Bakıya gəldim. Onları demək olar ki, bütün Azərbaycanı gəzdirdim. Bildiyim bir çox memarlıq abidələrini tanıtdım. Milli musiqimizin incilərini dinlədilər, Azərbaycanın bənzərsiz təamlarından daddılar. Elə hesab edirəm ki, bu da öz-özlüyündə bir tanıtımdır.

Harada olmağıma baxmayaraq, həmişə həmvətənlərimlə əlaqə qurmağa və imkan olduqca birlikdə vaxt keçirməyə çalışıram. Vətən sevgim ən dərin sevgimdir.

2002-ci ildə Bakıda keçirilən Yaponiya Mədəniyyəti Günlərinə bir qrup yapon sənətçisi ilə birlikdə gəldim. "Made in Japan" adlı layihə çərçivəsində reallaşan tədbirdə nümayiş olunan yapon rəqsləri, musiqi nömrələri, yapon döyüş sənəti, oriqami, suşi kimi müxtəlif oyunları əks etdirən əyləncəli səhnəciklər seyr edənlər tərəfindən maraqla qarşılandı.

Uzun zamandır arzu etdiyim hadisə isə Azərbaycan toyunda olmaq idi. Şükür ki, bu istəyimə də çatdım. 2006-cı ildə Azərbaycan Xarici İşlər Nazirliyinin əməkdaşlarından olan bir dostumun toy mərasimində iştirak etdim. Unudulmaz və gözəl hisslər idi.

**- Bu sualımız da ənənəvidir. Bu rubrikada qonaq olan insanların hamısına ünvanlayırıq. 44 günlük Vətən müharibəsi dönəmindən sonra qalib bir xalqın nümayəndəsi olaraq qürbət ölkədə hansı hissləri keçirirsiniz?**

- 2020-ci ilin sentyabr ayına qədər təkcə mənim deyil, bütün dünyada yaşayan və çalışan həmvətənlərimizin qəlbində dərin bir kədər, ağrı hissi var idi. Lakin 2020-ci ildəki 44 günlük müharibənin sonunda qəhrəman Azərbaycan Ordusunun gücü ilə qazanılan şanlı Zəfərimizdən sonra həmin hisslər öz yerini inam və qürura verib. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyinə inanaraq müharibənin qələbə ilə nəticələnəcəyinə əmin idik. Amma bunun 44 gün ərzində baş verməsi bir möcüzə oldu. Mən daim xalqımla, dövlətimlə qürur duymuşam. Amma o qələbədən sonra bir də ona məğrurluq hissi əlavə olunub.

2022-ci ildə Azərbaycanın Diaspora İş üzrə Dövlət Komitəsinin dəvəti ilə Dünya Azərbaycanlılarının V Zəfər Qurultayında iştirak etdim. O günü heç vaxt unutmaram. Şuşaya ayağım dəyən kimi diz çökərək o müqəddəs torpağı öpdüm. Yanımdakı yoldaşlar göz yaşlarını saxlaya bilmədilər.

Həmin səfər çərçivəsində müxtəlif görüşlərdə iştirak etdim, Azərbaycan Prezidenti İlham Əliyevin çıxışını birbaşa dinlədim. Şuşadakı ən yüksən nöqtədən Xankəndini izlədim. Allah vətənimizi qorusun və onun azadlığı uğrunda canından keçmiş bütün şəhidlərimizə rəhmət eləsin.

**Qərənfil Mansurova**



Bakının İslam Səfərli küçəsinin yenidənqurmadan sonra



AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ